Sovet tarixşünaslığında 1947-1952-ci illərdə beş dəfə qiymətlərin aşağı salınması çox geniş təbliğ olunsa da reallığı əks etdirən alternativ faktlar da mövcuddur. Məsələn, arxiv sənədlərində deyilir: "Qiymətləri 300 faiz artırır, 30 faiz aşağı salır və bütün dünyaya hay-küy salırlar", "Bu qiymət aşağı salma məsələsi ilə bizi idarə edənlər xalqı öz tərəfi nə çəkmək istəyir. Bu alverçilərin tədbiridir", "Bu qiymət aşağı salma mənə nə verir. Malların qiyməti qramla, əmək haqqı isə kiloqramla aşağı salınır", "Gülməlidir, amma bütün ay boyu danışacaqlar, necə ki, seçkilərdən danışırlar, bütün bunlardan hamının artıq ürəyi bulanır" və s. [5,s.31-32]

Müharibədən sonrakı dövrdə ərazaq qıtlığı ilə bağlı açınacaqlı vəziyyətin olduğunu müasir dövrdə əhalinin yaşlı nəslin nümayəndələri də təsdiq edir. Yaşlı nəslin nümayəndələri onlarla aparılan şifahi sorğular zamanı ərzaq qıtlığı nəticəsində əhali arasında açından ölmə hallarının artması, hətta insanların ictimai yerlərdə oturduqları vəziyyətdə birdən-birə ölməsi, 1946-cı ililn yazında, cincilim, ətəppəyi kimi təbii bitkilərin əvvəlki illərə nisbətən bol yetişməsi səbəbindən insanların bir hissəsini acından ölməkdən xilas olması və digər məsələlər haqqında məlumat verirlər. [3,s.203]

50-ci illərin sonlarında Azərbaycan dilinin statusu haqqında məsələ ictimai fikirdə mərkəzi yer tuturdu. Lakin sovet tarixşünaslığında bu sahədə Azərbaycanda gedən proseslər ümumiyyətlə işıqlandırılmayıb, əksinə rus dilinin təbliğinə daha çox fikir verilib.

İ.Mustafayevin təşəbbüsü ilə Azərbaycan dilinin rəsmi dövlət dili statusunun təmin olunmasına cəhd edilmiş və mətbuatda bu məsələnin açıq müzakirəsi təşkil olunmuşdur. Bu zaman Gürcüstan və Ermənistan istisna olmaqla heç bir müttəfiq respublikanın, hətta digər sosialist ölkələrinin əksəriyyətinin konstitusiyasında dil haqqında maddə yox idi. Azərbaycan rəhbərliyinin bu təşəbbüsü çox cəsarətli və riskli idi.

Azərbaycan KP MK Bürosu 1956-cı il 2 iyul tarixli iclasında "Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinə Azərbaycan SSR Konstitusiyasına dövlət dili haqqında maddə əlavə edilməsi haqqında" qərar qəbul etmişdir. Azərbaycan KP MK Bürosunun qərarında qeyd olunurdu ki, "Azərbaycan SSR-in dövlət dili Azərbaycan dilidir." Bu qərar İ. Mustafayevin imzası ilə 3 avqust 1956-cı il tarixində Ali Sovetə göndərilmişdi. Ali Sovetin sessiyası nəzərdə tutulduğu kimi avqustun 15-də deyil, 21-də çağrılmış və "Azərbaycan SSR Konstitusiyasına (Əsas qanuna) Azərbaycan SSR-in dövlət dili barəsində maddə əlavə edilməsi haqqında qanun" qəbul etmişdi. Konstitusiyanın yeni maddəsi Gürcüstan SSR və Ermənistan SSR konstitusiyalarının müvafiq maddəsindən tərcümə edilmişdir. [2,407,s.69-70]

Bundan az sonra Mirzə İbrahimovun "Azərbaycan dili dövlət idarələrində" məqaləsi (204, 26 oktyabr 1956) dərc olunub. Məqalədə çarizmin simasında Rusiyanın müstəmləkəçi siyasəti ifşa edilir, milli zülmün, milli təzyiqin insanlığa zidd vəhşi bir hərəkət olduğu göstərilirdi. Müəllif yazırdı: "Hakim millətin, "böyük" millətin məzlum millətə, "kiçik" millətə göstərdiyi hər hansı təzyiq ancaq nifrət və nifaq duyğuları oyadır, əzilən milləti tarixi intiqam saatını gözləməyə məcbur edir… çarizm qeyri-rus xalqları ən kobud və vəhşi jandarm üsulu ilə əzir, həyasızcasına "ruslaşdırmaq" siyasəti aparırdı, milli mədəniyyətlərə və milli dillərə qarşı təcavüzkar hərəkət edirdi, hətta milli qırğınlar törətməkdən belə çəkinmirdi. Başqa xalqları əzib məhv etmək və imperiyanın daxilində "əritmək" məqsədilə çarizm ucqarları zorla rus köçmələrlə doldururdu. Çarizm bu vəhşi siyasəti ilə böyük rus xalqını bədnam edir, təbii olaraq imperiyanın əzilən xalqlarının ürəyində ona qarşı etimadsızlıq oyadırdı."

Məqalədə daha sonra deyilirdi: "Bəzi idarələrdə və bəzi adamlarda Azərbaycan dilinə qarşı biganə, laqeyd münasibət yaranmışdır. Hələ onu demirik ki, vətəndaşların azərbaycanca olan ərizələrinə, yaxud bu və ya digər azərbaycanca olan yazılara ana dilində cavab verməyən, ya da tamamilə cavabsız buraxan bürokratlar da tapılır." [4, 26 oktyabr1956]

Məqalədə çar Rusiyası haqqında deyilənlər milli məsələdə sovet siyasətinin gerçək tərəflərini ortaya qoyduğuna görə böyük mübahisəyə və Respublika rəhbərliyinə qarşı Moskvanın hücumlarına səbəb oldu. Azərbaycan dilinin dövlət dili kimi təbliğinin güclənməsi mərkəzi hakimiyyətin ciddi müqaviməti ilə üzləşdi. Sonradan bu məsələ bir sıra şəxslərin, o cumlədən İ. Mustafayevin və

M.İbrahimovun Azərbaycan rəhbərliyindən çıxarılmasında əsas səbəblərdən biri oldu. Sov.İKP katibi Mühitdinovun iştirakı ilə keçirilmiş Azərbaycan KP MK-nın plenumu (7 iyul 1959) İ.Mustafayevi tutduğu vəzifədən azad etdi.[3,s.238-239]

Sov.İKP XX qurultayından sonra cəmiyyətin idarə olunmasında, elmi-tədqiqatlarda nisbətən yumuşalma olsa da, tədqiqatlar üçün ideoloji mühit yenə də əlverişsiz olaraq qalırdı. Müharibə dövründə meydana gəlmiş millətçi meyllərin şövinist xarakter almağa başlaması, digər sahələrdə olduğu kimi tarixi tədqiqatlara da öz mənfi təsirini göstərib. Bundan başqa bu dövrdə kosmopolotizmə, kibernetikaya və genetikaya qarşı aparılan kampaniyalar humanitar elmlərin, o cünlədən tarix elminin inkişafına da mane olurdu. Məhz bu cür səbəblərdən 1950-1960-cı illərə aid sovet tarixçilərinin yazdıqları kitab və məqalələrdə digər məsələrlə yanaşı ictimai-siyasi vəziyyət də birtərəfli tədqiq olunub, buna görə də bu dövrün yenidən, obyektiv şəkildə tədqiqi aktual olaraq qalır. Fikrimizcə bu dövrü gələcəkdə tədqiq edəcək tədqiqatçılar sovet tarixşünaslığında əksini tapmayan, lakin obyektiv reallıqda mövcud olmuş hadisələrə xüsusi diqqət verməlidirlər.

Bu dövrdə Azərbaycana rəhbərlik etmiş M.C.Bağırovun fəaliyyətinin birtərəfli deyil, obyektiv dəyərləndirilməsi, sovet rəhbərliyinin milli dəyərlərin məhv edilməsi istiqamətində apardığı məqsədyönlü fəaliyyətin fəsadları, bu illərdə fəaliyyət göstərmiş gizli təşkilatlar, dissident hərəkatı, müharibədən sonra mövcud olmuş ərzaq qıtlığı və bunun nəticəsində baş vermiş kütləvi açlıq hallarının fəsadları, müharibə dövründə və müharibədən sonra Azərbaycanın bir çox yüksək rütbəli zabitlərinin, Sovet İttifaqı qəhrəmanlarının müəmmalı şəkildə həyatdan köçmələri, Azərbaycan ərazilərinə qarşı erməni və gürcü millətçilərinin iddiaları və buna qarşı aparılmış mübarizə, Ermənistan ərazisindən azərbaycanlıların öz dədə-baba yurdlarından deportasiya edilməsi və bunun acı nəticələri, bu dövrdə davam etmiş repressiyalar, cənubi Azərbaycanda 1945-1946-cı illərdə fəaliyyət göstərmiş Milli Hökümət fəaliyyəti, Milli Hökümətin məğlubiyyətindən sonra SSRİ-yə pənah gətirən rəhbər işçilərin və fədailərin sonrakı taleləri, müharibə dövründə Azərbaycanlı əsirlərdən təşkil olunmuş milli legionun üzvlərinin müharibədən sonrakı fəaliyyəti və digər məsələlərin obyektiv şəkildə tədqiqinə ciddi ehtiyac var.

SSRİ-də 1959-cu ilin yanvarında qəbul olunmuş 1959-1965-ci illəri əhatə edən yeddillik plan kommunizm cəmiyyəti quruculuğunu nəzərdə tutuğu üçün, Sov. İKP-nin siyasətinə uyğun olaraq 50-ci illərin axırı və 60-cı illərin birinci yarısında siyasi, iqtisadi, fəlsəfi və digər mövzularda yazılan kitablar içərisində kommunizm cəmiyyəti quruculuğuna həsr olunan kitab və məqalələr çoxluq təşkil edib. Faktlar göstərir ki, hələ kommunizm cəmiyyəti quruculuğu konsepsiyası irəli sürülməmişdən əvvəl tarixçilər bu konsepsiyaya aid bir sıra əsərlər yazıblar. Bu konsepsiyaya münasibətdə alimlər arasında fikir ayrılığı 50-ci illərin axırlarından başlayaraq SSRİ-nin süqutuna qədər davam edib. Alimlərin bir hissəsi inkişaf etmiş sosializm konsepsiyasını müdafiə etmişlər. Onların bir hissəsi bu dövrün sosializmin qəti qələbəsindən sonra, yəni, 50-ci illərin axırlarından, bir hissəsi 60-cı illərdən, başqa bir hissəsi isə 70-80-cı illərdən başlandığını irləi sürürdülər. İ. B. Berxinin 1957-ci ildə nəşr olunmuş kitabında (464) inkişaf etmiş sosializm cəmiyyətinin yaradılmasından bəhs olunmuş, lakin sonradan 60- cı illərin əvvəllərində bu konsepsiyanı "kommunizm quruculuğu " konsepsiyası əvəz etmiş, 60-cı illərin ortalarından başlayaraq yenidən inkişaf etmiş sosializm konsepsiyasına qayıdılmışdır.

Sovet tarixşünaslığından fərqli olaraq müasir dövrdə nəşr olunan kitablarda dövrə münasibətdə yeni baxış özünü büruzə verir. Məsələn, "Azərbaycan tarixi" (1920-1991-ci illər) kitabında bu dövr "50-80-ci illərdə siyasi sistemi təkmilləşdirmək cəhdləri. İctimai-siyasi həyat", "50-ci illərin ortaları 60-cı illərdə iqtisadi və sosial həyat" başlıqları altında şərh olunur.(1)

Sovet tarixşünaslığının birtərəfli tədqiqi nəticəsində 60-cı illərdə ictimai-siaysi həyatda baş vermiş bir çox hadisələrin tədqiqatlardan kənarda qalmasına səbəb olmuşdur. Belə məsələlərdən biri olan 60-cı illərdə Azərbaycan SSR ərazilərinin Ermənistan SSR-ə verilməsi prosesinin davam etməsi, ermənilərin azərbaycanlılara qarşı etdiyi cinayətlər sovet tarixşünaslığında öz əksini tapmayıb. Əgər sovet hakimiyyətinin ilk illərində ermənilərə Azərbaycan ərazilərinin verilməsi müəyyən don geyindirməklə sovet tarixşünaslığında öz əksini tapırdısa, 60-cı illərdə baş verənlər haqqında tarixşünaslıqda və dövrü mətbuatda heç bir məlumat verilməmiş, bu hadisələrdən yalnız o ərazilərdə yaşayan əhalinin xəbəri olmuşdur.

SSRİ-də 50-ci illərin axırı-60-cı illərin əvvəllərində siyasi sistemin təkmilləşdirilməsi, ictimai-siyasi həyatın demokratikləşdirilməsi cəhdlərini başa çatdırmaq mümkün olmadı. Hətta bir çox tarixi ədəbiyyatda qeyd olunur ki, SSRİ-də 1985-ci ilin aprelindən həyata keçirilən yenidənqurma prosesi 50-ci illərin axırı-60-cı illərin əvvəllərində başlansa da iqtisadi çətinliklər və sovet rejiminin mahiyyətindən doğan problemlər ucbatından bu proses axıra çatdırılmadı və yarımçıq qaldı. Bu problemin tədqiqinə qadağa qoyulduğuna görə sovet tarixşünaslığında uzun müddət bu məsələ tədqiq olunmayıb. Yalnız 1985-ci ilin aprelindən etibarən elmi ələbiyyatda bu mövzuda məqalələr yazılmağa başlandı. Məsələn, E.Y.Zubkovun rus dilində nəşr olunmuş "1956 və 1965-ci illərdə başa çatdırılmamış dəyişiklərin təcrübə və dərsləri" məqaləsi buna misal ola bilər. (7, №4,1988,s.74-88) Bütün bunlar onu göstərir ki, 50-ci illərin ikinci yarısının tarixşünaslıığı ilə 60-cı illər tarixşünaslığı arasında sıx əlaqə mövcuddur və bunlar bir-birini tamamlayır. Buna görə də yazılan bir sıra kitab, məqalələrdə və dissertasiyalarda bu illər eyni dövr kimi tədqiq olunub.

İstifadə olunmuş ədəbiyyat siyahısı

Azərbaycan dilində

1. Qaffarov T. "Azərbaycan tarixi" (1920-1991-ci illər). Bakı, 1999
2. Zülfüqarlı M.P. Azərbaycanı kimlər idarə edib? (may 1918-oktyabr 2003) Bakı, Qanun, 2006,136 s.
3. Zülfüqarlı M.P. Azərbaycan tarixi. Tarixşünaslıq (1920-1991-ci illər) Dərslik, Bakı "MEKAN SERVES NN" 2017, 498 s.
4. "Kommunist "qəz., Bakı (azərb. dilində).

Rus dilində

5. Исмаилов Е. Р. Власть и народ. Послевоенний сталинизм в Азербайджане. 1945-1953. Баку, «Адилоглы», 2003, 344 с.
6. Хрестоматия по истории КПСС. 1925-март 1985 г., т.2, Москва, Политиздат, 1989, 519 с.
7. " Вопросы истории КПСС" жур.,. Москва (на рус. языке)

Baləmi İSMAYILOV
Azərbaycan Texniki Universiteti, t.e.d.
balemi@rambler.ru

Fərid ƏLİZADƏ
Azərbaycan Texniki Universiteti, magistr
felizade143@gmail.com

LOKAL ŞƏBƏKƏLƏRDƏ İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ SİSTEMİNİN MODELLƏŞDİRİLMƏSİ

MODELİNG OF İNFORMATİON SECURİTY SYSTEM İN LOCAL NETWORKS

МОДЕЛИРОВАНИЕ СИСТЕМЫ ЗАЩИТЫ ИНФОРМАЦИИ В ЛОКАЛЬНЫХ СЕТЯХ

Xülasə: *Hal-hazırda qarşıda duran prioritet məsələlərdən biri də informasiya təhlükəsizliyinin təmin edilməsidir. Müxtəlif üsul və vasitələrdən istifadə etməklə informasiya təhlükəsizliyini strukturunu qurmaq olar. Bu məqalə də biz informasiya sisteminin simulyasiya modeli alqoritmini işləməklə, onun əsasında GPSS(General purpose simulation system) dilində proqram tərtib edib, nəticə almışıq. Bu nəticələr, bir sıra informasiya təhlükəsizliyi sistemlərinin layihələndirilməsi zamanı istifadə edilə bilər.*

Açar sözlər*: Lokal kompüter şəbəkələri,informasiya təhlükəsizliyi, modelləşdirmə, və s.*

Summary*: One of the current priorities is to ensure information security. An information security structure can be established using a variety of methods and tools. In this article, we have developed an algorithm for the simulation model of the information system, based on which we have developed a program in the language of GPSS (General purpose simulation system) and obtained the result. These results can be used in the design of a number of information security systems.*

Keywords*: local computer networks, information security, modeling, etc.*

Резюме:*Одним из текущих приоритетов является обеспечение информационной безопасности. Структура информационной безопасности может быть создана с использованием различных методов и инструментов. В данной статье мы разработали алгоритм имитационной модели информационной системы, на основе которого разработали программу на языке GPSS (General Purpose Simulation System) и получили результат. Эти результаты могут быть использованы при проектировании ряда систем защиты информации.*

Ключевые слова*: локальные компьютерные сети, информационная безопасность, моделирование и др.*

Müasir dövrdə lokal kompüter şəbəkələrində informasiya təhlükəsizliyinin təmin edilməsi problemi aktual məsələlər sırasındadır. Bu problemin həllində mərkəzi yeri kompüter şəbəkələrində informasiya təhlükəsizliyi sisteminin yaradılması tutmaqdadır. Məlum olduğu kimi kompüter şəbəkələrində informasiya təhlükəsizliyi sisteminin yaradılması prinsiplərinə təhlükəsizliyin təmin edilməsinə sistemli yanaşma, tətbiq edilən üsul və vasitələr, aparılan tədbirlər, qəbul edilən qərarlar kompleks təşkil etməli, qorunma vasitələri optimal proqram – texniki və çevik struktura malik olmalıdır.


Texniki ədəbiyyatlar əsasında aparılmış araşdırmalar [1-4] göstərir ki, yuxarıda qeyd olunanlarla yanaşı informasiya təhlükəsizliyi sistemi müəyyən şərtlərə cavab verməlidir. Belə ki, yaradılacaq bu sistem informasiya fəaliyyətinin bütün texnoloji kompleksini əhatə etməli,istifadə olunan vasitələrə müxtəlif,ierarxik daxilolma ardıcıl və çoxsəviyyəli olmaqla yanaşı informasiya təhlükəsizliyi sistemi üsul, vasitə və tədbirlərinin dəyişdirilməsi və əlavə edilməsi üçün açıq olmalı, reallaşdırdığı imkanlar baxımından qeyri standart olmalıdır.

İnformasiya təhlükəsizliyi sistemi texniki xidmət üçün sadə,istifadəçilər tərəfindən istismar üçün rahat olmalı, vahid proqram-texniki kompleks şəklində reallaşdırılmalı,informasiya resurslarına giriş üçün istifadəçilərin hüquq və səlahiyyətləri müəyyənləşdirilməli, konfidensial informasiyaya icazəsiz giriş hallarının və buna cəhdlərin qarşısı alınmalı və uçotu aparılmalıdır.

Bütün bu məsələlərin və şərtlərin yerinə yetrilməsi bütölükdə lokal kompüter şəbəkələrində müasir tələblərə cavab verən informasiya təlükəsizliyi sisteminin qurulmasına imkan verir.

Təqdim edilən işdə icazəsiz girişə qarşı lokal şəbəkə tərkibində qurulacaq informasiya təhlükəsizliyi sisteminin strukturu araşdırılmışdır. Mövcud texniki ədəbiyyatlar əsasında aparılmış araşdırmalar nəticəsində informasiya təhlükəsizliyi sisteminə daxil olan tələblərin hamısının bu sistemdə olan qorunma mexanizmlərindən keçməsinin təmin edilməsi başlıca məsələlərdəndir [1,2].

Bu məqsədlə təqdim edilən işdə baxılan informasiya təhlükəsizliyi sisteminin üç əsas blokdan ibarət konseptual strukturu aşağıdakı kimi (şək.1) təklif edilmişdir.



Şəki.1 informasiya təhlükəsizliyi sisteminin konseptual strukturu

Qeyd etmək lazımdır ki, icazəsiz daxil olma sorğuları strukturun ilk blokudur və ümumiyyətlə informasiya tıhlükəsizliyi sisteminə müəyyən intensivliklə daxil olan icazəsiz giriş sorğularının (tranzaktların) axınını təmin edir. İnformasiya təhlükəsizliyi sistemi bloku isə daxil olan sorğuları qorunma mexanizmləri vasitəsilə yoxlayaraq onların bədniyyətli olub olmadığını müəyyənləşdirir. Əgər yoxlanılan sorğu təhlükəlidirsə, onu bloklayır, əks halda bu sorğular da müəyyən intensivliklə qorunan resurslar blokuna doğru istiqamətləndirilərək burada emal edilir.

Baxılan informasiya təhlükəsizliyi sisteminin qurulmasına imkan verən əsas xarakteristikaların müəyyənləşdirilməsi üçün ona gözləməsi olan çoxkanallı kütləvi xidmət sistemi kimi baxılması təklif edilmiş və onun simulyasiya modelinin alqoritmi işlənmişdir.

İşlənmiş alqoritm aşağıdakı addımlardan ibarətdir:

– informasiya təhlükəsizliyi sisteminin girişinə daxil olan eksponensial paylanmaya tabe olan tranzaktların generasiya edilməsi;

– daxil olan tranzaktların buferdə yerləşdirilməsinin təşkili;

– əğər buferdə yer yoxdursa, tranzakt sitemi tərk edir.Əks halda orada yerləşdirilir və xidmət qurğularından heç olmasa biri boşdursa xidmət qurğusuna istiqamətləndirilir;

– xidmət qurğusunun girişinə daxil olan eksponensial paylanmaya tabe olan tranzaktların generasiya edilməsi;

– sistemə daxil olmuş tranzaktlar burada yoxlanaraq uyğun ehtimallarla bloklanması və ya emal edilməsi yerinə yetrilir;

– model vaxtının sıfırla müqayisə edilməsi yerinə yetrilir.Əgər model vaxtının qiyməti sıfırdan kiçik bərabərdirsə, tranzakt sistemi tərk edir və informasiya təhlükəsizliyi sisteminin əsas xarakteristikaları çıxışa verilir.Əks halda idarə alqoritmin birinci addımına ötrülür.

İşlənmiş alqoritm əsasında GPSS(General purpose simulation system) dilində proqram tərtib edilmiş və nəticələr alınmışdır.Bu nəticələr aşğıdakılardır:

– paralel fəaliyyət göstərən kanalların sayı -2;

– məşğul kanalların orta sayı uyğun olaraq 1,332 və 1.642;

– xidmət kanallarından istifadə əmsalının qiymətləri isə uyğun olaraq 0,666 və 0,821;

Bu nəticələr aşağıda verilmiş model nəticələrində (Şək.2 a,b) əks olunmuşdur.

Bu nəticələrdən görünür ki, AVE.C – məşğul kanalların orta sayı uyğun olaraq 1,332 və 1.642 ədədlərinə bərabərdir.

İstifadə əmsalının – UTİL qiymətləri isə uyğun olaraq 0,666 və 0,821ədədlərinə bərabərdir. Bu isə onu göstərir ki, bu xarakteristikalar baxılan informasiya təhlükəsizlik sisteminin normal fəaliyyət göstərməsinə imkan verir. Belə ki, qurulacaq informasiya təhlükəsizliyi sistemində iki xidmət kanalından istifadə edildikdə xidmət kanallarından qənaətbəxş şəkildə istifadə ediləcəyi aşkar görünür.

Beləliklə alınmış nəticələr bir sıra istehsal sahələrində fəaliyyət göstərən lokal şəbəkələrdə mövcud informasiya təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi, gələcəkdə qurulacaq informasiya təhlükəsizliyi sisteminin layihələndirilməsi zamanı istifadə edilə bilər.

Untitled Model 12.9.1 - REPORT

```
          OUT                          10.000
          REFUS                         7.000
          SYSTEM                    10000.000


 LABEL             LOC  BLOCK TYPE     ENTRY COUNT CURRENT COUNT RETRY
                   1    GENERATE             5             0       0
ENT1               2    TRANSFER             5             0       0
                   3    ENTER                2             0       0
                   4    ADVANCE              2             2       0
                   5    LEAVE                0             0       0
                   6    TERMINATE            0             0       0
REFUS              7    TRANSFER             3             0       0
                   8    ADVANCE              2             2       0
                   9    TRANSFER             0             0       0
OUT               10    TERMINATE            1             0       0


STORAGE           CAP. REM. MIN. MAX.  ENTRIES AVL.  AVE.C. UTIL. RETRY DELAY
 SYSTEM             2    0   0     2        2   1    1.332  0.666    0    0


FEC XN   PRI         BDT      ASSEM  CURRENT  NEXT  PARAMETER    VALUE
     6    0         25.560       6        0     1
     2    0         74.894       2        4     5
     3    0         95.607       3        8     9
     4    0        238.586       4        8     9
     1    0        484.072       1        4     5
```

a)

Untitled Model 12.11.1 - REPORT

```
          REFUS                         7.000
          SYSTEM                    10000.000


 LABEL             LOC  BLOCK TYPE     ENTRY COUNT CURRENT COUNT RETRY
                   1    GENERATE             6             0       0
ENT1               2    TRANSFER            14             0       0
                   3    ENTER                2             0       0
                   4    ADVANCE              2             2       0
                   5    LEAVE                0             0       0
                   6    TERMINATE            0             0       0
REFUS              7    TRANSFER            12             0       0
                   8    ADVANCE             11             3       0
                   9    TRANSFER             8             0       0
OUT               10    TERMINATE            1             0       0


STORAGE           CAP. REM. MIN. MAX.  ENTRIES AVL.  AVE.C. UTIL. RETRY DELAY
 SYSTEM             2    0   0     2        2   1    1.642  0.821    0    0


FEC XN   PRI         BDT      ASSEM  CURRENT  NEXT  PARAMETER    VALUE
     4    0         31.884       4        8     9
     5    0         34.001       5        8     9
     6    0         34.062       6        8     9
     7    0         39.288       7        0     1
```

b)

Şək.2 İnformasiya təhlükəsizliyi sisteminin GPSS modelinin nəticələri

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Qasımov V.Ə. İnformasiya təhlükəsizliyinin əsasları. Bakı, MTN Maddi-texniki Təminat Baş idarəsinin nəşriyyat-poliqrafiya mərkəzi, 2009, 340s.
2. Исмайлов Б.Г. Модели распределенных сетей обслуживания разнотипных информационных потоков. Издательство Национальной Академии Авиации. Баку, 2018, 222 с.
3. Федоров, А. В. Информационная безопасность в мировом политическом процессе / А.В. Федоров. – М.: МГИМО-Университет, 2017. – 220 с.
4. Шаньгин, В. Ф. Информационная безопасность компьютерных систем и сетей / В.Ф. Шаньгин. – М.: Форум, Инфра-М, 2017. – 416 с.

Bünyamin QƏMBƏRLİ
Azərbaycan Turizm və Menecment Universiteti, doktorant
b.n.qemberli@gmail.com

AZƏRBAYCAN TARİXİNDƏ FƏRQLİ DİN, DİL VƏ MƏDƏNİYYƏT MƏNSUBLARINA YANAŞMA

APPROACH TO DIFFERENT RELIGION, LANGUAGE AND CULTURE IN THE HISTORY OF AZERBAIJAN

ПОДХОД К РАЗЛИЧНОЙ РЕЛИГИИ, ЯЗЫКУ И КУЛЬТУРЕ В ИСТОРИИ АЗЕРБАЙДЖАНА

Xülasə: *Məqalədə tolerantlığın Azərbaycan cəmiyyətində anlamı, Azərbaycanda ta qədimdən yerli sakinlərin dini, etnik kökəni, dili, mədəniyyəti müxtəlif olan digər insan və xalqlara yanaşması tarixi faktlarla ortaya qoyulur. Eyni zamanda çağdaş dünyamızın ən çox müzkirə olunan məsələlərindən biri olan qadın hüquq və azadlıqları ilə bağlı Azərbaycan türkünün dünya görüşü və yaşam tərzi də ətraflı araşdırılıb.*
Açar sözlər: *Tolerantlıq, mükəmməllik, dünya görüşü, qadına verilən dəyər, Tomris, Saraxatun, Azərbaycan türkü, Zeynəb paşa*

Summary: *The meaning of tolerance in the Azerbaijani society. the attitude of local residents to the different religions, ethnicities, languages, cultures and other cultures with historical facts in Azerbaijan is revealed in the article. At the same time, the worldview and lifestyle of the Azerbaijani people on women's rights and freedoms, which is one of the most discussed issues of our contemporary world, have also been widely investigated.*
Key words: *Tolerance, excellence, worldview, value to a given woman, Tomris, Sarakhatun, Azerbaijan turkish peoples, Zeynab pasha.*

Резюме: *В статье историческими фактами отражаются понятие толерантности в азербайджанском обществе, религия, этнические группы, язык, культура местных жителей в Азербайджане ещё с древних времён, отношение к другим людям и культурам. В то же время также были тщательно проанализированы мировоззрение и образ жизни азербайджанского тюрка по вопросам права и свободы женщин, которые являются одним из наиболее обсуждаемых задач нашего современного мира.*
Ключевые слова: *Толерантность, совершенство, мировоззрение, отношение к женщине, Томирис, Сарахатун, азербайджанский турок, Зейнаб паша*

Tolerantlıq nədir? Tolerantlıq əksər elmi ədəbiyyatda “dini dözümlülük” və ya “dözümlülük” kimi izah edilir. “Tolerantlıq – yəni digər inanc və əqidələrə dözümlü yanaşma.” Mən düşünürəm ki, tolerantlığın dözümlülük kimi ifadə olunması düzgün deyil. İlahiyyatçı G. İsmayılov da Tolerantlıq nədir? sualını qoyur və belə yanaşır. “Latın sözü olan “tolerancia”nın hərfi mənası dözümlülük deməkdir. Ancaq tolerantlığın mahiyyəti və izahı ilə bağlı müxtəlif variantlar mövcuddur. Fərqli izahların olmasına baxmayaraq, hər kəsin qəbul etdiyi bir həqiqət var: tolerantlıq müxtəlifliyin mövcudluğuna təminat verən hüquqi borc və mənəvi tələbatdır “ (1, 13). G. Ismayılovun yuxarıdakı yanaşmasında iki fikrə diqqət yetirmək lazımdır.

1. “Toleransia” sözünün hərfi mənada tərcüməsinin dözümlülük olması. Bildiyimiz kimi dilimizdə yüzlərlə söz var ki, o hərfi mənada yox məcazi mənada anlaşılır. Məsələn, qulaq asmaq, dolabın gözü, xəyal qurmaq, gözdən düşmək, hörmətə mindirmək, qəlbinə girmək, beynini doldurmaq və s.

2. G. İsmayılov qeyd edir ki, “...tolerantlıq müxtəlifliyin mövcudluğuna təminat verən hüquqi borc və mənəvi tələbatdır “. Burda hüquqi borc məsələsinə qarışmırıq. Çünki bu qanunlarla tənzim olunur və qanunla tənzim olunan məsələ G. Ismayılovun da dediyi kimi hüquqi borca-yəni vəzifəyə çevrilir. Amma məsələnin ikinci tərəfi “mənəvi tələbat” isə sırf insanın iradəsinin, düşüncə tərzinin və dünya görüşünün nəticəsində yaranan hal və hərəkəti ilə bağlıdır. “Dözümlülük” isə dünya görüşündən və düşüncə tərzindən daha çox iradi keyfiyyətdir. Bunlarla yanaşı “tolerantlıq” sözünü “xoş-

görü” kimi işlədilmə cəhdlərinin də olduğu qeyd olunur (1, 13). Tolerantlıq sözünün xöşgörü kimi qəbul edilməsi ümumiyyətlə mahiyyətə uyğun deyil. Çünki insanın düşüncə, hal və hərəkətlərində elələri var ki, onları xoş görmək, xoşgörü ilə qarşılamaq mümkün deyil. Buna görə də yuxarıda qeyd etdiklərimizi ümumiləşdirərək belə bir fikrə gəlirik ki, tolerantlıq dilimizdə və anlayışımızda “dözümlülük” və ya “xoşgörü” yox “yetkinlik” və ya “mükəmməllik”dir. “Tolerantlığ”ın dilimizə “dözümlülük “ kimi tərcümə olunması həm də tolerantlığın sərhədlərini məhdudlaşdırır. “Tolerantlılığın” “yetkinlik və ya mükəmməllik” kimi qəbul edilməsində isə bu sərhədlər aradan qalxır. Yəni dözümlülük əsasən insanların fərqli irqi, milli və dini düşüncə və hərəkətlərinə aid edilirsə , mükəmməllik isə insanın həm dini, milli və irqi mənsubiyyətinə, həm mədəni və əxlaqi səviyyəsinə, həm də onun elm və dünyagörüşü səviyyəsindən, düşüncə tərzindən yaranan bütün hal və hərəkətlərinə kamil yanaşmadır.

Biz bu dediklərimizi-yəni bir insanın həm dini, milli və irqi mənsubiyyətinə, həm mədəni və əxlaqi səviyyəsinə, həm də onun elm və dünyagörüşü səviyyəsindən, düşüncə tərzindən yaranan bütün hal və hərəkətlərinə kamil yanaşılmasını istər tariximizdə, istər xalqımızın elmi, mədəni və əxlaqi səviyyəsini, düşüncə tərzini əks etdirən müxtəlif maddi və mənəvi mədəniyyət nümunələrində, eyni zamanda sifahi xalq yaradıcılığında açıq-aydın görə bilərik.

Belə ki, hələ lap qədim dövrlərdən Azərbaycan ərazisində eyni etnik kökdən olmasına baxmayaraq müxtəlif dinlərə mənsub insanlar yanaşı yaşamışdır. Onların müxtəlif dini görüşlərə mənsub olmaları həm əmək fəaliyyətlərində, həm də ölkələrinin qorunmasında birgə fəaliyyət göstərmələrinə mane olmamışdır (10, 143-145; 8. 25; 14). Tarixi mənbələrdən görürük ki, Azərbaycanda eyni vaxtda həm atəşpərəstlər, həm xristianlar, həm də iudistlər-yəhudilər yanaşı yaşamış, heç bir dinin mənsublarına istər inancı ilə bağlı, istər ibadətləri ilə bağlı və istərsə də ibadət yerlərinin tikilməsi ilə bağlı hər hansı bir qadağa qoyulmamış, əngəl törədilməmiş və basqı edilməmişdir.

Azərbaycanın qədim insanların yaşaması üçün gərəkən şərtlərə tam cavab verməsi-əkinçilik, maldarlıq və balıqçılıq üçün əlverişli olması, sonralar isə müxtəlif sənətkarlıq sahələrinin inkişaf etməsi ilə yanaşı tarixin axışı nəticəsində ən müxtəlif səbəblərdən bir çox fərqli etnik kökənə mənsub insanlar da yaşayış üçün Azərbaycanı seçmişlər. Azərbaycanın yerli sakinləri buraya yaşayış üçün gələnlərin fərqli danışığa, etnik kökənə, inanc və düşüncəyə sahibi olmalarına baxmayaraq onlara qarşı mükəmməllik göstərmiş və onların dilini, dinini və ya etnik kimliyini qorumalarına və inkişaf etdirmələrinə heç bir sorun yaşatmamışdır. Yüz illərlə Azərbaycanda yaşayan xalqların heç biri asimliyasıya olunmamış, onların etnik kimlikləri ilə tanınması üçün heç bir əngəl törədilməmiş, əksinə onların içindən orduda və sarayda yüksək vəzifə tutanlar az olmamışdır. Azərbaycan türkünün Azərbaycanı özləri üçün vətən seçən digər etnik kökənə sahib insanlara və xalqlara mükəmməl yanaşmasını daha yaxşı anlamaq üçün etnoqraf X. Xəlillinin E. Kərimova və V. Alekseyevə istinadən verdiyi “...1926-cı ildə SSRİ-də əhalinin ilk siyahıya alınması zamanı qeydə alınan 195 xalqdan , 1989-cu il əhalinin son siyahıya alınması zamanı 128 etnos qalmışdı. Kommunist rus imperiyası varlığının 63 ili ərzində 67 xalqı tarix səhnəsindən sildi” (10, 6) fikrini xatırlamaq məncə yetərlidir. Türkoloq A. M. Qasımlı Azərbaycan türkünün necə böyük və mükəmməl düşüncə və mədəniyyət sahibi olduğunu görmək və bilmək istəyənlərə “Türkün tarixini, onun düşüncə sistemini incələmək üçün Türklərin maddi və mənəvi dəyərlərini, tarixi istiqamətləndirmək və hətta dəyişdirmək qüdrətinə malik olan hökmdar, ideoloq və qəhrəmanlarının həyatını, onların dövründə yaradılan maddi-mənəvi mədəniyyət nümunələrini dərindən öyrənmək lazımdır” (14, 12) deyir. Biz də bu fikirdəyik ki, Azərbaycan türkünün tarixən nədən və necə tolerant-mükımmıl olduğunu bilmək üçün onun “tarixini, düşüncə sistemini, maddi və mənəvi dəyərlərini, tarixi istiqamətləndirmək və hətta dəyişdirmək qüdrətinə malik olan hökmdar, ideoloq və qəhrəmanlarının həyatını, onların dövründə yaradılan maddi-mənəvi mədəniyyət nümunələrini dərindən öyrənmək lazımdır”

Yuxarıda da qeyd etdiyimiz kimi, tolerantlığı yalnız milli, dini və irqi məsələlərlə sınırlamaq doğru deyil. Biz düşünürük ki, tolerantlığın ən çox aid edildiyi sahələrdən biri bu gün dünyanın önəmli məsələlərindən biri olan qadın hüquqları və ya cinslərin bərabərliyi məsələsidir. Biz qəti şəkildə bu fikirdəyik ki, tarixən istər Azərbaycan türkləri olsun, istərsədə digər türksoylu xalqlar olsun qadın heç bir halda aşağılanmamış, heç bir sahədə digər cinsdən hüquqsuz olmamışdır. “Tarixdə qadın-kişi bərabərliyinə, kişi ilə yanaşı qadının da təhsil almasına Azərbaycan türkləri qədər əhə-

miyyət verən ikinci bir toplum tapmaq çətindir. Əski türklərdə qadın kişinin kölgəsində deyil, onunla bərabər statusdadır, at sürür, döyüşür, müxtəlif işlərdə çalışır, hətta, bəzi məqamlarda ailədə ana kimi mövqeyi kişidən daha güclüdür" (1, 100) və yaxud "Düşmənlərə qarşı döyüşdə kişilərlə bərabər qadınlar da döyüşür və igidlik göstərirdilər" (2, 13) nümunələrindən də göründüyü kimi türklər sadəcə qadına önəm verməmiş, həm də qadınlar kişilərlə bərabər həyatın bütün sahələrində olduğu kimi döyüşdə və fiziki mədəniyyətin müxtəlif sahəsində də kişilərlə birlikdə iştirak etmişlər.

"Türksoylu xalqların, xüsusən Azərbaycan türklərinin təsəvvürünə görə qadın və kişiliyindən asılı olmayaraq insanlar cəmiyyətdə bərabər hüquqa malikdirlər. Biz istər Azərbaycan, istərsə də digər türksoylu xalqların şifahi xalq ədəbiyyatında, xüsusi ilə qəhrəmanlıq dastanlarında bunu aydın görürük" (13, 23) fikri də dediklərimizi təsdiqləyir. Azərbaycan qəhrəmanlıq dastanlarında qadınlar da kişilərlə birlikdə ox atır, qılınc oynadır, güləşir və digər mühüm ictimai-siyasi məsələlərin həllində yaxından iştirak edir (bax 3; 4; 5). Bu hal uydurma olmayıb digər türksoylu xalqlarda olduğu kimi Azərbaycan türklərinin də gerçək tarixi ilə bağlıdır. Masaget hökümdarı Tomrisi, Həsən bəy Bayandurun anası Sara xatunu, Şah İsmayılın xanımı Taclı bəyimi, Fətəli xanın xanımı Tutu Bikəni, Mehdiqulu xan Cavanşirin qızı Xurşudbanu Natavanı, Qaçaq Nəbinin xanımı Həcəri, Təbrizdə "Tənbəki üsyanı" adı ilə tanınan qadın hərəkatına rəhbərlik etmiş Zeynəb Paşanı (Bibişah Zeynəb, Onbaşı Zeynəb ləqəbləri ilə də tanınır) xatırlamaq yetərlidi (bax 6; 7; 8). Məhz buna görə də Babək ordusunda qadınların olması, onların at belində, üzü açıq halda kişilərlə çiyin-çiyinə durması belə bir dünya görüşündən yoxsun ərəblər üçün çox qəribə görünür və onlarda mənfi fikirlər doğurur, Xürrəmilərin – Babək silahdaşlarının "əxlaq pozğunluğu" haqqında danışırlar. Guya Xürrəmilərdə ailə yoxdur və bütün qadın münasibətləri "azad sevgi" – bu əxlaqsızlıq üzərində qurulmuşdur.

Ərəb Xilafəti Azərbaycanı işğal etdikdən sonra Azərbaycanda da qadını kölə vəziyyətinə salmağa çalışdı. Lakin xalq öz ilkin dünya görüşünü unutmadı, onu qoruyub saxladı. Bu dünya görüşünün qorunub saxlanmasında qəhrəmanlıq dastanlarının əhəmiyyəti ölçüyə gəlməzdir. Azərbaycan türkü qadına münasibətini sadəcə dastanlarda deyil, şifahi xalq ədəbiyyatının digər qollarında, o cümlədən yaratdığı müxtəlif maddi və mənəvi mədəniyyət nümunələrində, adət-ənənəsində, bayram və şənliklərində də qoruyub saxladı (bax. 6; 7; 12). Təkcə obrazlı şəkildə deyilmiş "Aslanın erkəyi dişisi olmaz" (9, 38) atalar sözü yetərlidir ki, Azərbaycan türkünün qadın anlayışını, qadına münasibətini doğru düzgün biləsən. Qadına cinsinə görə fərq qoymamaq, cinslərin bərabərliyi ideyası ilə yoğrulan bu bir cümləlik atalar sözü Azərbaycan türkünün düşüncəsində, ictimai-siyasi tərbiyəsində mühüm rol oynamış və bu gün də oynamaqdadır. Biz xalqımızın yaratdığı min illər tarixi olan bütün şifahi xalq ədəbiyyatında, folklor nümunələrində, maddi-mənəvi mədəniyyət nümunələrində, adət-ənənələrdə və el şənliklərində bunun canlı şahidi oluruq. Tədqiqatçılar tərəfindən 8-10 min il öncə yaradndığı qeyd edilən (15; 16) yallı rəqsi də Azərbaycan türkünün həyatında qadının yerini, qadına verilən dəyəri, cinsiyyət bərabərliyini öyrənmək baxımından çox önəmlidir. Birliyi və bərabərliyi ifadə edən, mürəkkəb və ritmik hərəkətlər sistemi olduğundan çox ciddi təlim tələb edən yallılar təkcə cinsiyyət bərabərliyini deyil, eyni zamanda öz hərəkət simvolları ilə oda-atəşə sitayişi və ovçuluqla bağlı müxtəlif ovsunları, mərdliyi, mübarizliyi və dirənişi (15; 16) də özündə yaşatmasına baxmayaraq nə ərəblərin istilası, nə islam dini, nə də öncə çar sonra isə sovet Rusiyasının assimliyasiya siyasəti yallı rəqsinin qarşısını ala bilmədi. Çünki yuxarıda da qeyd etdiyimiz kimi Azərbaycan türkünün qadına münasibəti onun bütün assimliyasiya və basqılara qarşı dirəniş və yaşam səbəblərindən biridir.

Qəhrəmanlıq dastanlarımızda isə bu bütün incəlikləri ilə daha çox üzə çıxır. Məsələn Dədə Qorqud Kitabının III boyunda hələ olduqca gənc olan Banıçiçəyi xatırlayaq. O, gözəl at çapan və mahir ox atan kimi təsvir olunur (bax 3). Ancaq onun güləşməsi isə daha heyranedicidir: "...(Banıçiçək) İmdi gəl, (bəy yigit,) sənlə gürş tutalım – dedi.

Haman Beyrək atdan endi. Qavraşdılar. İki pəhləvan olub bir-birinə sarmaşdılar. Beyrək götürər qızı yerə urmaq istər, qız götürər Beyrəyi yerə urmaq istər..." (3, 50-51). Beyrək kimi bir Oğuz igidi ilə güləşən, ona güc gələn bir qızın küncdə-bucaqda qalaraq, ictimai həyatdan təcrid olunaraq bunu etməsi mümkün deyil. Bu yalnız və yalnız ictimai həyatda çox fəal olmaq, çox ciddi və uzun müddətli təlim keçmək və yüksək fiziki hazırlığa yiyələnmək sayəsində mümkündür.

Yaxud Dədə Qorqud Kitabının I boyunda Dirsə xanın xanımının qırx incəbelli qızla qılınc qurşanıb, at minib oğlunun arxasınca getməsi (3, 26), ya da dastanın VI boyunda Selcan xatunun bir qəhrəman kimi öz öhdəsindəki düşməni yendikdən sonra evləndiyi Qanturalıya da kömək etməsi (3, VI boy) və ya "Koroğlu" dastanının "Bənövşə xanımın Çənlibelə gəlməsi" qolunda Nigar xanımla Hürü xanım böyük bir qoşuna qarşı vuruşmaları və əsir düşdükdə belə sarsılmayaraq zəiflik göstərməmələri, "Şah İsmayıl-Taclı" dastanında isə Ərəbzənginin çox cəld və çevik olması ilə yanaşı onun həddən artıq güclü olmaqla yanaşı həm də yüksək fiziki hazırlığa malik olması (bax 5). sadəcə cinsiyyət bərabərliyinin , ya da qadına verilən yüksək dəyərin deyil, eyni zamanda qadının da kişilərlə bərabər həyatın bütün sahələrində, o cümlədən ordu quruculuğunda və dövlət işlərində də mühüm rol oynadığını göstərir (4, 128-130).

Azərbaycan qadınlarının belə igidliklərinə biz tarixi hadisələrdə də tez-tez rast gəlirik. Belə tarixi hadisələrdən biri 1514-cü ildə Səfəvilərlə Osmanlı dövləti arasında baş verən Çaldıran döyüşüdürsə, digəri də Azərbaycan qaçaq hərəkatında ad çıxaran Nəbinin həyat yoldaşı Həcərdir (bax 7; 8). Tarixdən məlum olduğu kimi Çaldıran döyüşündə Səfəvi qoşununu tərkibində qadınlar da olub. "Şah İsmayıl-Taclı" dastanında da öz əksini tapmış bu döyüşdə öz igidliyi ilə kişilərdən geri qalmayan qadınlardan biri də Şah İsmayılın xanımı Taclı xanımdır. Taclı xanım döyüşdə bir çox yaralar alaraq əsir düşür. Ancaq öz qoçaqlığı və və cəsurluğu hesabına əsirlikdən qaçıb qurtularaq Şah İsmayılın yanına gəlir (bax 5; 7). Həcər haqqında isə Gorus məktəbinin direktoru olmuş P. Vebrikov yazırdı: "... Qaçaq Nəbinin arvadının adı Həcər idi. O da Nəbi kimi çox cəld silah işlədirdi. Onun atı sürətlə çapdığında belə gülləsi hədəfdən yan keçməzdi. Beləliklə Həcər xanım Nəbinin ən birinci silahdaşı idi..." (bax 8, 38).

Bütün bu dediklərimiz onu göstərir ki, Azərbaycanda ən qədim zamanlardan insanlar dini, etnik, mədəni ayrıseçkiliklə qarşılaşmamış, əksinə onlara öz din, dil və mədəniyyətlərini inkişaf etdirmək üçün hər cür şərait yaradılmış, qadınlar isə həyatın bütün sahələrində kişilərlə çiyin-çiyinə olmuşlar.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. G. İsmayılov. Tolerantlıq. Bildiklərimiz və bilmədiklərimiz. Bakı 2014
2. B. Quliyev. Fiziki tərbiyənin nəzəri-metodik və praktiki işlərinin əsasları Bakı "ADPU" nəşriyyatı – 2009
3. "Dədə Qorqud kitabı". Bakı 1978
4. "Koroğlu" . Bakı 1982
5. "Şah İsmayıl-Taclı" . RƏF , çüng B-200/9935
6. Azərbaycan tarixi. I c. Bakı 1961
7. M. Abbaslı "Şah İsmayıl Xətainin ömür yolu miniatürlərdə" . Bakı 1981
8. SMOMPK, 1912, 42-ci sayı
9. Atalar sözü. Bakı 2004
10. X. Xəlilli. Azərbaycan türklərinin etnogenezi və milli inkişaf tarixi. Bakı 2007.
11. Elməddin Əlibəyzadə. Azərbaycanşünaslığa giriş. Bakı 2010
12. B. Qəmbərli. Nehrəmdə Novruz bayramı. Turizm və qonaqpərvərlik tədqiqatları. İl 5, say 1, 2016
13. B. Qəmbərli. Azərbaycan cəmiyyətində qadına verilən dəyər. Azərbaycanda multikulturalizm və mədəni müxtəlifliyin turizmin inkişafına təsiri" movzusunda respublika elmi konfransının materialları. Bakı 2017
14. Aydın Mədət oğlu Qasımlı. Türklər, Bakı 2012
15. http://www.anl.az/down/meqale/hafta_ichi/2010/iyun/125790.htm
16. http://serqqapisi.az/index.php/humanitar/m-d-niyy-t/3945

Cəfər MƏŞƏDİYEV
Azərbaycan Turizm və Menecment Universiteti, magistr
mewediyev97@mail.ru

TURİZM SAHƏSİNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN METODLARI VƏ XÜSUSİYYƏTLƏRİ

METHODS AND CHARACTERISTICS OF STATE REGULATION OF TOURISM

МЕТОДЫ И ОСОБЕННОСТИ ГОСУДАРСТВЕННОГО РЕГУЛИРОВАНИЯ ТУРИЗМА

Xülasə: *Bu məqalə Azərbaycanda Turizm sahəsinin inkişafına həsr edilmişdir.Tədqiqatda turizm sahələrinə diqqət yitirilir. Təqdiqat zamamanı Azərbaycanın milli tarixi,mədəniyyəti,turizm mərkəzlərinin turistlərə tanıtmaq haqqında məlumatlardan bəhs edilir. dövlətin apardığı siyasət turizmin inkişafına çox güclü təkan göstərir.Azərbaycan turizm sektoru sürətlə inkişaf etməkdədir.Ölkəyə gələn turistlərə yüksək standartlara uyğun xidmətlərin göstərilməsi isə bir çox faktordan asılıdır.Azərbaycanda turizm sahəsi üzrə bir sıra mühüm məsələlərə toxunulur.*

Açar sözlər: *turizmin inkişafı,dövlərin turizmə olan diqqəti və qayğısı,turizm sahəsində həyata keçiriləcək önəmli addımlar,turistlərə yüksək xitmətlərin göstərilməsi.*

Summary: *This article is dedicated to the development of tourism in Azerbaijan. The study focuses on tourism. During the research, the national history of Azerbaijan, culture, information about the introduction of tourism centers to tourists are discussed. The policy pursued by the state gives a very strong impetus to the development of tourism. Azerbaijan's tourism sector is developing rapidly.The provision of high-standard services to tourists coming to the country depends on many factors.A number of important issues in the field of tourism in Azerbaijan are touched upon.*

Key words: *development of tourism,states' attention and care for tourism, important steps to be taken in the field of tourism,Providing high services to tourists.*

Резюме:*Данная статья посвящена развитию туризма в Азербайджане, основное внимание уделяется туризму. В ходе исследования обсуждаются национальная история Азербайджана, культура, информация о введении туристических центров в туристические центры. Проводимая государством политика дает очень сильный импульс развитию туризма.Туристический сектор Азербайджана стремительно развивается.Затронут ряд важных вопросов в сфере туризма в Азербайджане.*

Ключевые слова: *развитие туризма,внимание и забота государства о туризме. Важные шаги, которые необходимо предпринять в сфере туризма, Предоставление туристам высоких услуг.*

Turizm miqyası və əhəmiyyəti onu göstərir ki, iqtisadiyyatın strateji sektorlarına aiddir və bu dövlət tənzimlənməsini tələb edir. Turizm sənayesinin dövlət tənzimləməsi – dövlətin təsərrüfat subyektlərinə təsiri və bazar mexanizminin normal fəaliyyət göstərməsini təmin etməkdən, hökumətin sosial-iqtisadi prioritetlərinin həyata keçirilməkdən və turizm sektorunun düzgün konsepsiyasını inkişaf etdirməkdən ibarətdir.

Dövlətin turizm sektorunu tənzimləməkdə məqsədləri;

– Turizm sənayesi vasitəsilə yeni iş yerlərinin yaradılmasından və gəlirlərin artırılmasından,

– Turistlərin istirahəti ilə bağlı hüquqların təmin edilməsindən,

– Ətraf mühitin qorunmasından və turizmlə bağlı abidələrin bərpasından,

– Turistlərin səfərlərindən və turizm potensialından səmərəli istifadə etməkdir.

Bu məqsədləri reallaşdırmaq üçün dövlət turizmin insan həyatındakı vacibliyini müəyyənləşdirməli, sonra onun inkişafı üçün lazımi şəraiti yaratmağa çalışmalıdır. Turizmin inkişafının əsas yolu həm daxili, həm də gəlmə turizmi inkişaf etdirməkdir. Bu özlüyündə milli turizmin inkişafı deməkdir. Bunlardan önəmlisi gəlmə turizmdir ki,onun sayəsində ölkəyə valyuta ehtiyatları daxil olur. Valyuta ehtiyatının ölkəyə axını isə daxili balansı tarazlaşdırır. Dünya ölkələri bu turist axınını öz ölkələrinə istiqamətləndirmək üçün infrastrukturun yaradılması istiqamətində tədbirlər həyata keçirirlər. Lazımi infrastrukturun yaradılması isə güclü iqtisadiyyat və inkişaf etmiş texnologiyalar tələb

edir. Turizmin inkişafı üçün infrastrukturun yaradılması kifayət deyildir.Əgər, bizə lazım olan infrastruktur yardılıbsa, lakin bu sahədə lazımi kadrlar yoxdursa bu zaman infrastrukturun fəaliyyətindən və bununla bağlı turizmin müsbət nəticələrindən söhbət gedə bilməz.

Hər bir ölkənin özünəməxsus xüsusiyyəti,tarixi və mədəniyyəti var. Bunları aşkara çıxarıb dünyaya tanıtmaq üçün vacib addımlar atmaq lazımdır. Bu addımlar dövlət səviyyəsində reallaşdırılmalıdır. Dövlət çalışmalıdır ki, xarici ölkələrdə öz ölkəsinin turizm mərkəzlərini təbliğ etsin və imicini yaratsın.

Dövlət turizm fəaliyyətini tənzimləmək üçün bir sıra tədbirləri həyata keçirir:

– Turizm fəaliyyətini həyata keçirən müəssisələrə lisenziyalar verir;

– Hüquqi və normativ sənədləri hazırlayaraq bu sahədə olan münasibətləri tənzimləyir;

– Turizm sənayesi ilə bağlı standartlaşdırmaları və sertifikatlaşdırmaları həyata keçirir;

– Həm daxili,həm də xarici bazarda milli turist məhsulunun hərəkətlərinə yardımçı olur;

– Ölkəni tərk etmənin və ölkəyə daxil olmanın qaydalarını müəyyənləşdirərək, təsdiq edir;

– Turizm sahəsinə xarici kapitalın qoyuluşu üçün gərəkli şəraiti yaradır;

– Turizm şirkətinin yaranması üçün stimullaşdırıcı məqsədli gömrük və vergi məsələlərini tənzimləyir;

– Turizm sahəsində tədqiqat işi apararaq kadrların hazırlığını gücləndirir;

– Turizm ilə bağlı proqramlar hazırlayaraq onları maliyyələşdirir;

Dövlət elə bir inkişaf modelini yaratmağa çalışır ki, bu model vasitəsilə turizmə qoyulacaq kapital gələcəkdə iqtisadiyyatını inkişaf etdirə bilsin. Yaradılmalı olanbu model isə əksər ölkələrdə bu formadadır:

– Turizm obyektlərini yaradılmasında yerli materiallardan istifadə edilməlidir;

– Yaradılmış turist obyektlərində yerli işçi qüvvələrindən istifadə olunmalıdır;

– Turistlərin qidasının əsas hiəiniyerli məhsullar təşkil etməlidir;

– Xarici şirkətlərlə birlikdə yaradılmış turizm komplekslərində xarici şirkətlərin payı 49% dən artıq olmalı deyil.

Turizmin iqtisadiyyatda gəlir yaratması üçün yerli resurslardan və kadrlardan istifadə olunmalıdır. Əgər xarici kapital hesabına tikilmiş turizm obyektinin ölkə iqtisadiyyatı ilə əlaqəsi yoxdursa, bu turizmin inkişafı iqtisadiyyata mənfi təsir göstərə bilər. Ona görə də əksər ölkələr turizmi bu model üzərində qurmağa çalışır.

Ölkə turizm bazarında rəqabətə davam gətirmək və üstünlük qazanmaq etmək üçün ilk növbədə turizm marketinqinin konsepsiyasından istifadə edir.Turizm marketinqi potensial alıcı kütlələrini, onların maliyyə imkanlarını müəyyən edərək istək və arzularının hansı istiqamətdə dəyişəcəyini qabaqcadan müəyyənləşdirməyə çalışırlar.Bir növ turizm müəssisələrinin fəaliyyətləri turist tələbatlarına uyğun tənzimlənmiş olur. Qeyd etdiyimiz marketinq konsepsiyasına ümumi şəkildə aşağıdakıları aid etmək olar:

– Alıcıların əsas ehtiyaclarını və tələblərini müəyyənləşdirmək,

– Qiymətlər elə təyin olunmalıdır ki, həm istehsalçılara gəlir gətirə bilsin, həm də alıcılara münasib olsun,

– Əlverişli və rahat üsullarla məhsullar alıcılara çatdırılmalıdır,

– Turist bazarına təsir vasitələri müəyyən edilərək tələbat formalaşdırılmalıdır.

Dövlətin turizm marketinq siyasətinin əsasını milli turizm məhsulları və xidmətlərinin beynəlxalq turizm bazarına çıxarılmasını və satışını təşkil edir. Turizmin 22 bununla bağlı marketinq strategiyası ölkənin beynəlxalq aləmdə turizm imicinin yardılmasına və xarici turistlərin ölkəyə axınlarının artırılmasına yönəldilmişdir. Bu vəzifəni bəzi ölkələrdə Milli Turist Təşkilatı yerinə yetirir.

Turizmdə marketinq münasibəti baxımından müştərilər ilə əlaqələr bir neçə səviyyə üzrə qurula bilər:

Passiv əlaqələr – Menecer yalnız məhsulları satır və digər tədbirlərlə məşğul olmurlar.

Həssas reaksiya – Menecer məhsulları satmaqla yanaşı, hər hansı bir problem yaranarsa ona müraciət edə biləcəyini alıcılara bildirirlər.

Məsuliyyətli əlaqələr – Menecer məhsulları satdıqdan sonra alıcıların məhsulun keyfiyyəti ilə bağlı fikirlərini öyrənirlər.

Aktiv əlaqələr – Menecer daim müştərilər ilə əlaqə saxlayırlar və yeni turizm mövsümü üçün hazırlanmış mal və xidmətlər barəsində onlara məlumat verirlər.

Partnyorluq əlaqələri – Menecer müştərilərini itirməmək üçün onlarla daim əlaqəni qoruyub saxlayırlar.

Dövlət addım atmalıdır ki, tətbiq edilən marketinq konsepsiyaları ilə alıcılara yükək səviyyədə xidmətlər təklif olunsun və alıcılar əyahət müddətində ona göstərilən xidmətlərdən razı qala bilsinlər ki, yenidən turizm üçün bu ölkəyə gələ bilsinlər

Azərbaycanın turizm sahələrində həyata keçirdiyi digər tədbirlər turizmin təşkilini asanlaşdırmaqdan ibarətdir . Ölkələr online rejimdə nəqliyyat vasitələrindən istifadə etmək üçün biletlərin sifariş verilməsini,otellərdə yerlərin öncədən bronlaşdırılması və.s. əməliyyatlarını turistlərin istəyinə görə lazımi qaydada təşkil edirlər. Turizm əməliyyatlarını həyata keçirmək üçün qlobal internet sistemlərindən istifadə olunur.

Dövlətin turizm sənayesinin əsasını turizmin infrastrukturu təşkil edir,bunlara turist məhsulları da deyirik. Turizmin inkişafının təməli hesb olunan bu məhsullara aşağıdakıları qeyd etmək olar:

Nəqliyyat avtomobil, dəmiryolu, hava və dəniz;

– Turagentlər və turoperatorlar, assosiasiya şuraları, turist təşkilatları,turistləri idarə orqanları və.s.

– Mehmanxanalar, pansionatlar, otellər, motellər, sanatoriyalar, apartamentlər, istirahət evləri, turbazalar və.s.

– Qidalanma obyektləri – yeməkxanalar, restoranlar, kafeterilər, barlar və.s.

– Turizm qurğusunu və mallarını istehsal edən müəssisələr;

– Əyləncə mərkəzi;

– Turizmin təşkili ilə bağlı informasiyalar və reklam təşkilatları;

– Turizmlə bağlı elmi-tədqiqat və tədris müəssisəsi;

– Turizm qurğusunu və mallarını satan müəssisələr;

– Ticarət marketləri, parklar, qoruqlar, zooparklar, tarixi abidələr, muzeylər, konsert salonları, kommunikasiya və.s.

Turizm sahələrində həyata keçiriləcək önəmli addımlardan biri də bu sahə üzrə çalışmalı olan kadrların qabaqcadan hazırlanmasıdır. Turizm bazarına təcrübəli və hazırlıqlı kadrlar lazımdır ki, rəqabət mühitinə uyğun turizm məhsullarını satışa çıxara bilsinlər. Dövlət turist firmalarının özünün müştəriləri və partnyorlarının qarşısında nüfüzunu qaldırmaq üçün bu sahə üzrə ekspozisiya və sərgilər təşkil edilməsinə şərait yaratmalıdır. Bu sərgilər və nümayişlər yaxşı təşkil olunarsa reklam olunan turizm məhsullarının topdan satışını həyata keçirilə bilər.

Azərbaycanda beynəlxalq turizm sahəsi diqqət mərkəzindədir. Turizm insan toplumunu özündə birləşdirən bir sahə olduğu üçün burada insanların mədəni ünsiyyətlarinin və onların maarifləndirilməsinin də böyük əhəmiyyətləri vardır. Turizm yalnız insan səyahatlərinin təşkilinə onların mənəvi həzzinə xidmət etmir, eyni zamanda turizm insanların müxtəlif məlumatlar üzrə maarifləndirmək, onların dünyagörüşünü daha da inkişaf etdirməkdən ibarətdir.

Turizmin təşkili istirahət və əyləncənin vacib iştirakçısı olurlar. Azərbaycanın turizm ölkəsinə çevirilməsi və dünya ölkələri arasında öz sözünü deməsi üçün böyük gücü vardır. Təbii sərvətləri , qədim tarixi və memarlıq abidələri, s mentaliteti, əlverişli coğrafi mövqeyi , xəzər dənizinin sahil kənarları turizmin inkişafında xüsusi əhəmiyyəti vardır. Turizm milli maraqların və iqtisadi inkişafın istiqamətlərindən biri olaraq qalmaqdadır. Azərbaycan vətəndaşı tam əmin olmalıdır ki, turizm insanın sosial-iqtisadi problemlərini həll etməyə qadirdir. Turizm sahəsi milli gəlirin əhali arasında bərabər bölüşdürülməsində müəyyən imkanlar yaradır. Turizm iqtisadiyyatla bağlı əlaqədədir.

Azərbaycan ölkədə turizm sahəsini inkişaf etdirmək üçün bir çox layihə və planları işləyib hazırlayır. Düzgün turizm siyasətinin formalaşması heç də asan məsələ deyildir. Çünki,bu məsələdə Azərbaycanın yalnız turizm resursunun olması hər şeyi həll etmir. Turizm resurslarına malik olan Azərbaycanın turizm regionu kimi coğrafi aləmdə tanınması üçün turizm sahələrində dövlət siyasəti beynəlxalq standartlara görə uyğun olmalıdır. Bu sahənin inkişafı üçün siyasi iqtisadi imkanların ancaq son illərdə yarandığı nəzərə alsaq, gələcək illərdə Azərbaycanda turizmin inkişafına nikbin baxmaq olar. Azərbaycanda turist siyasətinin mahiyyəti ölkədə turist bazarlarının formalaşmasından ibarətdir. Bazara çıxarılan hər bir məhsul orijinal və rəqabətə uyğun olmalıdır. Mehmanxanalar və nəqliyyat qiymətləri turistlərin maliyyə imkanlarına və zövqünə uyğun gələn turist məhsullarının qiymətinin bir hissəsidir.

Riskə gedərək təşəbbüs göstərən şəxslər özünü imkanlarını sərf edərək turist müssisələrini açırlar, alıcıların imkanını göz önünə gətirərək turist məhsullarını yaradırlar. Onları uyğun qiymətlərə satır, qazanc götürür və götürdüyü qazancın bir hissəsini yenidən özünün biznesinin böyüdülməsinə sərf edirlər.

Azərbaycan turizm sənayesinin inkişaf dövrünə qədəm qoymuşdur. Bazası Ümummilli lider Heydər Əliyev cənablarının təşəbbüsü ilə 1999-cu ildə "Turizm haqqında Azərbaycan Respublikasının Qanunun qəbulu ilə qoyulmuş turizm 2001-ci ilin 18 aprelində Gənclər İdman və Turizm Nazirliyinin yaradılması , 2002-ci ilin avqustunda təsdiq olunmuş Azərbaycan Respublikasında 2002-2005-ci illərində turizmin inkişafına dair Dövlət Proqramı və Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004-2008-ci illər) " Dövlət Proqramıları ilə güclü təkan almışdır.

Azərbaycanda turizmin inkişaf modeli məsələsi təkcə sosial-iqtisadi əhəmiyyət kəsb etmir. Mürəkkəb coğrafi məkanda yerləşən Azərbycanın dünyaya daha düzgün şəkildə təqdim edilməsinə böyük ehtiyaclar vardır. Turizm səfərinə gələn xarici vətəndaşların bir hissəsi öz ölkələrinin tanınmış və ya yüksək düşüncəyə malik olan vətəndaşlardır. Həmin turistlərə Azərbaycanın tarixi və mədəniyyəti, onun mənəvi dəyərləri haqqında geniş məlumatlar verməklə, Azərbaycanı bütün dünyaya tanıtmış olarıq. Onların çoxu ölkələrinə qayıtdıqları zaman gördükləri və eşitdikləri haqqında insanlara məlumatlar verir, kütləvi informasiya vasitəsində çıxışlar edirlər. Azərbaycan turizmin sistemli bir şəkildə uğurlu inkişafına çalışır. Turizmin qloballaşması müasir dövrün reallığını əks etdirir. Turizmin təşkilinə üstünlük verən dövlətlər dünyanı vagid bir ölçüdə qəbul edirlər, onun hər yerində sülhün qorunmasına daima çalışırlar. Çünki müharibələr, münaqişələr, turizmin inkişaf potensialına ciddi mane yaradan amillərdən biridir.

2002-ci ildə təsdiq edilmiş Dövlət Proqramlarında həm yerli, həm də xarici istehlakçıların turizm-əyləncə xidmətinin təşkili üçün bir çox vacib işlərin və layihələin görülməsi nəzərdə tutulmuşdur. Proqramda aşağıda qeyd olunan bəzi məsələlərin həllinin vacibliyi qeyd edilmişdir:

– Turizm sahəsində dövlət siyasətini həyata keçirmək və bu sahənin müsbət cəhətinin inkişafına zəmin yaradan zəruri bazaların yaradılması;

– Ölkədə turizmin proporsional inkişafının yaradılması;

– Turizm sistemində əldə olunmuş uğurlu təcrübələrə əsaslanaraq Azərbaycan Respublikasının strateji maraqlarına cavab verən yeni xidmət sisteminin formalaşdırılması;

– Turizm sənayesinin yaradılması və idarə edilməsi istiqamətlərinin aşkar edilməsi;

– Turizm sahəsindən əldə olunan gəlirlərin artırılması və onun dövlət və yerli büdcələrə daxil edilməsi;

– Turizm sahəsində xidmət keyfiyyətərinin yaxşılaşdırılması;

– Azərbaycanın turizm müəssisələrinin beynəlxalq turizm proqramında iştirak etməsi üçün münbit şəraitin təşkili.

Azərbaycanda turizmin sahələrində dövlət siyasəti yeni mərhələyə qədəm qoymuşdur.Bu sahələrdə dövlətin apardığı uğurlu siyasət turizmin inkişafına güclü təkan göstərir. Azərbaycanda turizm sektoru daha sürətlə inkişaf etməkdədir. Azərbaycan dünyadakı turistlər üçün cəlbedici məkana çevrilir. Ölkəyə gələn turistlərə yüksək standartlara cavab verən xidmətlərin göstərilməsi isə bir çox faktorlardan asılıdır. Buna görə də turizm-ekskursiya işlərinin təşkilində bələdçilərin və bələdçi-tərcüməçilərin rollarını xüsusi qeyd etmək lazımdır. Əlverişli coğrafi məkanda yerləşən Azərbaycanda turizm ən uğurlu və yüksək potensiallı sahə hesab edilir. Dövlətin turizmə yaxından diqqəti və qayğısı turizmin gələcək inkişafına güclü təkan yaradır. Dövlət büdcəsinin 2025-2030-cu illərə qədər turizm sektorunun inkişafı hesabına genişləndirilməsi diqqət mərkəzindədir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Ə.Q.Əlirzayev "Turizmin iqtisadiyyatı və idarə edilməsi" – Bakı-2010. İqtisad Universiteti" Nəşriyyatı.
2. "Azərbaycanda Turizmin inkişaf problemləri " – F.İ.Qurbanov, Bakı – 2007 Adiloğlu nəşriyyatı .
3. "Turizmin Əsasları " – Soltanova H.B. və Hüseynova Ş.H. Bakı – 2007 Mütərcim nəşriyyatı .
4. Turizmin Menecmenti – Bilalov B.Ə. Bakı – 2005 Mütərcim nəşriyyatı.
5. "Turizm Fəaliyyətinin Tənzimlənməsi", Bilalov B.Ə, Bakı – 2006, Mütərcim nəşriyyatı, 280 s.

Telli SEYİDOVA
Azərbaycan Turizm və Menecment Universiteti, magistr
seyidova.telli.2101@atmu.edu.az

THE ROLE OF TOURISM IN THE DEVELOPMENT OF AZERBAIJAN'S FOREIGN ECONOMIC RELATIONS

AZƏRBAYCANIN XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİNİN İNKİŞAFINDA TURİZMİN ROLU

РОЛЬ ТУРИЗМА В РАЗВИТИИ ВНЕШНЕЭКОНОМИЧЕСКИХ СВЯЗЕЙ АЗЕРБАЙДЖАНА

Summary: *States and civilizations are interested in the development of tourism all over the world. By 2025, effectively using the existing opportunities and potential Azerbaijan will become one of the most attractive touristic place in the region and among other countries of the world. The perspective for the period after 2025 is to make Azerbaijan one of the 20 most popular tourist destinations in the world, to ensure the maximum use of existing tourism resources.Small and medium sized businesses operating in the tourism sector with the support of foreign direct investment will be the main driver of this growth.*
Keywords: *tourism development, foreign economic activity, tourism market, international and national tourism*

Xülasə: *Dünyanın hər yerində turizmin inkişafına dövlətlər və sivilizasiyalar böyük maraq göstərir. Mövcud imkan və potensialdan səmərəli istifadə etməklə Azərbaycan 2025-ci ilədək həm Cənubi Qafqaz regionunda, həm də digər dünya ölkələri arasında cəlbedici turizm məkanlarından birinə çevriləcəkdir. 2025-ci ildən sonrakı dövr üzrə perspektiv isə Azərbaycanı dünyada turistlərin ən çox üstünlük verdikləri 20 turizm məkanından birinə çevirmək, mövcud turizm ehtiyatlarından səmərəli istifadə göstəricilərinin maksimuma çatdırılmasını təmin etməkdir. Birbaşa xarici investisiyalarin dəstəyi ilə turizm sektorunda fəaliyət göstərən kiçik və orta sahibkarlıq subyektləri bu artımın əsas təkanverici qüvvəsi olacaqdır.*
Açar sözlər: *turizmin inkişafı,xarici iqtisadi fəaliyyət,turizm bazarı,beynəlxalq və milli turizm.*

Резюме: *Государства и цивилизации проявляют большой интерес к развитию туризма во всем мире. Перспектива на период после 2025 года – превратить Азербайджан в одно из 20 самых популярных туристических направлений в мире, одно из существующих туристических направлений и одно из самых популярных туристических направлений в мире. Малый и средний бизнес будет основной движущей силой этого роста.*
Ключевые слова: *развитие туризма, внешнеэкономическая деятельность, туристический рынок, международный и национальный туризм.*

Institutions and organizations, including individuals and societies, which have accepted the world as a single home of humanity and promoted human values, have recognized that tourism has become an integral part of human life and has an influential force in economic, scientific and cultural development. The problems of tourism as a cultural fact, a cultural process that opens up broad prospects for a secure and secure future for mankind are now clearer than ever. International tourism is a field of service that means the international movement of people or travel. This international travel section has a special role in the economies of many countries.

We need to state that since the second half of the 20th century, international tourism has been expanding as a whole. And this an undeniable fact that, this development doesn't releated with the number of different type of travellers, this also releated with the whole development of tourism infrastructure.

The United states, Germany, United Kingdom and Belgium differs in the number of outgoing tourists, and France, Spain, The United states and Italy differs in the number of accepted tourists.

In general, according to recent data, up to 60% of the total number of tourists and 50% of tourism revenues fall on the territory of Europe. It must be acknowledged that Europeans traditionally prefer to travel and spend their holidays in neighboring countries.

About 90% of visitors to one or another European country are Europeans. In Europe, Spain, Italy, Greece, Germany and Austria are more advanced. 20% of tourism revenues come from these countries, and 11% from Central Asia. and Eastern Europe (Bulgaria, Chorvatia, the Czech Republic and Hungary). In second place is the Asia-Pacific region. This region is often called the "future of tourism." This region accounts for 18% of the world tourism market. first in Japan), then Southeast Asia (Malaysia, Indonesia, Thailand) and South Asia (Vietnam, India, Sri Lanka).

The American region ranks third in the world tourism services market - 17%. It is clear that in the system of international economic relations, the main center in the region is the union of the United States, Canada and Mexico. The trio accounts for 75% of tourism revenues in the region. We need to emphasize that The United States has a decisive position among these trio. Because of the United States has a developed hotel chain and high-developed modern transportation industry which is widespread in the world.

The next places in the world tourism market are occupied by Africa (Car, Tunisia, Morocco, Seychelles) -4% and the Middle East (UAE, Saudi Arabia) -2%.

At present, some countries have a more competitive advantage in the world tourism market and specialize in this market. They can even create a monopoly on this business. pyramids), the Taj Mahal in India, the Acropolis in Greece, and the Colosseum in Italy (a monument similar to the ancient amphitheater built in 75-80 for gladiatorial battles) with a population of 50,000.

Spain, Portugal, Turkey, Cyprus and other countries have beautiful beaches and temperate Mediterranean climate, which attracts tourists to these countries.

According to the International Tourism Organization, the total number of tourists in 2005 was 815 million, and tourism revenues amounted to $ 745 billion. Thus, tourism has become one of the most advanced sectors of the economy. This creates the basis for the formation of GDP and the solution of many socio-economic problems.

International tourism has become one of the most dynamically developing areas of foreign economic activity. Thus, 12-13% of GDP, 8% of total capital investment, 12% of total world consumption expenditures, 5% of tax revenues. 7% falls to international tourism.

There are many factors that affect the development of the tourism industry. It is important to study each of these factors. If these factors are not taken into account when forming a tourism product, there may be problems in selling the product. These factors should be taken into account, as the main goal of enterprises is to implement a successful marketing policy and produce tourism products that meet the needs of tourists. The factors affecting the development of the tourism industry include:

1. Natural and ecological factors. These include favorable climate and comfortable natural conditions, landscapes and natural attractions, developed hydrographic networks, natural water bodies, clean and suitable natural objects, good ecological condition.

2. Socio-economic factors. The living standards of the majority of the population, ie the economic viability of tourism, the right of citizens to social freedom within the country and abroad, the intensification of economic relations between countries based on the international division of labor, the expansion of international trade and the improvement of transport.

3. Political factors. Internal political stability of the country where tourists live, friendship, good neighborliness, peaceful relations, economic, trade, scientific, technical and cultural ties, interstate and intergovernmental cooperation agreements on tourism exchange

4. Demographic factors. Population growth increases the world's tourism potential. Increasing life expectancy and reducing the retirement age lead to an increase in the number of people in the third age group in tourism. The influx of ethnic tourists is also a factor in this regard. The rise of people's culture and education is also one of the factors affecting the tourism industry. The recent rapid development of the media also has a positive impact on tourism. As a result of the development of the media, the recognition of hospitality resources, recreation infrastructure and other components of the tourism industry is declining. One of the reasons for the spread of tourism is the con-

stant growth of the urban population. It takes place in administrative centers, including the city of Baku.

It should be noted that two days before the 8th anniversary of the signing of the Treaty of the Century, which laid the foundation for the oil strategy of independent Azerbaijan, the foundation of the Baku-Tbilisi-Ceyhan BPC was laid in Baku on September 18, 2002 and this project was successfully completed. As a continuation of this project, an international conference on the restoration of the historic Silk Road was held in Baku on September 7-8, 1998 with the participation of representatives of 32 countries and 13 international organizations within the Europe-Caucasus-Asia (TRACECA) transport corridor program. An agreement was signed that provides a reliable basis for the development of countries along the corridor, the development of their natural resources, more efficient use of economic potential, the expansion of trade, tourism and economic cooperation. On February 7, 2007, Azerbaijan achieved a success that can be considered as an important contribution to the world transport and communication system. The agreement reached between the Prime Ministers of Azerbaijan, Georgia and Turkey on the implementation of the Baku-Tbilisi-Kars railway project in Tbilisi (Georgia) as a result of the efforts of President Ilham Aliyev is important in defining the long-term development strategy of the South Caucasus and Central Asia. In recent years, specific directions have been identified in the organization and development of international relations in the field of tourism in Azerbaijan, the promotion of tourism opportunities, the development of national tourism and the location of tourism infrastructure.

Azerbaijan's ancient history, UNESCO-registered Ichari Shahar, Maiden's Tower, Shaki Khan's Palace, Momine Khatun Tomb and other cultural monuments are already famous all over the world. The state program aims to develop tourism through the efficient use of all resources. At the same time, in order to develop tourism in Azerbaijan, the following main tasks have been set:

- To create a competitive tourism market, first of all, by developing entrepreneurship, small and medium enterprises in the field of tourism; to improve the quality of tourist services, to ensure its compliance with international standards;
- Implement state regulation of tourism activities, increase the amount of funds received from tourism to state and local budgets, strengthen its material and technical base
- to create favorable conditions for the development of tourism enterprises in the international tourism program, to attract foreign investors to the sphere of tourism.

Performing each of these tasks requires intense and responsible work.

The Ministry of Culture and Tourism, which implements the state policy in the field of tourism in Azerbaijan, pays special attention to expanding international relations in this field. The governments of 16 countries - Turkey, Pakistan, Uzbekistan, Kyrgyzstan, China, Poland, Italy, Georgia, Romania, Bulgaria, Belarus, Greece, Moldova, Kazakhstan and Qatar - have signed agreements on cooperation in the field of tourism.

Taking into account the need for further development of tourism in the Republic of Azerbaijan and the creation of favorable conditions for tourism activities, President of the Republic of Azerbaijan Ilham Aliyev has signed an order declaring it the "Year of Tourism".

I can say that with reference adventure and nature tourism in Azerbaijan will have you exploring remote enclaves, discovering quirky, beloved national treasures and hiking spellbinding mountain trails. Summer days welcome you to take a dive in the Caspian Sea, while winters beckon with the snow-clad slopes of the Caucasus which are perfect for downhill skiing. Treks to noisy waterfalls, decrepit medieval castles and hidden villages offer culture-laced adventure at its finest, while a dive in the Caspian Sea, off-road adventure in search of mud volcanoes or a campout under the starry mountain sky will leave you wondering why it took you so long to come. Whatever your definition of “thrilling” may be, adventure tourism in Azerbaijan lets you chase your dreams in the Land of Fire.[3]

The sphere of tourism is, by its nature, a priority area of economic and social development. The tourism market depends on a number of factors, including the planning and organization of tourism development, the realization of tourism demand and supply. In our opinion, the following key factors can be formed:

- Motives of tourists, tourist demand and its socio-economic factors.

- Economic and organizational factors of tourism supply, measuring the efficiency of tourism and its development trends
- Levels of development and regulation of a number of tourism infrastructure ensuring balanced development of supply and demand
- Development and implementation of mechanisms for organizing the impact of the state on the development of tourism through the prism of entrepreneurship and regional development.

The main direction of tourism policy is the protection of the rights of enumerators, the protection of the interests of producers of national tourism products and foreign and domestic tourists a system of communication hierarchy and interaction with each other in the organization of tourism.

The market model of tourism should be designed with multi-criteria functions and complex factors. To this end, the relationship between territorial, regional and state institutions related to tourism, interactions and ways to increase the effect of multiplication are sought.

The cross-sectoral model of tourism and the system of distribution and redistribution of tourism revenues based on the principle of reproduction are aimed at reconciling interests.

The experience of developed countries shows that tourism is a powerful force influencing the economy. It plays an important role in the formation of the state budget and the stabilization of the trade balance. But the role of tourism does not end there. The development of tourism in the country overcomes a serious problem such as unemployment, affects all sectors of the economy and is the main mediator of their development. If we take into account that the creation of new jobs in our country, and thus the employment of a large part of the population, is a priority, it means that the tourism industry can play a very important role in this direction. Even a typical small tourism enterprise can employ at least 8-10 people. This number of employees, as we have noted, is typical for small tourism facilities. In medium and large enterprises, the number of employees can sometimes be up to 150-200 people. At present, thousands of workers are concentrated in recreation complexes and hotels operating in the country.

As it commonly known that, the quality of management depends on the abundance and accuracy of the information on which the relevant decisions are based. This makes the creation of a comprehensive database on foreign economic cooperation one of the important tasks facing the relevant government agencies of our country. The first step to be taken in this area is to develop an appropriate register aimed at collecting and systematizing reliable and accurate information on representatives of foreign trade activities. This register will allow to coordinate the activities of these participants and take measures to prevent monopolies and unfair competition in a timely manner.

The ability of the local economy to enter into integration relations at the international level, in turn, is determined by the structural complementarity of foreign trade relations. Mutual complementarity is possible only in the foreign trade relations of countries with open and transparent economies, which include areas of reproduction. This situation is very important for local economies, where foreign economic relations as a whole are necessary for the development of the process of reproduction. In this situation, the structure of the local economy in the country requires both the satisfaction of part of domestic demand through imports and the export of part of the finished product abroad. Therefore, one of the important global economic issues of today is the strengthening of the entry of the world's countries into the process of international economic integration.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Əlirzayev Ə .Q., "Turizmin iqtisadiyyati və idarə edilməsi", dərs vəsaiti, "İqtisad universiteti" nəşriyyat, Bakı-2011;
2. Əvəzli K. N., "Turizmin sosial-itisadi nəticələri", magistr dissertasiyası, Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı-2016;
3. https://www.advantour.com/azerbaijan/tourism.htm

Aydan ƏLİZADƏ
Azərbaycan Turizm və Menecment Universiteti, magistr
alizade.0100@mail.ru

DÖVLƏT SİYASƏTİNDƏ İDARƏETMƏNİN YERİ VƏ ROLU

THE PLACE AND ROLE OF GOVERNANCE IN PUBLIC POLICY

МЕСТО И РОЛЬ ВЛАСТИ В ГОСУДАРСТВЕННОЙ ПОЛИТИКЕ

Xülasə*: Bir dövlətin siyasi strategiyası nə qədər möhkəm təməlli olarsa, həmin dövlətin gələcək perspektivləri bir o qədər parlaq olur. Dövlətin siyasətində idarəetmənin xüsusi rolu vardır və bu, nəinki yalnız bir sahəyə, əksinə bütün sahələrə təsir göstərir. Təqdimat mövzumun "Azərbaycan turizm idarəetmə mərkəzlərinin yaranma məqsədləri və gələcək perspektivləri" olduğu nəzərə alsaq, dövlətin bu məsələ üzərində tətbiq olunmuş və tətbiq olunması planlaşdırılan strategiyalarını və istiqamətlərini sadalamaq lazımdır. Ümumilli lider və ulu öndər Heydər Əliyevin zamanından başlayaraq ölkənin idarəetmə sistemi tam şəkildə dəyişdirilmişdir. Bütün bu dəyişikliklər Azərbaycan Respublikasının inkişafına təkan verən sahələrin (eləcə də turizm sahəsi) təkmilləşdirilməsinə şərait yaratmışdır. 2021-ci ilə Azərbaycanın əzəli və əbədi torpaqları hesab olunan Qarabağ torpaqlarının erməni qəsbkarlarından alınması dövlət siyasətində düzgün idarəetmə sisteminin olmasından xəbər verir.*

Açar sözlər: *Turizm, dövlət strategiyası, idarəetmə, istiqamətlər, perspektivlər*

Abstract: *The stronger the political strategy of a state, the brighter the future prospects of that state. Governance has a special role in public policy, and it affects not only one area, but all areas. If we take into consideration that my dissertation topic is "Objectives and future prospects of the establishment of tourism management centers in Azerbaijan," then it is necessary to list the strategies and directions of the state that have been and are planned to be implemented on this issue. Since the time of national leader Heydar Aliyev, the country's governance system has been completely changed. All these changes have created conditions for the improvement of areas (as well as tourism) that promote the development of the Republic of Azerbaijan. In 2021, the acquisition of the lands of Karabakh which are considered the eternal parts of Azerbaijan from the Armenian invaders indicates the existence of a proper system in governance policy.*

Key words: *Tourism, state's strategy, management, directions, perpectives.*

Резюме*: Чем сильнее политическая стратегия государства, тем ярче перспективы этого государства. Управление играет особую роль в государственной политике, и оно влияет не только на одну область, но и на все области. Учитывая, что тема презентации – «Цели и перспективы создания центров управления туризмом в Азербайджане», необходимо перечислить стратегии и направления государства, которые были и планируются к реализации по этому вопросу. Со времен общенационального лидера и великого лидера Гейдара Алиева система управления страной полностью изменилась. Все эти изменения создали условия для благоустройства сфер (а также туризма), способствующих развитию Азербайджанской Республики. Приобретение земель Карабаха, которые считаются вечными землями Азербайджана, у армянских захватчиков в 2021 году, свидетельствует о наличии надлежащей системы управления в государственной политике.*

Ключевые слова: *туризм, стратегия государства, менеджмент, направления, перспективы.*

İdarəetmə anlayışı-tam bir vahid bir sistemin təkib hissəsidir. təşkiletmə əsasında qurulmuş subyekt və obyekt arasındakı vəhdətdir. İdarəetmə tam vahidliyi təşkil edən qarşılıqlı əlaqələrin marağında xidmət göstərir.

Dövlətin siyasətində idarəetmənin rolunun danışanda, qarşıqlı fəaliyyət göstərən orqanların əsasının qoyulmasını xüsusilə vurğulamaq lazımdır. Belə ki, məsələn, qanunverici, icra və məhkəmə orqanları qarşılıqlı fəaliyyət göstərirlər və bununla yanaşı, öz çərçivələri daxilində müstəqil qalırlar. Ümumiyyətlə, dövlət daxilində elə bir siyasət və ya strategiya yaradılmalıdır ki, dövləti daim inkişafa doğru aparmış olsun.[2]

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Sovet İttifaqına daxil olduğu zamanlarda da "dövlət" anlayışından geniş istifadə olunurdu. Daha sonra isə Sovet İttifaqı dağıldıqdan sonra Azərbaycan Respublikasında demokratik, hüquqi quruculuq yaradıldı.

Dövlətin idarə olunması isə sosial idarəetmə hesab olunur və bura dövlətin inkişafını təmin edən bütün sahələr daxildir. Sosial idarəetmənin növü hesab olunan dövlət idarəetməsi ən çox istifadə olunan növlərdən biridir. İnkişafı təmin etmək üçün isə müəyyən qərarların verilməsi idarəetmənin bir parçasıdır. Dövlət səviyyəsində qəbul olunan qərarları, imzalanan sərəncamları və müqavilələri bu qəbildən hesab etmək olar. Belə qərarlardan birini nümunə götürək: 2002-2005-ci illərdə təsdiq olunan "Dövlət Proqramı". Proqram tam şəkildə turizm ehtiyatlarının səmərəli bir şəkildə istifadəsinə həsr olunmuşdur. Proqramın təsdiqi ilə (2002-ci ildə) 7 əsas turizm marşrutu da müəyyən edilmişdi.

İdarəetmənin özünün isə müəyyən metodları vardır ki, bu metodlardan inkişaf məqsədi ilə geniş şəkildə istifadə olunur. İqtisadi metodu nümunə olaraq göstərmək mümkündür. İqtisadi metod öncədən mütləq şəkildə istifadə olunub hesablanmalıdır. Bu məsələ ilə bağlı dissertasiya mövzumdan ("Regional turizm idarəetmə mərkəzlərinin yaradılma məqsədləri və gələcək perspektivləri") nümunə çəkmək istəyirəm. Turizm sahəsində idarəetmə xüsusi rol oynayır və birbaşa olaraq dövlətə təsir göstərir. Belə ki, turizm sahəsi dövlət siyasətinə həm maddi, həm də mənəvi fayda gətirir. Maddi fayda gələrsə, bu o deməkdir ki, istisadi metoddan istifadə edilmişdir. Yəni, mədaxil və məxaric hesablanmışdır. Mənəvi fayda isə ölkənin, tarixinin, mədəniyyətinin, abidələrinin və s. tanınması ola bilər.[3]

Müəyyən qərarlarların qəbul edilməsi, strateji planların tərtib olunması idarəetmənin bir parçasıdır. Turizm sahəsi üzrə "Dövlət Strategiyası"nın qəbul edilməsi bu məsələ üçün yaxşı nümunədir. Belə ki, strateji yol xəritəsi daxilində mövcud vəziyyət, inkişaf yolları, hədəflər, məqsədlər, maliyyə məsələləri geniş şəkildə əks olunmuşdur və 2025-ci ilə qədər olan planlar bu sənəddə öz əksini tapmışdır. **"Strateji Yol Xəritəsi"** sənədindən idarəetmə ilə əlaqəli bəzi məqamları (görüləcək tədbirləri) nəzərdən keçirək: [4]

Cədvəl 1. Strateji Yol Xəritəsi çərçivəsində görüləcək tədbirlər üzrə gözlənilən nəticələr [4]

№	Prioritetin adı	ÜDM-ə təsiri *(milyon manatla, 2020)*	Məşğulluq *(tam ştatlı işçilər, 2020)*	İnvestisiya məbləği *(milyon manatla)*
1.1.	Milli Turizm Təbliğat Bürosunun yaradılması və ilk olaraq Bakı şəhərində fəaliyyətinin təmin olunması	10	—	—
1.2.	Bakı şəhərindəki cəlbedici turizm məkanlarına dair məlumatların və turist xidmət paketlərinin yenilənməsi	50	8500	15
1.3.	Bakı şəhəri üzrə təbliğat-təşviqat tədbirlərinin keçirilməsi	230	16000	100
1.4.	Bakı şəhərinin turizm infrastrukturunun, o cümlədən uyğun qiymətə mehmanxana və cəlbedici turizm məkanlarının inkişaf etdirilməsi	70	6200	100
2.4.	Viza rəsmiləşdirilməsi proseslərinin və sərhəd-keçid prosedurlarının sadələşdirilməsi və sürətləndirilməsi	30	—	—
2.5.	Əsas tələb bazarları ilə hava əlaqəsinin təkmilləşdirilməsi	30	—	—
3.1.	Sağlamlıq turizmi üçün tələbatın yenidən formalaşdırılması	5	150	15
3.2.	Qış turizminin inkişafının dəstəklənməsi	20	300	15
3.3.	Mədəni turizm marşrutlarının yaradılması	20	3700	95
4.1.	Turizm sahəsində təhsil proqramlarına investisiya qoyuluşu	—	150	10

Qeyd etmək lazımdır ki, cədvəldə qeyd olunan rəqəmlər müəyyən təsəvvür yaratmaq məqsədilə yazılan rəqəmlərdir. İşin icrası zamanı bu rəqəmlərin təhlil edilməsi və dəqiqləşdirilməsi mütləqdir.

Dövlətin idarəetməni gücləndirmək üçün qəbul etdiyi qərarların (əsasən turizm sahəsi ilə əlaqəli olanlardan) bir neçəsini nəzərədən keçirək:[5]

– Azərbaycan Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydalarının təkmilləşdirilməsi haqqında qanun;

– 1999-cu ildə Milli Məclisdə qəbul olunan "Turizm haqqında" qanun;

– 1999-cu il 27 iyulda imzalanan "Turizm və Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" fərman;

– Azərbaycan Respublikasında dövlət və ictimai mənzil fondu evlərində yaşayış sahəsindən istifadə haqqı (mənzil haqqı) və mənzil-kommunal xidmətlərinə görə tariflərin təsdiq edilməsi haqqında qanun;

– Azərbaycan Respublikasının "Mülki aviasiya haqqında" beynəlxalq konvensiyaya qoşulması haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı;

– Azərbaycan Respublikası Milli Məclisinin Təbii ehtiyatlar, energetika və ekologiya məsələləri daimi komissiyası üzvlərinin seçilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı;

– "Yaşıllıqların bərpası Qaydası"nın təsdiq edilməsi haqqında qanun və s.

İdarəetmənin əsas üsullarından biri də proqramların tərtib olunmasıdır.

Məsələn, Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı (2003-2005-ci illər);

Regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı (2004-2008, 2009-2013 və 2014-2018-ci illər).

Bu proqramlar kimi genişhəcmli proqramlar həyata keçirilib və hələ də planlaşdırılır və tətbiq olunmağa davam edir. Bu cür dövlət proqramlarının maliyyələşdirilməsi məqsədi ilə müxtəlif vasitələrdən – dövlət büdcəsindən, Sahibkarlığa Kömək Milli Fondundan, büdcədənkənar dövlət fondlarının vəsaitlərindən, özəl bankların kreditlərindən, beynəlxalq təşkilatların vəsaitlərindən və. istifadə olunur.

Beləliklə, aydın olur ki, dövlət siyasətinin əsasını güclü idarəetmə strategiyasının olması təşkil edir. Dövlət siyasət ilə idarəetməni birləşdirməli və nəzərə almalıdır ki, idarəetmə əsaslı olmazsa, siyasətin nəticəsi uğurlu olmaz. Məhz bu səbəbdən sadalanan qərarların qəbul edilməsi, proqramların yaradılması zəruridir. Bir daha dissertasiya mövzuma geri dönmək istərdim.

Turizm sahəsi Azərbaycan Respublikası üçün hələ də yeni bir sahə olaraq qalır. Çünki bu sahənin inkişafı digər sahələrdə olduğu kimi Heydər Əliyevin gəlişi ilə başladı. Məhz ulu öndər və ümumilli lider Heydər Əliyevin qərarları və sərəncamları nəticəsində Azərbaycan Respublikasının turizm sahəsi inkişaf yolu keçdi.

Hazırda, Qarabağ ərazisinin geri alınmasını xüsusilə vurğulamaq lazımdır. Ərazilərin erməni qəsbkarlarından geri alınması turizmə yeniliklər və canlanmalar gətirəcək. Prezident İlham Əliyevin sərəncamlarına əsasən hal-hazırda Dağlıq Qarabağda yenilənmə və bərpa işləri aparılır, ərazinin idarə olunması üçün (hər bir sahə üçün) mütəxəssislər yetişdirilir. Bütün bu qeyd olunanlar idarəetmənin rolundan və əhəmiyyətindən danışır.

Son olaraq bildirmək lazımdır ki, hər bir ölkədə dövlət siyasəti idarəetmədən asılıdır. Bu iki anlayış bir-birindən ayrı olmalı deyil. Onlar vəhdət təşkil etməlidirlər.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. https://unec.edu.az/application/uploads/2015/07/INZIBATI-HUQUQ-_1_.pdf
2. Elşən N. "Dövlət və Siyasət Fəlsəfəsi", Bakı-2015
3. http://lib.bbu.edu.az/read.php?item_type=lecture&file_type=pdf&file=86
4. Azərbaycan Respublikasında Turizm Sənayesinin İnkişafına dair Strateji Yol Xəritəsi
5. http://vxsida.gov.az/az/page/qanunlar

BÖLMƏ 2
SOSİAL VƏ XİDMƏT SAHƏLƏRİNİN İDARƏ EDİLMƏSİ PROBLEMLƏRİ

Minaxanım ƏSƏDOVA
Azərbaycan Turizm və Menecment Universiteti,
tarix elmləri doktoru
minaxanim.asadli.@mail.ru

AÇIQ HAVADA OLAN MUZEYLƏRİN TURİZM ÜÇÜN ƏHƏMİYYƏTİ

THE IMPORTANCE OF OUTDOOR MUSEUMS FOR TOURISM

ЗНАЧЕНИЕ МУЗЕЕВ НА ПОДЪЕМНИКЕ ДЛЯ ТУРИЗМА

Xülasə: *Məqalədə beynəlxaql aləmdə açıq havada yaranmış muzeylərin tarixi tədqiq edilir. Həmçinin Azərbaycanda yaradılmış açıq havada olan muzeylərin əhəmiyyəti izah edilir. Bu mədəniyyət müəssisələrinin turizm üçün əhəmiyyəti izah edilir.*
Açar sözlər: *ümumdünya irs siyahısı, açıq səma, muzey, tarxi, etnoqrafiya*

Summary: *The article examines the history of open-air museums in the international arena. It also explains the importance of open-air museums which established in Azerbaijan. In these article is explained the importance of these cultural institutions for tourism.*
Keywords: *world heritage list, open-air, museum, history, ethnography*

Резюме: *В статье исследуется история создания музеев под открытым небом в международной арене. Также обясняется важность музеев под открытым небом созданным в Азербайджане. Объясняется важность этих культурных заведений для развитии туризма.*
Ключевые слова: *список всемирного наследия, открытое небо, музей, история, этнография*

Açıq havada olan muzeylər obyekti və ekspozisiyaları açıq ərazidə olan, qapalı binalarda yerləşməyən muzeylərdir. Bunlar daşınmaz tarix və mədəniyyət abidələri əsasında onların mövcud olduğu, təbiət mənzərələri qoynunda, təbii landşaftı qorumaq şərtilə mühafizə edilən ərazidə yaradılırlar. Açıq səmada olan muzeylərin təşkil olunması ideyasının tarixi XVIII əsrə qədər gedib çıxır. Bu tip muzeylər ilk olaraq Avropa ölkələrində yaradılıb. Hazırda isə dünyanın bir çox ölkələrində müxtəlif mövzuları əhatə edən açıq havada muzeylər fəaliyyət göstərir. Belə arxeoloji, etnoqrafik muzeylər arxeoloji abidələrin, qədim yaşayış yerlərinin mövcud olduğu ərazilərdə maddi mədəniyyət nümunələri əsasında yaradılır. Bu tip muzeylərin əsas məqsədi insanların keçmişdəki həyatını real maddi nümunələr əsasında nümayiş etdirməkdir.

Bəzi hallarda abidələr muzey üçün ayrılmış xüsusi ərazilərə köçürülürlər. Açıq havada yaradılmış muzeylər çox hallarda qarışıq tipli olurlar, yəni həm öz yerindən daşınmadan muzeyə çevrilmiş abidədən, həm də oraya əlavə edilmiş, nəql olunan abidədən ibarət olurlar. Belə muzeylərin ən qiymətlisinə "qoruq-muzey" statusu verilir. Müasir dövr üçün "açıq səma altında muzey" dedikdə müxtəlif yerlərdən nəql edilərək bir muzey adı altında abidələrin toplandığı, yaxud qarışıq tipli muzeylər nəzərdə tutulur.

Açıq havada muzey dünyada ilk olaraq İsveçin paytaxtı Stokholm şəhərində 1891-ci ildə etnoqraf-alim A.Qazelius tərəfindən abidələrin köçürülməsi metodu ilə yaranmışdır. Bu muzeyin ərazisinin adı "Skansen" olduğuna görə sonradan köçürülmə üsulu ilə yaranmış açıq səma altında muzeylər tipinə "skansen" adı verilmişdir (6).

Açıq havada muzey təşkil etməyin vacibliyi ideyası və prinsipləri ilk dəfə olaraq isveçrəli alim Ç.Bonsetten tərəfindən XVIII əsrdə irəli sürülmüşdür. İsveçrə 1891-ci ildə isə Qezelius məşhur "Skansen" muzeyini təşkil etdi. Avropa və Amerika qitələrində belə muzeylər çoxdur (Kopenhagendə – 1897, Osloda – 1902, Arnxemdə – 1912 və s.). Təkcə Polşada belə muzeylərin sayı 35-ə çatmışdır. Finlandiyada Serasaari adasında ənənəvi kəndli malikanəsi və o cümlədən XVIII əsrə aid

zəngin etnoqrafik abidələr saxlanmaqdadır. Burada bütün sənətkarlıq emalatxanaları və dəyirmanlar işlək vəziyyətdə nümayiş etdirilir. Almaniyanın Zanvüst şəhərində alman kəndinin 250 illik tarixini izləmək mümkündür. Buxarestdə yerləşən muzey-kənd də diqqəti cəlb edir. Muzeydə 62 kompleks abidə və 18 min eksponat nümayiş etdirilir. 1940-cı ildə Finlandiyanın Turku şəhərində xalq sənətkarlığına aid xüsusi muzey açılmışdır. Burada onlarca sənətkarlıq sahəsi ilkin variantda nümayiş etdirilir. Keçmiş SSRİ məkanında açıq səma altında ilk etnoqrafik muzey 1928-ci ildə Riqada təşkil olunmuşdur. 1957-ci ildə isə Estoniyada "Rokk-al-Mare" muzeyi açılmışdır. Muzey XVIII-XIX əsrlərdə estonların məişətinə dair gözəl təsəvvür yaradır. Novqorod, Tbilisi, Lvov və Suzdal şəhərlərində də belə muzeylər fəaliyyət göstərir. Öz miqyasına görə Kiyev yaxınlığında açılmış muzey diqqəti xüsusilə cəlb edir. Muzey 200 hektar sahəni əhatə edir. İri eksponatların sayı isə 200-ə çatır. Burada 400 illik yaşı olan yaşayış evi nümayiş etdirilir.

Rusiyada ilk açıq havada muzey Sankt-Petreburqdakı "Yay bağı" sayılır. "Birinci sovet skanseni" Moskvada "Kolomenskoye" muzeyinin ərazisində 1929-1934-cu illərdə P.D.Baranovski tərəfindən yaradılmışdır. Bu muzeyə Preobrajenskoye kəndindən XVI əsr memarlıq abidələri – təsərrüfat tikililəri, I Pyotrun 1702-ci ildə Şimali Dvina çayının məcrasında Markov adasında tikilmiş, sonradan Arxangelsk şəhərində və, nəhayət, buraya nəql edilmiş və 1692-ci ildə inşa edilmiş Nikolo-Koreliya monastırının keçidli çadır – qülləsi köçürülmüşdür .(5)

Açıq havada muzeylər şəbəkəsinin yayılması XX əsrin 60-90-cı illəri ilə bağlıdır. Azərbaycanda açıq səmada yaradılmış maraqlı muzeylər fəaliyyət göstərir və ölkədə turizmin inkişafına təkan verir. "Atəşgah məbədi" – Azərbaycan ərazisindəki Abşeron yarımadasında, Bakı şəhərindən 30 km aralıda, Suraxanı rayonundakı Suraxanı kəndi yaxınlığında yerləşən, müxtəlif dövrlərdə zərdüştilər, hinduistlər və siqhlər tərəfindən ibadətgah kimi istifadə edilmiş alov məbədidir.

Yerli memarlıq ənənələri üslubunda tikilmiş "Atəşgah" özündə qədim od səcdəgahlarının cizgilərini birləşdirir. Hazırda dünyada yalnız iki yerdə – Şimali Hindistanda və Azərbaycanda belə bir atəşgah mövcuddur. Atəşpərəstlərin ən ali sitayiş və ibadət məbədi – ziyarətgahı isə məhz Azərbaycandakı Suraxanı Atəşgahıdır. Azərbaycan Prezidentinin sərəncamına əsasən kompleks ətrafında açıq səma altında muzey yaradılıb, kompleks Dövlət Tarix-Memarlıq Qoruğu elan edilib. 1998-ci ildə Atəşgah UNESCO Ümumdünya irsi siyahısına salınmaq üçün namizəd siyahısına daxil edilmişdir.

Azərbaycanda açıq havada qoruq-muzey kimi xalqımızın milli sərvəti olan Qobustan dövlət tarixi-bədii qoruğu böyük şöhrət qazanmışdır. Qobustan qayaüstü rəsmləri Azərbaycan alimlərinin diqqətini 1930-cu ildə cəlb etmiş, 1966-cı ildə isə Azərbaycan hökuməti qayaüstü rəsmləri əhatə edən ərazini Qobustan dövlət tarixi-bədii qoruğu elan etmişdir. Qoruq ərazisində 6000-dən artıq qayaüstü təsvir, 20 mağara və yaşayış yeri, 40 kurqan aşkar edilmiş və öyrənilmişdir. Həmin ərazidə Daş dövründən son orta əsrlərə qədərki həyat və məişəti əks etdirən çoxsaylı maddi mədəniyyət nümunələrini müasir azərbaycanlıların ulu əcdadları min illər ərzində yaratmışlar. Qobustan qaya rəsmləri dünyada bu tipli abidələrdən ən zənginidir (7).

2007-ci ildə YUNESKO tərəfindən Dünya Mədəni İrs Siyahısına daxil edilmiş Qobustan dövlət tarixi-bədii qoruğu ərazisində yerləşən milli sərvətlər xəzinəsinin qorunması və gələcək nəsillərə çatdırılması, eləcə də Azərbaycan Respublikasının qədim mədəni irsinin geniş miqyasda təbliğ olunması məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin qərarı ilə Qobustan Dövlət Tarixi-Bədii Qoruğunda muzey və ekspozisiyanın yaradılması nəzərdə tutulub (8).

Naxçıvan şəhərində diqqəti cəlb edən məkanlardan biri də açıq səma altında gənclərin hərbi-vətənpərvərlik tərbiyəsində mühüm rol oynayan Naxçıvan Döyüş Şöhrəti Muzeyidir. Muzey Azərbaycan Silahlı Qüvvələrinin 100-cü ildönümü ərəfəsində yaradılıb.

Yeni yaranmış açıq səmada olan muzey "Hərbi Qənimətlər Parkı" adlanır. Burada Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda 27 sentyabr-10 noyabr 2020-ci il tarixində 44 gün davam edən Vətən müharibəsi zamanı qalib Azərbaycan ordusunun düşməni döyüş meydanında məğlub etməsi nəticəsində ələ keçirdiyi hərbi qənimətlətin bir qisminin və Ermənistan ordusu tərəfindən qurulmuş müdafiə səddnin nümayş etdirilir.

2008-ci ildə Heydər Əliyev Fondunun təşəbbüsü və rəhbərliyi ilə Bakının qədim Qala kəndində hələ 1988-ci ildə yaranmış Qala Tarix-Etnoqrafiya Qoruğunun ərazisində "açıq səma altında ilk Arxeoloji Etnoqrafik Muzey Kompleksi" yaradılıb. Muzey- kompleksin ərazisində Abşeron yarımadasında aşkar edilmiş arxeoloji, memarlıq abidələri toplanılıb və bərpa olunub (10).

Qala Dövlət Tarix-Etnoqrafiya Qoruğu, onun qoşulduğu layihələr və muzey quruculuğu işində əldə edilən nailiyyətlər.

1988-ci il 18 aprel tarixində Azərbaycan SSR Nazirlər Kabinetinin 135 saylı qərarı ilə qəsəbənin tarixi mərkəzində Qala Dövlət Tarix-Etnoqrafiya Qoruğunun əsası qoyulur. Ərazisində 260 – dan çox arxeoloji və memarlıq abidəsi mühafizə olunan qoruğun ərazisi 81 hektar yarım ərazini əhatə edirdi.

Abşeron tarixini araşdıran bir çox tarixçilər tərəfindən Qala kəndinin yaşının beş min il əvvələ aid edilməsi məhz burada qeydə alınan tapıntıya əsaslanırdı. Bütün qoruq ərazisində ən qədim abidə e. ə. III minilliyə aid yaşayış məskənidir. Yaşayış məskəninə əsasən kəndin insanlar tərəfindən beş min il bundan qabaq məskunlaşdığı məlum olur.

"Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğunun beynəlxalq təcrübəyə əsaslanan müasir üsullarla idarə olunmasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidenti Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq sərəncam vermişdir:

1. "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğu 2012-ci il yanvarın 1-dən Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin tabeliyindən çıxarılaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin tabeliyinə verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti üç ay müddətində:

2.1. Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin ərazi dairəsinin və fəaliyyət istiqamətlərinin genişlənməsi ilə əlaqədar olaraq onun strukturunda və əsasnaməsində müvafiq dəyişikliklər edilməsinə dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Bakı Şəhər İcra Hakimiyyəti, Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi və Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi ilə birlikdə "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğunun sərhədlərini müəyyənləşdirib təsdiq etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğunun yeni idarəetmə strukturunun təsdiq edilməsi, maddi-texniki bazasının gücləndirilməsi, ərazinin mühafizəsi, turizmin inkişafı məqsədi ilə yeni obyektlərin, xidmət sahələrinin və yardımçı təsərrüfatlarının yaradılması, təbii landşaftın bərpası, tarix və mədəniyyət abidələrində bərpa-konservasiya və istifadəyə uyğunlaşdırma işlərinin aparılması ilə bağlı zəruri tədbirləri həyata keçirsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin. (10)

Ölkəmizdə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin tağşırığı ilə "Ölkəmizi tanıyaq" devizli maarifləndirici turlar təşkil olunur. Tur-aksiyalar müxtəlif bölgələrimizdə təhsil alan məktəblilər üçün nəzərdə tutulmuşdur. Bu layihənin başlıca məqsədi gənclərimizin ölkəmizin tarixi, zəngin mədəniyyəti, etnoqrafiyasına dair biliklərini təkmilləşdirməkdən ibarətdir. Tur zamanı onlar qeyd edilən məsələlərlə bağlı mövcud məlumatları əyanilik vasitəsilə möhkəmləndirməyə müvəffəq olurlar. "Ölkəmizi tanıyaq" turları bir neçə gün davam etməklə bir sıra əraziləri əhatə edir. "Qala" Dövlət Tarix Etnoqrafiya qoruğu da layihəyə qoşulmuşdur. Belə ki, qoruğun əməkdaşlarından bəziləri layihənin əsas bələdçiləri qismində çalışırlar. Onlar Abşeron məktəblilərinin regionlarla, bölgələrimizdən gələn gənclərimizin isə yarımada ilə tanışlığını həyata keçirirlər.

Qurumun aktiv fəaliyyətinin bariz sübutundan biri də odur ki, 18 aprel Beynəlxalq Abidələr və Tarixi Yerlər Günündə qoruq müxtəlif proqramlara qoşulur və qapılarını daha çox qonaqların üzünə açır. Belə layihələrdən biri Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin birgə layihəsi ilə "İrs günləri" başlığı ilə keçirilib. Əsas məqsəd qoruqlararası mübadilə və tarixi önəm daşıyan ərazilərdə irsin nümayişindən ibarətdir. Layihənin ilk 18 aprel günü də məhz Qala Dövlət Tarix-Etnoqrafiya Qoruğu ərazisində baş tutub. Burada Lahıc Dövlət Tarix-Mədəniyyət Qoruğunun Təqdimatı təşkil olunub. Festival vaxtı qalalı və lahıclı xalçaçı, həkkak, misgər, nəqqaş və zərgərlərin iş prosesi təqdim edilib. Eləcə də, yerli məhsullardan mürəbbə və yeməklərin hazırlanması ziyarətçilərə göstərilib. Tədbir rəqs və musiqi məclisləri ilə müşayiət olunub. Həmçinin, Əntiq Əşyalar muzeyində Lahıc və Qala ustalarının işləri stendlərdə sərgilənib.

2010-cu ildən Heydər Əliyev fondu tərəfindən "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğunda zəngin mədəniyyətimiz və tariximizin təbliği məqsədilə Qala festivalı keçirilməyə başlamışdır. Qarşıya qoyulan əsas məsələlərdən biri də yerli əhalidə öz mədəniyyətinə maraq artırmaq və Qalanın biz muzey kimi tanınmasını təmin etməkdən ibarət olmuşdur.(3)

Tədbir, adətən, 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü ərəfəsində baş tutur. Çünki, festivalın əsas iştirakçıları qaçqın və məcburi köçkün ailələrindən, uşaq evləri, orta məktəb və internatlardan cəlb edilən uşaqlar olur. Tədbir müddətində onların hazırladıqları əl işləri nümayiş etdirilir, rəqs qrupları öz məharətlərini göstərir, eləcə də, uşaqlar üçün interaktiv oyunlar təşkil olunur. Etnoqrafik xarakter daşıyan festivalın keçirilməsi üçün məkan kimi Qalanın seçilməsi təsadüfi deyil. Ona görə ki, tədbirin əsas məqsədi adət-ənələrimizi, dünyagörüşümüzü dəyişikliyə uğramadan gənc nəslə ötürməkdir. Bu baxımdan festival vaxtı qoruq ərazisində müxtəlif adətlərimizin əyani göstərilməsi və səhnələşdirilməsi böyük önəm daşıyır. Həmçinin iştirakçılara yunun daranması, xəmir yoğrulması və kündələnməsi, buğdanın üyüdülməsi kimi məişət işlərində özlərini sınama imkanı verilir.(3)

Muzeydə turistlərə xidmət göstərən işçilər uniformalarla təmin olunmuşdur. Ərazinin böyüklüyü nəzərə alınaraq "İçərişəhər" qoruğunun təşəbbüsü ilə muzey elektromobil – avtobusla da təchiz edilmişdir. Elektromobil bütün qoruğu əhatə edən ekskursiyalarda istifadə edilir və tutumu 14 nəfərdir.

"Qala" Tarix-Etnoqrafiya Qoruğunda fəaliyyət göstərən turist marşrutlarına daxildir:

- Açıq havada Qala Arxeoloji Etnoqrafik Muzey kompleksi üzrə
- Qala qəsri üzrə
- Əntiq əşyalar muzeyi üzrə
- Mülki, dini, memorial tikililəri ehtiva edən Qala Abidələr Kompleksi üzrə
- Şərqi Abşeron ərazisini əhatə edən arxeoloji abidələr üzrə

Qala qoruğunda gələn qonaqlara, həm də, interaktiv ekskursiyalar təklif edilir. Bu ekskursiyalara "Kiçik sənətkar" və "Orta əsr qalalının bir günü" adları verilmişdir. Birinci qrup ekskursiyalar uşaqlar üçün nəzərə tutulmuşdur. İkincisinə isə yaşı 18-dən yuxarı xarici və ya yerli turistlər qoşula bilər. Ziyarətçilər bu ekskursiyaları alaraq qədim təsərrüfat işlərində iştirak edirlər.

Ümumiyyətlə açıq havada təşkil olunmuş muzeylər daim turistlərin diqqət mərkəzindədir. Bu tip muzeylərin təbliği və müasir tələblərə cavab verməsi dövlətin mədəniyyət siyasətinin vacib sahələrindəndir. Açıq səmada olan muzeylər vasitəsi ilə milli mənəvi dəyərlərimiz, tariximiz, məişət mədəniyyəti, müxtəlif sənət nümunələri, xalqımıza məxsus adət ənənələr, eyni zamanda zəfər tariximiz təbliğ olunur.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə, V c., Bakı:ASE Baş redaksiyası, 1981, 592 s.
2. Hüseynov R. Azərbaycan qaya rəssamlığı mədəniyyəti / Risalə.AMEA N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı muzeyi.Araşdırmalar toplusu. Bakı: Nurlan, 2005, № 2 s. 305-331
3. Əsədova M.R. Muzeyin müasir interpretasiyası (dərslik) Bakı, 2020
4. Кошурникова А.Ю. Особенности фондово-экспозиционной работы в деятельности сельских этномузеев: Кн.: Музейные фонды и экспозиции в научно-просветительском процессе. Томск, 2002, с. 65-70
5. Тюриков И.П.,Фролов А.И. Кижи. 3-е изд. Петрозаводск: Карелия, 1983, 135 с.
6. Шмелев В.Г. Музей под открытым небом. Очерки истории, возникновения и развития. Киев: Наука, 1983, 100 с.
7. Qala arxeoloji-etnoqrafik muzey kompleksiwww.heydar-aliyev foundation.org/ Qala /tex _a.html
8. Qobustan dövlət tarixi-bədii qoruğu–iyun 2007. www.//anl.az/down/medeniyyet
9. Qobustanda muzey və ekspozisiya yaradılacaq – yanvar 2010. www.sonxeber.az
10. www.prezident.az. *"Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğunun idarə edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.* 22.11.2011. http://www.president.az/articles/3864

Тофик ИМАНОВ
Старший преподаватель
Азербайджанский Университет Туризма и Менеджмента
tofiq.imanov1960@gmail.com

QARABAĞ. TARİXİ GERÇƏKLİK VƏ FAKTLAR

sələrini qiymətləndirmək və qiymətləndirmək mümkündür. Bunlardan başqa "Elektron bankçılıq" müştərilərin onlayn ödəmə əməliyyatlarını asanlaşdırır. "Genişlənmiş Gerçəklik" bir çox turistik məkanda təcrübəni zənginləşdirən bir texnologiyadır. Rəqəmsal menyu, ağıllı masa, restoranlarda ağıllı plaka tətbiqetmələri, muzeylərdə və arxeoloji ərazilərdə e-bələdçilik xidməti ilə yerlərə və otellərdə tanıtım məlumatlarına çatma rahatlığı və üstün xidməti təmin edir [9,səh.141].

01-03 Noyabr 2017-ci il tarixlərində Rəqəmsal Turizm və İnnovasiya Komissiyasının keçirdiyi iclaslarda aparılan danışıqlar nəticəsində, turizmdə rəqəmsallaşdırma prosesindəki əsas problem kimi, prosesi idarə edəcək bir quruluşun olmaması bəyan edilmişdir. Prosesləri tənzimləmək istiqamətində Komissiya üzvlərinin razılığı formalaşdırılan əsas tövsiyə, maraqlı tərəflərin fəaliyyətlərini birləşdirməklə məhsuldarlığı və səmərəliliyi artıracağı düşünülən Rəqəmsal Turizm və İnnovasiya Şurası adı altında, özəl sektorun praktikada aktiv və dinamik bir rol oynadığı bir çərçivədə təşkilati modellər hazırlanmışdır [2,səh.149].

Rəqəmsal turizm, turizm təcrübəsinin rəqəmsal dəstəyidir. Rəqəmsal və informatikanın gücünü dərk etmələrini təmin etmək üçün səyahət agentlikləri, otellər, yaxtalar, nəqliyyat vasitələri, lizinq, təyyarə, transfer, tikinti, avtomobil və daşınmaz əmlak oyunçularını yenilikçi yanaşmalar və texnoloji inkişaflarla birləşdirmək lazımdır. Azəərbaycanın turizm brendinin digər ölkələr arasında fərqlənməsi üçün, bütün turizm tərəfdaşlarımızın ümumi zəmində rəqəmsal çevrilməyə girərkən ortaq bir platformada görüşməsi və ya bir-birini dəstəkləyən bir sistemdə çalışması lazımdır. Turizmdəki rəqəmsal çevrilmə, iqtisadiyyatın və sənayenin axarsız sənayesi olaraq təyin olunan turizm sektorunun dəyişən və yenilənən qlobal turizmə inteqrasiyası, gündəlik inkişaflara, çevrilmələrə uyğunlaşması və bu sektoru irəliləməsi və dəyişdirməsi, rəqabət qabiliyyətini artırması üçün zərurət halına gəldi. Rəqəmsal transformasiya prosesi sənaye turizmində vaxt itirmədən başlamalıdır. Turizmdə 50-dən çox sektorda, xüsusən də qida məhsullarında nəzərə çarpan effekt yaradan bir paradiqma dəyişikliyinə ehtiyac var. Yüksək dəyərli, ixtisaslı və keyfiyyətli turizm sektoru yaratmaqla markalı, davamlı rəqəmsal turizm inqilabına başlamaq vaxtıdır. Turizmin inkişafı üçün təkmil hüquqi, inzibati, maliyyə və təşkilati tənzimləmələr turizm sektorun bütün elementlərini, dəstək mexanizmlərini və tətbiqetmə vasitələrini əhatə etmək üçün dövlət-özəl tərəfdaşlıq islahatları proqramı çərçivəsində Turizm Sektoru Master Planının yaradılmasına ehtiyac vardır: destinasiyalarda otellərin qış aylarında sertifikat verən qurumlara çevrilməsi; sağlamlıq, konqres və yarmarkalar, idman, mədəniyyət və dini, gəzinti, qastronomiya və eko turizm kimi çoxşaxəli turizm növlərinin aşkarlanması və onlara xüsusi proqramlar ilə dəstək verilməsi; müvafiq qurumlar arasında əlaqə və koordinasiyanın səmərəli təmin edilməsi məqsədilə Dövlət Turizm Agentlitin dəstəyi ilə koordinasiya mexanizminin yaradılması; turizm potensialına malik olan yeni sahələr və növlər üçün tövsiyələr vermək məqsədi ilə iş dünyasını və ictimaiyyəti bir araya gətirən mexanizmin yaradılması sektorun rəqabət qabiliyyətini artıracaq addımlar olacaqdır. İnternetin, sosial medianın və rabitə sektoruna damğasını vuran sürətli inkişaf kimi inkişafların işığında, bütün sektorların bazarda daha təsirli və güclü ünsiyyət strategiyaları ilə mövcud ünsiyyət siyasətlərində ciddi yeniliyə ehtiyacları var [10,səh.94].

Son rəqəmsal texnologiyalar turizm sənayesində daha geniş əhəmiyyət kəsb etməyə başlamış və turizm məhsulları və biznes mühitinin formalaşmasında aparıcı amilə çevrilmişdir. Rəqəmsallaşma turizm məhsullarını hazırlayanların və istehlakçıların ənənəvi rollarında da dəyişikliklərə səbəb olub. Xüsusən də, pandemiya dövründən sonra rəqəmsal platformaların sayının artacağı və turizm məhsulları, xidmətləri və təcrübələrinin bilavasitə tələb əsasında, bazarın, iqtisadi amillərin və müştəri rəylərinin nəticəsində çevik formalaşacağı güman edilir. Turoperatorda onlayn satışda müştəri ilə iş dayandırılmır. Rəqəmsal texnologiyalar post-dəstək, yəni müşayiət və geribildirim əldə etmək imkanı verir. Müştərinin səyahəti bütün mərhələlərdə izlənilir, imkan daxilində ondan müxtəlif mövqelər üzrə təqdim olunan xidmətin qiymətləndirilməsi tələb ounur. Paket turları satan şirkətlərin klassik xidmət sxemindən imtina trendi güclənəcəkdir. Səyahətçilər SkyScanner xidmətinin köməyi ilə aviabiletləri kütləvi şəkildə alırlar. Booking.com otellərdə nömrələrin ənənəvi rezervasiya bazarını çoxdan dəyişdirib. Digər standart əməliyyatlar da avtomatlaşdırmanın və rəqəmə keçidin oxşar perspektivlərini gözləyir. Onlardan biri rəsmiləşdirilməsi, sığorta. Bu günə qədər bir neçə dəqiqə ərzində siyasət təşkil etməyə imkan verən Tripinsurance kimi tətbiqlər var. Məsələ sənədin verilməsi ilə məhdudlaşmır: sığorta çərçivəsində müvafiq həkimdən gecə-gündüz təxirəsalınmaz məsləhət al-

maq olar. Tripinsurance-də müştərilərlə ünsiyyət rus dilində də daxil olmaqla baş verir. Dəstək xidmətinin mütəxəssisləri bütün əsas peyğəmbərlər tərəfindən istifadə olunur. Uçuşdan, məskunlaşmadan və sığortadan sonra başqa bir əhəmiyyətli nöqtə xarici ölkədə hərəkət edir. Şəhərlərin içərisində əvəzsiz taksi toplayıcıları qalmağa davam edir [7,səh.68].

Süni intellekt və rəqəmsal xidmətlərin tədqiqi zamanı Booking.com dünya səyyahlarının auditoriyasının üçdə birinin səfərlərin planlaşdırılmasında süni intellektə kömək etməkdə maraqlı olduğunu göstərdi. İnsanlar axtarış motorlarında sorğular vasitəsilə şəbəkədə özləri haqqında çox məlumat saxlayır, ən əlverişli ödəniş üsullarını və istirahət üçün nəzərdə tutulan xərclərin həcmini göstərən üstünlükləri ortaya qoyur. Respondentlərin 50%-i səfərin planlaşdırılmasında kömək edən vacib deyil – canlı operator və ya söhbət bot. Əgər turun seçilməsi və ya otelin bronlaşdırılması xidməti münasib variantı təklif edərsə, onun əldə edilməsi ehtimalı xeyli artır. Böyük onlayn xidmətlər öz AI-ni inkişaf etdirməyə davam edəcək, onların təcrübəsi tədricən daha kiçik oyunçular tərəfindən götürülür.

Fərdi şəbəkələr öz məhsullarının rəqəmsallaşdırılması çərçivəsində həyata keçirilir. Məsələn, 2020-ci ilə qədər sınaqdan keçirilən HiltonHonors texnologiyasının nə dərəcədə effektiv olduğu aydın olacaq: bu əlavədə qonaq nömrəni seçir, onu ödəyir və yaşayış yerlərini öz ehtiyacları üçün tam uyğunlaşdıracaq. Booking.com-un apardığı bir araşdırma dünyanın səyahətçi auditoriyasının üçdə birinin səyahətlərin planlaşdırılmasında AI köməyi ilə maraqlandığını tapdı. İnsanlar axtarış motorları sorğuları vasitəsilə onlayn olaraq özləri haqqında bir çox məlumat buraxır, üstünlüklərini açıqlayır, ən rahat ödəmə metodlarını və planlaşdırılan məzuniyyət xərclərini göstərir. Respondentlərin 50% -i səyahətin planlaşdırılmasında kimin kömək edəcəyinə - canlı operatora və ya chatbot-a maraq göstərmirdi. Bir tur seçmək və ya bir otel sifariş etmək xidməti uyğun bir seçim təklif edərsə, onu satın alma ehtimalı əhəmiyyətli dərəcədə artır. Böyük onlayn xidmətlər öz süni zəkalarını inkişaf etdirməyə davam edəcəklər və təcrübələri tədricən kiçik oyunçular tərəfindən mənimsənilir. Fərdi şəbəkələr rəqəmsallaşmanın bir hissəsi olaraq öz məhsullarını tətbiq edirlər. Məsələn, 2020-ci ilə qədər sınaqdan keçirilmiş Hilton Honors texnologiyasının nə qədər effektiv olduğu aydın olacaq: bu, qonağın bir otaq seçib, pulunu ödəməsi və yaşayış yerini öz ehtiyaclarına tam uyğunlaşdırdığı bir tətbiqdir.

Blockchain kriptovalyutaların həddindən artıq yüksək dəyişkənliyi arasında istifadəçini qorxuda biləcək alətə çevrilmişdir. Bununla birlikdə, blockchain texnologiyasının özü bazar dəyişkənliyindən asılı deyil. Üstəlik, turizm sənayesi üçün faydalı, onsuz da diqqət çəkən yenilikləri ehtiva edir. Blockchain, hər şeydən əvvəl, fərqli ölkələrin bank strukturlarının iştirakı olmadan şəffaf əməliyyatların aparılması, kartın qəfil bloklanması şansıdır, halbuki ən azı iki faktorlu avtorizasiya ilə kriptovalyutası cüzdanınızı qorumaq imkanı var. Turist üçün hansı faydalar var? Sənədləri və cüzdanınızı özünüzlə aparmağa ehtiyac olmadan uzun səyahətlər perspektivi var. Hər hansı bir səfərdə bunlar insanın hər gün təhlükəsizliyini düşündüyü ən dəyərli şərtlərdir. Blockchain istifadəsinin digər tərəfi, satın alınan biletlər, sifariş edilmiş otaqlar, istifadə olunan sədaqət proqramları, marşrutlar və daha çox məlumatların tək bir məkanda toplanması və saxlanılmasıdır. Bu cür məlumatlar sənayenin bütün nümayəndələrinə ehtiyac duyur, çünki turistlərin həqiqi üstünlükləri barədə məlumat onların istəklərini proqnozlaşdırmaq və buna görə də öz çevrilmələrini artırmaq imkanı verir [11,səh.117].

Dünya təcrübəsi nə göstərir? Kanadada turizm şirkətlərinin 23%-i dəyər zənciri boyunca rəqəmsal texnologiyadan istifadə edir. Ölkənin ərazisində pasport məlumatları rəqəmsal formada olduqda "Rəqəmsal Səyahətçinin Kimliği" mövcuddur və buna görə də kağız versiyasını özünüzlə aparmağa ehtiyac yoxdur. Eyni zamanda, Yaponiyada 5G rabitəsi istifadəyə verildi, Çində artıq 500-dən çox ağıllı şəhər yaradıldı və turizm sektorunu pozanların məlumat bazası formalaşır və Tayland terminal sıxlığını azaltmaq üçün hava limanı infrastrukturunu inkişaf etdirməyə çalışır.

Proqnozlar. Turizmdə əsas rəqəmsallaşdırma meylləri ümumiyyətlə qlobal tendensiyaları izləyir, lakin bu prosesdə bəzən bir neçə il gecikmə ehtimalları mümkündür. Yüksək texnoloji alətləri milli turizm bazarı üçün hələ də əlçatan deyil, lakin təsiri 5-7 il ərzində müxtəlif sektorlarda mümkün olacaqdır. Beləliklə, yaxın gələcəkdə turlar sifariş edərkən onlayn sifariş və tur sifarişinin əsas seqment olacağı və milli turistlərin xüsusən də yuxarı bazar seqmentlərində getdikcə daha çox müstəqil olacağı gözlənilir. Tövsiyələrə riayət olunmaqla regional turizmin inkişafı strategiyasının həyata keçirilməsini effektivliyini artıra biləcəyi qənaətinə gəlmək olar. Turizm layihələri regional turizmin inkişaf hədəflərinə riayət etməli, strateji yol xəritəsinin icra vəziyyəti qiymətləndirilməli,

ümumi dəstək tədbirləri rəqəmsallaşdırma ilə birləşdirməli, özəl müəssisələr cəlb edilməli, işğaldan azad olunmuş Azərbaycan torpaqlarında milli turizmin inkişafı üzrə təşəbbüslər dəstəkləməli, nəqliyyat və otel infrastrukturu inkişaf etdirməlidir. Rəqəmsal inqilaba müqavimət göstərən amillər: iqlim, yol infrastrukturu, ekologiya, mədəni faktorlar, istehlak mədəniyyəti müasir turistlərdə yeni təcrübələr və bunları bölüşmək üçün fürsətlər istəyir. 2017-ci ildə TripAdvisor, ümumi səyahət bazarının 10%-ni təmsil edən təxminən 550 milyard dollarlıq səyahətləri özündə birləşdirdi. Eyni ildə sayt dünya üzrə 430 milyondan çox səyahətə təsir göstərdi. Bu şirkət müştərilərinə özlərini mütəxəssis kimi hiss etdirdi və restoranlara rahat bir təşviqat vasitəsinə giriş imkanları verdi [6,səh.94].

► Çində onlayn sifariş xidmətlərində lider şirkət Ctrip.com International, Ltd. Rezervasiyalar, biletlər, turlar və korporativ səyahətlər sahəsində Çinin aparıcı səyahət xidməti təminatçısıdır. 2018-ci ildə şirkət 4.7 milyard dollar gəlir əldə etdi və hazırda Çin səyahət bazarının 10%-i Crip şirkətinə aiddir. Ctrip.com-un böyüməsi strateji sərmayə və rəqəmsal texnologiyalardan qaynaqlanır. Şirkət idarəetmə qərarlarında məlumatların analizinin istifadəsinin tərəfdarıdır, işçilərin məsafədən işinin səmərəliliyini qiymətləndirmək üçün Stanford Pekin Universitetlərinin birgə təcrübəsinin təşkilatçısı və müştəri analizini Ctrip-in texniki təcrübəsi ilə birləşdirən öz onlayn sifariş platformasına malikdir.

► İstifadəçi tərəfindən yaradılan CrowdRiff səyahət şirkətlərinə məhdud sayda istifadəçi şəkillərinə giriş imkan verir. Marketinq platforması turizm şirkətlərinə turistlər tərəfindən sosial mediada yerləşdirilən məlumatların asanlıqla istifadəsinə imkan verir. Layihənin müştəri bazasına dünyanın 30-dan çox ölkəsində 700-dən çox turizm şirkəti daxildir.

► Nüfuzlu otellərin inkişafına kömək edin qonaqpərvərlik sənayesinin artan populyarlığı və aşağı ixtisas dərəcələri, dünyanın ən böyük mütəxəssislər, otellər və qonaqpərvərlik məktəbləri şəbəkəsi olan Hoscoya nəsib oldu. Beləliklə, işəgötürənlər dünyanın hər yerindən geniş məlumat bazasına giriş əldə etdilər və tələbələr otel biznesinin ən yaxşı şirkətlərində işləmə fürsəti əldə etdilər. Şəbəkə dünyada 350 minə yaxın mütəxəssis, 260 məktəb və universiteti, habelə dünyada 5000 işəgötürəni bir araya gətirdi. Paris, London, Cenevrə, Barselona və Dubaydakı beşulduzlu otellərin 85%-i Hosco həllərindən istifadə edir.

Nəticə. Turoperatorlar və səyahət agentlikləri turistlərin arzu və istəklərini optimallaşdırmaq üçün fərdiləşdirmə proqramına investisiya qoymağa davam edəcəkdir. Turistlərin onlayn alış-veriş etməsini dəyişdirəcək "virtual reallıq" da diqqət mərkəzində olacaqdır, hansı ki, Marriott, Best Western, Kayak, Carlson Rezidor və digər transmilli şəbəkələr artıq bu texnologiyalardan istifadə edirlər. Robot hava limanı işçiləri artıq mövcuddur. Robotlar otellərdə də işə başlayır. Tezliklə gəlişləri qeyd edəcək, qonaqlar üçün məlumat dəstəyi və əyləncə üçün istifadə edilməklə, otaqlara xidmət edəcəklər. Robotlaşma Prosesinin Avtomatlaşdırması (RPA) müəssisələrin təkrarlanan inzibati tapşırıqların yanılışlıqlara yol vermədən yüksək keyfiyyətlə və daha sərfəli şərtlərlə yerinə yetirməsinə kömək edir. Milli turizm xidmətləri bazarının inkişafında kiber təhlükəsizlik qaydalarının pozulması kimi turizm sənayesi üçün "rəqəmsallaşma" riskləri də mövcuddur. Çünki təhlükəsizlik və məxfiliyə zəif yanaşmalar istənilən sənayedə risk daşıyır. Bu baxımdan süni intellekt və rəqəmsal xidmətlərin yaxın dövr üçün prioritet sahələrdən birinə çevrilməsi zərurətdir. Rəqəmsal transformasiya idarəetməsində platforma yanaşmasının tətbiqi rəqəmsal iqtisadiyyatın əsasını təşkil edən şəbəkə xidmətlərinin qarşılıqlı fəaliyyətinə şərait yaradır. Bu həm fərdi innovativ müəssisələr üçün, həm də iqtisadiyyatın bütün sahələri üçün məqbuldur. Ölkənin rəqəmsal iqtisadiyyatına tam keçid yalnız korporativ idarəetmə paradiqmasını yeni bazar şərtlərinə uyğunlaşdıran çoxlu sayda müəssisə, dövlət və ictimai qurum əldə edildikdə əldə edilə bilər. Rəqəmsal transformasiyanı yalnız bir müəssisədə effektiv şəkildə idarə etmək, şəbəkə sistemi indiqatorların xarici təcrübəsinə əsaslanan geniş bir transformasiya gündəminin hazırlanmasını əhatə edir. İqtisadiyyatın bütün bir sektorunun rəqəmsallaşması destinasiyalarda iqtisadi birliklərin sıx qarşılıqlı əlaqəsini tələb edir. Tədqiqatda təqdim olunan səyahət sənayesinin fərqli xüsusiyyətləri, inkişafının daxili dinamikası və rəqəmsal dəyişikliklər təcrübəsi nəticəsində rəqəmsal platformaların ekosistemi iqtisadiyyatın bu sahəsinin inkişafı üçün məntiqi model kimi görünür. Turizm sənayesinin milli iqtisadiyyatının strateji cəhətdən əhəmiyyətli bir hissəsi olmamasına baxmayaraq, bu sahə rəqəmsal çevrilmə idarəetmə üsullarının, regional rəqəmsal platformaların və sistem indiqatorlarının işlənməsi üçün platforma ola bilər. Bu təcrübə, xidmətlərin

göstərilməsinə yönəldilmiş iqtisadiyyatın digər sahələrində də istifadə edilə bilər. Turizm sahəsində rəqəmsal platformaların ekosisteminin inkişafına təsir göstərə biləcək bütün amilləri müəyyənləşdirmək, minimum funksionallığı, tələb olunan səriştələrin siyahısını, kadr siyasətini və sənayenin rəqəmsal çevrilməsinin effektiv idarə olunması üçün yeni texnologiyalar parkını müəyyənləşdirmək üçün əlavə araşdırmalar aparmaq lazımdır [5,səh.98]. Turizm iqtisadiyyatın əsas sahələrinə böyük təsirgöstərir, sosial-iqtisadi inkişafın özünəməxsus katalizatoru rolunda çıxış edir. Milli turizm xidmətləri bazarının inkişaf hədəflərinin rəqəmsal əsaslandırılması qlobal layihələrin reallaşdırılması proqramlarına və mövcud şəraaitə transformasiya olunmalıdır. Turizmin inkişafının əsas nəticəsi kimi əhalinin rifahında və istehlak strukturunda mütərəqqi dəyişiklikləri əsas götürməklə, turxidmətlərə olan tələbatı rəqəmsal metodlarla formalaşdırmaq məqbuldur. Qeyd olunan yanaşma turistlərdə yeni istehlak davranışı, turizm mədəniyyətinin formalaşmasına, yeni xidmətlər sferasının formalaşdırılmasına, turizm üçün yeni xərc strukturunun formalaşmasına və yığım vəsaitinin artımı üçün geniş imkanlar yaradacaq. Milli turizm xidmətləri bazarının inkişaf hədəflərinin rəqəmsal əsaslandırılması məqsədilə aşağıdakı zəzuri tədbirlərin qısa müddətdə reallaşdırılmasını və tətbiqini məqbul hesab edirik:

- turizm fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar bütün dövlət xidmətlərinin elektron formada ötürülməsinin təmin olunması;
- hesabatların elektron formada həyata keçirilməsi və ictimaiyyətə açıq olması;
- məlumatların təkrar verilməməsi üçün turizm fəaliyyətinin təmin edilməsi ilə bağlı dövlət məlumat sistemlərinin inteqrasiyası;
- turizmdə regional layihələrin hazırlanması, həyata keçirilməsində təşəbbüskarlıq və ekspert cəmiyyəti ilə qarşılıqlı əlaqəni yaxşılaşdırmaq üçün rəqəmsal həllərdən istifadə etmək;
- işğaldan azad olunmuş ərazilərin turizm potensialının rəqəmsallaşdırılması;
- işğaldan azad olunmuş Qarabağ destinasiyası üzrə inkişaf platformasının formalaşdırılmasında yerli və xarici investisiya imkanlarının qiymətləndirilməsi. "Turizmdə rəqəmsallaşma" konsepsiyası çərçivəsində Qarabağda turizmin inkişaf etdirilməsi üçün kompleks və sistemli yanaşma ilə mövcud turizm potensialı qiymətləndirilməli, torpaqlarımızdakı maddi və mədəni irs nümunələri dəqiqləşdirilməlidir. Bu istiqamətdə görüləcək işlər sırasında yeni turizm marşrutlarının yaradılması, ümumilikdə milli destinasiyaların rəqəmsal bazaya daxil edilməsi, məhz Qarabağın turizm potensialı barəsində məlumatlı olan bələdçilərin hazırlanması və nəhayət, xarici turistlərin Qarabağa cəlb edilməsi üçün irimiqyaslı təbliğat işlərinin başlanması önəmli yer tutur. Qarabağın turizm potensialını təbliğ edən erməni stendlərinin bağlanması, həmçinin işğal edilmiş torpaqlara xarici turistik səfərlərin qarşısının alınması üçün beynəlxalq platformaların məlumatlandırılması istiqamətində işlər qısa müddətdə tamamlanmalıdır.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Arefiev A.S. – Turizmdə rəqəmsal çevrilmənin idarə edilməsi üçün bir vasitə kimi "Platformasiya" // Nəzəri və Tətbiqi İqtisadiyyat. 2020. № 3.
2. Бугин Жак, Кэтлин Танги Шесть признаков успешной цифровой трансформации // Harvard Business Review Россия. – 06.02.2018
3. Герчикова Е.З., Спиридонова Е.П., Социологические аспекты трансформации сферы рекреации и туризма в условиях цифровой экономики // Вестник СГСЭУ. 2018. № 3 (72)
4. Дёрнер Карел, Мефферт Юрген Девять вопросов, которые помогут вам получить правильное цифровое преобразование // McKinsey &Company, октябрь 2015.
5. Карлинский В. Л. Цифровая трансформация промышленных предприятий. Проблемы и модели перехода. Пермь-2017
6. Мордашов Алексей Как Индустрия 4.0 меняет управление и производство // Цифровизация производства. Сборник статей. – Harvard Business Review – Россия, 2017.
7. Першина Э.С., Дараган С.В. К вопросу об информационных технологиях в туризме // Научный вестник МГИИТ. 2012. № 1.
8. Попов М.В, Коблова Ю.А., Мурыгина Н.В. Институты виртуального пространства: механизм, закономерности формирования и новые угрозы // Вестник Саратовского государственного социальноэкономического университета.

9. Сибель Томас М. Почему цифровая трансформация теперь находится на плечах CEO //McKinsey Quarterly, декабрь 2017.
10. Туризм и его трансформация в цифровом пространстве – тематическое обсуждение в Мадриде [Электронный ресурс] – Режим доступа: info@unwto.org/ unwto.org
11. Цифровой туризм: какие сегменты рынка организованных путешествий оцифровываются прежде всего? [Электронный ресурс]. Режим доступа: URL https://firstlinesoftware.ru/news
12. Klaus Şvab "Dördüncü sənaye inqilabı". "İqtisad Universiteti" nəşriyyatı. Bakı – 2020, 200 səh.

Elnarə İSMAYILOVA
AMEA akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutu, elmi işçi
allaqiyeva@gmail.com

GƏNCƏ-QAZAX İQTİSADİ-COĞRAFİ RAYONUNUN TURİZM-REKREASİYA TƏSƏRRÜFATININ SOSİAL-İQTİSADİ ƏHƏMİYYƏTİ

SOCIO-ECONOMIC IMPORTANCE OF TOURISM-RECREATION ECONOMY OF GANJA-KAZAKH ECONOMIC-GEOGRAPHICAL REGION

СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЕ ЗНАЧЕНИЕ ТУРИСТСКО-РЕКРЕАЦИОННОЙ ЭКОНОМИКИ ГЯНДЖИ-КАЗАХСКОГО ЭКОНОМИЧЕСКО-ГЕОГРАФИЧЕСКОГО РЕГИОНА

Xülasə: *Turizmin inkişafına davamlı dövlət dəstəyi ilə respublikamızda istər daxili, istərsə də gəlmə turizm dinamikasının ilbəil artması öz növbəsində regionların inkişafına birbaşa təsir göstərir. Bu da həm iqtisadi, həm də sosial sahədə əldə olunan maddi gəlirlərin artmasına şərait yaradır. Ölkədə turizmin inkişafı müxtəlif sahələrə fərqli təsir göstərə bilər. Ancaq turizmin ölkə iqtisadiyyatı çərçivəsində meydana gətirdiyi pul və real gəlirlər həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrin iqtisadi problemlərinin həllində ən təsirli vasitələrdən biri olaraq iştirak edir. Gəncə-Qazax iqtisadi-coğrafi rayonunun turizm-rekreasiya ehtiyatları həmin ərazidə turizmin inkişafına zəmin yaradır. Bu təsərrüfat sahəsinin inkişafı ərazinin sosial-iqtisadi vəziyyətinə də təsir edəcək.*

Açar sözlər: *turizm, turist, məşğuliyyət, sosial-iqtisadi vəziyyət, Gəncə-Qazax iqtisadi-coğrafi rayonu, rekreasiya, yerləşdirmə müəssisələri.*

Summary: *With constant government support for tourism development, the annual increase in the dynamics of both domestic and inbound tourism in our country, in turn, has a direct impact on regional development. This creates conditions for growth of tangible income in both economic and social spheres. The development of tourism in the country may affect different spheres in different ways. However, the money and real income generated by tourism within a country's economy is one of the most effective tools in solving economic problems in both developed and developing countries. The tourism and recreational resources of the Ganja-Gazakh economic and geographical area create the basis for the development of tourism in the region. The development of this sector will also influence the socio-economic situation in the region.*

Keywords: *tourism, tourist, requirement, socio-economic situation, Ganja-Gazakh economic-geographical region, recreation, accommodation.*


Резюме: *При постоянной государственной поддержке развития туризма ежегодное увеличение динамики как внутреннего, так и въездного туризма в нашей стране, в свою очередь, оказывает непосредственное влияние на развитие регионов. Это создает условия для роста материальных доходов как в экономической, так и в социальной сферах. Развитие туризма в стране может по-разному влиять на различные сферы. Однако деньги и реальные доходы, полученные от туризма в рамках экономики страны, являются одним из наиболее эффективных инструментов в решении экономических проблем как развитых, так и развивающихся стран. Туристические и рекреационные ресурсы Гянджа-Газахского экономико-географического района создают основу для развития туризма в регионе. Развитие этого сектора также повлияет на социально-экономическую ситуацию в районе.*

Ключевые слова: *туризм, турист, трудоустройство, социально-экономическое положение, Гянджа-Газахский экономико-географический район, рекреация, предприятия размещения.*

Turizm dövriyyəsinə daxil olan resurs potensialı onların mövcud istifadə formaları və səmərəliliyini bu sahənin ilkin fəaliyyəti və sonrakı perspektivi üçün bir sıra təşkilatı maliyyə və proqram tədbirlərinin əsaslandırılması, onların elmi-metodiki proqnoz əsaslarını yaradır. Ona görə də konseptual yanaşma baxımından turizmin həm iqtisadi artım, həm investisiya prioritetləri, həmçinin ərazi və region inkişaf problemlərinin həlli üçün nüvə rolunu oynayır.

Müxtəlif sənaye sahələrinə qoyulan investisiyaların sahibkarlara maliyyə baxımından geri dönüşü 4-5 il nəzərdə tutulursa, turizm kimi sahələrə edilən yatırımlar 7-10 illik bir müddəti əhatə edir. Buna əyani misal olaraq zəncirvari otellərdən hər hansı birinin açılması üçün 1-1,5 milyard dollar maliyyə xərci tələb olunursa, onun geri gəlir kimi qazanılması 7-10 illik müddət tələb edir [2, s. 31].

Gəncə-Qazax iqtisadi-coğrafi rayonunun turizm potensialını müqayisəli təhlil etdikdə qəbul edilən turistlərin sayının olduqca aşağı olmasını görmək mümkündür. Belə ki, iqtisadi-coğrafi 2015-ci ildə isə 89847, 2016-cı ildə isə 41337, 2019-cu ildə isə 78665 nəfər səfər etmişdir (Qrafik 1). Lakin ümumi səfər edənlərin sayı ilə turistlər arasında elə də kəskin fərq yoxdur. Bu da ərazinin sahəsinə, təbii və tarixi ehtiyatlarına görə qəbul etdiyi turist həcminin azlıq təşkil etdiyini bir daha sübut edir.



Qrafik 2.4.8 Gəncə-Qazax iqtisadi-coğrafi rayonuna gələn turistlər, nəfərlə
Mənbə: Azərbaycanda turizm, 2021. Bakı: DSK, 2021, 54 s.

Yuxarıdakı statistik məlumatlara əsasən iqtisadi-coğrafi rayona gələn turistlərin sayı ərazidə məşğulluğun təminatına yol açа bilər. Çünki istənilən turist nəqliyyat, gecələmə, qidalanma və s. kimi xidmətlər tələb edir ki, bunların da hər birinin formalaşmasında insan əməyindən geniş istifadə olunur. Belə ki, Gəncə şəhərində yerləşən Azərbaycan Texnologiya Universitetində "Turizm və otelçilik" ixtisası yaradılmışdır. Bu ixtisasda təhsil alan tələbələr gələcəyin turizm sferası üzrə mütəxəssislərinə çevrilə bilər. İqtisadi-coğrafi rayonun ərazisinə müxtəlif ərazilərdən mütəxəssislərin göndərilməsinin əvəzinə özünün birbaşa xidmət personalı hazırlaması olduqca təqdirəlayiq haldır. Müxtəlif sənaye sahələri üzrə kadr çatışmazlığının olması müasir zamanının ən mühüm problemlərindən biri hesab olunur ki, hazırda keyfiyyətli və məsuliyyətli işçi heyətinin hazırlanması əsas şərtlərdən biridir.

Turistlər Gəncə-Qazax iqtisadi-coğrafi rayonuna ən çox biznes məqsədi ilə səyahət edirlər. Bunun ilkin səbəbləri arasında potensial imkanların olması ilə yanaşı, bu istiqamətin istər dövlət dəstəyi, istərsə də sahibkarlar tərəfindən infrastrukturla təminatı nəticəsində meydana gəlmişdir. Həmçinin, xidmət sferasının inkişafı, tibbi müayinələrin yüksək səviyyədə aparılması və personalın iş prosesini yaxşı təşkil etməsi ilkin səbəblər sırasındadır. Məhz bunun nəticəsidir ki, bu istiqamətdə mövcud olan yerləşmə müəssisələrində kifayət qədər əhali işlə təmin olunmuşdur [6].

Turizmin inkişafı həm sənayeləşmiş, həm də inkişaf etməkdə olan ölkələrdə çox sayda iş imkanı yaratmışdır. Turizm sektoru, yerləşmə, nəqliyyat, əyləncə, səyahət agentləri, rəhbərlik, maliyyə və sağlamlıq kimi bir çox sahələrlə birbaşa əlaqəlidir. Turizm həmçinin əkinçilik və istehsal kimi digər sahələrdə də bilavasitə mənbə rolunda çıxış edir. Bu baxımdan turizmin məşğulluq üzərindəki təsirlərinin qiymətləndirilməsi çətinliklər yaradır. Turizm, yalnız turist qəbul edən ölkə və ya bölgədə deyil, eyni zamanda turist göndərən ölkə və bölgədə də müvafiq nisbətlərdə məşğulluq imkanları yarada bilir. Çünki turist göndərən ölkədə, səyahət əvvəli bəzi fəaliyyətin yerinə yetirilməsi üçün fərqli xidmət vahidlərinin meydana gəlməsi lazımdır. Məsələn, telefon, yük daşınma, sığorta və s.

əməliyyatları bunlara nümunə olaraq göstərilə bilər. Bu da öz növbəsində iqtiasdi-coğrafi rayonda qeyri-turizm sahələrinin inkişafını təşviq edir.

Turizmin inkişafı həmin ərazidə məşğulluğun təminatı, yeni iş yerlərinin açılması və digər sahələrə öz təsirini göstərsə də, bu proseslərin hər biri regiona qoyulmuş investisiya ilə əlaqəlidir. Çünki turizm fəaliyyəti ilə məşğul olan bütün müəssisələrin özlərinə məxsus xərcləri mövcuddur. Bu xərclərə əsasən yerləşdirmə, nəqliyyat, müalicə, əyləncə, mədəni, qidalanma və s. kimi mərkəzlərin hər birində investisiya qoyulmaqla yanaşı, müxtəlif maddi xərclər tələb edən yenidənqurma, təmir, bərpa proseslərinə də ehtiyac yaranır. Çox təəssüflə qeyd etmək lazımdır ki, bu göstəricilərin hər birində yalnız iqtisadi-coğrafi rayonun ərazisinə daxil olan Gəncə şəhərinin adı verilmişdir. Həmçinin, təqdim olunan statistik məlumatlar həmin ərazidə yerləşən müəssisələrin turizm fəaliyyəti üzrə xərcləri ilə eynilik təşkil edir.


Turizm istənilən ərazi daxilində bir sıra sənaye və xidmət sahələrini özündə birləşdirir. Bunlara aşağıdakılar aiddir: çörək, ət, meyvə satışı ilə məşğul olan gündəlik istehlakla əlaqədar xidmətləri; zərgər, parfumeriya, antikvar kimi lüks istehlakla əlaqədar xidmətləri; sağlamlıq, bank, sığorta, polis kimi kömək və təhlükəsizlik xidmətləri; nəqliyyat, gecə klubları, animasiya kimi tətil və turizmə istiqamətlənmiş xidmətləri; inşaat, mebel, elektrik kimi bəzi təchizat sahələri, biznes fəaliyyətləri və bəzi ictimai xidmətləri.

Turizm təsərrüfatında qadınların məşğuliyyəti üçün kifayət qədər sahələr mövcuddur. Çünki qadınların məşğulluğunun təmin olunması üçün əsaslı sənaye sahələri adətən yüngül sənaye hesab olunur ki, bura da müxtəlif istiqamətli toxuculuq, xalçaçılıq, qidalanma məhsullarının hazırlanması və s. aid etmək mümkündür. Yalnız turizmin inkişafı eyni anda yuxarıda adları qeyd olunan bir sıra sahələrə də birbaşa təsir göstərmək gücünə malikdir. Xüsusən mehmanxana və yerləşdirmə müəssisələrində işlə təminat daha qabarıq nəzərə çarpır. Mehmanxanalarım tutumu, nömrələr və gecələmələrin sayı da işçi sayının dəyişməsinə təsir edən amillərdən biridir (Xəritə 1).

İstənilən regionda qonaqpərvərlik sənayesinin inkişafı ilə əlaqədar olaraq dövlət və sahibkarlar tərəfindən müəyyənləşdirilmiş tələblər olmalıdır. Bu sənaye sahəsinin inkişafı üçün həmin ərazidə siyasi proseslərin stabil olması, iqtisadiyyatın inkişafı və stabil maliyyə prosesi olduqca əhəmiyyətlidir. Ərazinin demoqrafik vəziyyəti, əhalinin yaş və cins tərkibi, işgüzar fəaliyyətlə məşğul olan təbəqənin faizi, əhalinin məşğulluğu, ticarətin inkişafı, kənd təsərrüfatının mövcud vəziyyəti də nəzərə alınır. Əsas şərtlər sırasında isə nəqliyyat imkanlarının geniş olması və yeni texnoloji avadanlıqlardan yararlanmaqdır.

Yuxarıda qeyd olunan bir sıra meyarlar həyata keçdikdən və reallaşdırıldıqdan sonra həmin ərazidə turizmin bir sıra növlərinin inkişafı mümkündür. Adları çəkilən amillərin əksəriyyətinin dəyərləndirilməsinə diqqət yetirsək Gəncə-Qazax iqtisadi-coğrafi rayonunun potensial imkanlarını olduqca yüksək qiymətləndirmək olar. Lakin bunun üçün turizm mərkəzlərinin müəyyənləşdirilməsi və bu istiqamətdə məhsulun (brend) hazırlanaraq, turoperatorlar tərəfindən bazara çıxarılmasına ehtiyac yaranır. Deməli, turizm məhsulunun turistlərə təklif olunması üçün marketinq araşdırmalarının aparılması və hədəf bazarın seçilməsi əhəmiyyətlidir. Xüsusən, insan resurslarından düzgün istifadə və personalın iş prosesindən məlumatlı olması turistə təklif olunan xidmətin də səviyyəsinə təsir göstərəcəkdir.

Turizm digər sahələrdən fərqli olaraq ilin yalnız müəyyən dövrlərində müştərilərə xidmət göstərir və turistlər üçün təkliflər paketi satırlar. Bu da işçi heyətin yalnız mövsümü dövr ərzində işləməsi ilə nəticələnir və maaş probleminin meydana çıxmasına yol açır. Çünki istənilən müəssisə bütün dövr ərzində işçilərini tam ödənişlə təmin etmək məcburiyyətindədir. Bunun üçün də istənilən region daxilində davamlı turizmin əldə olunması və eyni zamanda bir sıra turizm növlərinin inkişaf etdirilməsinə ehtiyac vardır.




Xəritə 1. Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda mehmanxana və mehmanxana tipli müəssisələrdə birdəfəlik tutum, nömrələrin və gecələyənlərin sayı

Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda davamlı turizm anlayışı mövcud deyil, yalnız ilin müəyyən aylarında daha çox turist qəbulu həyata keçirildiyi üçün əksər turizm müəssisələrində yay aylarında işçilərin qəbulu reallaşdırılsa da, digər aylarda onların əksəriyyəti işdən azad edilir. Bu kimi müvəqqəti işlə təminatın həyata keçirilməsi həm insanlarda bu sahəyə qarşı inamsızlıq yaradır, eyni zamanda göstərilən xidmətin aşağı səviyyədə olması, müştəri və müəssisəyə qarşı məsuliyyətsizliyin meydana gəlməsinə yol açır. Turizmdə maliyyənin də gəlir kimi geri dönüşü uzun müddətli olduğu üçün adətən sahibkarlar daha çox xərcə yol verirlər.

Turizm sənayesi ölkəyə qoyulan sərmayənin artmasına, texnoloji inkişafa səbəb olur və ölkədə gəlirin artması ilə yanaşı, maaşların çoxalmasına təsir edir. İstənilən sənaye sahəsinin inkişafı dövlətə ödənilən vergi gəlirlərinin artmasına yol açır [3, s. 298].

2016-cı ilin statistik məlumatlarına əsasən Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda 1-3 günlük yerləşdirilmiş turistlərin sayı 32409, 4-7 gün müddətində yerləşdirilmiş turistlərin sayı 5550, 8-28 gün və daha çox yerləşdirilmiş turistlərin sayı isə 3372 nəfər olmuşdur (Qrafik 3). Bu da əraziyə qısamüddətli səfərlərin üstünlük təşkil etdiyini bir daha sübut edir. Deməli turist daha az qalaraq mövcud ehtiyatlardan qısa zaman kəsiyində istifadə edir və nəticədə də minimum xərcləmələr həyata keçirir.



Mənbə: *Azərbaycanda turizm, 2017. Bakı: DSK, 2017, 146 s.*

Qrafik 3. *2016-cı ildə Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda yerləşmə müddətinə görə turistlərin sayı, nəfərlə*

Turizm bir sıra müəssisələrin açılmasına, ümumi gəlir səviyyəsinin və rifahın yüksəlməsinə yol açmaqla yanaşı, ölkənin sosial və mədəni həyatında da mühüm rola malikdir. Yerli sakinlər tərəfindən tarix boyunca həyata keçirilən ənənəvi mərasimlər, adət-ənənələr, regional geyimlər və xalq sənətkarlıq nümunələrinə yenidən əhəmiyyət verilir [5, s. 15]. Turizmdə həyata keçirilən satış və alış prosesinə nəzər yetirilsə digər regionlarla müqayisədə Gəncə-Qazax iqtisadi-coğrafi rayonunun olduqca geridə qaldığını görmək mümkündür. Belə ki, iqtisadi-coğrafi rayonlar üzrə əhaliyə satış turizm yollayışı blanklarının sayına nəzər yetirsək 2013-cü ildə Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda bu göstərici 48 olmuşdursa, 2016-cı ildə 331 olaraq qeyd olunmuşdur. Çox təəssüflə bildirmək lazımdır ki, əldə olan statistik göstəricilər yalnız Gəncə şəhərini əhatə edir. Bu da digər rayonlarda bu istiqamətdə hər hansı fəaliyyətin reallaşmadığını bir daha sübut edir. Həmçinin, iqtisadi-coğrafi rayonlar üzrə satılmış turizm yollayışı blanklarının ümumi sayı 2016-cı ildə bu nəticə 141,8 min manat təşkil edirdisə 2019-cu ildə 354,7 min manat dəyərində olmuşdur. Əlbəttə əhatə etdiyi ərazi və potensial imkanların dəyərləndirilmə mexanizminə əsasən bu göstərici aşağıdır və digər iqtisadi-coğrafi rayonlarla da müqayisə etdikdə bunu görmək mümkündür.

Daxili turizmin inkişafını əsaslı şəkildə görmək və mövcud mehmanxanalarda qalan turistlərin say etibarını hesablamaq məqsədilə son nəticələrə diqqət yetirmək kifayətdir. Çünki gecələmələrin sayından da məlum olduğu kimi ərazidə çoxsaylı yerləşmə müəssisələrinin və onların işçi təminatının həyata keçirilməsinə ehtiyac vardır. Ən çox gecələmə sayı Naftalan şəhərinin payına düşür ki, bu da müalicə-sağlamlıq kurortlarının üstünlük təşkil etməsi ilə əlaqədardır. İstər yerli əhalinin, istərsə də gəlmə turistlərin gecələmə üçün yerləşmə müəssisələrinə üz tutması yerli əhalinin sosial-iqtisadi problemlərinin həllində mühüm rola malikdir. Çünki bu proses birbaşa olaraq əhalinin məşğulluğuna, iş yerlərinin açılmasına və xidmətin tələbinə səbəb olan ilkin amillər sırasındadır.

Turizmin inkişafında mühüm rola malik olan yerləşmə müəssisələrinin gəlirlərinin azalması və gecələmə sayının gələn turist sayına nisbətən azlıq təşkil etməsi bir sıra problemlərdən qaynaqlanır. Bu kimi problemlərin kökündə isə müxtəlif siravi vətəndaşların öz daimi yaşayış evlərinin bir hissəsini, yaxud da bütünlükdə evin özünü kirayə verməsi nəticəsində meydana gəlir. Əlbəttə, bu turistlərə üçün də yararlı bir hal kimi qiymətləndirilir. Çünki bu kimi xidmətləri göstərən evlərdə yerləşən şəxslər yerləşmə müəssisələri ilə müqayisəli təhlil nəticəsində daha az maliyyə vəsaiti ödəyirlər. Dünya ölkələrində bu kimi evlər də turistlərə kirayə verilərkən onlar dövlətə öz qazanclarından vergi ödəməli olurlar.

Nəticə

Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda turizmin yüksək səviyyədə, beynəlxalq standartlara uyğun inkişafı mümkün olarsa ərazidə rəqabət mexanizminin yaranması və daxili bazarda dinamikliyin meydana gəlməsi, xüsusən də xarici investisiyaların da canlanmasına təsir edər. Lakin təcrübə bunu göstərir ki, turizm sferasında xarici sərmayə əsasən həmin ölkələrin özlərinin qazanc əldə etməsi ilə nəticələnir. Çünki istənilən ölkəyə üz tutan xarici investor həmin ölkədə müasir standartlara cavab verən infrastruktur yaradıb, yeni iş yerlərinin açılmasına səbəb olsa da, gəlirin daha çox hissəsini öz ölkəsinə aparmaq mənafeyi güdür. Buna görə də çalışmaq lazımdır ki, daha çox yerli sahibkarlar turizm təsərrüfatına investisiya yatırırlar.

Respublikamızda turizm təsərrüfatının inkişaf etdirilməsi həm dövlət, həm də yerli sahibkarlar tərəfindən həyata keçirilir. Onlar tərəfindən turizm təsərrüfatına ayrılan investisiyalar isə regionların inkişafına müsbət təsir edir, yerli əhali işlə təmin edilir. Lakin turizm sahəsinə qoyulmuş investisiya qısa bir müddətdə geri dönüş etmir və yüksək gəlir götürmək mümkün olmur. Çünki turizm sferasına qoyulmuş investisiya müəyyən vaxt tələb edir, bu zaman yeni iş yerləri açılır və məşğulluq problemi qismən də olsa aradan qaldırılır. Deməli, hər bir regionun potensial imkanlarını nəzərə alaraq dəyərləndirilmə mexanizmi aparmaq lazımdır. Regionların inkişafı üçün turizmin aşağıdakı meyarları nəzərə alınmalıdır:

– mədəni dəyərlərin təhlilinin aparılması (arxeoloji ərazilər, abidələr, folklor və festivallar);

– təbii rekreasiya ehtiyatlarının təhlili (iqlim və turizm üçün əlverişli olan ərazilər);

– turizm müəssisələrinin müasir tələblərə cavab verməsi, yaxud yenilərinin inşa edilməsi imkanları (otel, motel, pansion);

– turizmlə birbaşa və ya dolayı əlaqəsi olan xidmət sahələrinin müasir vəziyyəti;

– dövlətin və yerli sahibkarların ayırdıqları investisiyaların həcmi;
– daxili və gəlmə turizm tələbinin təhlili;
– yerli əhalinin turistləri qəbul etmə imkanları və gələn əhaliyə xidmətin göstərməsi;
– turizm müəssisələrində yerli vətəndaşların işə cəlb olunması;
– turizm təsərrüfatının digər sahələrlə əlaqəsi.

Regional inkişafa təsir göstərən amillərdən biri də ixracatı mümkün olmayan və sosial-mədəni ehtiyatlar sırasına daxil olan məhsulların turizm vasitəsilə tanıdılması, bu istiqamətdən maliyyənin əldə edilməsidir. Turizm özü ilə birlikdə 30-dan çox qeyri-turizm sektorunun inkişafına imkan yaradır. Bunlara tikinti, xidmət sahələri, mədəniyyət, sosial infrastruktur və s. kimi sahələr aid edilir. Turizm təsərrüfatının inkişaf etdirilməsi kənd təsərrüfatı, xidmət sahələri, xalq sənətkarlığı və s. sahələrə də müsbət təsir göstərir. Nəticədə xeyli sayda vətəndaşlar öz evlərini kirayə verərək maliyyə vəsaiti də əldə edirlər. Xüsusən xaricdən gələn turistlərlə eyni evi bölüşən şəxslərin dünyagörüşünün formalaşması, ünsiyyət qabiliyyətlərinin artması, digər mədəniyyətlərə olan maraq və öz adət ənənələrini, tarixlərini daha dərindən bilməsi tələb olunur [4, s. 515].

Dünyanın bir sıra ölkələrində yeni sənaye sahələrinin inkişafına dəstək məqsədilə vergilərin azaldılması yaxud müəyyən dövr müddətində həmin obyektlərdən vergi tələb olunmaması ən müstəsna güzəştlərdən sayılır. Bu kimi ölkələr sırasında Bolqarıstanı əyani misal kimi göstərmək mümkündür. Çünki bu ölkədə istər yerli sahibkarlar, istərsə də xarici sahibkarlar üçün nəzərdə tutulmuş xüsusi güzəşt şərtləri mövcuddur. İnvestisiya nəticəsində hər hansı mehmanxananın inşası həyata keçirilibsə, bu obyektə və həmin sahibkara dövlət dəstəyi olaraq ilk 3 il müddətində vergidən kənar olur. Bunun səbəbi kimi turizmə qoyulan investisiyanın qazanc olaraq geri dönmə müddətinin digər sahələrlə müqayisədə daha gec reallaşmasıdır. Nəticədə bu müddət ərzində istənilən müəssisə özünə xas olan problemləri aradan qaldırmaqla yanaşı, reklam və tanıtım işlərinə, bazarın araşdırılmasına, gələcəkdə strategiyaların hazırlanmasına, işçi heyətin maaşlarının ödənilməsinə və aşağı məbləğdə də olsa, sahibkarın daha artıq qazanc əldə etməsinə səbəb olacaq.

Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda müxtəlif istiqamətli ictimai iaşə müəssisələrinin tikilməsi ərazidə insanların sosial həyat tərzlərinə də müsbət təsir göstərir. Belə ki, müxtəlif təyinatlı müəssisələrə daima səyahət etmək istəyən insanların sayı çoxalır, hətta region daxilində də insanlar həmin ərazilərə gedərək maddi vəsait xərcləyirlər. Həmçinin, turistlərin məkan seçimində kütləvi turizmin rol oynaması ilə yanaşı, insanların azlıq təşkil etməsi və ərazinin daha sakit olması da tələblərin formalaşmasına təsir göstərir. Çünki müəyyən turistlər əyləncə xarakterli ərazilərə gedəcəyi zaman insanların kütləvi formada istirahətinə üstünlük verir. Bu istiqamətdə olan bazarları araşdıraraq hədəf qruplar seçib onları Gəncə-Qazax iqtisadi-coğrafi rayonuna cəlb etmək lazımdır.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Azərbaycanda turizm (statistik məcmuə) / tərt. et. T.Budaqov. – Bakı: DSK, – 2021. – 99 s.
2. Bahar, O. Turizm ekonomisi / O.Bahar, M.Kozak – Eskişehir: Anadolu Universitesi, – 2013. – 201 s.
3. Çeken, H. Turizmin bölgesel kalkınmaya etkisi üzerine teorik bir inceleme. / H. Çeken. – Stanbul: Afyon Kocatepe Universitesi, – c. 10. –2008. – 360 s.
4. İsmayılova, E.Ə. Ölkənin təsərrüfat sistemində turizm-rekreasiyanın rolu // –Bakı: Coğrafiya: nəzəriyyə, praktika və innovasiya, 2015. – s. 514-519
5. Uluçeçen, T.H. Özel ilgi turizmi: kapsamı, çeşitleri ve Türkiye'de uygulanabilirliği / T.H.Uluçeçen, – Ankara: – 2011. – 137 s.
6. Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. – Bakı, 2014. URL: www.e-qanun.az/framework/27284

Hafizə QULİYEVA
Azərbaycan Turizm və Menecment Universiteti,doktorant
hafiza.guliyeva84@gmail.com

AZƏRBAYCAN CƏMİYYƏTİNDƏ YENİYETMƏLƏRİN ŞƏXSİYYƏT KİMİ FORMALAŞMASININ ƏSAS AMİLİ

THE MAIN FACTOR OF THE FORMATION OF TEENAGERS AS PERSONALITIES IN AZERBAIJANI SOCIETY

ГЛАВНЫЙ ФАКТОР ФОРМИРОВАНИЯ ПОДРОСТКОВ КАК ЛИЧНОСТЕЙ В АЗЕРБАЙДЖАНСКОМ ОБЩЕСТВЕ

Xülasə: *Məqalədə yeniyetmələrin cəmiyyətimizdə şəxsiyyət kimi formalaşmasında ailə, təhsil müəssisəsi və ətraf mühitin rolu təhlil edilib.*
Açar sözlər: *yeniyetmələk dövrü, yeniyetmə, çətin yeniyetmə, şəxsiyyət, frustrasiya halı.*

Резюме: *В статье анализируется роль семьи, образовательного учреждения и окружающей среды в формировании подростков как личности в нашем обществе.*
Ключевые слова: *подростковый возраст, отрочество, трудный отрочество, личность, состояние фрустрации.*

Summary: *The article analyzes the role of the family, educational institution and the environment in the formation of adolescents as individuals in our society.*
Keywords: *adolescence, teenager, difficult teenager, personality, state of frustration Teenager.*

Yeniyetmələk dövrü somatik dəyişikliklərlə başlayan, bir sıra problemlərlə üzləşən və gəncin yetkinliyinin qazanması ilə sonlanan keçid dövrdür. Bu dövrü uşaqlıqla böyüklük arasında yer alan ruhi inkişaf və həyata hazırlıq müddəti kimi qeyd etmək olar. Bu dövr özünün praktik əhəmiyyəti, pedaqoji çətinlikləri, xarici görnüşündəki gözə çarpacaq yenilikləri, mənəvi inkişafındakı dəyişiklikləri və şəxsiyyətinin inkişafında formalaşan psixoloji problemləri ilə diqqəti cəlb edir. Müasir ədəbiyyatda yeniyetmə şəxsiyyətinin formalaşmasına təsir edən üç növ faktor vardır: ailə, məktəb, ətraf mühit.

Azərbaycan cəmiyyətində ailə faktoruna nəzər salsaq görərik ki, ailə münasibətləri yeniyetmə üçün, onun şəxsiyyət kimi formalaşması üçün ən böyük tərbiyəvi əhəmiyyətə malikdir. Ailə-sosial mövqenin formalaşmasına təsir edən ən vacib amil hesab olunur. Demək ki, insan-fərd bir varlıq kimi inkişaf edərək formalaşır. Azərbaycan Respublikasında Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, S.İ.Seyidov, M.Ə.Həmzəyev, R.Cabbarov və başqalarının yeniyetmələk dövrü ilə bağlı geniş araşdırmaları olmuşdur. Azərbaycan alimi M.Əfəndiyev də öz elmi tədqiqat sahəsində ailəni yalnız ərarvad münasibətləri kontektində deyil, valideyn-övlad münasibətlərini qabartmışdır (1). Bu dövrü həm yeniyetmə, həm də onun ailəsi üçün gərgin bir mərhələdir. Bu dövrdə ailə övladını başa düşməkdə çətinlik çəkirsə, yeniyetmə ətrafındakıların onu başa düşmədiyini düşünür. Valideyn bu dövrdə övladını nə qədər tanıyarsa və bu mərhələnin xüsusiyyətlərini nə qədər mükəmməl bilərsə, valideyn-yeniyetmə münasibətləri bir o qədər uğurlu olar. Bu mərhələdə emosionallıq, oyanıqlıq, fəallıq, aktivlik daha çox özünü göstərir. Bu dönəmdə yeniyetmə həssas olur və müstəqil olmağa can atır. Yeniyetmələr təkcə ailəsiylə deyil, dostları, sinif yoldaşları, ətrafındakı digər insanlarla da ünsiyyət problemləri yaşaya bilirlər. Çünki bu yaş dövründə onlar məğlubiyyəti qəbullana bilmirlər. Yeniyetmə üçün məğlubiyyət böyük bir faciə, həyatlarında dərin iz buraxan travma olur. Yeniyetmələrdəki aqressiyanın təzahürünə təkcə uşağın inkişafında olan problemlər deyil, həm də situativ amillər də təsir göstərə bilər. Məsələn: bu başqalarının yeniyetmələrə verdiyi qiymət, qisas almaq və ya nəyin isə qarşılığını vermək arzusu ilə bağlı meydana çıxa bilər. Bu zaman aqressiya bir çox hallarda ətrafdakıların davranışına cavab reaksiyası və ya "qisas" arzusu ilə bağlı ola bilər. Əgər yeniyetmənin aqressiv hərəkətə cavab vermək imkanı olmursa, nəticədə yeniyetmədə frustrasiya halı yüksəlir, lakin aqressiv motivin səviyyəsi ləngiyir. Frustrasiya – (lat. frustratio – "uğursuzluq",

“əsassız gözləmə”, “fikirlərin qarışması”) – insanın öz həyatı məqsədlərinə çatmasına maneçilik törədən real və xəyali maneələrlə qarşılaşdığı zaman düşdüyü psixi durumdur (5). Onlara aşılanmalıdır ki, hər kəs həyatda məğlubiyyətə də qalibiyyətə olduğu kimi hazır olmalıdır.

Hal-hazırda ailələrdə eyni bir tərbiyə xəttinin olmaması, uşaqları valideynlərdən biri tərəfindən, ən çox da ana tərəfindən böyüdülən ailələrdə, yeniyetmələrə lazımi nəzarətin çatışmazlığı, ona qarşı mənəvi dəstək, qayğı, diqqət defisitliyinin yaranması son nəticədə yeniyetmənin şəxsiyyət kimi formalaşmasına mənfi təsir göstərir. Bəzən ailələrdə valideynlər spirtli içkilərdən sui-istifadə edir, əxlaqsız həyat tərzi keçirir, övladı üçün pis nümunə olur və tədricən usaqları eyni həyata çəkirlər. Yeniyetmə böyüklərin necə hərəkət etdiyini görür və onları təqlid etməyə çalışır. Böyüyən gənc oğlan və ya qız, bəlkə də, bunu etməyin mümkün olmadığını başa düşməyə başlayır və artıq valideynlərinin onun üçün mənəvi ideal olmadığını aydın şəkildə başa düşür. Yaranan və möhkəmlənən davranış stereotipi vərdişə çevrilir, xarakter xüsusiyyətinə çevrilir. Adətən belə uşaqlar tərbiyəsiz, rüsvayçı, işə laqeyd münasibət bəsləyən insanlar kimi böyüyürlər. Bir qayda olaraq, belə yetkinlik yaşına çatmayanlar dostluq, cəsarət, müstəqillik haqqında yanlış təsəvvürlərə malikdirlər və digər yeniyetmələrə nisbətən daha tez-tez cinayətlər törədirlər. “Çətin” yeniyetmələri araşdırarkən məlum olur ki, onların böyük əksəriyyəti qeyri-funksional ailələrdə yaşayır. Adətən tək valideynli, dağılmış, natamam ailələrdə digərlərə nisbətdə daha çox normadan kənara təhrif olunmuş davranışlı yeniyetmələr yetişir. Yeniyetmənin natamam ailədə yaşaması kimi bir xüsusiyyətin kriminogen əhəmiyyətini inkar etmədən vurğulamaq lazımdır ki, bir çox “çətin” yeniyetmələr normal maddi-məişət şəraiti olan formal olaraq tam ailədə böyümüşlər. Deməli həlledici olan ailənin mövqeyi və tərkibi deyil, ailə üzvləri, onların başqaları ilə, böyüklər və uşaqlar arasında inkişaf edən münasibətlərdir. Yeniyetmələrin vəziyyətini son dərəcə çətinləşdirən ailələrdəki qeyri-funksional münasibətlərdir.

Bəzi ailələr də var ki, valideynlər yanlış tərbiyə üsullarını seçirlər və ya uşaqların daxili dünyasına biganədirlər: uşaqlıqdan uşaq üçün hər şeyi edirlər, onun bütün istək və şıltaqlıqlarını təmin edirlər ki, bu da bir növ uşağın qürur və ləyaqətinə qəsddir. Aztəminatlı ailələr kateqoriyası da var ki, belə bir ailədə böyüyən yeniyetmə başqalarına nisbətən “daha təvazökar” geyindiyindən ağrılı şəkildə narahatdır, bunun nəticəsində uşaqda tez-tez “alçaqlıq” kompleksi özünü göstərir. Bu amillərin digər hallarla birlikdə olması yeniyetməni cinayət törətməyə vadar edə bilər.

Məktəb faktoruna diqqət etsək, burada onlar müəllimlər, sinif yoldaşları və “çətin” yeniyetmələr arasında aparıcı münasibətlər, sonuncuların öyrənməyə münasibəti kimi çıxış edirlər. Psixoloqlar belə bir qənaətə gəlmişlər ki, yeniyetməlik yaşı dövründə özünəməxsus “əxlaq məcəlləsi” əmələ gəlir. Bu “məcəllə” onların yoldaşlıq münasibətlərini tənzim etdiyi üçün onu “yoldaşlıq məcəlləsi” adlandırırlar. Bu “məcəlləyə” görə yoldaş yoldaşının hörmətini saxlamalı, qayğısına qalmalı, ona lazım olduğu anda kömək etməli dostunu müdafiə etməlidir. Professor Ə.Əlizadənin qeyd etdiyi kimi, hörmət, qayğı, müdafiə anlamlarının yeniyetmələr üçün öz yozumu, öz mənası, öz təfsiri var. Bu yozuma görə dərs vaxtı, imtahan zamanı yoldaş yoldaşa yeri gələrsə köçürməyə şərait yaratmalı, nəyin bahasına olur-olsun onun tərəfini saxlamalıdır. “Yoldaşlıq məcəlləsində” məhz bu cür sərt “sanqsiyalar” əsas yer tutur(4).

Y.A.Komenski “Böyük didaktika” adlı əsərində yazırdı: “Bizə təbiət əxlaqı verirsə də, biliyi və xeyirxahlığı vermir”. Komenski şəxsiyyətin inkişafı üçün məktəb, təlim-tərbiyə işini təkmilləşdirməyi, təlimin insan tərbiyəsi üzərində ciddi çalışmasını zəruri bilirdi (2). Bəzi pedaqoqların çətin yeniyetmələrlə münasibəti pis davranışa bəhanə olan səbəbləri aradan qaldırmaqdansa, onu yatırtmaq istəyi ilə xarakterizə olunur. Müəllimlər tərəfindən yeniyetmələrin mürəkkəb emosional təcrübələrini görmək qabiliyyətinin olmaması və bəzən istəməməsi, öz növbəsində, öz iradəsini və kobudluğuna səbəb olur. Müəllimlərlə konflikt münasibətləri çətin yeniyetmələrin tez-tez sinifdə özlərini təcrid etmələri, özlərini yad kimi hiss etmələri, bir qayda olaraq, çətin yeniyetmələrin yaxşı oxumaması ilə kəskinləşir. Çətin yeniyetmələrin sinifdə təcrid olunması onların cinayət yoluna düşməsini şərtləndirən əsas səbəblərdən biridir.

Üçüncü sosial amil “ətraf mühit”dir. Yeniyetməlik dövrünün açıqlamasında görkəmli psixoloq A.N.Leontyevin “uşağın psixi inkişafının hərəkətverici qüvvəsi onun ictimai münasibətlər sistemində tutduğu real yerin dəyişməsidir” müddəası çox böyük əhəmiyyət kəsb edir (3). Ailədə və məktəbdə dəstək və diqqət tapmayan azyaşlı, ünsiyyət ehtiyacını ödəyə biləcəyi başqa mikrosfera

axtarır. Yeniyetmə, bir qayda olaraq, küçədə ünsiyyət çatışmazlığını kompensasiya etməyə çalışır. Əgər burada o, "pis" təsir altına düşərsə, o zaman onun formalaşması mənfi xarakter ala bilər. Bir qayda olaraq, belə yeniyetmələrin daimi maraqları və hobbiləri yoxdur, idman və digər dərnək və seksiyalarla məşğul olmurlar, məqsədsiz əyləncələrə məhkumdurlar. Böyüklərin onlara nəzarəti olmadığından yeniyetmələr bir-birlərində dayaq tapırlar, ayrı-ayrılıqda hər biri bəlkə də heç vaxt inciklik etməzdi, amma "hamının" bunu etdiyini görüb, yoldaşların gözündə etibarsız, qorxaq sayılmamaq, onları itirməmək üçün "hamı kimi" davranır.

Bundan əlavə, yetkinlik yaşına çatmayan cinayətkarların heç də hamısı cinayət qanununun əhəmiyyətini dərk etmir. Yeniyetməni onun vurduğu zərər maraqlandırmır, o, sadəcə diqqəti cəlb etməyə, "böyük" olduğunu sübut etməyə çalışır. Çox vaxt onlar öz hərəkətləri nəticəsində yaranan və ya yarana biləcək nəticələrin ciddiliyini dərk etmirlər. Yetkinlik yaşına çatmayanlar cinayət törədərkən onların əməllərinə görə məsuliyyət daşıyacaqlarını düşünmürlər.

Beləliklə, hər bir yeniyetmə fərdi xarakterə və həyat təcrübəsinə malikdir; bütün bu hallar nəzərə alınmalı və onlardan asılı olaraq yetkinlik yaşına çatmayanlarla işin taktikası qurulmalıdır.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Əfəndiyev M.Ə. Sosiologiya. Bakı: Bakı Universiteti, 2009, 520 s. , s.356
2. Mehriban Şirzadova. Y.A. Komenskinin "Ana qucağı məktəbi" əsəri və onun əsas ideyalarının Azərbaycanda yayılması. Bakı: Elm və təhsil, 2018.
3. Ə.Ə.Qədirov, İ.N.Məmmədov, Yaş psixologiyası (dərs vəsaiti), Bakı,"Maarif", 1986. səh.200-202
4. S.İ.Seyidov və M.Ə.Həmzəyev Psixologiya Bakı 2007. səh.474
5. The frustration–aggression hypothesis. Miller, N.E. Psychological Review. Vol 48(4), Jul 1941, 337-342.

Ayxan QƏHRƏMANOV
Azərbaycan Turizm və Menecment Universiteti, doktorant
ayxanshahbazoglu@mail.ru

AZƏRBAYCAN AİLƏLƏRİNDƏ UŞAQLARA QARŞI ZORAKILIQ HALLARININ ARADAN QALDIRILMASI YÖNÜNDƏ PROFİLAKTİK TƏDBİRLƏR

PREVENTIVE MEASURES TO ELIMINATE VIOLENCE AGAINST CHILDREN IN AZERBAIJANI FAMILIES

ПРОФИЛАКТИЧЕСКИЕ МЕРЫ ПО ИСКОРЕНЕНИЮ НАСИЛИЯ В ОТНОШЕНИИ ДЕТЕЙ В АЗЕРБАЙДЖАНСКИХ СЕМЬЯХ

Xülasə: *Məqalədə ailədaxili uşaqlara zorakılıqla bağlı dünyadakı statistik məlumatlar təqdim olunur. Bu məsələnin Azərbaycan hökümətinin diqqət mərkəzində olduğu qeyd edilir. Lakin, həm hüquqi, həm də cəmiyyətdəki streotiplər səbəbindən ailədə uşaqlara qarşı zorakılıq problemi həll olunmaz və həssas mövzu olaraq qalmaqdır. Məqalədə Azərbaycan ailələrində uşaqlara qarşı zorakılıq hallarının aradan qaldırılmasına dair dövlət siyasəti və profilaktik tədbirlər barədə ətraflı məlumat verilir.*

Açar sözlər: *ailə, uşaq zorakılığı, uşaq hüquqları, Azərbaycan, dövlət siyasəti.*

Summary: *The article presents the world's statistics on domestic violence against children. It is reported that this issue is in the focus of attention of the Azerbaijani government. However, due to legal and social stereotypes, the problem of violence against children in the family remains an unresolved and painful problem. The article provides detailed information on state policy and preventive measures to eradicate violence against children in Azerbaijani families.*

Key words: *family, child violence, children's rights, Azerbaijan, state policy.*

Резюме: *В статье представлены мировые статистические данные о домашнем насилии в отношении детей. Сообщается, что этот вопрос находится в центре внимания правительства Азербайджана. Однако из-за правовых и социальных стереотипов проблема насилия в отношении детей*

в семье остается нерешенной и болезненной проблемой. В статье представлена подробная информация о государственной политике и превентивных мерах по искоренению насилия в отношении детей в Азербайджанских семьях.

Ключевые слова: *семья, детское насилие, права детей, Азербайджан, государственная политика.*

Birləşmiş Millətlər Təşkilatının Uşaqlara qarşı zorakılıq tədqiqatının (UNVAC) nəticələrinə görə, hər il bütün dünyada 150 milyon qız və 73 milyon oğlan uşağı zorakılığa və istismara məruz qalır. Bunları törədənlər ümumiyyətlə uşaqların ailə daxilində və ya ailəyə yaxın olan insanlarıdır. 133 ilə 250 milyon arasındakı uşağın ailə daxilində zorakılığa məruz qaldığı təxmin edilməkdədir. Bundan başqa, hər il 50 mindən çox uşaq öldürülməkdədir. Zorakılıq nəticəsində xəsarət alan uşaqların sayı 1-2 milyon nəfər arasındadır. Dünyanın bir çox yerində uşaqlar fiziki və cinsi zorakılığa məruz qalırlar. Qızlar oğlanlara nisbətən cinsi zorakılığa daha çox məruz qalırlar. Az inkişaf etmiş 40 ölkədə 18 yaşına çatmamış qız və oğlanlar ailələrinin verdiyi qərarlarla evləndirilməkdədirlər. Asiya qitəsində hər il uşaqların 13%-i ölməkdədir. Asiyada 13,4 milyon, Afrikada isə 1,7 milyon uşaq qida çatışmazlığından əziyyət çəkməkdədir. [6]

Uşaqlara qarşı hər cür zorakılıq və istismara sənaye cəhətdən inkişaf etmiş ölkələrdə də rast gəlinir. İnkişaf etmiş ölkələrdə hər il 15 yaşa qədər təxminən 3500 uşaq fiziki zorakılıq və baxımsızlıq səbəbiylə ölür. Almaniya və İngiltərədə həftədə 2, Fransada 3, Yaponiyada 4, ABŞ-da isə həftədə 27 uşaq zorakılıq və baxımsızlıqdan ölməkdədir. İnkişaf etmiş ölkələrdə uşaqlara qarşı zorakılıq və istismar əsasən, yoxsulluq, psixoloji çətinliklər, alkoqol və narkotik maddələrdən sui-istifadə ilə sıx bağlı olduğu məlum olmuşdur.[7] Gəlir səviyyəsinin artması və ya azalması, sosial və iqtisadi dəyişikliklər, rifah səviyyəsi, qadınların iş həyatında iştirakı da uşaqlara qarşı zorakılığın azaldılması və ya artması faktorudur. Bu məlumatlara görə, uşaqlara qarşı zorakılıq probleminin, qlobal problem olduğu görünür. Ölkələrin zəngin və ya kasıb olmasından asılı olmayaraq, uşaqlara qarşı zorakılığa hər ölkədə rast gəlinir. [8]

Azərbaycan cəmiyyətində uşağa, qadına və ahıla hörmət təməl dəyərlərdən olub, xalqımızın əxlaqının, dini etiqadının və mentalitetinin dərin qatlarına söykənir. Uşaqlara qarşı hər bir zorakılıq halı, o cümlədən məişət zorakılığı halları cəmiyyət tərəfindən həmişə mənfi qarşılanıb. Cəmiyyətin bu bəlaya aşkar mənfi münasibətinə və dözümsüzlüyünə, son illərdə dövlət və qeyri-hökumət təşkilatlarının bu sahədə həyata keçirdiyi tədbirlərə baxmayaraq, ölkəmizdə də uşaqlara qarşı zorakılıq hallarının mövcudluğu qaçılmazdır və hüquqi müstəvidə bu hallarla mübarizəni gündəmə gətirir.

2021-ci ildə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin məlumatına əsasən ailə münaqişəsi ilə bağlı törədilən cinayətlər 15,5% artaraq 283 fakt ailə-məişət münaqişələri zəminində baş vermişdir. [9]

Zorakılığın qarşısının alınması yolunda hüquq mühafizə sisteminin, qəyyumluq və himayə orqanlarının, sosial və pedaqoji dairələrin, tibbi və psixoloji xidmətlərin əməkdaşları cəlb edilməlidirlər. Bu sahədə səmərəli işin təşkili üçün tibb, polis və sosial xidmətlər arasında informasiya mübadiləsi vacibdir.

Öncəliklə qeyd etmək lazımdır ki, 20 noyabr 1989-cu ildə BMT-nin Cenevrə Uşaq Hüquqları Konvensiyası qəbul edildi. Bu konvensiya BMT-yə üzv olan iki dövlət istisna olaraq (ABŞ və Somali), yerdə qalan 193 ölkə tərəfindən qəbul edilmişdir. Cenevrə Bəyannaməsində uşaqların təbii inkişaf etməsinə şərait yaradılması, ac uşaqların qidalandırılması, xəstə uşaqların müalicə edilməsi, kimsəsiz uşaqların qorunması, fəlakətlər zamanı uşaqlara köməkdə üstünlük verilməsi, uşaqların hər cür zorakılıqdan qorunması və tərbiyəsi lazım olduğu bildirilmişdir.[5] Bu bəyannamə Azərbaycan tərəfindən də təsdiqlənmişdir. 1992-ci il iyulun 21-də Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqları haqqında Konvesiyasına qoşularaq, konvensiyadan irəli gələn öhdəliklərə əməl etməyə başlamışdır.

19 may 1998-ci ildə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev tərəfindən Azərbaycan Respublikasının Konstitusiyasına, Uşaq Hüquqları Bəyannaməsinə, Uşaq Hüquqlarına dair Konvensiyaya və digər beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycan Respublikasında uşaqların hüquqlarını və azadlıqlarını, uşaqlar barəsində dövlət siyasətinin əsas prinsiplərini, onların müdafiəsi sahəsində dövlət orqanlarının, digər hüquqi və fiziki şəxslərin vəzifələrini müəyyən edən "Uşaq Hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu" təsdiqlənmişdir.[1]

Həmçinin 22 iyun 1999-cu ildə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev tərəfindən valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların, habelə onların arasından 23 yaşınadək olan şəxslərin sosial müdafiəsi üzrə dövlət təminatının məzmununu, tədbirlərini müəyyən edən, həmin təminatın verilməsi və həyata keçirilməsi ilə əlaqədar yaranan münasibətləri tənzimləyən "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanunu" təsdiqlənmişdir.[2]

Bununla yanaşı, 2000-ci ildən qüvvəyə minmiş Ailə Məcəlləsində valideynlik hüququndan məhrumetməyə əsas olan halların siyahısı genişləndirilmişdir. Məcəlləyə əsasən, məhkəmə belə işlərə baxarkən valideynlər tərəfindən öz vəzifələrinin yerinə yetirilməməsi, alimentin qəsdən ödənilməməsi, valideynlik hüququndan sui-istifadə edilməsi, uşaqlara qarşı ailədaxili zorakılığın törədilməsi, uşaqların və ya ərinin (arvadının) sağlamlığına və ya həyatına qarşı qəsdən edilmiş cinayətin törədilməsi və s. halları nəzərə almalıdır.

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nda və Azərbaycan Respublikası Prezidentinin 24.11.2011-ci il tarixli 537 nömrəli Fərmanının 1.2.8-ci və 1.3.3-cü bəndlərinin icrasının təmin edilməsi üzrə Səhiyyə Nazirliyinin 15.02.2012-ci il tarixli 13 nömrəli əmri ilə təsdiq edilmiş " Məişət zorakılığının qarşısının alınması üzrə Azərbaycan Respublikası Səhiyyə Nairlyinin Tədbirlər Planı"nada zorakılıqla mübarizənin gücləndirilməsi, zorakılıq qurbanları üçün hüquqi müdafiə vasitələrinin, zəruri kompensasiyanın, reabilitasiyanın, tibbi və psixoloji yardımın təmin olunması, bu sahədə geniş maarifləndirmə işinin təşkili nəzərdə tutulmuşdur.[3]

Azərbaycan Respublikası Prezidentinin 6 fevral 2006-cı il Fərmanı ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ailə, qadın və uşaq problemləri ilə iş sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

Habelə, 2011-ci ildə qəbul edilən "Sosial xidmət haqqında" Azərbaycan Respublikası qanunun tətbiqi sayəsində məişət zorakılığından əziyyət çəkən şəxslərə sosial, tibbi, hüquqi və psixoloji yardımın göstərilməsi məqsədilə icma əsaslı xidmətlərin yaradılması daha geniş vüsət almağa başlamışdır.[4]

Qanunvericiliyə müvafiq olaraq uşaqlara qarşı ailədaxili zorakılığın qarşısının alınmasını yerli icra hakimiyyəti orqanları, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi, Ədliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Təhsil Nazirliyi həyata keçirir.

Dövlət siyasətiylə yanaşı, ölkəmizdə ailədaxili uşaqlara qarşı zorakılığın qarşısının alınması istiqamətində valideyn önəm daşıdığı kimi, psixoloqların, psixiatrların, sosial işçilərin, sosioloqların, müəllimlərin və.s mütəxəssislərin kompleks tədbirlər görməsi zərurət daşıyır.

İlk olaraq qeyd edilməlidir ki, Azərbaycan uşaqların hüquqları istiqamətində sosial xidmətlər genişlənməlidir. Həssas ailələrlə mütəmadi olaraq işlər aparılmalıdır. Belə ailələrdə psixoloqların sosial fəaliyyətinin gücləndirilməsi, sosial işçilərin mövcud sosial durumu qiymətləndirməsi üçün şəraitin yaradılması zərurət daşıyır.

İkinci istiqamətdə uşaqların ən çox vaxt keçirdiyi digər məkan tədris müəssisələridir. İlk olaraq müəllimlərlə iş aparılmalı, uşaqlarda zorakılıq hallarının aşkarlanması yolunda profilaktik tədbirlər həyata keçirilməlidir. Zorakılığa məruz qalan uşaq bu faktı gizlədə bilər. Çünki uşaq düşünür ki, o, bunu desə, yalançı adlandıracaqlar. Ona qarşı cinayət törədən, zorakılıq edən hər bir şəxs "sənə kim inanacaq" deyərək ona psixoloji təzyiq edir. Ailə və qurumlar birlikdə əməkdaşlıq edərsə, problem həll yolunu tapacaq.

Digər tərəfdən, belə uşaqların yenidən cəmiyyətə qaytarılması üçün addımlar atılmalıdır. Bu baxımdan, xüsusi anonim psixoloji yardım otaqlarının yaradılması, reklam xarakteri daşımayan sosial çarxların KİV-də mütəmadi olaraq verilməsi, televiziyalarda mənəvi verilişlərin təşkili, valideyn-övlad münasibətlərini əks etdirən kitabların yazılması və təmannasız paylanması, ailədaxili münasibətləri tənzimləmək üçün marifləndirmə işlərinin aparılması və.s zərurət hesab edilir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Uşaq Hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu.
2. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanunu.
3. Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı.
4. Sosial Xidmət haqqında Azərbaycan Respublikasının qanunu.
5. BMT-nin Uşaq Hüquqları Konvensiyası.
6. The State Of The World's Children, 2007: 3-4
7. The State Of The World's Children, 2007: 4-6
8. Hawkins, 2003, 174-175.
9. https://www.mia.gov.az/index.php?/az/content/30024/

Cəmilə AĞAYEVA
Azərbaycan Turizm və Menecment Universiteti, magistr
cagayeva866@gmail.com

TURİZM SAHƏLƏRİNDƏ MALİYYƏ UÇOTUNUN TƏŞKİLİ PROBLEMLƏRİ

ORGANIZATIONAL PROBLEMS OF FINANCIAL ACCOUNTING IN TOURISM

ПРОБЛЕМЫ ОРГАНИЗАЦИИ ФИНАНСОВОГО УЧЕТА В ТУРИЗМЕ

Xülasə: *Müasir iş dünyasında müəssissələr rəqiblərindən üstün olmaq və geridə qalmamaq üçün daim yeniliklərdən xəbərdar olmalı və dəyişikliləra hazırlıqlı olmalıdırlar.Turizm sahəsinin uğurlu strategiya ilə idarə olunmasında əsas göstəricilər: etibarlı iş mühiti və düzgün mühasibat uçotu hesabatlarının hazırlanmasıdır. Ümumiyyətlə turizm yerli əhalinin məşğulluğunu, mehmanxanaların, restoranların tərəqqisini, əyləncə tədbirlərində iştirakını, valyuta axınını təmin edən bir çox ölkələrin iqtisadiyyatının mühüm tərkib hissəsidir. Qloballaşan iqtisadi və biznes mühiti daxilində, mühasibat uçotunun auditi tədqiqatçılar üçün mühüm əhəmiyyətə malikdir. Çünku onlar audit rəyi əsasında müəssisənin maliyyə quruluşu barədə dəqiq və əhatəli məlumata sahib olurlar. Bu məruzənin tərtib olunmasının məqsədi turizm müəssisələrində mühasibat uçotunun beynəlxalq səviyyədə əhəmiyyətini göstərmək və bu sahənin inkişaf meyllərini müəyyən etməkdir.*

Açar sözlər: *Turizm, iqtisadiyyat, biznes, maliyyə, mühasibat uçotu.*

Summary: *In today's business world, businesses need to be constantly aware of innovations and prepared for change in order to stay ahead of their competitors and keep up with the changes.Generally, local tourism, it is an important part of the economy of many countries, providing employment, the development of hotels, restaurants, participation in entertainment events, foreign exchange inflows.In a globalized economic and business environment, auditing accounting is important for researchers. Because they have accurate and comprehensive information about the financial structure of the enterprise of the basis of the audit opinion. The purpose of this report is to demonstrate the international importance of accounting in tourism enterprises and to identify development trends in this area.*

Keywords*: Tourism, economy, business, finance, accounting.*

Резюме: *В современном деловом мире предприятиям необходимо постоянно быть в курсе инноваций и быть готовыми к изменениям, чтобы опережать своих конкурентов и быстро реагировать изменениям. Туризм является важной частью экономики многих стран, обеспечивая занятость местного населения, развитие отелей, ресторанов, участие в развлекательных мероприятиях, приток иностранной валюты для страны. В условиях глобализации экономики и бизнеса бухгалтерский и аудиторский учет важен для исследователей. Потому что они имеют точную и исчерпывающую информацию о финансовой состоянии предприятия на основе заключения аудитора. Цель данного отчета – продемонстрировать международное значение бухгалтерского учета на туристических предприятиях и выявить тенденции развития в этой области.*

Ключевые слова: *туризм, экономика, бизнес, финансы, бухгалтерский учет*

Mövcud iqtisadi sistemdə turizmin inkişaf vəziyyəti nəzərdən keçirək.

Bir çox maliyyə və mühasibat tədqiqatçıları, maliyyə hesabatlarının keyfiyyət üstünlüklərini araşdırmış, eyni zamanda maliyyə hesabatlarının keyfiyyətsizliyinin işin performansına və iqtisadi qərarlara mənfi təsir göstərdiyini tədqiq etmişlər.

Bu gün turizm qlobal iqtisadiyyatda mühüm rol oynayır və yaxın illərdə onun əhəmiyyətinin daha da artacağı gözlənilir.

İqtisadiyyatın və turizmin əlaqəsi mövzusunda iqtisadçılar turizm sənayəsinin iqtisadi əhəmiyyətini vurğulayırlar.

Mövcud iqtisadi sistemdə Azərbaycanın turizm sənayesində hələ də, qapalılıq gerilik və irrasional təşkilati struktur kimi problemlər mövcuddur. Biz əhatə dairəsini genişləndirməli, qabaqcıl texnologiya və avadanlıqlarlı fəal şəkildə tətbiq etməli, bazar iqtisadiyyatı sistemi şəraitində yeni turizm iqtisadiyyatı qurmalıyıq.

Azərbaycanın turizm sənayesi, bu son 5 ildə, illik orta hesabla 4,5-5% nisbətində artım tempini inkişaf eletdirib və milli iqtisadiyyat üçün daha səmərəli addımlar atib. Sənaye anlayışı istehsalçılar tərəfindən başladılır və eyni növ məhsul istehsal edən və ya oxşar xidmətlər göstərən vahidlərin məcmusudur. Turizm sahəsi istehlakçıların tələbi əsasında müəyyən edilən fəaliyyət və xidmət sahəsidir. Bu, turizm sənayesinin özəlliyidir. Turizm tələbi ilə turizm təklifinin qarşılıqlı təsiri turizmin iqtisadi fəaliyyətində bir sıra iqtisadi hadisələr və iqtisadi əlaqələr yaradıb və turizm sənayesi formalaşıb. Otel sənayesi, iaşə sənayesi, nəqliyyat sənayesi, səyahət agentliyi və turistlik yerlərin idarə olunması, o cümlədən turizm agentliyi, otel sənayesi və nəqliyyat sənayesi turizm sənayesinin üç sutunudur. Bütöv turizm fəaliyyətinə-yemək, yerləşdirmə, nəqliyyat, səyahət, alış-satış və əyləncə kimi altı element daxildir. Turizm sənayesi həm də imic sənayesidir. Turizm sahəsi turizm şəhərlərinin iqtisadi artımına və əlaqəli fəaliyyət sahələrinin inkişafına kömək edir, sosial məşğulluq imkanlarını təmin edir, sosial mədəniyyətin və ekoloji mühitin yaxşılaşdırılmasına imkan yaradır, regionlar arasında mübadilə və qarşılıqlı əlaqələri gücləndirir, əhalinin yaşayış keyfiyyətinin yaxşılaşdırılmasına təsir göstərir. Buna görə də turizm regionun iqtisadiyyatı, mədəniyyəti və ətraf mühiti üçün mühüm təbliğat əhəmiyyəti olan bir səhədir.

Ümumi Azərbaycanın turizm sahəsində olan statistik məlumatlarına nəzər yetirsək görərik ki, 2019-cu ildə ölkəmizə gələn əcnəbi turis sayı 3 170 373 nəfər olub. Bu göstərici 2020-ci ildə COVİD-19 pandemiyasi səbəbindən xeyli aşağı düşmüş və xaricdən gələn turistlərin sayı 791 722 nəfər olmuşdur. Belə ki ölkəmizin turizm gəliri 2019-cu ildə 450,2 milyon manat olduğu halda, 2020-ci ildə bu rəqəm 116,8 milyon manata düşüb. [1]

Turizm iqtisadiyyatının inkişafında problemlər və həlli yolları.

Turizm iqtisadiyyatının idarə edilməsi sistemində bir çox ölkə kimi, Azərbaycan Respublikası da islahatların dərinləşməsi istiqamətində, turizm mühitinin və xidmətin keyfiyyətinin yaxşılaşdırılmasına çalışmaq, turizm iqtisadiyyatı konsepsiyasını yeniləşdirmək və inkişaf etdirmək qlobal turizm iqtisadiyyatı modelini fəal şəkildə təbliğ etmək, mədəniyyət və turizm resurslarını tam inteqrasiya etmək, turizm brendinin yaradılmasına diqqət yetirmək kimi turizm iqtisadiyyatının çevrilməsi və inkişafı üçün müvafiq strategiya və təkliflər işlənib hazırlandı.Bir sıra ölkələr kənd turizmini güclü şəkildə inkişaf etdirir, turizm iqtisadiyyatını canlandırır, şəhər və kənd turizm yollarını birləşdirir və turizm xidmət infrastrukturunu yaxşılaşdırır.

Bəzi dövlət idarələri inzibati-nəzarət, hüquq-mühafizə resursları səbəbindən, turizmin inkişafına zəmin yaradılmır. Turizm sənayesinin və turizm iqtisadiyyatının təşviqində kifayət qədər sistemli düşüncə, strateji rəhbər və təlimatların olmaması, dəstəkləyici siyasət sisteminin tam formalaşmaması, sahənin maliyyələşdirilməsinin qeyri-kafi olması, turizm biznes mühitinin, turizm təcrübəsinin, təhlükəsizlik, sağlamlıq, gigiyena və bazarın kifayət qədər olmaması turizmin inkişafında problemlər yaradır.

Kütləvi turizmin ilk dövrlərindən biz turizm üçün obyekt və xidmətlərin inteqrasiyası ideyasının meydana gəldiyini görə bilərik. Şəhər turizminin inkişafının yeni fəaliyyətlər yaratmaqda məqsədi, daha zəif inkişaf etmiş rayonların iqtisadiyyatını bərpa etməkdən ibarətdir. Turizmin canlandırılması prosesi, təbii resurslardan, müəssisə və dövlətlərin imkanlarından və siyasi iradədən aslıdır. Ümümiyyətlə biz turizmin inkişafını araşdırıqsa bunu sadəcə müəssisə və korporativ şirkətlərin gö-

zündən yox turistlərin baxış bucağından da baxmalıyıq. Belə ki, turistin fikrincə, turizm sənaye və məhsul xidmətləri toplusu deyil, təcrübələr toplusudur. Bu təcrübələri paketləmək və təmin etmək turizm sənayesinin funksiyasıdır ki, nəticədə turistlərə müsbət təcrübə təqdim olunur. Turizm sahəsinin və onun elementlərinin geniş strukturunu nəzərə alsaq, onların hər birini sinamağın və əks etdirməyin qeyri-mümkün olduğunu görə bilərik.

Turizmin komponentləri və onların tərkib hissələrini nəzərdən keçirək.

Turizm bildiyimiz kimi, çox geniş və mürəkkəb xidmət sahəsidir. Bu sahənin bir bir sıra kateqoriyaları vardır və onlar bir-biri ilə sıx bağlıdır. Beləki onlara biz vahid sistem kimi baxırıq çox zaman. Tədqiqatçılar, bu sistemin kompleks şəkildə müəyyən edilməsi, təhlili, planlaşdırılması və idarə edilməsinin mümkün olduğu qənaətindədir. Turizmi sosial-iqtisadi fəaliyyət kimi tanıyarkən nəzərdən keçirilir ki, sahənin inkişafı qeyri-iqtisadi məqsədlər üçün də ola bilər və onun faydaları çox vaxt sosial xarakter daşıyır (məsələn: təhsil və istirahət fəaliyyəti). Əksər turizm tədqiqatçıları ümumiyyətlə turistləri cəlb edən üç əsas element olduğu barəsində razılaşırlar. Resurs təhlilində daha çox təbii, tikinti və mədəni resurslar analiz edilir. Təbii və mədəni attraksionlara istinad tədqiqatçılar tərəfindən istinad daha artıqdır. Tikinti resursuna da maraq az deyildir. Tədbirlər və əyləncə müasir turizmdə sürətlə populyarlaşan iki attraksiondur. İndi isə qurduğumuz cədvəldə turizmdə turistləri cəlb edən əsas kriteriyalara baxaq.

Cədvəl 1. Resurslar və onların kateqoriyaları

Resurslar	**Kateqoriyaları**
Təbii resurslar	a) Təbii gözəllik b) İqlim
Sosial resurslar	a) Memarlıq b) Festivallar c) Xalqların adət-ənənələri
Tarixi resurslar	a) Qədim abidələr b) Dini ziyarətgahlar və mərasimlər c) Tarixi məkanlar
Alış –veriş və istirahət resusrları	a) İdman zalları b) Muzeylər, zooparklar, akvariumlar. c) Sağlamlıq və istirahət mərkəzləri
Turizm infrastrukturu	a) Nəqliyyat xidmətləri, kommunal xidmətlər, b) Səhiyyə xidmətləri və sairə.

Potensial turistin gedəcəyi yer haqqında təsəvvürü onun inancları, ideyaları və yer haqqında təəssüratları ilə müəyyən edilir. Bu əslində çoxlu sayda assosiasiyaların və yer ilə əlaqəli məlumatların sadələşdirilməsindən irəli gəlir.

Müasir turizmdə "Qaranlıq Turizm" nədir və onun yaranma səbəbləri nələrdir? Bu məsələlərə diqqət yetirək:

Ən çox istifadə edilən termin "Qaranlıq Turizm" termini olsa da, bunun bu cür səyahəti ifadə etmək üçün düzgün termin olub olmaması ilə bağlı xeyli mübahisələr var. Məsələn, Ashworth və İsaac terminlə bağlı bir neçə məsələyə işarə edir. Onlar iddia edirdilər ki, " Qaranlıq" sözünün Qərb mədəniyyətlərində mənfi mənası var və termini digər ixtisaslara uyğun tərcümə etməkdə çətinliklər yaranır. [3]

Cəmiyyətdə risk, Ulrich Beck-in deyimi ilə desək "təhlükəsizlik anlayışı quyruğunu qova itə bənzəyir". Risklərin mahiyyətini anlamaq üçün professional yanaşma lazımdır. Səyahətin bütün nəsillər arasında getdikcə populyarlaşdığı bir dünyada hələ tam kommersiyalaşdırılmamış ziyarət üçün yeni yerlərə ehtiyac yaranır. Məhz burada qaranlıq turizm, təhlükəsiz və sağlam turizmdən uzaqda sərgüzəştlər yaşamaq istəyən şəxslər üçün şərait yaradır. "Qaranlıq Turizm" termini 1996-ci ildə Seaton tərəfindən "Ölümlə faktiki və ya simvolik qarşılaşma arzusu ilə tam və ya qismən bir yerə səyahət" kimi müəyyən edilmişdir. Foley və Lennon tərəfindən 1996-ci ildə "Həqiqi və əmtəələşdirilmiş ölüm və fəlakət sahələrinin təqdimatını və istehlakını əhatə edən fenomen" kimi qiymətləndirmişdir.

Seaton tərəfindən qeyd edildiyi kimi, "Qaranlıq Turzmin" beş mümkün növü var:

1. Ölümün ictimai qanunlarına şahid olmaq;

2. Ölümün yenidən canlandırılmasına şahid olmaq;
3. Fərdi və ya kütləvi ölümlərin baş verdiyi ərazilərə səyahət;
4. Ölümün simvolik təsvirlərini görmək
5. İnternasiya yerlərinə səyahət.

Qaranlıq turizmi,müharibə turizmi, intihar turizmi, qiyamət turizmi kimi əsas mövzu daxilində xüsusi bir səyahət növünü müəyyən edən bir neçə alt kategoriya var. Hətta səyahətçinin özü də 2006-ci ildə Kuk və Dikson tərəfindən ifadə edildiyi kimi qaranlıq turistlərə təsnif edilə bilər. Müəlliflər qaranlıq turistləri təsnif edən beş kategoriyaya əsaslanan təsnifat təqdim ediblər: a) Qeyri-şəffaf, b) Qaranlıq c) Tünd qaranlıq d) zift qaranlıq e) xaos.

Qaranlıq turizm yeni bir hadisə deyil, bəlkə də turizm tarixindəki ən qədim formalardan biridir. Zorakalıq və ölümlə əyləncə həmişə bir çox insanı cəlb etmişdir. Qədim Romadakı amfiteatrlar məşhur qaranlıq turizm məkanı idi. Qladiatorlar döyüşərək tamaşaçıları əyləndirirdilər, cinayətkarların edam edildiyi və heyvanların ovlanması və öldürülməsi kimi hadisələrdə hər zaman insan iştirakı çox olub.

Lennon və Foley-in fikirlərinə görə, qədim ziyarətlər qaranlıq turizmin ən qədim növü kimi başa düşülə bilər, çünki bir çox ziyarət yerləri əsasən fərdlərin və ya qrupların əzabları və ya ölümləri ilə sona çatib. Buna görə də, qaranlıq turizm müasir turizm inkişaf etməzdən xeyli əvvəl meydana gəlmişdir.

Buna baxmayaraq, dünyanın hər yerində hər gün faciəli hadisələr baş verir. Nəticə etibarilə, ziyarət edilməli olan qaranlıq turizm yerləri hər gün artır və bu, turist turları təklif etmək və belə yerləri tanıtmaq və ya inkişaf elətdirmək etik cəhətdən məqbul-olub olmaması sualını doğurur. Çox vaxt qaranlıq turizm sahələrinə totalitar rejimlərin hökm sürdüyü Şimalı Koreya, Özbəkistan, Qazaxıstan və Türkmənistan kimi ölkələrdə də rast gəlinir.

Dr.D.Wright ölüm və fəlakət hərisliyi artmaqda dəvam edərsə, qaranlıq turizmin gələcəyi daha təhlükəli, barbar və daha qaranlıq ola biləcəyinə inanır. O, daha sonra bildirir ki, gələcəkdə mümkün distopiya dünyasında ölüm "varlı elita üçün əyləncə məhsuluna çevrilə bilər".

1993-cü ildə Birləşmiş Ştatların Holokost Memorial Muzeyi üçün Təqdimetmə Mərasimlərində Holokostdan sağ çıxan Elie Wiesel deyirdi ki: "Ölülər və dirilər üçün biz şahidlik etməliyik". O, izah edirdi ki; "Məncə, muzey insanları bir araya gətirməli, insanları bir-birindən ayırmamalı olan bir yerdir. Müxtəlif üfüqlərdən gələn, müxtəlif sferalara mənsub olan, müxtəlif dillərdə danişan insanlar burada birlik hiss etməlidirlər. Mümkünsə, müəyyən dərəcədə lütflə, bir növ, özümüzü ölülərlə barışdırmağı bacarmalıyıq."

Belə bir sual meydana gəlir. Qaranlıq turizmdən daha yaxşı necə istifadə etmək olar? Bu sualın cavabını araşdıraq.

Getməzdən əvvəl niyyətinizi düşünün. Bu xüsusi yeri niyə ziyarət etmək istədiyinizi düşünmək üçün bir az vaxt ayırın. Bunun sizə necə təsir edə biləcəyini də öz beyninizdə analiz edin. Qaranlıq turizm təcrübələri emosianal cəhətdən cətin ola bilər, ona görə də getdiyiniz yerdə rahat olduğunuzdan əmin olun.

Orda olduğunuz muüddətdə məkana hörmət edin. Davranışlarınıza diqqət edə bilməyiniz üçün yerli adət və ənənələri əvvəlcədən araşdırmaq hər zaman daha yaxşıdır. Fotoşəkillər çəkərkən diqqətli olun. İstismar və ya sensesiya yarada biləcək hər hansı fotoşəkil və ya video çəkilişlərdən qaçının. Səfərinizi maarifləndiri hala gətirməyi hədəfləyin.

Qaranlıq turizmin maliyyələşməsi və ona qoyulan investisiyalar digər turizm növlərinə nisbətən daha artıqdır. Ümumiyyətlə qaranlıq turizm bütün dünyaya yayılmışdır. Dünyada müxtəlif qaranlıq turizm məkanları var, onlardan bir neçəsi aşağıda qeyd olunub.

- Groun Zero- The National September 11 Memoral (ABŞ)
- Dow Hill in Kurseong (Hindistan)
- Hiroshima Peace Memorial Park (Yaponiya)
- Island of the Dolls (Meksika)
- Kuldhara (Hindistan)

Bütün bu məkanlar müvafiq olaraq iqtisadiyyatda və həmin regionun imicinin saxlanmasında mühüm rol oynayır. Qaranlıq turizm- keçmişi, baş verən faciəli hadisələri canlandırır və bunun sa-

yəsində bir bölgə populyarlaşır. Qaranlıq turizm sektoru bu istiqamətlərdən təsirlənir, çünki onlar qaranlıq turizm anlayışını yayaraq çoxlu insan və investisiya cəlb edir.

Biz buraya, qaranlıq turizm məkanlarına Azərbaycanın işğaldan yenicə azad edilmiş torpaqlarını da əlavə edə bilərik. Təkcə yeni azad olunmuş torpaqlari yox, hansı ki, Qarabağ müharibəsi zamanı yaranan fəlakətlərdən biri Gəncədə baş verən terror hadisəsi idi. Ermənistan hərbi qüvvələrinin çox təhlükəli silah olan "TOÇKA-U" raket sistemindən istifadə edərək, Gəncədə insanların sıx yaşadığı ərazini raketə tuttu gecə saatlarında. Bütün bunlara baxmayaraq Qarabağ müharibəsində qalib gəlmənin sevincini yaşadıq lakin xeyli itki və şəhidlər hesabına. Hal-hazırda Qarabağ bölgəsi qaranlıq turizm məkanına çevrilsədə. Aparılan bərpa və quruculuq işləri sayəsində ən çoxu beş il içəsində sağlam, təhlükəsiz turizm məkanına çevriləcəkdir.

Ümumi bir nəticəyə gəldikdə deyə bilərik ki, turizm sahəsi bitməz tükənməz bir səyahətdir. Onu araşdırdıqca daha çox yeniliklər, məlumatlar və terminlər ortaya çıxır. Bütün dünyada hər zaman maraq səbəbi olan bu sahə hər zaman maliyyələşəcək və inkişaf edəcəkdir. Hətta insanların səyahəti artıq sadəcə dünyada deyil, qalaktikanı da əhatə edir və beləliklə kosmik turizm anlayışını meydana gəlir. Turizm var olduqca onun maliyyə, marketing və idarəedilməsi problemləri də yaranacaqdır. Bunun üçün daim araşdırmalı, tədqiq etməli düzgün qərar nəticəsində həll yollarını tapmalıyıq.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Azəybaycan Respunlikasının Dövlət Statistika Komitəsi: s23; s94
2. Chen, S., Wang, S., & Xu, H. (2017). Influence of place identity on residents' attitudes to dark tourism. Journal of China Tourism Research, 13(4), 338–356. doi:10.1080/ 19388160.2017.1401023
3. European languages (Ashworth & Isaac, 2015).
4. Foley, M., Lennon, J.J. (2000): Dark Tourism: The Attraction of Death and Disaster. London: Continuum.
5. Annals of Tourism Research-London 2008.

Aydın QULİYEV
Azərbaycan Turizm və Menecment Universiteti, magistr
Guliyev.aydin.@atmu.edu.az

İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ TURİZM SAHƏSİNDƏ XİDMƏT KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ E-TURİZM XİDMƏTLƏRİNİN ROLU

THE ROLE OF E-TOURİSM SERVİCES İN İMPROVİNG THE QUALİTY OF TOURİSM SERVİCES İN THE LİBERATED TERRİTORİES

РОЛЬ УСЛУГ ЭЛЕКТРОННОГО ТУРИЗМА В ПОВЫШЕНИИ КАЧЕСТВА ТУРИСТИЧЕСКИХ УСЛУГ НА ОСВОБОЖДЕННЫХ ТЕРРИТОРИЯХ

Xülasə: *Günümüzün getdikcə artan rəqabət mühitində turizm biznesi müştərilərinin gözləntilərinə uyğun xidmət keyfiyyəti yanaşmasını mənimsəmək məcburiyyətindədir. Xidmət keyfiyyəti turizm biznesi üçün əvəzsiz rəqabət vasitəsidir. Göstərilən xidmətin müəyyən bir keyfiyyət səviyyəsindən yüksək olması otellərin müvəffəqiyyəti və davamlılığı üçün son dərəcə əhəmiyyətlidir.Məqalədə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində turizm sektorunun inkişafını şərtləndirən amillər təhlil edilmiş, bu ərazilərdə e-turizm xidmətlərinin inkişaf perspektivləri göstərilmişdir.*

Açar sözlər: *xidmət sektoru, turizm, sosial idarəetmə, turizm idarəçiliyi, mövcud problemlər, elektron xidmətlər.*

Summary: *In today's increasingly competitive environment, the tourism business is forced to adopt a service-quality approach that meets the expectations of its customers. Service quality is an invaluable means of competition for the tourism business. The fact that the service is above a certain level of quality is extremely important for the success and sustainability of hotels. The article analyzes the factors determining the development of the tourism sector in the liberated territories of the Republic of Azerbaijan, and shows the prospects for the development of e-tourism services in these areas.*

Keywords: *service sector, tourism, social management, tourism management, existing problems, e-services.*

Резюме: *В сегодняшней все более конкурентной среде туристический бизнес вынужден применять подход, основанный на обеспечении качества услуг, который соответствует ожиданиям его клиентов. Качество обслуживания – бесценное средство конкуренции для туристического бизнеса. Тот факт, что качество обслуживания выше определенного уровня, чрезвычайно важно для успеха и устойчивости отелей. В статье проанализированы факторы, определяющие развитие туристического сектора на освобожденных территориях Азербайджанской Республики, и показаны перспективы развития услуг электронного туризма в этих сферах.*

Ключевые слова: *сфера услуг, туризм, социальный менеджмент, туристический менеджмент, текущие проблемы, электронные услуги.*

Qarabağ bölgəsi Azərbaycanın mədəniyyət mərkəzi, milli mədəniyyətin beşiyi hesab olunur. Hazırda Qarabağda turizmin inkişafı üçün təkliflər hazırlanır. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdikdən və bu ərazilər təhlükəsiz olandan sonra orada turizm marşrutlarını təşkil etmək lazımdır. Azad edilmiş ərazilərdə müxtəlif turizm növlərini inkişaf etdirmək mümkündür. Məsələn, qeyd etməliyik ki, işğaldan azad edilmiş ərazilərdə ekoturizmin inkişafı üçün əlverişli şərait var.

Bu ərazilərdə beynəlxalq mehmanxanalarla yanaşı, ikiulduzlu və çoxulduzlu otellər tikilməlidir. İşğaldan əvvəl Xankəndi, Şuşa, Kəlbəcər və Ağdam Azərbaycanın turizm məkanları kimi tanınmışdır. Sovet ölkələrindən çoxlu turist gəlirdi. Həmin ərazilərdə sanatoriya turizmi də inkişaf etdirilmişdir. Turistlər kurortlarda və evlərdə qalırdılar. Bu, kənd və rayon əhalisinin gəlirlərinin artmasına səbəb olmuşdur. Ona görə də bu ərazilərdə turizmin inkişafı gözlənilir.

Turizm sektorunda xidmət keyfiyyətinin əhəmiyyəti isə verilən xidmət keyfiyyəti ilə üst-üstə düşür. Xidmətin keyfiyyəti, turizm təşkilatlarının nailiyyətləri və onların davamlılığı həyati əhəmiyyət kəsb edir və onun əhəmiyyəti günü-gündən artır.

Turizm sənayesinin strukturu sürətlə inkişaf edir və turistlərin turizm təşkilatlarından gözləntiləri durmadan artır. Turistlərin gözləntilərinin hədsiz olması və rəqabətin artmağa meylli olması turizm sənayesində xidmət keyfiyyəti üçün göstərilən səylərin dəyərini xeyli artırır.

Turizm sektorunda xidmət keyfiyyətinin əhəmiyyəti, xidmət keyfiyyətindəki inkişaflar turizm təşkilatlarına yeni müştəri portfeli gətirəcək, mövcud müştərilərlə iş qabiliyyətini yüksəldəcək, turizm təşkilatını qiymət indeksli rəqabətdən xilas edəcək və turizm təşkilatlarını kompensasiya etmək üçün sərf olunan əmək və xərcləri azaldacaqdır [1, s. 89].

Bölgələrə səfər zamanı ilk növbədə işğaldan azad edilmiş ərazilərimizdə mühüm amil olan tam təhlükəsizlik təmin edildikdən və turizm infrastrukturu və yaşayış kimi müvafiq infrastruktur yaradıldıqdan sonra istirahət səfərləri təşkil oluna bilər.

Qarabağda turizmin inkişafı üçün mövcud turizm potensialı hərtərəfli və ardıcıl şəkildə həll edilməli, torpaqlarımızın maddi-mədəni irsi dəqiqləşdirilməlidir. Bununla bağlı görüləcək işlər arasında yeni turizm marşrutlarının fəaliyyətə başlaması, Qarabağın turizm potensialı ilə bağlı bələdçilərin hazırlanması və nəhayət, Qarabağa xarici turistlərin cəlb edilməsi üçün genişmiqyaslı kampaniyaya başlanılması daxildir.

Tədqiqatçılarda xidmət keyfiyyəti ilə bağlı müxtəlif izahlar verilmişdir.Xidmət keyfiyyəti, turizm təşkilatlarının müştəri hədəflərini təmin etmək və ya bu tələbləri aşma qabiliyyəti olaraq təyin olunur.

Xidmət keyfiyyəti müştərilərin gözləntilərini qarşılamaq üçün üstün və ya mükəmməl xidmətin göstərilməsi kimi müəyyən edilir. Xidmət keyfiyyəti anlayışını daha dəqiq başa düşmək üçün arzu olunan və qəbul edilən xidmət keyfiyyəti anlayışlarına diqqət yetirmək faydalı ola bilər.

İşğaldan azad edilmiş ərazilərdə informasiya və kommunikasiya texnologiyalarında baş verən son inkişaflar turizm sənayesindəki bizneslərə idarəetmə, eləcə də marketinq və tanıtım sahələrində yeni imkanlar təqdim edir və onlara rəqabət üstünlüyü təmin edir [2, s. 116].

Xüsusilə yerləşdirmə müəssisələri, nəqliyyat şirkətləri, turoperatorlar və turizm agentliklərinin informasiya-kommunikasiya texnologiyalarından geniş şəkildə faydalandıqları görünür.

Qloballaşmanın və onun təsirlərinin göründüyü turizm sənayesində bu texnoloji inkişaflarla ayaqlaşmağın bütün müəssisələr üçün keçərli olduğu, lakin xüsusilə kiçik və orta müəssisələrin rəqabət apara bilməsini təmin etmək baxımından bir zərurət halına gəldiyini söyləmək olar.

İşğaldan azad edilmiş ərazilərdə elektron turizm, turistlər və turizm müəssisələri tərəfindən informasiya və kommunikasiya texnologiyalarının mənimsənilməsinin sənayedəki prosesləri və dəyər

zəncirlərini rəqəmsallaşdırdığı tədqiqat sahəsinə aiddir. Bu transformasiya yalnız biznes və ya təşkilat daxilində biznes prosesini dəyişdirmir, həm də biznes mühitini yenidən strukturlaşdırır [2. s. 119].

Ümumiyyətlə, elektron turizm biznes mədəniyyətini artırır. Buna görə də, e-turizm çərçivəsində təqdim edilən daha yaxşı təşkilatdaxili ünsiyyət, qənaət prosedurları və inventar xərclərinin azaldılması kimi faydalar son nəticədə daha yaxşı idarəetmənin formalaşmasına töhfə verir.

Ümumiyyətlə, informasiya və kommunikasiya texnologiyalarının turizm təşkilatlarına uyğunlaşması ilə əlaqədar yaşanan dəyişikliklər [2, s. 189]; Strateji planlaşdırma, maliyyə planlaşdırması, mühasibat uçotu, hesabat və büdcə, rəqabət təhlili, bazar araşdırması, marketinq strategiyası, qiymət qərarları, biznes fəaliyyəti, idarəetmə fəaliyyəti, idarəetmə statistikası, fəaliyyətlərə nəzarət və koordinasiya, insan resurslarının idarə edilməsi, müştəri və əməliyyat məlumatları üçün ümumi məlumat bazası paylaşmaq kimi inzibati məsələləri əhatə edir [2, s. 189 - 190].

Nəticə etibarı ilə, e-turizm idarəçiliyi kontekstində yaşanan problemlərin əsas mənbəyinin məxfilik və təhlükəsizlik təcrübələri olduğunu söyləmək yalnış olmaz. Bu kontekstdə Big Data-nın turizm müəssisələri tərəfindən daha çox seçiləcəyi və daha çox gündəmdə olacağı düşünülür.

Bu məqamda turizm müəssisələri informasiya-kommunikasiya texnologiyaları sahəsində fəaliyyət göstərən şirkətlərlə müqavilələr bağlamalı və problemləri əvvəlcədən müəyyənləşdirməyə çalışmalıdırlar.

Bu təşəbbüslər həm müştəri məlumatları baxımından, həm də təşkilat daxilində məlumat mübadiləsinin qorunması baxımından əhəmiyyətlidir; müştərilərə etibarlılığın təmin olunduğunu görməyə imkan verir.

Əslində, son zamanlar internet saytının tək-tək kopyalanması üsulu ilə birbaşa istehlakçıları hədəf alan hərəkətlərin artdığı görünür. Bu məqamda turizm müəssisələrinin effektiv Search Engine Optimization (SEO) tədqiqatlarına müraciət etməsi vacibdir. O qədər ki, bu halda, müəssisənin korporativ veb saytının axtarış motorlarında ən yüksək mövqelərdə yerləşdirilməsinin qarşısını almaq olar.

Əks halda, yaşanacaq mənfi təcrübələr performans və məşğulluq baxımından müştəri münasibətlərinin idarə edilməsi və reputasiyanın idarə edilməsi kimi faktorlara dolayı təsir göstərə bilər.

Turizm müəssisələrinin texnologiyanın inkişafı ilə insan resurslarının idarə edilməsi kimi mühüm idarəetmə fəaliyyətini rəqəmsal mühitə daşıması da menecerlər üçün rahatlıq yaratmaq baxımından səmərəliliyi təmin edir.

Aydındır ki, bu vəziyyət müvafiq prosesin daha səmərəli fəaliyyət göstərməsinə kömək edir. Bununla belə, informasiya və kommunikasiya texnologiyasındakı bu dəyişikliklərin həm menecerlər, həm də işçilər daxilində nə dərəcədə tətbiq oluna biləcəyi biznes rəhbərliyi tərəfindən müzakirə edilməli və qiymətləndirilməlidir. Çünki bu inkişaf və dəyişikliklər vəzifə təlimatlarında da öz əksini tapır və bu çərçivədə rəhbərlər və işçilər də bu uyğunlaşma prosesinə daxil edilməlidir.

Digər tərəfdən, istedadların idarə edilməsi çərçivəsində e-təhsildən səmərəli istifadəni təmin etməklə, perspektivlər və yanaşmalar həm müəssisədaxili, həm də təşkilatdan kənar təlimlərə yönəldilə bilər.

Bundan əlavə, insan resurslarının idarə edilməsi çərçivəsində işə qəbul çərçivəsində, internet üzərindən iş müraciətləri təqdim etməkdən başqa, ilkin müsahibə və ya müsahibələrin elektron şəkildə aparılması adi hala çevrilə bilər.

Müştəri əlaqələrinin idarə edilməsi kontekstində, eturizm idarəçiliyində şikayətlərin idarə edilməsi və nüfuz idarəçiliyinin təmin edilməsi çox vacibdir. İş o yerə çatıb ki, elektron mühitdə bizneslə bağlı edilən rəy və şikayətlər potensial istehlakçılar tərəfindən izlənilir. Bu halda qeyd olunan rəy və şikayətlərin qiymətləndirilməsi və baxılması həm biznesin reputasiyası, həm də istehlakçı məmnunluğu baxımından faydalı olacaqdır.

Bu məqamda, yalnız bu qiymətləndirmələrlə maraqlanan işçilərə və ya öz sahələrində mütəxəssis olan şirkətlərə icazə vermək lazım ola bilər. Əgər belə bir e-turizm idarəçiliyi təmin olunarsa, bu, həqiqiliyi müəyyən edilə bilməyən biznesi hədəf alan yanlış rəy və şikayətlərin müvafiq platformalardan silinməsi üçün araşdırmaların aparılmasına imkan verə bilər.

Turizm müəssisələrində idarəetmə yanaşması kimi autsorsinqin populyarlığı və səmərəliliyi son illərdə mübahisə doğursa da, informasiya-kommunikasiya texnologiyaları sahəsindəki inkişaflar növbəti illərdə belə bir zərurəti ön plana çıxara bilər.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Engin K.S. Turizm alanlarının yönetim sorunları. Ankara, Yıldız, 2018, 387 s.
2. Füsun S.B. Yönetime dayalı sorunlar. Ankara, PL yayın, 2018, 328 s.
3. Serdar İ.O. Sosyal alanlarının yönetim sorunları. İstanbul, Koçak, 2019, 400 s.
4. https://atif.sobiad.com/index.jsp?modul=makale-detay&Alan= sosyal&Id= AXCwG4teyZgeuuwfWCCu – sosyal yönetim 2021.

Orxan MEHDİYEV
Azərbaycan Turizm və Menecment Universiteti, magistr
mehdiyev.orkhan.2101@atmu.edu.az

TURİZM SAHƏSİNDƏ AUDİT XİDMƏTLƏRİNİN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

DEVELOPMENT FEATURES OF AUDIT SERVICES IN TOURISM

ОСОБЕННОСТИ РАЗВИТИЯ АУДИТОРСКИХ УСЛУГ В ТУРИЗМЕ

Xülasə. *Azərbaycan Respublikasında da dünya təcrübəsində olduğu kimi, iqtisadiyyatın əsas sahələrindən birinə çevrilən turizm inkişaf edərək bir çox xidmət sahələrini özünə cəlb edərək, bütövlükdə cəmiyyətin, bütün təbəqələri üçün demək olar ki, gəlir mənbəyi rolunu oynayır. Dünyanın hər bir yerində dövlətlər və sivilizasiyalar səviyyəsində turizmin inkişafına böyük maraq göstərilir. Məhz buna görə də, hazırda turizmin inkişafına beynəlxalq maliyyə qurumları və təşkilatları öz maraq və diqqətlərini artırırlar. Keçirilən sosioloji tədqiqatlardan məlum olmuşdur ki, hələ keçən yüzilliyin sonlarında turizm sahəsindən dünyada əldə olunan gəlirin həcmi ABŞ dolları ilə 450 milyardı ötüb keçmişdir. Onun inkişafının isə orta illik artım faizi isə 4,3 faizdən çox olmuşdur. Turizm müəssələrində auditin təkmilləsdirilməsiilə əlaqədar aparılan tədqiqatdan bir sıra nəticələrə nail olunmuşdur, onlar aşağıda qeyd edilmişdir: Bazar iqtisadiyyatı şəraitində yeni turizm müəssisələrinin yaranması, innovative yeniliklər, xidmət çesidlərin müxtəlifliyi, bir sıra yeni rəqabət istiqamətlərinin əmələ gəlməsi, turizm müəssisənin gəlirlərinin artırılmasında olan marağı və bu artımın müasir dövrdə bu sahənin öyrənilməsində vacibdir. Bu yolda görülən islərdən biri Milli Mühasibat Uçotu Standartlarının Mühasibat Uçotunun Beynəlxalq Standartları uyğunlasdırılmasının daha da dərindən öyrənilməsidir. İndiki hesablar planında analitik hesabların köməy ilə daha çox hesabların əldə edilməsi mümkündür. Onun üç rəmzli şifrələrdən ibarət olması əsas səbəblərdən biridir.*

Açar sözlər: *turizmin inkişafı, audit, mühasibat uçotu, turizm sənayesi, turist.*

Summary. *As in the world experience in the Republic of Azerbaijan, tourism, which has become one of the main sectors of the economy, develops and attracts many service sectors, plays the role of almost a source of income for society as a whole. There is a great interest in the development of tourism at the level of states and civilizations all over the world. Therefore, international financial institutions and organizations are increasing their interest and attention to the development of Tourism. From the sociological research conducted, it became known that at the end of the last century, the volume of revenue from the tourism sector in the world exceeded 450 billion US dollars. The average annual growth rate of its development was more than 4.3 per cent. Improvement of audit in tourism enterprisesa number of results have been achieved from the research carried out in connection with The, they are listed below:*

1. New tourism enterprises in the market economy exhibition creation, innovative innovations, variety of services, a number of newformation of competitive directions, revenues of tourism enterprises increase the interest in this growth in the modern it is important in the study of this area in the period.

2. One of the things seen in this way is a deeper study of the compliance of National Accounting Standards with International Accounting Standards. Analytical calculations in the current account plan with the help of which more accounts can be obtained. One of the main reasons why it consists of three symbolic passwords.

Keywords: *Tourism Development, audit, Accounting, Tourism Industry, tourist*

Резюме. *Как и в мировой практике в Азербайджанской Республике, туризм, ставший одной из основных отраслей экономики, развиваясь и привлекая в себя множество сфер обслуживания, служит практически единственным источником дохода общества в целом, для всех его слоев. В каждой точке земного шара проявляется большой интерес к развитию туризма на уровне государств и цивилизаций. Именно поэтому в настоящее время к развитию туризма проявляют повышенный интерес и внимание*

международные финансовые институты и организации. Из проведенных социологических исследований стало известно, что еще в конце прошлого столетия объем доходов от туризма в мире превысил 450 миллиардов долларов США. А среднегодовой процент роста ее развития составил более 4,3 процента. Совершенствование аудита на туристических предприятиях из исследований, проведенных в связи с этим, был достигнут ряд результатов, которые перечислены ниже:

1. Новых туристических предприятий во дворце рыночной экономики появление инновационных инноваций, разнообразие ассортимента услуг, ряд новых формирование конкурентных тенденций, рост доходов туристского предприятия увеличения интереса к этому росту и это важно при изучении этой области.

2. Одной из проблем, стоящих на этом пути, является дальнейшее углубленное изучение соответствия национальных стандартов бухгалтерского учета международным стандартам бухгалтерского учета. Аналитических счетов в текущем плане счетов с его помощью можно получить больше аккаунтов. Одна из главных причин заключается в том, что он состоит из трехсимвольных паролей.

Ключевые слова: *развитие туризма, аудит, Бухгалтерский учет, индустрия туризма, турист.*

Turizm, modern dünyada gelişmiş ülkeler için ekonominin en dinamik gelişen sektörlerinden biridir. Aynı zamanda Azerbaycan'da bu alanın gelişimine ciddi önem verilmektedir. Dünya genelinde turizm zaten ekonominin en geniş ve hızla gelişen sektörü ve önde gelen lider güç haline gelmiştir. Bölgelerin gelişmesinde, yeni istihdamların yaratılmasında, Azerbaycan'da turizmle ilgili işletmelerin ve altyapının inşasında kritik öneme sahip olan bu sektördür. Cumhuriyetimizdeki turizmde rekabet olanakları çok geniştir. Farklı iklim türlerimiz, doğal kaynaklarımız, zengin tarihi ve kültürel miraslarımız, çekici bir turizm ürünü yaratmak için harika ve elverişli bir ortam yaratmaktadır. Azerbaycan devletinin turizm sektörünün gelişimi de petrol dışı ekonomi alanında öncelikli hedef ilan edildi. Bu, son yıllarda cumhuriyetimizde turizmin gelişmesine yönelik çalışmalar, yürütülen reformlar, devlet tarafından kabul edilen programlar, düzenleyici çerçevenin iyileştirilmesi ile kanıtlanmaktadır. Alınan önlemlerin bir sonucu olarak, cumhuriyetimizdeki turizm dünyada yeni bir turizm destinasyonu olarak tanınmaya başlamış ve her yıl uluslararası turizm pazarına entegrasyonu daha da hızlı bir şekilde büyümekte ve artmaktadır. Turizm sektörünün sürdürülebilir kalkınması, profesyonel kadrolara duyulan ihtiyaç da önemli ölçüde artmıştır. Bu ihtiyacı karşılamak amacıyla Azerbaycan Turizm Enstitüsü kuruldu ve yeni işlerin açılmasıyla üst düzey uzmanlara olan talep arttı, önemli konulardan biri yükseköğretimin kalitesinin önemi oldu.

Oluşturulan kültür ve turizm Bakanlığı için yerli ve yabancı turistler "www.azerbaijan.travel" bizim resmi ulusal turizm portalı, son bir yıldır hizmet aracı, propaganda ve bilinçlendirme turizm potansiyelini bakanlığımız olmak üzere ilgili altyapı, toplu taşıma sistemi, doğada, benzersiz bir turistik ürün, turistik otel ve şirketlerde cumhuriyeti.

Cumhurbaşkanı İlham Aliyev'in inisiyatifiyle ülkemizde sürdürülebilir turizme ulaşmak için kış turizminin geliştirilmesi amacıyla 2009 yılında Hussar bölgesinin 30 kilometre kuzeyinde, deniz seviyesinden 2500 metre yükseklikte "Şahdağ" kış-yaz turizm kompleksi inşa edilmiştir. Aynı anda yaklaşık 5 bin turisti ağırlayabilen tesis, kış sporlarının gelişimine ivme kazandıracak: temel olarak kayak, bu eşsiz tesiste yapay kar ekipmanı bulunmaktadır. Yağış miktarına bakılmaksızın, kış mevsiminde kayak pistleri açık kalmaktadır, bu tür yapılar dünyanın bilinen tüm kış tatil beldelerinde bulunmaktadır. Dağlık araziyi geçen yol, uluslararası kalite ve güvenlik standartlarına uygun olarak hazırlanmıştır ve yılın her mevsiminde kesintisiz trafik akışı için koşullar yaratılmıştır.

Beynəlxalq maliyyə sisteminin inkişafı iki fərqli dövrü əhatə edir. Bunlar Birinci Dünya Müharibəsindən 1970-ci illər kimi olan dövrü əhatə edən maliyyə nəzarəti sistemi və 1970-ci illərdən sonrakı dövrü müəyyənləşdirən maliyyə liberallaşdırma sistemidir.

Burada kapital nəzarəti və maliyyə tənzimləmə ənənəsi mühafizəkar maliyyə sisteminin əsas mahiyyətini əks etdirən dəyişənlərdir [1, 23]. Bu gün beynəlxalq maliyyə sistemini xarakterizə edən əsas parametrlər maliyyə tənzimləmə siyasəti və qloballaşma meylləridir.

Kapital axını

Statistikaya görə 2017-ci ildə beynəlxalq birja bazarı əməliyyatlarının həcmi gündə 2,9 trilyon dollara çatmışdır. Bundan əlavə, 1990-cı illərin ortalarında kapital qoyuluşlarının həcmi təxminən 20 trilyon dollara çatmışdır. Bu məbləğ 1980-ci illərə nisbətən 10 qat daha yüksək səviyyədə olmuşdur.

Maliyyə qloballaşması eyni zamanda uzunmüddətli kapital axınlarını təşviq edir [1, 75]. Dünya Bankı məlumatlarına görə, inkişaf etməkdə olan ölkələrə uzunmüddətli xalis maliyyə axınlarının həcmi 1990-cı ildəki 98,5 milyard dollardan 2016-cı ildə 571 milyard dollara yüksəlmişdir.

Maraqlısı budur ki, eyni dövrdə rəsmi kapital axını 55,9 milyard dollardan 5,2 milyard dollara düşsə də, özəl kapital axınları 42,6 milyard dollardan 646,8 milyard dollara yüksəlmişdir.

Xüsusi kapital axınları ümumi kapital axınlarının 113% -ə bərabər bir səviyyəyə çatmışdır [4, 67]. Bu böyük həcm maliyyə qloballaşmasının həqiqi tərkibini göstərir. Bu inkişaf müharibədən sonrakı dövrdə beynəlxalq siyasi iqtisadiyyatda müşahidə olunan ən diqqətəlayiq tendensiyadır.

İqtisadi və maliyyə təsirləri

Maliyyə liberallaşması maliyyə bazarları üçün vacib üstünlüklər təmin edir. Əvvəla qeyd etməliyik ki, liberallaşdırma siyasəti kapital bazarlarında maliyyə vasitəçiliyinin səmərəliliyini artırır [2, 13]. Xüsusilə maliyyə bazarlarının qloballaşması səbəbindən regional bazarlarda strateji əməkdaşlıq imkanlarının inkişafı bir çox investor üçün fəaliyyət sahəsini genişləndirir.

Beləliklə, özəl kapital aktivlərinə qoyulan investisiyalar sürətlə artaraq investorların portfellərini şaxələndirmələrini, riskləri minimuma endirməyi və gəliri artırmağı dəstəkləyən bir mühit yaradır.

Bundan əlavə, qlobal kapitalın liberallaşdırılması beynəlxalq ticarət əməliyyatları və portfel investisiyaları üçün maliyyə xidmətlərini gücləndirir. Daha sonra gözlənilən mühüm nəticə kimi kapital hərəkətlərinin liberallaşdırılması, makroiqtisadi və pul siyasətində islahat təşəbbüslərini təşviq edən və nizamlayan bir dinamizm yaratdı.

Məsələn, Latın Amerikasına xarici investor axınının artması 1990-cı illərdə Latın Amerikası fond bazarlarının inkişafında aparıcı rol oynamış, qloballaşma və pul idarəçiliyinin institusionalizasiyası bu investorların kapital bazarlarının inkişafı baxımından əhəmiyyətini artırmışdır.

Latın Amerikasında səhm bazarlarının inkişafıyla maliyyə qloballaşması arasında güclü qarşılıqlı əlaqə mövcuddur. Struktur düzəliş kimi təyin olunan bu proses, ABŞ Maliyyə Nazirliyi, Wall Street və BVF tərəfindən dəstəklənən maliyyə liberallaşdırma prosesinin vacib elementlərindən biri olan Vaşinqton Konsensusunun son hədəflərindən biridir.

Korporativ fəaliyyət

İnkişaf etməkdə olan ölkələrdəki qeyri-sabit yerli banklar sektora olan inamı zəiflətmişdir. Etibarlı xarici bank maliyyə sahəsindəki sosial etibarını gücləndirə bilər ki, bu da bu qurumların yerli rəqiblərinə qarşı ciddi rəqabət üstünlüyü qazanmasına səbəb olur. Bu üstünlük xarici bankı zamanla ölkənin ən güclü iştirakçısı edə bilər [1, 44].

Bu üstünlük, məsələn, Citibank-ın Meksikada Banamex-i satın alması ilə aydın şəkildə görülə müşahidə olunur. Satın alındıqdan dərhal sonra bank qısa müddətdə 1,5 milyon müştəri artımı ilə

qarşılaşmışdır. Eynilə, Braziliyada dövlət bankının böyük bir xarici şirkətə satılmasından sonra etibarlılığı artmışdır.

Digər tərəfdən, tənzimləmə siyasətinin hər ölkədə institusional effektivlik baxımından eyni səviyyədə nəticələr yaratmadığı görülür. Məsələn, xarici bankların Hindistanda səmərəlilik baxımından əhəmiyyətli irəliləyişlər etdiyi müəyyən edilmişdir.

İdarəçilik dövründən əvvəl Norveç banklarının potensial istifadəsində zəif cəhətlərin olduğu və tənzimləmədən sonrakı dövrdə səmərəlilikdə müşahidə olunan yaxşılaşmanın Norveç banklarından qaynaqlandığı iddia edilmişdir [3]. Ümumiyyətlə, tənzimləmənin təsiri maliyyə sisteminin təbiəti və uyğunlaşdırılan tənzimləmə xarakteri ilə müəyyən edilir.

Nəticə. Son 25 il ümumilikdə ticarət liberalizmin və xüsusilə maliyyə sektorunda liberalizmin ön plana çıxdığı bir dövrü xarakterizə edir. İnkişaf etmiş ölkələrin və beynəlxalq maliyyə təşkilatlarının inkişaf etməkdə olan ölkələrin sürətli və əhatəli daxili və xarici maliyyə açılış siyasətlərini qəbul etməyə meylli olduqları bu müddətdən sonra baş verən böhranlar, qloballaşan maliyyə sektorlarının əks tərəfləri olaraq ön plana çıxır.

Xüsusilə köklü dəyişikliklərin yaşandığı 1990-cı illər aktivlik illəri hesab olunur. Qlobal kapitaldan pay almaq uğrunda yarış, hökumətlərin yerli maliyyə bazarlarını qlobal rəqabətə açmaq üçün strategiyalar qəbul etməsinə səbəb olmuşdur.

Özəlləşdirmə və birbaşa xarici investisiyalar siyasi gözləntiləri reallaşdırmaq üçün strateji vasitə kimi qəbul edilir. Dövlət maliyyə institutlarının özəlləşdirilməsini əhatə edən islahat proqramlarının dəyişikliyin müjdəsi olaraq ön plana çıxardığı iqtisadiyyatda, beynəlxalq kapitalı cəlb edəcək siyasi, iqtisadi və sosial kontekst inkişaf etdirilə biləcəyi düşünülmüşdür.

Digər tərəfdən islahat proqramlarının hər bir ölkədə eyni ahəng içində həyata keçirildiyi iddia edilə bilməz. Çevriliş prosesi Latın Amerikasında və Mərkəzi Avropanın keçid iqtisadiyyatında daha radikal bir transformasiya ilə yaşanarkən, açılış siyasətləri Uzaq Şərqdə olduqca məhdud bir səviyyədə qalmışdır.

Prosesin daha yavaş irəliləməsi iqtisadiyyatın xarici rəqabətə açılması və makroiqtisadi idarəetmədəki çatışmazlıqların sistematik iflas problemlərinə səbəb ola bilər.

Bu dövrdə gündəmə gələn digər bir həqiqət də, banklardakı sərhədyanı fəaliyyətlərin beynəlxalq kolleksiya və maliyyə sektorlarının uyğunlaşdırılması sayəsində əhəmiyyətli dərəcədə artmağa başlamasıdır.

Qlobal bank quruluşu liberallaşdırılmış iqtisadi fəaliyyəti sürətləndirmək üçün qlobal miqyasda rəqabət etməyə meyllidir. Bunun təbii nəticəsi olaraq həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələr getdikcə xarici bankların yerli bank sektoruna daxil olmasına imkan yaradır.

Tarixi konseptdə xarici banklar Asiya bazarlarına girməkdə daha ehtiyatlı davranmışdır. Bu fenomen Latın Amerikası və Mərkəzi Avropadakı çıxışlar qiymətləndirildikdə daha aydın görünür. Davranış tipologiyasındakı bu fərq, Asiya ölkələrindəki maliyyə bazarlarına girişlərin məhdudlaşdırılması ilə əlaqələndirilə bilər.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Dolan E.J (2002), Money, Banking and Monetary Policy: Translated from English. – Bishkek: Ed. “Turan”, 297 p.
2. Galits L. (2001), Financial Engineering: Financial Risk Management Tools and Methods: Per. From English. – M .: TVP, 421 p.
3. https://dergipark.org.tr/tr/download/article-file/9049 – Bankacılık sektöründe global sermaye hareketleri : Yönü Ve Yansımaları 2021.
4. Красавина Л.Н. (2008), Финансовый рынок как фактор инновационного развития экономики: системный подход/ // Банковское дело. – 234 стр.

Arif İSGƏNDƏROV
Azərbaycan Turizm və Menecment Universiteti, magistr
isgandarov.arif.2001@atmu.edu.az

TURİZMDƏ SAHİBKARLIQ FƏALİYYƏTİ VƏ ONUN MİLLİ İQTİSADİYYATDA ROLU

ENTREPRENEURIAL ACTIVITY IN TOURISM AND ITS ROLE IN THE NATIONAL ECONOMY

ПРЕДПРИНИМАТЕЛЬСКАЯ ДЕЯТЕЛЬНОСТЬ В ТУРИЗМЕ И ЕЕ РОЛЬ В НАЦИОНАЛЬНОЙ ЭКОНОМИКЕ

Xülasə: *Sahibkarlar rəqabətli bazarda daha çox turist cəlb edərək sektoru təkmilləşdirdikləri üçün turizmdə mühüm rol oynayırlar. Onlar daha az xərclə keyfiyyətli mal və xidmətlər istehsal etmək üçün istehsal amillərindən səmərəli və səmərəli istifadə edir və idarə edirlər. Sahibkarlıq aktiv iqtisadi fəaliyyət növü olduğu üçün sürətli pul dövriyyəsini təmin etməklə iqtisadi bazarın yaxşılaşdırılmasına xidmət edir. Sahibkarlar iqtisadi artım prosesində katalizator rolunu oynayırlar.*
Açar sözlər: *turizm, sahibkarlıq, biznes, turizmdə sahibkarlıq, iqtisadiyyat, milli iqtisadiyyat.*

Резюме: *Предприниматели играют жизненно важную роль в туризме, поскольку они улучшают этот сектор, привлекая больше туристов на конкурентном рынке. Они эффективно и рационально используют факторы производства и управляют ими, чтобы производить качественные товары и услуги по более низкой цене. Поскольку предпринимательство является активной экономической деятельностью, оно служит улучшению экономического рынка за счет обеспечения быстрого денежного обращения. Предприниматели служат катализаторами экономического роста.*
Ключевые слова: *туризм, предпринимательство, бизнес, предпринимательство в туризме, экономика, национальная экономика.*

Summary: *Entrepreneurs play a vital role in tourism as they improve the sector by attracting more tourists within the competitive market. They use and manage production factors effectively and efficiently to produce quality goods and services at a lower cost. As entrepreneurship is an active economic activity, it serves to improve the economic market by ensuring rapid money circulation. Entrepreneurs serve as the catalysts in the process of economic growth.*
Keywords: *tourism, entrepreneurship, business, entrepreneurship in tourism, economy, national economy*

Turizm iqtisadiyyatın əsas sahələrindən biri olmaqla insanların tələbatlarının ödənilməsinə və əhalinin həyat səviyyəsinin yüksəldilməsinə yönəlmiş fəaliyyətdir. İqtisadiyyatın digər sahələrindən fərqli olaraq turizm təbii ehtiyatların tükənməsinə səbəb olmur. Bu sahənin inkişafı ən ağır problemlərdən biri hesab edilən işsizliyin səviyyəsini azaldaraq, ümumi daxili məhsulun (ÜDM) formalaşmasına və iqtisadiyyatın inkişafina təkan verir. İqtisadiyyatın inkişafı isə özlüyündə sosial-iqtisadi problemlərin aradan qalxmasında əvəzsiz rol oynayır. Bundan başqa, turizm sosial-iqtisadi inkişafın əsas katalizatoru kimi kənd təsərrüfatı, nəqliyyat, tikinti, infrastruktur, sənaye və s. kimi sahələrin inkişafına təsir göstərir, hotellərin tikintisini sürətləndirir. Bir sözlə, *turizm* bir növ görünməz ixracat sektoru olmaqla, ticarət balansının sabitləşməsində və büdcənin formalaşmasında mühüm rol oynamaqla iqtisadiyyatın inkişafına təkan verir.

Turizm Azərbaycanın inkişafını nəzərdə tutduğu və gələcəyə hesablanan böyük planlar qurduğu sahələrdən biridir və mədəniyyətin təbliği baxımından da mühüm əhəmiyyət kəsb edir. Neft sektorundan qeyri-neft sektoruna keçid bu turizm sənayesini iqtisadiyyatımız üçün prioritet sahəyə çevirmişdir. Azərbaycanın əlverişli coğrafi mövqede yerləşməsi, iqlim şəraiti, tarixi ənənələri və mədəniyyəti, zəngin resurs ehtiyatı və.s. ölkəmizin bu sahədə davamlı inkişafı üçün mühüm amillərdir. Ölkənin mədəni və təbii resurslarla zəngin olan əlverişli bölgələrinin olması regional turizmin inkişafını sürətləndirir.

Turizm müxtəlif ölkələr və xalqlar arasındakı əlaqələrin uyğunlaşmasına gətirib çıxarır, tarixi və mədəni irsin qorunması və inkişafına müsbət təsir göstərir, hökumətləri, QHT və kommersiya strukturlarını ətraf mühitin mühafizəsi və təkmilləşdirilməsində aktiv iştirak etməyə cəlb edir.

Turizmin iqtisadiyyatda rolu

Turizm fəaliyyəti iqtisadi inkişafa müsbət təsir etməklə xarici və yerli turistlərə görə effektiv tələbatın artması nəticəsində ümumilikdə biznes fəaliyyətinin genişləndirilməsi və nəticədə mallar və xidmətin istehsalının artırılması üçün vacibdir. İqtisadi nöqteyi-nəzərindən turizmin xidmətləri təmin edən bir sahə kimi cəlbediciliyi sərbəst çevrilən valyutada investisiya və gəlirin daha sürətli qaytarılmasında yatır. Bir çox ölkələrdə bu sahə dövlətin aparıcı sektorlarından biridir, sürətlə inkişaf edir və mühüm sosial və iqtisadi əhəmiyyət kəsb edir.

Turizm sektoru ölkə iqtisadiyyatına aşağıdakı meyillər üzrə müsbət təsir göstərir:

- Valyuta təklifinə müsbət təsir göstərməsi;
- İnvestisiyaların yüksək ve gəlirli olması yeni məşğulluq sahələrini yaratması;
- Ölkələrin daxili və xarici borc ödənişləri baxımından yeni maliyyə mənbəyi yaratması;
- Əlavə dəyər verməsi və regional balanslı inkişafda əsas rol oynaması;
- Xarici kapitalın tətbiqi ilə birlikdə yeni texnologiyaların və avadanlıqların ölkəyə gətirilməsi və s.

Qeyd etdiyimiz kimi, turizm sektoru xarici valyuta cəlb edilməsi baxımından effektiv sahələrdən biridir. Belə ki, əgər effektiv və səmərəli turizm fəaliyyəti təmin olunarsa və xarici turistlərin axını üçün cəlbedici sistem və infrastruktur qurularsa bu zaman xarici valyutanın ölkə bazarında təklifi artacaqdır.

Turizm sektorunda düşünülmüş turizm fəaliyyəti təmin edildikdə və bu sahənin mütəxəssisləri ilə müzakirə nəticəsində hazırlanmış biznes plan əsasında qoyulmuş investisiyalar yüksək gəlirliliyə malik olur.

Bu sahənin inkişafı qeyd etdiyimiz kimi digər iqtisadiyyat sektorlarına və həmçinin regionların balanslı inkişafına da müsbət təsirini göstərir. Ölkəyə gələn xarici turistlər və yerlilər turizm məqsədli ziyarətlərində tək gəzmək-görmək deyil, həmçinin də müəyyən sənətkarlıq əsərlərini alır, məhsul və xidmətlərindən istifadə edirlər. Nəticədə incəsənət, istehsal, kənd təsərrüfatı, xidmət sənayesi və s. inkişaf edir. Bir nümunə üzərindən izah etsək, kənd təsərrüfatı məhsulları əsasən bölgələrdə yetişdirildiyindən və istehsal olunduğundan həmin məhsullara artan tələb bölgələrin inkişafına və əhali rifahının yaxşılaşmasına gətirib çıxaracaq.

Xarici investorların yerli turizm sektoruna cəlb edilməsi bu sahəyə beynəlxalq təcrübənin gətirilməsi ilə nəticələnir. Bildiyimiz kimi beynəlxalq bazarda dövriyyənin böyüklüyü və yüksək gəlirlilik investorlara bu sahədə daha çox investisiya etməyə imkan verir. Böyük yatırım olunması da istər texnoloji, istərsə də infrasturuktur baxımından təkmilləşməyə şərait yaradır.

Turizmdə sahibkarlığın təşkili və bu fəaliyyətin idarə olunması

Hazırda, kiçik və orta sahibkarlıq subyektlərinin inkişafı iqtisadi cəhətdən diqqət yetirilməsi gərəkli olan bir məsələdir. Bu sahibkarlıq növünün inkişafı vasitəsilə innovasiyalar tətbiq olunur ki bu da turizm və qonaqpərvərlik sənayesində uğurun mühüm amilidir. Bu sənayedə qlobal dinamiklik və sürətli təkamül həm yeni biznesin inkişafı, həm də mövcud bizneslərdə yeni sahibkarlıq yanaşmasını tələb edir. Turizmdə sahibkarlığın təhlili, mövcud dəstəyin müəyyən edilməsi, innovativ yeni xidmətin, ideyanın və məhsulun necə inkişaf etdirilməsinin təhlili üçün nəzəri və praktiki bir yanaşma tələb olunur. Turizm və qonaqpərvərlik sənayesində kiçik və orta müəssisələrin yeri və rolu və onların sosial-iqtisadi inkişafa təhrik etməsi bu sahənin ciddi şəkildə düşünülməsini və doğru istiqamətdə tənzimlənməsini vacib edir.

Son illərdə baş verən köklü dəyişikliklərlə sahibkarlığın inkişaf etdiyi mühit cəmiyyətin iqtisadi, sosial, ekoloji və mədəni ehtiyaclarını ödəmək üçün əsas təməl olan sahibkarlıq ruhuna əsaslanmalıdır. Konsepsiyanın mürəkkəbliyi müxtəlif perspektivlərdən çoxlu tərifləro səbəb olur.

Turizm sektoru xüsusiyyətlərinə görə mikro və kiçik şirkətlər üçün mövsümi və lokal tipli tələbat yaradan sahə olaraq qəbul olunur. Mikro və kiçik müəssisələrinin bu vəziyyətdən yararlanma qabiliyyətləri əksər hallarda onların maliyyələşmə mənbələrinə çıxışı imkanları ilə məhdudlaşır. Mikro və kiçik müəssisələrin maliyyələşmə imkanlarının məhdudluğu lokal turizmin inkişafı ilə yaranan imkanların istifadəsizliyinə və bu sektorun ümumi rəqabət qabiliyyətinin düşməsinə gətirir.

Maliyyə bazarları mikro və kiçik müəssisələri mühüm müştəri kimi qəbul etmir, dövlət tənzimlənməsi isə yerli turizmin investisiya cəlbediciliyinin yüksəlməsi istiqmətində müəyyənləşir. Bu səbəblərə görə də bu sahədə sahibkarlıq fəaliyyətinin təşkili və idarə olunması çətin olur.

Sahibkarlıq fəaliyyəti Azərbaycan Respublikasının qanununda əks olunduğu kimi: "şəxsin müstəqil şəkildə həyata keçirdiyi, əsas məqsədi əmlak istifadəsindən, əmtəə satışından, işlər görülməsindən və ya xidmətlər göstərilməsindən mənfəət götürülməli olan bir fəaliyyətdir". Bu fəaliyyətin uğurlu olması üçün istehsal amilləri effektiv və səmərəli şəkildə idarə edilməlidir. Bildiyimiz kimi əsas istehsal amilləri sahibkarın öz fəaliyyəti, torpaq, işçi qüvvəsi və kapitaldır. Qısa olaraq hər bir amilin turizmdə sahibkarlıq fəaliyyətinin təşkili və idarə edilməsində istiqamətini müəyyənləşdirək.

Torpaq olaraq qeyd edilən amilə nəzər saldıqda bu tək bildiyimiz torpaq mənasında işlədilmir, ümumi təbii resurslar olaraq yanaşılır. Turizm sektorunda isə bu resurslar işin əsas elementidir. Bura landşaft, dağlar, çaylar, göllər, iqlim xüsusiyyətləri, göz oxşayan mənzərələr, heyvan və bitkilər aləmi, ümumilikdə bütün yeraltı və yerüstü sərvətlər daxildir. Turizm fəaliyyətində gərəkdir ki, hər bir sahibkar bu resursların varlığını və nə qədər əlçatan olduğunu bilsin və həmçinin təmin etməyi bacarsın.

Kapital dedikdə isə iqtisadiyyatda istehsal edilən məhsullar başa düşülür. Qısa desək, bura pul vəsaitləri, binalar, digər tikililər, qurğu və avadanlıqlar, infrastruktur və s. aiddir. Bu amillərin düzgün təmin edilməsi effektiv fəaliyyətin həyata keçirilməsində zəruridir. Əgər sahibkarın kapital olaraq kifayət qədər pul vəsaiti yoxdursa və yuxarıda qeyd etdiyimiz kim maliyyələşmədə problem yaşayırsa investisiya etməkdən çəkinəcək və az vəsaiti belə olsa yatırım etməkdən ehtiyat edəcəkdir.

İşçi qüvvəsi digər bir mühüm amildir. Burada gərəkdir ki, potensial işçi qrupları və onların mütəxəssislik səviyyələri nəzərə alınsın. Bura turizm obyektində çalışan otel meneceri, tur meneceri, məlumat mərkəzi nümayəndələri, bələdçi, müştəri xidmətləri meneceri, tədbir meneceri, marketinq və satış mütəxəssisləri və s. daxildir. Bu şəxslərin profisional formada işlərini icra etmələri və təkmilləşmələri üçün daimi performans qiymətləndirilməsi, düzgün istiqamətləndirmə, inkişaf və nəzarət sistemi doğru idarə edilməlidir. Burada fərqli pillələrdə çalışan işçilər vardır. Əgər məlumat mərkəzi nümayəndələri müştərilərə doğru məlumat verməsə və istiqamətləndirməsə bu zaman ümumi şirkət haqqında yanlış imic yaranmış olar. Yəni, ən aşağı (front office) pillədə belə olan əməkdaş öz işində məsuliyyətli və peşəkar bir mütəxəssis olmalıdır.

Sonuncu üzərində durmalı olduğumuz məsələ isə sahikarın ümumi *sahibkarlıq fəaliyyətidir.* Sahibkarın effektiv və səmərəli fəaliyyət səviyyəsini göstərən onun istehsal amillərini bir araya gətirərək düzgün şəkildə idarə etməsi və bu fəaliyyətdən maksimum mənfəət əldə etməsidir. Mənfəəti maksimallaşdırmaq üçün sahibkar aşağıdakı funsiyalarını düzgün icra etməlidir:

- *Əlaqələndirmə.* Sahibkar dəyər zəncirinin bir parçası olaraq gərəkdir ki, bu zəncirin bütün elementlərinin bir-biri ilə əlaqəsini təmin etsin və vəhdət halında sistemin fəaliyyətini təşkil etsin. Belə ki, xammal tədarükçiləri, distributerlər, dillerlər, daşımaçılar topdan və pərakəndə satıcılar, dövlət qurumları, müştəri-işçi-rəqib üçlüsü bu sistemin parçalarıdır. Bu əlaqələndirmə turizm müəssisəsində də doğru aparıldıqda uğurlu fəaliyyət təmin olunacaq.
- *Məmnuniyyət.* Bildiyimiz kimi mənfəəti maksimallaşdırmaq üçün müştəri sayı daha çox olmalı və daha çox satınalınma həyata keçirilməlidir. Bu isə yalnız müştəri məmnuniyyəti ilə mümkündür. Məmnun müştəri həm daha çox məhsul alacaq, həm də yaxın çevrəsini də bu satınalınmalara təhrik edəcək.
- *Pul Axınının (cash flow) düzgün idarəsi.* Bu funksiya bir sahibkardan maliyyə bilik və bacarıqlarının olmasını tələb edir. Davamlı fəaliyyət və inkişafın təmin olunması yeri gəldikdə birbaşa investisiya üçün nəğd pul vəsaitinin olması və ya gərək olduqda şirkət hər hansısa maliyyə problemi ilə üzləşdikdə iş prosesinin dayanmaması üçün vəsaitin təşkilini vacib edir.
- *Obyektiv qiymətləndirmə.* Fəaliyyətin düzgün qiymətləndirilməsi digər bir önəmli elementdir. Performans qiymətləndirilməsi hədəfin müəyyən olunması, KPIs (əsas performansı göstəricisi) təyin etmə, doğru nəzarət, ölçülmə (uçot aparılması) və son olaraq da hesabat (report və analiz) hazırlamaq mərhələlərindən ibarətdir. Düzgün qiymətləndirilmiş performans doğru qərar qəbulunda əvəzsiz rola malikdir. Doğru qərar isə uğur üçün açardır.

➢ *Texnologiyadan istifadə.* İstənilən sahədə modern dövrün tələblərini qarşılamaq üçün texnoloji yeniliklərdən istifadə şərtdir. Turizm sahəsinin bu qədər genişlənməsi və beynəlxalq turizmin inkişafı istər lokal, istərsə də dünya səviyyəli sahibkarları beynəlxalq təcrübədə istifadə olunan ən son texnoloji yeniliklərdən xəbərdar olmağa və istifadəyə təhrik edir. Çünki, gələn turist fərqliliyi gedəcəyi yerin özünəməxsus özəlliklərində axtarır və fərqli texnologiya həm əlçatanlıq, həm də asanlıq baxımından əlverişli deyil. Digər tərəfdən yanaşsaq modern texnologiyadan istifadə effektivliyi və səmərəliliyi artıraraq ümumilikdə məhsuldarlığın artımına gətirib çıxaracaq.

➢ *Keyfiyyət.* Hər bir sahibkarlıq fəaliyyəti cəmiyyətdə hər hansısa problemin həlli üçün təşkil olunur. Bu fəaliyyətin nəticəsi isə ya məhsul, ya da xidmətdir. Turizmdə isə nəticə xidmətdir. Nəticənin keyfiyyətli olması üçün istər iş prosesində, istərsə də istehsalın sonunda keyfiyyətə nəzarət olunmalıdır. Beynəlxalq keyfiyyət standartlarının (məsələn, ISO) tətbiqinə, nəzarət və auditinə diqqət yetirən turizm müəssisəsi istənilən səviyyədə turistin cəlbi və məmnuniyyət göstəricilərinə görə ön sıralardadır.

➢ *Vaxtın idarə edilməsi.* Bir sahibkar üçün ən dəyərli və çatışmayan resurs zamandır. Vaxtın düzgün idarə edilməsi ilk olaraq sistemli və planlı şəkildə fəaliyyəti vacib edir. Əksər turizm müəssisələrində, əsasən də mikro və kiçik şirkətlərdə, sahibkarlar bir deyil bir neçə işi icra edirlər. Nəticədə də strateji yanaşma əvəzinə, taktik və operativ səviyyədə fəaliyyət göstərilir ki, bu da plansızlığa və vaxtın düzgün idarə edilməməsinə gətirib çıxardır.

➢ *İşçi motivasiyasını qorumaq.* Yuxarıda da qeyd etdiyimiz kimi, işçi əsas istehsal amillərindən biridir. Onun müəssisəyə faydasını artırmaq üçün gərəkdir ki, həmin işçinin maraqları tam təmin olunsun. Maraqlarının təmin olunacağına söz verildikdə və əməl olunduqda həmin şəxsin motivasiyası artır və maksimum fayda verməyə çalışır. Maraqlar deyərkən əsasən bura əlavə bonusların, komissiyonların verilməsi, sağlam iş mühiti və qidalanma, tətil və səyahətlərin təşkilini bura aid edirik.

➢ *İnnovativlik.* Sahibkar fəaliyyətini və ümumi istehsal prosesini effektiv təşkil etmək üçün innovativ yanaşma nümayiş etdirməlidir. Belə bir yanaşma ümumi israfın qarşısını almaqla xərclərin azalmasına və nəticədə də mənfəətin artımına gətirib çıxaracaq.

Ümumi olaraq müzakirə etdiyimiz hissələrə yenidən nəzər yetirsək görərik ki, biznes funksiyaları (marketinq, maliyyə, HR (İnsan Resursları), R&D (araşdırma və inkişaf), tədarük, keyfiyyət və s. şöbələr) ilə düzgün işləmə və onlara nəzarətin təmini uğurlu sahibkar olmağın təməlidir.

Sahibkarlığın turizmdə və milli iqtisadiyyatda rolu

Müasir dövrü, yəni kapitalizmi, sahibkarlığın təşkili və fəaliyyəti olmadan təsəvvür etmək mümkün deyil. Məhsuldar istehsal amillərini bir araya gətirərək onların effektiv idarə etməklə ölkədə ÜDM-un artımına və nəticədə ümumi iqtisadiyyatın inkişafına yardım edir. Sahibkar aktiv iqtisadi subyekt olduğundan pulun sürətli dövriyyəsi təmin etməklə iqtisadi bazarda yaxşılaşmaya xidmət edir. Biznes innovasiyalarının və iqtisadi inkişafın əsas təşviqedici vasitələrindən önəmlisi sahibkarlıq fəaliyyəti və sahibkarlıqdır. Turizm sektorunda sahibkarlıq fəaliyyəti daha diqqət mərkəzindədir. Çünki, bu fəaliyyət pulun dövretmə tezliyini artıran və milli iqtisadiyyatın çevikliyini sürətləndirən əsas amillərdən biridir. Turizmin davamlı inkişafını qorumaq üçün dövlət gərəkdir ki bu fəaliyyətə dəstək göstərsin və uzunmüddətli dövr üçün planlı investisiyalar etsin.

Daha konkret yanaşsaq kiçik və orta sahibkarlıq subyektləri inkişafı sürətlə gedir və dünyada da çox geniş yayılmışdır. Belə olmasına bir neçə səbəb göstərə bilərik. Ümumilikdə, bu tip sahibkarlıq fəaliyyətinin iqtisadiyyatda ən əsas rolu rəqabətli bazar mhiti formalaşdırmaqdır. Rəqabətli bazar şəraiti keyfiyyətli və bol çeşidli məhsul istehsal etməklə yanaşı, rəqabət səbəbindən aşağı qiymətə də təşviq edir. Belə müəssisələr iqtisadiyyatda məşğulluğun artması üçün də vacibdir. Hər açılan yeni mikro müəssisə orta hesabla 5 şəxsin işlə təmin olunması deməkdir. Digər bir belə tip müəssisələrin üstünlüyü əhali tələbatına tez reaksiya verə bilmələridir. Belə ki, bunlar tələbə daha həssas olduğundan bazar dəyişikliklərinə daha cəld münasibət bildirirlər. Son olaraq belə tip müəssisələr orta təbəqəyə aid olduqlarında balanslaşdırma xarakteri daşıyır, qütbləşmədən qoruyur və ümumilikdə əhali rifahını yüksəldir.

Sahibkarlıq fəaliyyətinin düzgün təmini qeyd etdiyimiz ki rəqəbətli bazar şəraiti yaradır. Bir nümunə üzərindən gedək. Gəlmə turistlər lokal mədəniyyəti və yerli adət-ənənələri öyrənmək baxımından maraqlıdırlar. Beynəlxalq şəbəkə turizm obyektlərinin demək olar ki vahid standart məhsul

və xidmətləri var. Bu turist üçün əlçatanlıq və konfort nöqteyi-nəzərindən yaxşıdır. Lakin lokal mədəniyyətin kəşfi baxımından yerli kiçik və orta sahibkarlıq (KOS) subyektləri daha yaxşıdır. Demək ki, dövlət bəzən iqtisadiyyatı qoruma siyasəti həyata keçirərək KOS-ları xarici şəbəkə bizneslərdən qorumaqla milli turizmin inkişafına yardım edə bilər.

Digər tərəfdən sahibkarlıq subyektləri üçün yaradılmış münbit şərait turist axınların artırmaqla ölkəyə xarici valyuta axınını təşviq edəcək. Münbit şərait deyərkən bura aşağı vergi dərəcələri, faiz dərəcələri, ümumilikdə PESTEL-də (siyasi, iqtisadi, sosial, texnoloji, ekonomik, qanun) sabitlik nəzərdə tutulur. Bu sabitlik vəziyyətində sahibkar öz fəaliyyətini doğru təşkil edər və gəlmə turistlər üçün cəlbedicilik arta bilər. Belə ki, gəlmə turistlər bir çox riskləri gözə alırlar ki bunların da başında PESTEL-dən qaynaqlanan risklərdir. Əgər risklər minimuma endirilsə və effektiv sahibkarlıq fəaliyyəti təmin olunsa turizm sənayesində canlanma sürətlənəcəkdir.

Sahibkar iqtisadi inkişafda mühüm rol oynayır. Sahibkarlar sənayeləşmə və iqtisadi artım prosesində katalizator rolunu oynayırlar. Texnoloji nailiyyətlər sahibkarlar tərəfindən iqtisadi istifadə edilmədikcə, tək texniki tərəqqi iqtisadi inkişafa səbəb ola bilməz.

Sahibkarlıq fəaliyyəti iqtisadi inkişaf prosesinə aşağıdakı yollarla müsbət təsir göstərir:

- *Kapitalın formalaşması.* Sahibkarlar sənaye qiymətli kağızlarının emissiyası vasitəsilə əhalinin əmanətlərini səfərbər edirlər. Dövlət əmanətlərinin sənayeyə sərmayə qoyulması milli ehtiyatlardan səmərəli istifadə ilə nəticələnir. Sürətli iqtisadi artım üçün vacib olan kapitalın formalaşması sürəti artır. Beləliklə, sahibkar iqtisadi gəliri artırır.
- *Adambaşına düşən gəlirin artması.* Sahibkarlar fürsətləri tapır və istifadə edirlər. Torpaq, əmək və kapital kimi gizli sərvətləri mal və xidmətlər şəklində milli gəlirə və sərvətə çevirirlər. Onlar ölkədə xalis milli məhsulun və adambaşına düşən gəlirin artırılmasına kömək edir ki, bu da iqtisadi inkişafın ölçülməsi üçün mühüm meyarlardır.
- *Məşğulluğun təmini.* Sahibkarlar həm birbaşa, həm də dolayı yolla məşğulluq yaradırlar. İri və kiçik biznes bölmələri yaradaraq milyonlarla insana iş təklif edirlər. Beləliklə, sahibkarlıq ölkədə işsizlik problemini azaltmağa kömək edir.
- *Balanslı regional inkişaf.* Dövlət və özəl sektorda fəaliyyət göstərən sahibkarlar iqtisadi inkişafda regional fərqlərin aradan qaldırılmasına kömək edir. Onlar mərkəz və bölgələrdə təklif olunan müxtəlif güzəşt və subsidiyalardan istifadə etmək üçün geridə qalmış ərazilərdə sənayelər qururlar.
- *Yaşayış standartlarının yaxşılaşdırılması*. Sahibkarlar əsas malların qıtlığını aradan qaldıran və yeni məhsullar təqdim edən sənayelər qururlar. Kütləvi miqyasda malların istehsalı və kiçik miqyaslı sektorda sənətkarlıq məmulatlarının istehsalı və s. sadə insanın həyat səviyyəsini yaxşılaşdırmağa kömək edir. Bunlar daha az xərclə mal təklif edir və istehlakda müxtəlifliyi artırır.
- *Keyfiyyətli məhsul və aşağı qiymət.* Rəqabətli bazar şəraitində rəqib sahibkarlar bazar payı və müştəri əldə etmək üçün daim bir-biriləri ilə mübarizədədir. Bu rəqabətin nəticəsində da sahibkarlar maksimum keyfiyyətli məhsul istehsal edərək fərqlənməyə və maksimum endirim edərək daha çox satış etməyə çalışırlar.
- *İqtisadi müstəqillik.* Sahibkarlıq milli özünü müdafiə üçün vacibdir. Sənayeçilər indiyə qədər idxal olunan məhsulların yerli əvəzedicilərinin istehsalına kömək edir və bununla da xarici ölkələrdən asılılığı azaldırlar. İş adamları həm də geniş miqyasda mal və xidmətlər ixrac edir və bununla da ölkəyə az olan valyuta qazandırırlar. Bu cür idxalın əvəzlənməsi və ixracın təşviqi ölkənin iqtisadi müstəqilliyini təmin etməyə kömək edir.

Beynəlxalq təcrübədə sahibkarlıq subyektlərinin inkişafı üçün kompeks tədbirlər görülür. Bunlar əsasən iki istiqamətdə, fiskal və maliyyə istiqamətində həyata keçirilir. Yuxarıda qeyd etdiyimiz vergi və faiz dərəcələri onlardan bəziləri idi və fiskal istiqamətə aiddir. Dövlət zəmanətli kreditlərinin verilməsi, dəstək məqsədli qurumların yaradılması və s. isə maliyyə istiqamətində dəstəyə aid edilir. Digər dəstək məqsədli alətlərə bu sahibkarlıq subyektlərinin birgə fəaliyyətinin təmini, informasiya dəstəyinin verilməsi, biznes inkubatorlarının və klasterlərin yaradılması, kiçik sahibkarlıq subyektlərinin fəaliyyətinə dəstək olmaqla onların ixrac potensialının artırılması və nəticədə gəlmə turistlərin sayının artırılmasıdır.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Bilalov B.Ə. Turizmin tarixi: Dərs vəsaiti. "Mütərcim" nəşriyyatı (280 səh), Bakı, 2008
2. Iuliana C., Carmen M. I., Alexandrina S. "Entrepreneurship in the Tourism And Hospitality Industry" [http://www.strategiimanageriale.ro/papers/160136.pdf]
3. Kiçik və orta sahibkarlığın iqtisadiyyatdakı rolu: Beynəlxalq təcrübə və Azərbaycan [https://www.movqe.az/news/iqtisadiyyat/90628.html]
4. Role of Entrepreneurs in Economic Development, [https://www.economicsdiscussion.net/entrepreneurs/role-of-entrepreneurs-in-economic-development/31496]
5. Sahibkarlıq fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu
6. Turizm Haqqında Ümumi Məlumat [https://tourism.gov.az/page/legislation]
7. Turizm və Rekreasiya XXI Əsrdə: Problemlər və Perspektivlər [https://beu.edu.az/root_panel/upload/files/beu_edu_az/documents/Kitab_Turizm.pdf]

Fidan ƏHMƏDZADƏ
Azərbaycan Turizm və Menecment Universiteti, magistr
fidanehmedzade99@gmail.com

DAYANIQLI TURİZMİN İNKİŞAFININ ƏSAS İSTİQAMƏTLƏRİ

THE MAİN DİRECTİONS OF SUSTAİNABLE TOURİSM DEVELOPMENT

ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ РАЗВИТИЯ УСТОЙЧИВОГО ТУРИЗМА

Xülasə: *Məqalə dayanıqlı turizmin inkişafının əsas istiqamətlərinə həsr olunmuşdur. Turizmin və mehmanxanaların dayanıqlı inkişafının aşağı olması bir çox amillərin təsiri və ilk növbədə emal sənayesinin az olması, gəlirlilik səviyyəsinin aşağı olması, yerlərdə sənaye tipli iş yerlərinin azlığı, iqtisadi, soail- mədəni və ekoloji cəhəddən yaranan problemlər ilə əlaqədardır. Müasir dünya təcrübəsində mehmanxana fəaliyyətində yeni sahələrin yardılması, iş yerlərinin sayının artırılması, nəticə etibarilə gəlirlərin artması və ölkə əhalisinin rifahının yaxşılaşmasında mühüm rol oynaya bilər.*

Açar sözlər: *turizm, dayanıqlı inkişaf, iqtisadi, sosial- mədəni, ekoloji.*

Abstarct: *The article is devoted to the main directions of sustainable tourism development. The low level of sustainable development of tourism and hotels is due to many factors, especially the processing industry, low profitability, lack of local industrial jobs, economic, socio-cultural and environmental problems. In modern world practice, hotel activities can play an important role in creating new areas, increasing the number of jobs, increasing incomes and improving the welfare of the country's population.*

Keywords: *tourism, sustainable development, economic, socio-cultural, environment.*

Резюме: *Статья посвящена основным направлениям развития устойчивого туризма. Низкий уровень устойчивого развития туризма и отелей объясняется многими факторами, особенно перерабатывающей промышленностью, низкой прибыльностью, отсутствием местных промышленных рабочих мест, экономическими, социально-культурными и экологическими проблемами. В современной мировой практике гостиничная деятельность может сыграть важную роль в создании новых территорий, увеличении количества рабочих мест, увеличении доходов и улучшении благосостояния населения страны.*

Ключевые слова: *туризм, устойчивое развитие, экономический, социокультурный, экологический.*

İqtisadiyyatın bütün sahələrinin inkişaf etdirilməsi, onun dayanıqlı inkişafının təmin edilməsini şərtləndirir. Çünki təməli sağlam qoyulmayan sahə uzunmüddətli ola bilməz və müəssisə ilk təsirlə çökə bilər. Bu baxımdan ən kiçik müəssisələrdə belə daxili və dövlət səviyyəsində sosial-iqtisadi konsepsiyalar, dövlət proqramları hazırlanmalı, strategiyalar müəyyən edilməlidir ki, davamlı inkişaf təmin olunsun.

İqtisadiyyatdan fərqli olaraq turizmə təsir edən amillər daha çoxdur ki, bu onu digər iqtiisadi sahələrdən fərqləndirən təbii amillərdir. Digər tərəfdən, turizm elə bir sahədir ki, bu sahənin dayanıqlı və davamlı inkişafı digər sahələrdən asılıdır. Yəni emal sahələri, müasir texnologiyalı istehsal sahələri inkişaf etməsə davamlı və dayanıqlı inkişaf mümkün deyildir. Həmçinin turuzmin dayanıqlı inkişafına təsir edən amillərdən biri də əhalinin mədəni və mili dəyərlənin qorunub saxlanılmasıdır ki, bu da onu göstərir ki, davamlı və dayanıqlı inkişaf bir-birini tarazlayır. Bu baxımdan dayanıqlı turizmin aşağıdakı əsas istiqamətləri vardır :

1. İqtisadi
2. Ətraf mühit
3. Sosial-mədəni

Turizmin inkişafına təsir edən "İqtisadi" amillər

Dayanıqlı inkişaf dedikdə, turizm ehtiyatlarına zərər yetirmədən baş verən proseslər anlaşılır. Buna ehtiyatların istifadə olunması və bərpa olunma prosesi müəyyən zaman daxilində baş verir ki, yuxarıdakı üç amili hər zaman göz önündə tutmaq lazımdır.

Ölkədə iqtisadiyyatının ümumi vəziyyəti, işsizliyin səviyyəsi, əhalinin hər nəfərinə düşən orta gəlir, valyutanın dəyişən məzənnəsi, verginin səviyyəsi, kredit alınanda bank faizi, dövlət təminatı və s. aid edilir.

İqtisadi amilləri daxili və xarici olaraq qruplaşdıra bilərik ki, hər iki amillər turizm, mehmanxana sahəsin də mühüm rola malikdir ki, davamlı inkişafla sıx bağlıdır. Xarici amillər dedik də, ölkədə baş verən böhranları və terrorizmi misal göstərmək olar, bunlar dövlətin, turizmin iqtisadiyyatının kökündən sarsılmasın da səbəb olan amillərdən biridir. Daxili amillər dedikdə isə, mehmanxananın qurduğu strategiyası və personalların əmək məhsuldarlığının loyallığının qorunması önəmli rol oynayır.

Son beş il ərzində Azərbaycan 2026-cı il Gündəliyinə nail olmaq istiqamətinə sadiqliyini nümayiş etdirib. 2016-cı ildə Azərbaycan Respublikasının Prezidenti, BMT-nin Azərbaycan hökumətinə göstərdiyi dəstəyin əlaqələndirilməsi üçün əsas tərəfdaş kimi fəaliyyət göstərən dayanıqlı inkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılmasına dair fərman imzalanıb ki, digər məsələlərlə bərabər regional forum DİM-lərin inteqrasiyası və onların icrasını sürətləndirmək məqsədilə fəaliyyətləri müəyyən edən Bakı Prinsiplərinin qəbul edilməsi ilə yekunlaşdırıb. BMT-nin dəstəyi ilə interaktiv tablo, məlumatları vahid şəkildə toplayan, DİM-lərə doğru inkişafı real vaxt rejimində izləyən DİM-lər üzrə Milli Məlumat Portalı istifadəyə verilib. BMT, heç kimin kənarda qalmamasına diqqət ayırmaqla keyfiyyətli statistika toplamaq üçün ölkənin statistika məlumatları sahəsində potensialını gücləndirmək üçün davamlı dəstək göstərməkdədir. BMT həmçinin DİM-ləri təşviq etmək istiqamətinə özəl sektor, media, parlament üzvləri və ictimaiyyət də daxil olmaqla müxtəlif qrupların cəlb edilməsi üçün xüsusi səylər göstərmişdir.[1]

Turizmin inkişafına təsir edən "Ətraf mühit" amilləri

Turizm də ətraf mühit amillərindən danışarkən, xüsusi olaraq eko turizmə toxunmaq istərdim. Son dövrlərdə inkişaf edən gənc sahələrdən biridir. Turistlər mehmanxanalara təkcə yerləşmə ilə bağlı deyil, həmçinin təbiət qoynunda vaxt keçirmək üçün müraciət edirlər ki, bu da başlıca səbəblərdən biridir. Buna görə də hər bir bir turist ətraf mühitlə bağlı mədəni biliklərə sahib olmalıdır.

Bu işin məqsədi, son zamanlarda böyük inkişaf göstərən ekoloji turizmin kənd inkişafının davamlılığı baxımından əhəmiyyətini vurğulamaqdır. Bu gün turizm sektoru iqtisadi və sosial faydaları ilə böyük bir potensiala çevrildi. Qloballaşma fenomenindən asılı olaraq, dünyanın bir çox digər sektorlarında olduğu kimi, turizm sektoru da müəyyən dəyişikliklərin şahidi olmuşdur. Dünyada yeni turizm meylləri dəyişən tələbatdan asılı olaraq tarix, sağlamlıq, təbiət, mədəniyyət və kənd turizmi istiqamətində inkişaf edir. Belə turizm potensialı olan ölkələr turizm ehtiyacından asılı olaraq hazırladıqları yeni turizm siyasəti ilə kənd inkişafını həyata keçirə bilərlər. Bu ölkələrdən biri də Türkiyədir. Coğrafi mövqeyinə görə Türkiyənin tarix, sağlamlıq, mədəniyyət və kənd turizmi kimi bir çox variantı var. Bu variantlardan ən önəmlisi ekoloji turizmdir. Turizmin bir alt sektoru olan ekoturizm, səyahət və açıq hava fəaliyyətlərinin birləşməsindən ibarət olduğundan, digər tək fəaliyyətli alt sektorlardan iki qat daha çox turizm artımına malikdir. Ancaq tətbiqlər başlayanda qarşılaşılan ən əhəmiyyətli problem davamlılığı idi. Bu işdə, davamlı kənd inkişafında ekoloji turizmin yeri və əhəmiyyəti vurğulanmaqdadır. Davamlı olmayan heç bir turistik hərəkətin uzunmüddətli ola bilməyəcəyini vurğulayan bu araşdırmanın bu mövzuda məlumatlılığı artıracağı düşünülür. [2, s. 159]

Turizmin inkişafına təsir edən "Sosial- mədəni " amillər

Turizm də diqqət yetirməli olduğumuz növbəti amil- sosial mədəni amildir. İlk öncə onu qeyd etmək istərdim ki, hər bir dövlətin sosial və mədəni irsinin inkişaf etməsində ən başlıca meyarlardan biri – təhsildir. Çünki maariflənmə prosesi gedən bir ölkənin inkişaf istiqaməti daima parlaq olur.

Müasir dövrümüzdə turizm problemlərinin öyrənilməsi həm sosial-iqtisadi, həm də böyük mədəni-siyasi əhəmiyyət kəsb etməkdədir. Turizmin bir mədəniyyət faktı, bəşəriyyətin təminatlı və təhlükəsiz gələcəyi üçün geniş perspektivlər açan bir kulturoloji proses kimi tədqiqi və təbliği problemləri indi həmişəkindən daha aydın dərk olunmaqdadır.

Bu sahədə əsas problemlərdən biri personalların qəbul olunma prosesidir. Çünki turizm sahəsində işə müraciət edən şəxslər yuxarı vəzifələrdən başlamaq istəyirlər ki, bu da sonradan müəyyən problərin yaranmasına səbəb olur. Çünki bizim təhsl müəssisələrində əldə etdiyimiz biliklər nəzəri olduğundan, praktiki biliklərə tam sahib ola bilmirik və buna görə də aşağı vəzifələrdən başlayaraq irəliləmək daha vacibdir.

Növbəti olaraq, qeyd etmək istərdim ki, hər bir dövlət öz mədəni irsini qoruyub saxlamalı və sonrakı nəsillərə ötürməlidir. Çünki ölkəmizə müxtəlif məqsədlərlə turistlərin gəlmələrinə baxmayaraq, onlar bizim zəngin irsimizlə iç-içə olmalıdırlar.

Sosial turizm – iqtisadi baxımdan zəif olan kütlələrin bir sıra xüsusi tədbirlər yolu ilə turizm fəaliyyətlərinə qatılmalarının təmin olunmasından doğan bir turizm növü olaraq tərif olunmaqdadır.

Tərifdən də anlaşıldığı kimi sosial turizmdə meyar olaraq «iqtisadi güc» əsas götürülməkdədir. Ancaq günümüzdə, müəyyən bir gəlir səviyyəsindən az imkana malik və turizmə qatılmaq üçün yetərli gəlirə sahib olmayan şəxslərlə yanaşı, fiziki cəhətdən qüsurlu olan şəxslərin də sosial turizm çərçivəsində düşünülməsi müzakirə mövzusudur. Sosial turizmin ehtiva etdiyi ictimai qruplar belə sıralana bilər:

– İşçilər
– Məmurlar
– Təqaüdçülər
– Gənclər
– Fiziki qüsuru olanlar
– Əkinçilər
– Sənətkarlar.

Sosial turizmin məqsədləri aşağıdakılardır:

İnsanların, xüsusilə əməkçi kütlələrin düşüncə, fikir və rəylərinin genişləndirilməsi, digər insanlarla özünü müqayisə etmə və ictimai fəallıq, qaynayıb-qarışma vərdiş və alışqanlıqlarının qazandırılması, öz ölkəsinin insanlarını tanımaq imkanı qazandığı kimi, digər millətlərin insanları ilə də yaxınlaşma və dostluq duyğularının inkişaf etdirilməsi, sülh və barış şəraitində yaşamanın kütlələrə çatacaq bir düşüncəyə çevrilməsi, soail cəhədən əsas məqsədlərdir ki, turizmin davamlı və dayanıqlı inkişafını təmin edir.

Dünyada sosial turizmin önəm qazanmağa başlaması, 1936-cı ildə Beynəlxalq Əmək Təşkilatının maaşlı məzuniyyət mövzusu ilə bağlı beynəlxalq səviyyədə prinsiplərin müəyyənləşdirilməsindən sonra gerçəkləşmişdir. Sosial turizmin təməl xüsusiyyətləri ucuz qiymət, qazanc məqsədinin güdülməməsi və birgə istehlakdır. Dünyada sosial turizm məqsədilə olduqca çox təsisatlar yaradılaraq insanların xidmətinə verilmişdir. [3, s. 293-295]

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. BMT nin Ümumdünya Turizm Təşkilatı – "Dayanaqlı inkişaf turizmi haqqında" https://azerbaijan.un.org/az/sdgs
2. Acar M., 2008, "Tarım ve Kalkınma", Kalkinma Ekonomisi, Ed. S.Taban ve M. Kar, Ekin Yayınları, Bursa, s.159-184.
3. "Turizmin əsasları", İlqar Hüseynov, Bakı, 2007, s. 293-295

Cəmilə İSMAYILOVA
Azərbaycan Texniki Universiteti, magistr
camilaismayilovaaa@gmail.com

MAŞINQAYIRMA SƏNAYESİ MÜƏSSİSƏLƏRİNDƏ İNNOVASİYA PROSESLƏRİ VƏ MÜƏSSİSƏ FƏALİYYƏTİNDƏ ONLARIN ROLU

INNOVATION PROCESSES IN THE ENTERPRISES OF THE ENGINEERING INDUSTRY AND THEIR ROLE IN THE ACTIVITIES OF THE ENTERPRISE

ИННОВАЦИОННЫЕ ПРОЦЕССЫ НА ПРЕДПРИЯТИЯХ АШИНОСТРОИТЕЛЬНОЙ ОТРАСЛИ И ИХ РОЛЬ В ДЕЯТЕЛЬНОСТИ ПРЕДПРИЯТИЯ

Xülasə: *Bu gün yüksək texnologiya sahəsində bir müəssisənin vacib cəhətlərindən biri innovasiya sisteminin müxtəlif iştirakçılarının fəaliyyətinin informasiya dəstəyidir. Təcrübə göstərir ki, internetdə bir neçə il əvvəl geniş yayılmış verilənlər bazası və məlumat xidmətlərinin yaradılmasına dəstək səmərəsizdir. Firmaların müxtəlif beynəlxalq sərgilərdə və texnologiya yarmarkalarında iştirakının qismən və ya tam maliyyələşdirilməsi daha perspektivli ola bilər. Bir qayda olaraq, gələcəkdə həm yeni inkişafların yaranması üçün həm də məhsul bazarlarının formalaşması üçün əsas kimi xidmət edə biləcək yeni əlaqələrin yaranmasına səbəb olan sərgilərdir. Yeniliklərin tətbiqi dövründə həyata keçirilə bilən informasiya dəstəyinin ikinci istiqaməti, ayrı-ayrı nazirliklər və idarələr tərəfindən təmsil olunan dövlətin texnologiyaların birgə inkişafı və kommersiyalaşdırılması üçün tərəfdaş axtarışında iştirakıdır.*

Açar sözlər: *innovasiya, maliyyələşdirmə, maşınqayırma sənayesi, regional maşınqayırma, yüksək texnologiya*

Summary: *It is proposed to classify the priorities of innovative development, which allows to adapt innovative projects to the directions within the developed complex mechanism of formation and implementation of priorities of innovative development of machine-building enterprises. Principles and stages of implementation of the provisions of the project management system in the management of the implementation of the priorities of the innovative development of the machine-building enterprise have been identified. Monitoring is based on the systematic and unified organization of continuous control over the progress of projects in the context of the priorities of innovative development of the machine-building enterprise, which allows to identify problems and identify options.*

Keywords: *innovation, financing, engineering industry, regional engineering, high technology*

Резюме: *Предлагается классифицировать приоритеты инновационного развития, что позволяет адаптировать инновационные проекты к направлениям в рамках разработанного комплексного механизма формирования и реализации приоритетов инновационного развития машиностроительных предприятий. Определены принципы и этапы реализации положений системы управления проектами в управлении реализацией приоритетов инновационного развития машиностроительного предприятия. Мониторинг основан на систематической и единой организации постоянного контроля за ходом реализации проектов в разрезе приоритетов инновационного развития машиностроительного предприятия, что позволяет выявлять проблемы и определять варианты.*

Ключевые слова: *инновации, финансирование, машиностроение, региональное машиностроение, высокие технологии.*

Yüksək texnologiyalı sektorda ixtisaslı kadrların olmaması şəraitində infrastrukturun istifadəsi, habelə dövlətin innovativ fəaliyyətə ayırdığı maliyyə vəsaiti təsirsiz olur və bu öz növbəsində bu sahədə əhəmiyyətli bir problemdir. Bu problem aradan qaldırmaq üçün kiçik müəssisələr də daxil olmaqla, yenilikçi fəaliyyət göstərən müəssisələr üçün konsaltinq xidmətləri sisteminin yaradılır, proqramların və texniki vasitələrin istifadəsi də daxil olmaqla kadrlar hazırlanır. Kadr hazırlığı sistemi çevik və çoxşaxəli olmalı, həm universitet, həmçinin mövcud menecerlərin ixtisasını artırmaq üçün qısamüddətli kurslar, seminarlar, dəyirmi masalar daxil edilməlidir.

Hal-hazırda, innovasiyaların maliyyələşdirilməsində öz vəsaitlərinin çatışmazlığı, özəl kapital yığmaq üçün kifayət qədər gücü olmayan sənaye modernləşdirilməsi üçün zəruri olan yüksək texno-

logiyaların əksəriyyətinin kapital intensivliyi, inkişaf etməmiş kapital bazarı, özəl sektorun maliyyələşdirmə ilə əlaqədar passivliyi yeniliklər, eləcə də beynəlxalq bazarlar tərəfindən istehsalın texnoloji rəqabətqabiliyyətliliyi tələbləri müəssisələrdə, xüsusən maşınqayırma sahəsində innovativ fəaliyyətə maliyyə dəstəyinin göstərilməsini tələb edir [2,s.287].

Yüksək beynəlxalq rəqabət şəraitində innovativ fəaliyyətə kifayət qədər maliyyə dəstəyi verilməsə, ölkəmizin ümumi milli təhlükəsizliyinin və müstəqilliyinin elmi, texniki, texnoloji, iqtisadi və siyasi komponentini itirmək mümkündür. Buna görə də, bazarın və özəl kapital yığımının kifayət qədər inkişaf etmədiyi bu şəraitdə, innovasiyaya maliyyə dəstəyi və hər şeydən əvvəl dövlət ön plana çəkilir.

Bazar iqtisadiyyatı şəraitində müəssisələrin innovasiya siyasəti istehlakçı tələblərinin yerinə yetirilməsi üçün şərait yaradan rəqabət mübarizəsində həlledici vasitədir. Yeniliklər, iqtisadi artım və rəqabət qabiliyyətini təmin edən biznes, maliyyə, kredit və digər strukturların sabit fəaliyyət göstərməsinin ən vacib amilidir. Üstəlik, ən böyük müvəffəqiyyət, innovativ fəaliyyətin və yeni bir məhsulun təqdim edilməsinin davamlı olaraq innovativ fəaliyyətin idarə edilməsi prosesini təmsil etdiyi müəssisələr tərəfindən əldə edilir.

Yeniliklərin əsas maliyyələşdirmə mənbəyi olan öz vəsaitlərinin çatışmazlığı səbəbindən müəssisənin innovasiya siyasəti qısa müddətli xarakter daşıyacaq və istehsal və texnoloji bazanın inkişafından daha çox "yamaq deşikləri" nə bənzəyəcəkdir . Bunun göstəriciləri, tədqiqat və inkişaf xərclərinin aşağı və davamlı olaraq azalması, marketinq və kadr hazırlığı xərclərinin virtual olaraq olmaması, istifadə edilmiş və buna görə də ucuz avadanlıqların (sözdə ikinci əl) alınmasına yönəldilməsidir[4,s.150].

Maşınqayırma sənayesi müəssisələrində innovativ inkişaf tədbirləri olaraq aşağıdakılar həyata keçirilməlidir:

– müəssisənin investisiya cəlbediciliyinin artırılmasına yönəlmiş tədbirlərin həyata keçirilməsini təmin etmək;

– dövlət zəmanətləri sistemindən, pul dövriyyəsinin məqsədli tənzimlənməsindən və s. istifadə etməklə uzunmüddətli investisiyaların cəlb edilməsini təmin etmək;

– Müəssisəni dəstəkləmək üçün məqsədli proqramlar çərçivəsində paritet əsasda dövlət və özəl investisiyaların cəlb edilməsini təmin etmək;

– iqtisadiyyatın real sektorunun müəssisələrinin ucuz kredit resurslarına çıxışını təmin etmək;

– avadanlıqların lizinq şərtləri ilə təchiz edilməsi sistemini hazırlamaq;

– investisiya fəaliyyətini gücləndirmək;

– amortizasiya siyasətini, vergi güzəştlərini təkmilləşdirmək və müvafiq qaydaları düzəltməklə şirkətin öz kapitalının əsas kapitala yatırılmasını stimullaşdırmaq;

– investisiyaların cəlb edilməsi üçün normativ bazanı təkmilləşdirməklə, potensial investorlar üçün vahid statistik məlumat bazaları yaratmaqla, sənaye infrastrukturunu inkişaf etdirməklə, avadanlıqların alınması və məhsulların satışı üçün lizinq sxemlərinin hazırlanması, şaquli və üfüqi inteqrasiya əlaqələrinin təkmilləşdirilməsi yolu ilə özəl investisiyaların cəlb edilməsini stimullaşdırmaq[7,s.436].

Ümumilikdə maşınqayırma sənayesinin inkişafının mürəkkəbliyi ondadır ki, yaxın gələcəkdə ölkənin postindustrial cəmiyyətə daxil olmasının strateji məqsədlərinin həyata keçirilməsində eyni vaxtda üç əsas vəzifəni həll etmək lazımdır:

– maşınqayırma sənayesinin intensiv şəkildə modernləşdirilməsi və ölkənin maşınqayırma sənayesinin (ilk növbədə hərbi sənaye kompleksi) xarici texnologiya və avadanlıq tədarükçülərindən texnoloji asılılığından uzaqlaşmaq vacibdir;

– maşınqayırmanın innovativ inkişafını təmin edə bilən yeni mühəndislik, texniki və idarəetmə nəslinin formalaşması ilə insan resurslarının hazırlanması və yenidən hazırlanması;

– maşınqayırma müəssisələrinin investisiya cəlbediciliyinin artırılması və maşınqayırmaya özəl sərmayə axınının təmin edilməsi üçün şəraitin yaradılması [7,s.440].

İlkin mövqelərə bağlı qalma faydalı hesab edilə bilməz. Nəzərə almaq lazımdır ki, inkişaf etmiş xarici ölkələrdə hal-hazırda dördüncü və beşinci texnoloji sıraya aid olan texnologiyalardan istifadə olunur, lakin dördüncüsü artıq enməkdədir və beşincisi yüksəliş zirvəsindədir, altıncı dərəcəli

Резюме: *Христианство, насчитывающее более 2000 лет, зародилось на палестинских территориях. Эта религия связана с именем Иисуса. Корень слова христианство означает «khristos», то есть последователи Иисуса. В Кавказской Албании, как и в других городах, распространение христианства осуществлялось через апостолов, то есть учеников Иисуса. Архитектурные памятники, построенные в апостольский период, находятся в Шеки-Загатальском районе Азербайджана.*

Ключевые слова*: Лекит, Кум, Мамрух, Киш, Кильсадаг, архитектурные памятники.*

Qafqaz Albaniyasının ərazisinə daxil olan Azərbaycanın Şəki-Zaqatala bölgəsində xristianlığın yayılmasından qabaq bütpərəstlik elementləri əks olunurdu. Bu haqda məlumatı qədim yunan müəllifi Strabon verir: "Tanrılardan Heliya, Zevs və Selenaya, xüsusilə İberiya yaxınlığında yerləşən müqəddəs Selenaya inanırdılar" [8 , səh. 13] . Albanşunas alim F. Məmmədovanın fikrinə əsasən, Alban ənənəsində xristianlığın yayılmasında davamlı olaraq bir-birini əvəz etmiş iki dövr ayrılır. Birinci dövr həvvarilər dövrü adlandırılır. Bu dövr IV əsrə qədər davam edib və Faddey, Varfolomey və Faddey şagirdi Yeliseyin adları ilə bağlıdır. İkinci dövr (yunan-sirofil) Maarifçi Qriqori və alban çarı Urnayrın adları ilə bağlıdır. Alban kilsəsi mənşəyi erməni kilsəsindən fərqli olaraq, ən başlıcası Qüds kilsəsi və sonradan Qüds patriarxi ilə bağlıdır [10 , səh . 217].

Qafqaz Albaniyasında xristianlıq dinin yayılması haqqında məlumatı alban tarixçisi Musa Kalankatlı verir: "Faddeyin şagirdi müqəddəs Yelisey Qüds şəhərinə qayıdıb öz dindaşı havarinin həsəd oyadan şəhidliyi haqda söhbət edir. Bundan sonra Yelisey Qüdsun birinci batriki Ağamızın qardaşı müqəddəs Yakovun (Yaqub) tövsiyəsiylə müqəddəs Ruh naminə Şərqə təyin edilir" [3,səh. 29]

Missonerlik fəaliyyəti davam etdirən Müqəddəs Yelisey Azərbaycanın Şimal-qərb bölgəsində Qafqaz Albaniyası tarixi dövründə bu ərazidə kilsə tikdirir. "Alban tarixi" adlı əsərində alban tarixçisi Musa Kalankatlı yazır: "Müqəddəs batrik Gisa gəlir, burada kilsə tikir və qansız qurban verir. Bu yer şərqin bütün kilsələri və şəhərlərin başlanğıcıdır və biz şərqlilərə xristianlığın qəbul etdirilməsinin mənbəyidir" [3, səh 29]. Müqəddəs Yeliseyin xristianlığın təməli qoyulduğu Gisa adlandırılan ərazi məhz Şəki şəhəri Kiş kəndindədir. Bu ərazidə tikilən kilsə "Şərq kilsələrin anası" adlandırılır [2,səh.27] .

IV-VII əsrlərdə Cənubi Qafqazda Bizansla Sasani dövlətləri arasında münaqişə zonasına çevrilir. Albaniyada daxil olmaqla Cənubi Qafqaz xalqları bu mübarizəyə cəlb edildi. Albaniyada xristianlığın yayılmasında Bizans əhəmiyyətli rol oynamışdır. Azərbaycan tarixçisi T.Məmmədov bu barədə yazır : "Bizans kralları Cənubi Qafqazda siyasi movqeylərini möhkəmləndirmək üçün xristian missionerlərini oraya göndərdilər. Beləliklə Albaniyada xristianlığın yayılması üçün Bizansda bir xristianlığın mərkəzi olduğunu görərik" [1,səh. 118].

İkinci dövr (yunan-sirofil) dövrü F.Məmmədovanın yazdığı kimi maarifçi Qriqorinin adı ilə bağlıdır. Musa Kalankatlı maarifçi Qriqorinin missionerlik dövrü haqqında yazır: "Alban çarı Urnayr İran şahı II Şapurun bacısının əri idi. O, cəsarətli insan idi və çoxlu döyüşlərdə parlaq şöhrətlər qazanıb, ermənilər arasında da bayrağını sancmışdı. Müqəddəs Qriqorinin vasitəsilə o, təzədən dünyaya gəlmiş, Müqəddəs Ruhla örtülmüş və albanları imana gətirmişdir. O, əbədi işığın oğlu kimi yaşamış və axırda insan həyatını tərk etmişdir" [10 ,səh . 29].

Beləliklə, 313-cü ildə Urnayr xristianlığı dövlət dini elan etdi. Mənşəcə Arşakilərdən olan Urnayrın (və onun varislərinin) xristianlığı qəbul etmələri, əlbəttə, onların daxili inamları və ya xristianlığa olan meyillərindən daha çox siyasi mülahizələrlə bağlı idi. Monoteist din olan xristianlığın köməyilə Urnayr çoxmillətli alban dövlətini birləşdirmək və Zərdüşt İranına qarşı durmaq niyyətində idi. Varisləri də bu siyasəti çox gözəl başa düşür və onu davam etdirirdilər [11 ,səh.63].

Müxtəlif xalqlar və dövlətlərlə sıx əlaqələrə, eləcə də mədəni dəyərlərin mübadiləsinə baxmayaraq, Qafqaz Albaniyasının memarlığı xarici təsirlərə məruz qalmadı. Albaniya özünəməxsus sənətini inkişaf etdirdi və qorudu. Beləliklə, qonşu ölkələrin memarlığı ilə qarşılıqlı təsirdə və xristian dünyasına xas olan müəyyən bina və bədii prinsiplərin təsiri altında Qafqaz Albaniyasının orijinal və təkrarolunmaz məbəd kompleksləri yaradıldı [4,səh.168].

Qafqaz Albaniyası memarlıq abidələrinin tikilişi haqqında D.Axundov, V.Kərimov, K.Trever, P.Baranovskinin əsərlərində geniş məlumat verilir. Şəki-Zaqatala bölgəsində bu dövrə aid xristian abidələri tipoloji baxımdan aşağıdakı kimi qruplaşdırıla bilər: bazilika , günbəzli zal, dairəvi məbəd.

Kiş məbədi memarlıq xüsusiyyəti baxımından gümbəzli zaldır. Vilayət Kərimov və Norveç tətqiqatçı-arxeoloqu Bernar Sturfiel tətqiqat apararaq bu qənayətə gəlmişdilər ki , Kiş məbədi duz formaya malik olmayan üzlük kərpicdən , yəni əhəng daşından ucaldılıb. Konstruktiv hissələr əhəng daşından istifadə olunub. Yaxşı daşyonmuş divarlar xarici fasad və interyerinə incəsənət işini rəsmiləşdirilir. Daxili interyerinə vacib konstruktiv hissələrinə əhəng daşından istifadə edilib [5,səh.36].

"Dairəvi məbəd" memarlıq üslubu Mamrux məbədini qeyd edə bilərik . Mamrux məbədi haqqında biz Davud Axundovun "Архитектура древнего и раннесредневекового Азербайджана" adlı əsərində görə bilərik . O qeyd edir ki, Mamrux məbədi çıxıntılı portallar şəklində dizayn edilmiş, özündə xarici divarları dayaq növü rolunu oynamış, dörd daxili seqmenti dirək günbəz tambu-

runda yayılmışdır. Daxili dörd dirək də qeyri-bərabər səkkizbucaqlı tambur dayanıb, bəlkə də bir qədər əyri təbil konturlarla üzlü günbəz və ya çadırla örtülmüşdür. Tamburun dörd böyük tərəfində üç dar tağlı pəncərə vardır. 3 m enində olan yarımdairəvi apsis iki dairəvi çıxıntıyla eyni hündürlükdə idi və qırmızı rənglə boyanmışdır [7,səh.114]. Məbəd xristianlıqdan qabaq orada yaşayan əhalinin bütpərəsliyə meyilli olmasını göstərir. Bu haqda Davud Axundov yazır: "Mamrux məbədi ilahi üçlü Mitra, Ahura Mazda-Anahitə həsr olunmuş mürəkkəb bir kompozisiya təşkil edir" [7,səh.114].

Qum bazilikası haqqında «Очерки по истории и культуре Кавказской Албании…» əsərdə deyilir ki, məbəd üç tərəfi qalereya ilə əhatə olunmuş, yarımdairəvi apsları çıxıntılı, üç keçidli bir bazilikadır. Məbəd hündürlüyü yaxşı uyğunlaşdırılmış böyük daş daşından və möhkəm bir məhlulda kərpicdən (sütunlar, tağlar və lintellər) tikilmişdir. Məbədin daxili (qalereya ölçüləri 26,5x19,3 m) neflər iki cüt sütun və dirəklər (qərb və şərq) yaradılıb [9,səh. 283].

Rus memarı Piotr Baranovski XX əsrin ortalarında Ləkin məbədinin tədqiq edərək öz fikirlərini bölüşmüşdür: Ləkit məbədi haqqında tarixi məlumat XIV qeyd olunur. Memarlıq xüsusiyyətləri biz qeyd etsək Ləkit məbədi mərkəzi plana malik daxili tetrakonlu sütunlar, dairəvi girişlidir. Buna bənzər tikililər Suriyanın Bosra məbədi, indiki Ermənistanın ərazisində olan Göy Mələkləri məbədi və Gürcüstandakı Bana məbədi ilə oxşarlığı var. Ləkit məbədi Göy Mələkləri məbədi müqayisədə böyük qalıqlarla, Bana məbədə isə az qalıqlarla bu günə qədər gəlib çatmışdır [12,səh.42-43].

Məbədin diametri 22 metrə malik düz dairəvi formada dörd hissədə dağılmışdır : Üç hissədə tədqiqatlarla aparılmış portarlar aşkarlanıb , amma dördüncü şərq hissəsində dağılmış divarlar sayəsində ərazidə məbədin ərazisinə aid olan su arxı yaranmışdır.Bu məbədin tikintisində istifadə olunan daşların Qum bazilikası ilə azacıq fərqlə oxşarlığı var : Çaydaşı burada az istifadə olunub [12,səh.43].

G.Məmmədovaya istinadən Kilsədağ məbədinin qalıqları çoxsahəli xaricdən və daxili diametri 10,4 m olan dairəvi daxili divardan ibarətdir. Divarın daxili səthindən 1 metr məsafədə, hündürlüyü 40 sm olan hörgüdən əmələ gələn 8,4 m diametrli ikinci bir dairə var. Qorunmamış tamburu və strukturun qübbəli hissəsini dəstəkləyən səkkiz sütun üçün əsas rolunu oynadı [6,səh.64].

Azərbaycan Şəki-Zaqatala bölgəsinin Qafqaz Albaniyasının tarixi dövründə yaşayan əhali bütpərəstlik dini ilə yanaşı həm də xristianlıq dinidə ibadət ediblər. Bunu sübut kimi Şəki-Zaqatala bölgəsində yaşayan Udinləri qeyd etmək olar. Alban kilsəsinə mənsub olan Udinlər 313-cü ildə xristianlıq dininin qəbul ediblər. Qafqaz Albaniyası dövrünə aid memarlıq abidələrin bərpa və ya konservasiya işlərinə ehtiyac var. Şəki rayonunun Kiş kəndində yerləşən "Alban məbədi" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı qərarı ilə dünya əhəmiyyətli abidələr sırasına daxil edilmişdir. 2000-ci ildə Azərbaycan-Norveç tədqiqatçıların sayəsində Kiş məbədi bərpa işləri həyata keçirilib.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Azərbaycan tarixi., III-XIII əsrin I rübü. Yeddi cilddə. II cild /Bakı "Elm" 2007, səh 63
2. Əlizadə A//Azərbaycanda Xristianlıq: keçmişdən bu günə / Bakı: "Elm və Təhsil", 2016. səh 27
3. Moisey Kalankatuklu Albaniya tarixi /Mxitar Qoş Alban salnaməsi// Bakı "Avrasiya press" 2006. səh 29
4. А.Никоноров (Иеромонах)/История христианство в Кавказской Албании//Баку «Нурлан» 2005. səh. 168
5. В.Керимов и Б.Стурфиел/Киш //Баку «Çaşıoğlu» – 2003, səh. 36
6. Г.Мамедова/Зодчество кавказской Албании //Баку «Çaşıoğlu» 2004, səh. 64
7. Д.А.Ахундов/Архитектура древнего и раннесредневекового Азербайджана/ Баку «Азеринешр» 1986 səh 114
8. К.Г.Алиев/Античные источники по истории Азербайджана// Баку «Элм» 1987. səh 13
9. К.В.Тревер/Очерки по истории и культуре Кавказской Албании: IV в. До н.э. – VII в. н.э / /Москва-Ленинград 1959, səh. 283
10. Ф.Мамедова/Политическая история и историческая география Кавказской Албании (III в. До н. э. – VIII в. Н. э.)// Баку «Элм» –1986, səh. 217
11. Т.Мамедов/Кавказская Албания В IV-VII вв//Баку «Маариф» 1993, Səh. 118
12. Ю.А.Бычков., О.П.Барановская., В.А.Десантников., А.П.Пономарев /Петр Барановский., труды, вспоминания современников // Фонд П.Д.Барановского ., Управление капитального ремонта и строительства Департамента инженерного обеспечения правительства г. Москвы //Издательство «Отчий дом « Москва 1996 səh 42-43

Esmira BAĞIROVA
Azərbaycan Turizm və Menecment Universiteti, magistr
baghirova.esmira.2001@atmu.edu.az

MÜƏSSİSƏLƏRDƏ RƏQABƏT QABİLİYYƏTİNİN TƏMİN OLUNMASINDA STRATEJİ İDARƏETMƏNİN ROLU

THE ROLE OF STRATEGIC MANAGEMENT IN ENSURING COMPETITIVENESS IN ENTERPRISES

РОЛЬ СТРАТЕГИЧЕСКОГО УПРАВЛЕНИЯ В ОБЕСПЕЧЕНИИ КОНКУРЕНТОСПОСОБНОСТИ ПРЕДПРИЯТИЙ

Xülasə: *Strateji idarəetmə rəqabət üstünlüyünü qorumaq və ya təkmilləşdirmək üçün nəzərdə tutulmuş qiymətləndirmə, planlaşdırma və həyata keçirmə prosesi kimi müəyyən edilir. Qiymətləndirmə prosesi xarici və daxili mühitin qiymətləndirilməsi ilə əlaqədardır. Planlaşdırma biznes modellərinin, korporativ istiqamətin, rəqabət taktikasının, beynəlxalq strategiyanın, satınalmaların və birgə fəaliyyətin inkişaf etdirilməsini əhatə edir.*

Strateji idarəetmədə icra mərhələsi müvafiq təşkilati strukturu qurmaq, idarəetmə mədəniyyətini inkişaf etdirmək, strateji proseslərə nəzarət etmək və təşkilatı etik korporativ idarəetmə vasitəsilə idarə etmək üçün liderlik tələb edir.

Strateji fəaliyyətin nəticələri maraqlı tərəflər üçün gəlirlərdə, bazar paylarında, mənfəətdə və investisiya gəlirlərindəki dəyişiklikdə görünür. Nəticələr öz növbəsində təşkilatın xarici və daxili mühitinə təsir edən əks əlaqə dövrəsini yaradır.

Açar sözlər: *strateji idarəetmə, rəqabət, rəqabət qabiliyyəti, müəssisə, strateji məqsəd, rəqbət strategiyası.*

Summary: *Strategic management is defined as the process of evaluation, planning and implementation designed to maintain or improve a competitive advantage. The assessment process is related to the assessment of the external and internal environment. Planning includes the development of business models, corporate orientation, competitive tactics, international strategy, procurement and joint activities. In strategic management, the implementation phase requires leadership to build an appropriate organizational structure, develop a management culture, oversee strategic processes, and manage the organization through ethical corporate governance.*

The results of strategic activities are reflected in changes in revenues, market shares, profits and investment income for stakeholders. The results, in turn, create a feedback loop that affects the organization's external and internal environment.

Keywords: *strategic management, competition, competitive advantage, company, strategic objective, competition strategy.*

Резюме: *Стратегическое управление определяется как процесс оценки, планирования и реализации, направленный на поддержание или улучшение конкурентного преимущества. Процесс оценки связан с оценкой внешней и внутренней среды. Планирование включает в себя разработку бизнес-моделей, корпоративную ориентацию, конкурентную тактику, международную стратегию, закупки и совместную деятельность.*

В стратегическом управлении фаза внедрения требует лидерства для создания соответствующей организационной структуры, развития культуры управления, надзора за стратегическими процессами и управления организацией посредством этичного корпоративного управления.

Результаты стратегической деятельности отражаются в изменениях выручки, доли рынка, прибыли и инвестиционного дохода для заинтересованных сторон. Результаты, в свою очередь, создают петлю обратной связи, которая влияет на внешнюю и внутреннюю среду организации.

Ключевые слова: *стратегическое управление, конкуренция, конкурентное преимущество, компания, стратегическаи цель, конкурентная стратегия.*

Strateji idarəetmə strateji məqsəd və istiqamətin davamlı olaraq müəyyənləşdirilməsi prosesi kimi müəyyən edilir. Onun əsas məqsədi təşkilatın bacarıq və resurslarını tədricən xarici mühitdəki imkanlara uyğunlaşdırmaq və strategiyanın bütün aspektlərinin bir-biri ilə əlaqəli olmasını təmin etməkdir.

Rosabes Moss Kanterin fikrincə, strateji idarəetmənin əsas məqsədi gələcək fəaliyyətləri müəyyən etmək və dəyişiklik mexanizmlərini qurmaqdır. Onların əsas marağı qarşılaşdıqları daha böyük problemləri müəyyən etmək, bu məsələlərlə bağlı həll edilməli olan ümumi sahələri müəyyənləşdirmək və gələcək biznes məqsədlərinə nail olmaqdır.

Strateji idare etme (her yerde eyni yazilmali) həm də yaxın bir neçə ildə nələrin baş verəcəyi ilə bağlı fikir verir və bu ideyanın nə qədər irəli gedə biləcəyini göstərir. Biznes sahibləri və menecerlər gələcəkdə uğurlu olmaq üçün indi necə davranmalı olduqlarını bilməlidirlər. Vəzifəsini icra edən rəhbərlər təşkilatın nəyə nail olmaq istədiyini və bu arzunu reallaşdırmaq üçün nə etməyin lazım olduğunu tez fikirləşirlər. Bu baxımdan strateji idarəetmə iqtisadi sistemdə olduqca əhəmiyyətlidir.

Müəssisələrdə strateji idarəetmə

Amerikan alimi A.S.Arnold-a görə Strateji idarəetmə təşkilatların mövcud vəziyyətə, missiyaya və əsas prinsiplərə əsaslanaraq gələcəyə baxış yaratmaq, onlara bu baxışlara çatmağa imkan verəcək məqsəd və strategiyaları müəyyən etmək, monitorinq etmək və idarə etmək prosesini ifadə edən iştirakçı və çevik idarəetmə yanaşmasıdır.

Bundan əlavə, strategiya anlayışı alman alimi A.A. Henry-ə görə "Təşkilat və ətraf mühiti daim təhlil edərək, fəaliyyətləri planlaşdıraraq və təşkilata istiqamət və rəqabət üstünlüyü vermək üçün lazımi alətlər və resursları yenidən təşkil etməklə uyğunlaşacaq məqsədlərin müəyyən edilməsi prosesi"dir.

Türk alimlərindən olan D.C.Ege strateji idarəetməni təşkilatın xarici mühitlə əlaqələrini tənzimləmək və istiqamətini müəyyən etmək üçün həyata keçiriləcək fəaliyyətlərin planlaşdırılması, təşkili, həyata keçirilməsi, əlaqələndirilməsi və nəzarət edilməsi prosesi kimi müəyyənləşdirmişdir.

Strateji idarəetmə müəssisənin gündəlik və adi işlərinin idarə edilməsi ilə deyil, müəssisənin uzunmüddətli perspektivdə ayaqda qalmasına, ona rəqabət üstünlüyü təmin etməyə və əldə etdiyi qazancdan yüksək gəlir əldə etməyə imkan verəcək işlərin idarə edilməsi ilə məşğul olur [2, s. 44].

Modernist baxımdan strateji idarəetmə, "uzunmüddətli olaraq həyatını davam etdirmək üçün mövcud istehsal resurslarından (təbii qaynaqlar, insan resursları, kapital, infrastruktur, xammal və s.) müəssisəni davamlı rəqabət üstünlüyü ilə təmin etməkdir.

Strategiya sözünün mənşəyinə görə iki mənbəyə söykəndiyi deyilir. Bunlardan biri latın dilində yol, xətt və ya yataq mənasını verən stratum anlayışı, ikincisi isə qədim yunan General Strateqosunun adı ilə bağlıdır. Strategiya elmi bir intizam kimi inkişafını hərbi əhəmiyyətə borcludur. Əsasən hərbi termin olan strategiya, sülh və müharibə şəraitində bir millətin və ya bir qrup millətin qəbul etdiyi siyasətlərə maksimum dəstək vermək üçün siyasi, iqtisadi, psixoloji və hərbi qüvvələrin birlikdə istifadə edilməsi elmi və sənətidir.

Strategiya, iş elmi kontekstində "sıx rəqabət mühitində məqsədlərinə çatmağa çalışan bir müəssisənin görəcəyi hərəkət forması" olaraq təyin edilə bilər. Biznesdəki strategiya, ən sadə formada, necə qazanmağın zehni qurulmasıdır. Başqa sözlə, strategiya biznesə istiqamət və rəqabət üstünlüyü vermək üçün biznesi və onun mühitini daim təhlil edərək məqsədlərin müəyyən edilməsi, fəaliyyətlərin planlaşdırılması, lazımi alətlərin və resursların yenidən təşkili prosesidir.

Modernist nöqteyi-nəzərdən strateji idarəetmə istehsal ehtiyatlarından (təbii ehtiyatlar, insan resursları, kapital, infrastruktur, xammal və s.) biri kimi müəyyən edilə bilər. Yuxarıda təsvir edilən strateji idarəetmənin əsas elementlərini və xüsusiyyətlərini qısaca aşağıdakı kimi sadalaya bilərik [1, s. 37]:

- Strateji idarəetmə "uzunmüddətli" fəaliyyətlərə və "yekun nəticələrə" diqqət yetirən biznesin idarə edilməsi prosesidir.
- Uzunmüddətli perspektivdə "həyatı davam etdirmək" üçün onu təhdid edən ekoloji amilləri araşdıraraq müvafiq tədbirlər görməyi hədəfləyir.

Bundan əlavə, uzun müddətli sağ qalmanın yalnız rəqabət üstünlüyü təmin edəcək iş və fəaliyyətlərlə əldə edilə biləcəyini dərk edərək, "davamlı rəqabət üstünlüyü" əldə edilə bilən iş və fəaliyyət subyektlərini araşdıraraq müəssisə üçün bunları təmin etməyi hədəfləyir.

Bu kontekstdə strateji idarəetmə prosesi informasiyanın toplanması, təhlili, qərar qəbulu və tətbiqini özündə birləşdirən analitik prosesdir. Bu proses "təsirli və səmərəli" olmağı hədəfləyir:

- Məqsədli nəticələr əldə etmək üçün "idarəetmənin dörd funksiyasından (planlaşdırma, təşkil, icra və nəzarət) istifadə edir.

- Strategiya, ən ümumi tərif olaraq, biznesin rəqabət üstünlüyünü necə qazanacağına dair nəzəriyyədir.

Azərbaycanda strateji idarəetmə prosesi müəssisələrin rəqabət üstünlüyü əldə etmək və digər bizneslər/rəqibləri qabaqlamaq üçün istifadə edəcəyi bütün alətlərə aiddir. Strateji idarəetmə prosesinin sonunda müəssisələr rəqabət üstünlüyü əldə edəcək, uzunmüddətli perspektivdə sağ qalacaq və orta səviyyədən yüksək gəlir təmin edəcəklər.

Azərbaycanda təşkilat və müəssisə daxilində strateji idarəetmə prosesi missiya və baxış tərifləri ilə başlayır. Missiya ən sadə tərifi ilə "müəssisənin mövcudluğunun səbəbini" müəyyən edir. Vizyon, əksinə, "işin gələcəkdə özünü görmək istədiyi yer" olaraq təyin edilə bilər [13]. Missiya və vizyon strateji idarəetmə prosesində strategiyaya rəhbərlik edən tərifl ərdir. Onlar strateji idarəetmə üçün əvəzsiz elementlər kimi görünürlər. Prosesin missiyadan asılı olaraq missiya və vizyonun müəyyən edilməsi ilə başladığını bildirsək də; missiya və baxış daha universal tərifl ərdir və prosesin hər mərhələsində öz təsirini göstərir.

Azərbaycan müəssisələrində strateji idarəetmə prosesində ən çətin addım strateji seçim etməkdir. Çünki düzgün strateji seçim üçün ciddi biznes və xarici mühit təhlili lazımdır. Bundan əlavə, yanlış seçiləcək strategiyaların həyata keçirilməsi biznesin sonunu gətirəcək ən kritik nəticələrdən birinə, yəni rəqabət üstünlüyünün itirilməsinə səbəb ola bilər.

Təbii ki, prosesdəki addımlardan birinin digərindən daha vacib olduğunu söyləmək mümkün deyil, çünki strateji idarəetmə prosesi bütövdür və bir və ya bir neçə addımı atlamaq prosesi səmərəsiz edəcəkdir. Strategiya seçiminin sonunda iki əsas strategiya növü haqqında danışmaq olar [3, s. 23].

Rəqabət və ya rəqabətqabiliyyətlilik olaraq təyin etdiyimiz anlayış, uzunmüddətli perspektivdə öz ölkələrində insanların real gəlirlərini qorumaq və artırmaqla, azad və ədalətli bazar şəraitində beynəlxalq bazarlara cavab verən əmtəə və xidmətlər istehsal edə bilmə dərəcəsidir [2, s. 23].

Başqa bir tərifə görə, "rəqabət iki və ya daha çox tərəfin hər kəsin eyni anda əldə edə bilmədiyi bir şeyə nail olmaq üçün səy göstərməsi nəticəsində yaranan rəqabətdir". Bu ümumi tərif çərçivəsində rəqabət bütün rəqabət formalarını (ticarət və s.), alətləri (qiymət, reklam, AR-GE və s.), məqsədləri (mənfəət, irəliləyiş, mükafat, sağ qalma və s.) əhatə edir.

Rəqabət birbaşa və ya dolayı yolla bazara məhsul və ya xidmət təklif etməyə çalışan müəssisələrin fəaliyyətinə təsir edən bütün mühit və şərtlərdən ibarət anlayışdır.

Dəyişən rəqabət anlayışı istehsalın üstünlüyü ilə başlamış, dəyərin, keyfiyyətin və sürətin üstünlüyü ilə inkişaf etmiş və bu gün xidmətin üstünlüyü ilə daha da aydın olmuşdur. Rəqabət müəssisələrin və istehlakçıların sağ qalması üçün zəruri bir fenomendir. Bu gün qloballaşma fenomeni ilə həm rəqabətin intensivliyi, həm də rəqabətin müxtəlifliyi artmışdır.

Bu strategiya cari imkanlardan, xüsusən də rəqabət üstünlüyünün artırılması baxımından tam istifadə etmək üçün hazırlanmalıdır. Şirkətin yaxşı qurulmuş məqsədi inkişaf imkanlarını yaratmaq və istifadə etmək, həmçinin şirkətin hazırkı və gələcək mövqeyini qorumaqdır.

Strategiyanın uğurlu olması üçün o, bazar imkanlarına və xarici təhlükələrə uyğunlaşmalıdır. Bu, hücum tədbirlərinin formalaşdırılması, müdafiə tədbirlərinin formalaşdırılması və uzunmüddətli rəqabət mövqelərinin qorunması üçün bazar imkanlarından istifadə etməyi tələb edir.

Xarici şirkətlərdə strategiyanın hazırlanması təcrübəsi göstərir ki, şirkətin rəqibləri ilə müqayisədə daha yüksək peşəkarlıq strateji seçim üçün əsas meyar kimi daha yaxşı qəbul edilir. Bu strateji tədbir şirkətin güclü və zəif tərəflərinə və onun rəqabət qabiliyyətinə əsaslanmalıdır [2, s. 56].

Güclü bazar tələbi qarşısında rəqabət aparmayan şirkətlər xərclərin düzgün idarə olunmaması səbəbindən məhv olacaq və bağlanacaqdır. Ona görə də ixrac strategiyalarının hazırlanmasında ən vacib məsələlərdən biri də xərc məsələsidir. Onların səviyyəsindən asılı olaraq xərc strategiyası aşağı, orta və yüksək qiymətə bölünür.

Rəqabət üstünlüyü, ən sadə tərifi ilə "Rəqiblərlə müqayisədə daha çox iqtisadi dəyər yaratmaq" dır. Dəyər müştəriyə aid edilən bir fenomendir və müştərinin qəbul etdiyi dəyər üçün ödəməyə hazır olduğu iqtisadi qiymət olacaqdır. Əgər bu qəbul edilən dəyər rəqiblərdən yüksəkdirsə, müştəri həmin işə üstünlük verəcəkdir. Buna görə də bu, birbaşa rəqabət üstünlüyü yaradır.

Ölkəmizdə rəqabət üstünlüyü əldə etmək üçün biznesinizin təklif etdiyi məhsul və ya xidmətlərin onları rəqiblərdən fərqləndirən cəhətə malik olması ilkin şərtdir. Əgər bütün şirkətlərin strate-

giyaları eyni olarsa, bu bazarda rəqabət üstünlüyündən danışmaq mümkün deyil və əldə ediləcək mənfəət yalnız orta səviyyədə olacaqdır. Digər ifadə ilə rəqabət üstünlüyü, rəqiblərimizdən fərqli və ya daha yaxşı etdiyimizin nəticəsidir.

"Fərqli" deyiləndə ağlımıza iki növ fərq gəlməlidir. Bunlardan birincisi, təklif olunan məhsul və ya xidmətin rəqiblərin təklif etdiklərindən fərqli olaraq qəbul edilməsi nəticəsində baş verir [11]

a) Bu fərq nəticəsində müştərilər fərq ödəməyi qəbul edərlərsə, ortalamanın üstündə bir mənfəət əldə ediləcəkdir.

b) İkinci növ fərq xərclərin azalması ilə həyata keçirilir. Xərclər aşağı olduqda orta qiymətə satılan məhsul son nəticədə ortadan yuxarı mənfəət verəcəkdir.

c) Üçüncü bir fərq olaraq, qiymət ayrı - seçkiliyi, yəni ucuz satılması ağla gələ bilər [3, .s 42].

Bununla belə, unutmaq olmaz ki, strateji menecmentin əsas məqsədi rəqabət üstünlüyü təmin etməklə orta səviyyədən yuxarı mənfəət əldə etməkdir. Bu istiqamətdə xərclərdə çox ciddi bir azalma əldə edilməzsə, orta mənfəət əldə ediləcək və bəzi hallarda hətta orta gəlirdən aşağı düşəcəkdir. Bu, strateji idarəetmə anlayışına daxil olan "müəssisə üçün uzunmüddətli rəqabət üstünlüyünün təmin edilməsi" prinsipinə ziddir.

Rəqabət üstünlüyü yaradan bir fərqlilik, çox vaxt ortalamadan yüksək gəlirlilik gətirəcək. Yüksək gəlirlilik rəqabəti bir maqnit kimi cəlb edir. Buna görə də, rəqabətin özü çox vaxt qısamüddətli və müvəqqəti rəqabət üstünlüyü yaradır.

Davamlı rəqabət üstünlüyü yalnız o halda daimi olur ki, rəqiblərniz rəqabət üstünlüyü təmin edən elementi təqlid edə bilmirlər və ya həmin elementi təmin edən mənbəyə çata bilmirlər. Bu gün müəssisələr dərk etməlidirlər ki, "daimi rəqabət üstünlüyü əldə etmək çox çətindir!". Daimi rəqabət üstünlüyünə neft hasil edən ölkələri misal göstərmək olar (bunu daimi adlandırmaq çox düzgün deyil), onlar öz neft ehtiyatları sayəsində daim rəqabət üstünlüyünü saxlayırlar.

Rəqabət üstünlüyü yalnız dəstəkləndikdə davamlı ola bilər. Bu, daim imkanları araşdırmaq və yeni fərqlər tapmaqdır. Unudulmamalıdır ki, o zaman iflasa uğramayacaq qədər böyük olduğu deyilən şirkətlərin əksəriyyəti bu anda sağ qalmır.

Rəqabət üstünlüyü yoxdursa, iki vəziyyət var. Birincisi "Rəqabətli Ekvivalentlik" adlanır. Rəqabətli paritet vəziyyətində, biznesin təklifi "orta" kimi qəbul edilir və müştərilər tərəfindən orta dəyər orta qiymətə ödənilir [12].

Rəqabətli ekvivalentlik yaradan başqa bir səbəb müştərilərin biznesin təklif etdiyi məhsul və xidmətlərə uyğun olaraq konkret seçim etməməsidir. Bu, müəssisənin məhsullarının xüsusiyyətlərindən, həm də fəaliyyət göstərdiyi bazarın çox standart olması ilə əlaqədar ola bilər.

Bunlar adətən gündəlik ehtiyacları ödəyən məhsul və ya xidmətlərdir. Rəqabətli ekvivalentlik yaradan başqa bir səbəb bazarda digər şirkətlərlə müqayisədə xərc üstünlüyü əldə edə bilməməkdir.

Təbii ki, bu rəqabətli ekvivalentlik vəziyyəti xərc liderliyi nəticəsində əldə edilməsi arzulanan rəqabət üstünlüyü üçün etibarlıdır. Xülasə olaraq, müəssisənin məhsul və xidmətlərində heç bir fərq yoxdursa və xərc baxımından heç bir üstünlük yoxdursa, rəqabətdə ekvivalentlik vəziyyəti yaranır.

Strateji plan şirkətlər və müəyyən təkilatlar üçün məqsəd və vəzifələrin müəyyən edilməsi, onların vaxtında həyata keçirilməsi, resursların bölüşdürülməsi, tendensiyaların müəyyən edilməsi, fəaliyyətə effektiv nəzarət üçün zəmin yaradılması kimi fəaliyyətlərin əsasını təşkil edir. Planlaşdırma prosesinin spesifik prosedurları var: məqsədin qoyulması, problemin öyrənilməsi, seçim, planlaşdırma tapşırıqları, planın hazırlanması, proqnozlaşdırma, qiymətləndirmə, icraçılara çatdırılma, icra.

Bu məsələ ilə bağlı təkliflərimiz aşağıdakı kimidir:

- ✓ Müəssisələrdə rəqabətin düzgün qurulmasını təmin etmək (sağlam rəqabət);
- ✓ Strategiyaların müəyyən analizlər vasitəsilə icradan öncə təhlilini aparmaq – analiz etmək (PEST, GZİT və s.);
- ✓ Düzgün əməkdaşlıq siyasətlərinin qurulması.

İstifadə edilmiş ədəbiyyat siyahısı

Azərbaycan dilində

1. Cengiz A.S. Streateji yönetim ve reklam. İstanbul, Koçak, 2019, 455 s.
2. İsmayılov B.V. Strateji menecment. Dərs vəsaiti. Bakı, Təhsil, 2018, 296 s.
3. Osman K.M. Strateji yönetim ve onun kavramsal niteliği. İstanbul, İstanbul yayınları, 2019, 455 s.

4. Seyfullayev İ.Z. Marketinq. Dərs vəsaiti. Bakı, Təhsil NPM, 2016, 404 s.
5. Yahudov X.M. Müəssisənin iqtisadiyyatı. Dərslik. Bakı, Çıraq, 2015, 504 s.

Rus dilində

6. Альберт Х. М., Хедоури Ф. Основы менеджмента, пер. с англ., Дело, –М., 1992, 702 с.
7. Блинов А. О., Угрюмова Н. В. Управление изменениями: учебник. М.: Дашков и К, 2017. – 304 с.
8. Гатина Л.И. Стратегическое планирование развития предприятия: учебно-методическое пособие. Издательство КНИТУ. 2012. – 144 с.
9. Петросов А.А. Стратегическое планирование и прогнозирование: учебное пособие. М.,МГГУ, 2001. – 454 с.

İnternet resursları

10. https://cdn-acikogretim.istanbul.edu.tr/auzefcontent/21_22_Guz/stratejik_yone.html – strateji yönetim 2021.
11. http://auzefkitap.istanbul.edu.tr/kitap/isletme_ue/stratejiky%C3%B6n.pdf – strateji yönetim 2021.
12. https://www.gdg.az/library-item.php?l=az&id=136 – Strateji İdarəetmə – menecment 2021.
13. http://anl.az/el/Kitab/2018/10/cd/Azf-304417.pdf – Strateji menecment və onun əsasları2021.

Minə TAĞIYEVA
Azərbaycan Turizm və Menecment Universiteti, magistr
tagiyevamine7@gmail.com

TURİZM VƏ QONAQPƏRVƏRLİK SƏNAYESİNDƏ MÜŞTƏRİ MƏMNUNİYYƏTİ

CUSTOMER SATİSFACTİON İN THE TOURİSM AND HOSPİTALİTY İNDUSTRY

УДОВЛЕТВОРЕННОСТЬ КЛИЕНТОВ В СФЕРЕ ТУРИЗМА И ГОСТЕПРИИМСТВА

Xülasə: *Bu məqalə turizmdə müştəri məmnuniyyətinə həsr edilmişdir. Turizm hal-hazırda dünyada ən gəlirli sahələrdən biridir. Burada əsas şərtlərdən biri də müştərilərin məmnunluğudur. Müasir dövrdə sürətli inkişaf və rəqabətin olduğunu nəzərə alsaq, turizm müəssisələrinin müştərilərini itirməmək üçün onlarla daha sıx münasibət qurması zərurətinin yarandığını görmüş olarıq. Bunun nəticəsi olaraq, turizm müəssisəsi və müştəri arasında müəyyən bir davranış qaydaları yaranmışdır. Həmçinin müştəri məmnuniyyətinə təsir edən amilləri də nəzərə almaq lazımdır.*

Məmnuniyyət-müəssisənin (hotellər və turagentlər) müştərilərə göstərdiyi xidmətin qiymətləndirilməsi kimi başa düşülür. Burada qonaqların tələblərini anlamaq və təmin etmək həmin müəssisənin daha çox gəlir əldə edəcəyinə işarədir.

Müştəri məmnuniyyətinin qorunması üçün hətta bir sıra dövlət təşkilatları da qanunlar hazırlamışlar. Qanunlarda müştəri qarşısında öhdəliklərin yerinə yetirilməsi və hüquqlarının qorunması məsələlərinə toxunulmuşdur. Bu qanunlar çərçivəsində müştərilərin istək və ehtiyaclarının ən yaxşı səviyyədə qarşılanması şirkətin daimi müştərilərinin artması deməkdir.

Açar sözlər: *turizm, müştəri nəmnuniyyəti, davranış qaydaları, müştəri məmnuniyyətinə təsir edən amillər, qanunlar.*

Abstract: *This article is dedicated to customer satisfaction in tourism. Tourism is currently one of the most lucrative industries in the world. One of the main conditions here is customer satisfaction. Given the rapid development and competition in modern times, we can see that tourism companies need to build closer relations with them in order not to lose customers. As a result, certain rules of conduct have emerged between the tourism business and the customer.*

Factors affecting customer satisfaction should also be considered. Satisfaction is understood as an assessment of the service provided by the enterprise (hotels and travel agents) to customers. Understanding and meeting the needs of visitors here is a sign that the company will make more money.

Even a number of government agencies have drafted laws to protect customer satisfaction. Laws resolve issues of fulfillment of obligations and protection of client's rights. Satisfying the desires and needs of customers at the best level within the framework of these laws means an increase in the number of regular customers of the company.

Keywords: *tourism, customer satisfaction, rules of conduct, factors affecting customer satisfaction, laws.*

Резюме: *Эта статья посвящена удовлетворению потребностей клиентов в туризме. В настоящее время туризм – одна из самых прибыльных отраслей в мире. Одно из главных условий здесь – удовлетворенность клиентов. Учитывая быстрое развитие и конкуренцию в наше время, мы видим, что туристическим компаниям необходимо строить с ними более тесные отношения, чтобы не терять клиентов. В результате между туристическим бизнесом и клиентом сложились определенные правила поведения. Также важно учитывать факторы, влияющие на удовлетворенность клиентов.*

Под удовлетворенностью понимается оценка услуги, предоставляемой предприятием (гостиницами и турагентами) клиентам. Понимание и удовлетворение потребностей посетителей здесь – знак того, что компания будет зарабатывать больше денег.

Даже ряд правительственных агентств разработали законы для защиты удовлетворенности клиентов. Законы решают вопросы исполнения обязательств и защиты прав клиента. Удовлетворение желаний и потребностей клиентов на лучшем уровне в рамках этих законов означает увеличение числа постоянных клиентов компании.

Ключевые слова: *туризм, удовлетворенность клиентов, правила поведения, факторы, влияющие на удовлетворенность клиентов, законы.*

Hər bir ölkə üçün ən önəmli sektorlardan biri turizmdir. İnsanlar hər il tətil planları edir və bu planlar gəzmək, əylənmək, işgüzar, müalicəvi, dini və digər məqsədlərlə həyata keçirilir. Turizm sayəsində insanlar asudə vaxtlarını ən yaxşı şəkildə keçirirlər və ölkələrə də ekonomik cəhətdən qazanc gətirirlər. Turizm xidmətlərini reallaşdıran müəssisələr birlikdə turizm sənayesini yaradır. Bura mehmanxanalar, iaşə obyektləri, turoperatorluqlar, turagentlər və ekskursiya büroları daxildir.

Yaşadığımız dövrdə turizm müəssisələrində menecerlərin çətinlik çəkdiyi mövzulardan biri müştərilərin məmnunluğunu təmin etmək və bunu davamlı hala gətirməkdir. Müştərilərin ehtiyac və istəklərinə cavab verən, müştərilərini məmnun edən şirkətlər inkişaf etməyi bacarırlar. Təqdim edilən xidmətlərin keyfiyyəti də qonağın məmnuniyyətində önəmli rol oynayır.

Hal-hazırda təcrübəli turizm işçiləri müştərilərini itirməmək üçün bir sıra strategiyalar hazırlayırlar:

- tur agentlər tur bron etdikdən sonra otellərlə əlaqəyə keçərək turun tez bir zamanda təsdiqlənməsini, komfortlu, mənzərəli otağın verilməsini xahiş edir;
- müştəri otelə çatdıqdan və ölkəyə dönüş etdikdən sonra zəng edərək razı olub-olmadığını və hər hansı problemin olmadığı barəsində təəssüratlarını alırlar;
- endirimli turpaket reklamları hazırlayaraq daimi müştərilərini yenidən müraciət etmək üçün cəlb edirlər;
- bayram və doğum günlərində təbrik mesajları yazaraq daimi müştərilərini unutmadıqlarını bildirirlər.

Son dövrlərdə internetin inkişafı ilə əlaqədar bir sıra saytlar da yaradılmışdır ki, müştərilər getdikləri otellər haqqında fikirlərini bildirirlər. Booking.com, tripadvisor.com, expedia.com və s. kimi saytlarda hər hansı oteli nəzərdən keçirərkən orada olan müştərilərin rəylərini oxuya bilirik. Rəylərdə oteldəki otaqlar, qidalanma, əlavə xidmətlər barəsində ətraflı məlumatlar müştərilər tərəfindən qeyd olunur. Bu da öz növbəsində turistlərin oraya gedib- getməyəcəyinə, otel haqqında az da olsa bir fikirin yaranmasına şərait yaradır.

Fikrimcə, müştəri məmnuniyyətinə təsir edən müsbət və mənfi faktorlar vardır. Müsbət faktorlar:

- müştərinin problemlərini tez bir zamanda həll etmək;
- hər zaman onlarla gülər üzlə rəftar etmək;
- müştəri ilə danışarkən onun anladığı bir dildən istifadə etmək;

Mənfi faktorlar:

- işçilərin təcrübəsinin yetərsiz olması;
- xidmə heyətinin qonaqlara qarşı laqeydliyi;
- müştərilərin istəklərini gözlətmək [3, s.146-149].

Xidmətdən məmnun qalmış turist sözsüz ki, yenidən eyni müəssisəyə müraciət edəcəkdir. Həmçinin xidmətdən məmnun qalmış turist həmin müəssisə üçün ən yaxşı reklamlardan biridir. Narazı qalmış bir müştəri isə tur agentlik üçün təxminən 5-6 və ya daha çox müştərinin itirilməsi de-

məkdir. Tədqiqatlar göstərir ki, müştərinin şikayətinin ən qısa zamanda və keyfiyyətli bir şəkildə həll edilməsi müştərilərin 91%-ni yenidən eyni xidmətlərdən istifadə etməsinə şərait yaradacaqdır.

Yuxarıda qeyd edilən məlumatlar həmçinin otel qonaqpərvərliyinə də aid edilir. Qarşılanma, xüsusi diqqət, komfort bunların hər biri müştərinin oteldən məmnun qalmasına şərait yaradır:

Qarşılanma – qapıda səmimi qarşılanma, gözlənilmədən xoş gəldin hədiyyəsi təqdim etmə, qeydiyyatdan sonra otağa kimi müşayiət etmək;

Xüsusi diqqət – hotel üçün vacib olan qonağı pul mənbəyi olaraq görmək əvəzinə, yaxşı münasibətləri inkişaf etdirmə, müştəri kimi deyil, dost kimi davranma;

Komfort – otağın hər cəhətdən yaxşı vəziyyətdə olması, oteldə qalarkən müştərinin özünü evindəki kimi hiss etməsi [2, s.14-16].

Mehmanxanalar və turizm agentlikləri assosiasiyalarının ümumdünya federasiyasına (UFTAA) daxil olan turizm agentlikləri və beynəlxalq mehmanxana assosiasiyası (BMA) arasında olan münasibətlərə aid məcəllə-də də müştəri qarşısında öhdəliklərin yerinə yetirilməsi maddəsinə toxunulmuşdur:

Maddə 21. Müştəri qarşısında öhdəliklərin yerinə yetirilməsi.

a) Mehmanxana sahibi öz vəzifələrini bronlamanın düzgün sənədləşdirilməsi və təsdiqlənməsi halında yerinə yetirmiş hesab olunur; o, bunu etmədiyi təqdirdə turizm agentliyinə vurulmuş faktiki itkilərin əvəzini ödəməlidir.

b) Mehmanxana sahibi bronun sənədləşdirildiyi və təsdiqləndiyi

halda müştəriyə nömrə vermədiyi zaman o öz hesabına olaraq:

- müştərinin ən yaxın eyni dərəcəli mehmanxanada yerləşdirilməsini təmin etməli və qiymət fərqini ödəməlidir;
- müştərinin gəlməsi barədə müştərini və ya turizm agentliyini qabaqcadan xəbərdar etməlidir, əks halda isə müştərinin qalma yerini dəyişməsinə görə evinə və ya iş yerinə vurduğu telefon zənglərinin haqqını və başqa mehmanxana bronlama xərclərini ödəməlidir;
- müştəri nömrə boşalan kimi ilkin olaraq bronlanmış mehmanxanaya köçmə arzusunu bildirdiyi halda onun köçmə xərclərini ödəməlidir [1, s.204-205].

Bu maddənin əlavə edilməsi də müştəri məmnuniyyətinin turizmdə böyük rol oynadığına sübutdur. Yəni müəssisənin müştəri qarşısında yerinə yetirilməsi vacib olan öhdəliklərinə bu maddədə toxunulmuşdur.

Müştəri məmnuniyyəti və istehlakçı hüquqlarının qorunması mövzusunda Birləşmiş Millətlər Təşkilatının 9 aprel 1985-ci il tarixində qəbul etdiyi "İstehlakçının qorunması prinsipləri" qanunu mühüm rol oynayır. Qərarda müştəri məmnuniyyəti və istehlakçı hüquqlarının qorunması 6 prinsip əsasında hazırlanmışdır:

- fiziki təhlükəsizlik prinsipi
- istehlakçının iqtisadi marağının müdafiə edilməsi prinsipi
- müştəri xidmətlərinin keyfiyyətli standartları ilə bağlı prinsip
- önəmli xidmətlərin göstərilməsinə aid prinsip
- müştərilərin hər hansı problem zamanı kompensasiya olunmasının təmini ilə bağlı prinsip
- yeni xidmətlər barəsində məlumat proqramları hazırlanmasına dair prinsip [5].

Bunlardan əlavə, müştəri məmnuniyyətinin asılı olduğu üç amili nəzərdən keçirək:

- müştəri faydası – müştəri xidmətdən istifadə edərkən nə qədər çox zövq alırsa, bir o qədər məmnunluq hiss edir və aldığı məhsulu yüksək qiymətləndirir.
- müştəri yönümlülük – turizm müəssisəsinin quruluş sistemi müştərinin gözləntilərini qarşılayacaq şəkildə qurulmalıdır. Bu halda müştəri xidmət təminatçısından razı qalacaq.
- müştəri loyallığı – müştəri ilə səyahət xidməti provayderi arasında əlaqə məhz onlardan birinin sədaqətində özünü göstərir. Bununla birlikdə, müştəri xidmətlərindən məmnunluq hələ də sadiqliyinə zəmanət vermir, ancaq ortaya çıxması üçün bir şərtdir. müştəri loyallığına təkcə xidmətlərin keyfiyyəti deyil, həm də seçilən ərazidəki iqtisadi, siyasi, ekoloji vəziyyət təsir göstərir.

Səyahət bazarında müştəri məmnunluğunun ən güclü göstəricilərindən biri turizm operatorunun imicidir. Bu məsələni öyrənmək üçün aşağıdakı aspektlərin mövcudluğunu nəzərə almaq lazımdır:

- Səyahət agentliyinin imicini müəyyən edən amillərin olması,

- İmicin satışlara və müştərilərin sayına təsiri,
- Müştərilər ilə uzunmüddətli əməkdaşlığa imicin təsiri.

Səyahət şirkətinin bazarda səmərəli fəaliyyət göstərməsi üçün onun fəaliyyətinin bütün aspektlərini kifayət qədər ətraflı şəkildə xarakterizə edən qiymətləndirmə meyarları sistemini təmin etmək lazımdır. Xüsusilə, parlaq bir müsbət imicə sahib olduğunu iddia edən bir şirkət aşağıdakı meyarlara cavab verməlidir:

- İşçilərin səriştəsi – səyahət xidmətləri göstərmək üçün turoperator heyəti xüsusi bacarıq və biliyə malik olmalıdır;
- Etibarlılıq – turoperator stabil işləməli və göstərilən xidmətlərin yüksək keyfiyyətini təmin etməlidir və müştəri etibarını qazanmalıdır;
- Sorğuları tez bir zamanda cavablandırma – işçilər müştərilərin sorğularına tez, həmişə və hər yerdə cavab verməlidirlər;
- Mövcudluq – turoperator həm fiziki, həm də psixoloji cəhətdən əlçatan olmalıdır, xüsusən də turoperatorun işçi heyəti ilə əlaqə asan və xoş olmalıdır;
- Anlamaq – səyahət agentliyi müştərinin xüsusi ehtiyaclarını anlamağa çalışmalı və bu ehtiyaclara cavab verən bir məhsul təqdim etməlidir;
- Güvən – turoperator seçimində prioriteti müəyyən edən inamdır. Etibar şirkətin müştəriyə ciddi münasibətinin qarantı kimi çıxış edir [4].

Yuxarıda qeyd edilənlərlə yanaşı turizm müəssisələrində müştəri məmnuniyyətinə təsir edən amilləri də nəzər almaq lazımdır.Bunlar aşağıdakılardır:

- Şəxsi amillər;
- İqtisadi amillər;
- Psixoloji amillər;

Şəxsi amillər müştərinin yaşı, təhsili, peşəsi, cinsiyyəti kimi xüsusiyyətləri ilə anlaşılır. Turistlərin yaşından, peşəsindən və təhsilindən asılı olaraq səyahət etmək istədikləri məkanlar fərqlənir. Cavanlar daha əyləncəli məkanlara üz tutsalarda, yaşlı müştərilər daha sakit, tarixi obyektləri zəngin olan məkanları seçirlər.

İqtisasi amillər isə müştərinin gəlirindən asılıdır. Yüksək gəlirli müştərilər daha məşhur otellərə, yüksək səviyyəli xidmətlərə üstünlük verirlər. Digər təsir edən iqtisadi amil isə göstərilən xidmətin keyfiyyətidir. Zənnimcə göstərilən xidmət keyfiyyəti nə qədər yaxşı olarsa, müştəri yenidən həmin xidmətə müraciət edəcəkdir.

Psixoloji amilərə müəssisədə istifadə edilən dekorlar, braşuralar, afişalar, turizm müəssisəsinin logosu belə aid edilir. Otel və ya tur agent sahibləri müəssisələrini dekor edərkən, logo hazırlayarkən müştəriləri cəlb etməsinə diqqət yetirməlidirlər

Müştərilərin göstərilən xidmətlərdən məmnunluğunu təhlil etmək üçün ən çox anketlərdən istifadə olunur. Sorğulara firmanın müştəriləri olan respondentlər daxildir. Respondentlər sosial-morfoloji xüsusiyyətlərinə görə qruplara bölünürlər, yəni cinsi, yaşı, sosial vəziyyəti və s.

Qeyd edək ki, turizm agentliyinin daimi müştərilərinin əsas hissəsini qadınlar təşkil edir ki, bu da ümumilikdə turizmin müasir tendensiyaları ilə üst-üstə düşür. Tək və ya dostları ilə səyahətə çıxan qadınların sayı getdikcə artır. Bu, belə nəticəyə gəlməyə əsas verir ki, turizm sənayesində qadınları xüsusi hədəf qrupu kimi nəzərdən keçirmək lazımdır.

Turoperatorun xidmətlərindən istifadə edən müştərilər qrupunda əsas yaş payını 35-45 yaş arası insanlar təşkil edir. Bu, müəyyən karyera qurmuş, turizmdən yüksək səviyyəli xidmət tələb edən, həmçinin standart xidmət paketlərindən çox, fərdi olaraq hazırlanmış turlardan tez-tez istifadə edən aktiv insanların yaşıdır. 55 yaşdan yuxarı müştərilər olduqca nadirdir, istehlakçıların yalnız 5%-i bu yaş kateqoriyasının aşağı gəliri ilə əlaqələndirilir.

Tur operatorlarının işindən müştəri məmnunluğuna təsir edən problemlərin müəyyən edilməsi, müəyyən bir şirkət tərəfindən göstərilən turizm xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılması üçün təkliflər hazırlamağa imkan verir. Məsələn, turların çeşidi ilə bağlı problemlər aşkar edildikdə çatışmayan xidmətlər digər xidmətlərlə əvəz oluna və ya kompensasiya edilə, potensial müştərilər üçün maraqlı olan turlar da formalaşdırıla bilər. Yeni turizm məhsullarının formalaşdırılması im-

kanlarını nəzərə almaq lazımdır, çünki yeni turların formalaşması əhəmiyyətli maliyyə investisiyaları tələb edir, müasir iqtisadi böhran şəraitində bütün firmalar bunu ödəyə bilmir [4].

Nəticə olaraq, müştəri məmnuniyyətini təmin etmək və bu məmnuniyyəti sədəqatə çevirmək üçün bütün heyətlə birlikdə və əlaqəli işləmək lazımdır. Dəyişən və inkişaf edən bazar şərtləri, yeni ve çətinləşən rəqabət müəssisələri daha yaxşı istiqamətə yönəldir. Şöbələr arası əlaqə və işbirliyi, müştəri münasibətlərinin idarə edilməsinin yaxşı anlaşılması və anlatılması, müştəri istəkləri haqqında bilgi toplamaq və bunları dəyərləndirmək, müştəri məmnuniyyətinə və dolayısıyla müştəri sədaqətinə aparan ən qısa yoldur.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Ağakərimov M.M., Babazadə S.İ, Soltanova H.B. Mehmanxana təsərrüfatı. Bakı, 2005, 225 səh.
2. Otel işletmelerinde müşteri memnuniyyetinin değerlendirilmesi üzerine bir olan araştırması(Bartın ili örneği), 105 səh.
3. Otel misafirperverliği algısının müşteri memnuniyyeti üzerine etkisi: Yabancı turistler üzerinde bir araştırması, 161 səh.
4. https://spravochnick.ru/turizm/udovletvorennost_klientov_rabotoy_turoperatora/
5. URL:http://www.tupadem.hacettepe.edu.tr/birlesmismilletler.php

Aytən XƏLƏFOVA
Azərbaycan Turizm və Menecment Universiteti, magistr
khalafova.aytan.2001@atmu.edu.az

QARABAĞ XALÇALARI

KARABAKH CARPETS

КАРАБАХСКИЕ КОВРЫ

Xülasə*: Azərbaycanın ən qədim bölgələrindən biri olan, bu torpağın incisi sayılan Qarabağ həm də sənət və mədəniyyət mərkəzi kimi şöhrətlənib. Qarabağda daşişləmə, dulusçuluq, metalişləmə sənətləri ilə yanaşı, toxuculuq sənəti də özünəməxsus inkişaf yolu keçib. İstehsal texnikasına, naxış və çeşnilərinin müxtəlifliyinə, rəng əlvanlığına, yüksək bədii tərtibatına görə Qarabağ xalçaları hələ orta əsrlərdə geniş şöhrət qazanmışdı. Çoxəsrlik ənənələrə malik olan xalça sənəti haqlı olaraq Azərbaycanın dekorativ tətbiqi sənət incisi sayılır. Əhalinin təsərrüfat ehtiyacalarını ödəmək üçün yaranmış xalçaçılıq sənəti sonralar geniş vüsət almış və xalqın mənəvi həyatı ilə sıx bağlı olan çox maraqlı bədii yaradıcılıq sahəsi kimi onun məişətinə nüfuz etmişdir. Azərbaycan xalçalarının dəyəri onların naxışlarının quruluşunun çeşidliyində və el işləri bəzəyi motivlərinin zənginliyindədir. Münasib coğrafi şərait, təbii bitki rənglərinin çoxluğu və əhalinin həyat tərzinin özünə xas xüsusiyyətləri artıq qədim vaxtlarda Qarabağda xalçaçılığın inkişafına şərait yaratmışdır. Xalçaçılıq sənəti Azərbaycanda ta qədimdən inkişaf etmiş, müstəqillik illərində daha da inkişaf etmiş və ulu öndər Heydər Əliyevin daim qayğı göstərdiyi və yüksək qiymətləndirdiyi bir sahəyə çevrilmişdir.*

Açar sözlər: *xovlu xalça, xovsuz xalça, xalça məmulatları, dəstərxan, ornamentlər, kompozisiya*

Abstract: *Karabakh, one of the oldest regions of Azerbaijan and considered the pearl of this land, is also famous as a center of art and culture. Along with the arts of stone carving, pottery and metallization, the art of weaving has also developed in Karabakh. Karabakh carpets gained wide fame in the Middle Ages due to their production techniques, variety of patterns and flavors, colorful colors and high artistic design. Carpet art, which has centuries-old traditions, is rightly considered a pearl of decorative-applied art of Azerbaijan. The art of carpet weaving, created to meet the economic needs of the population, later became widespread and penetrated into the life of the people as a very interesting field of artistic creation, which is closely linked with the spiritual life of the people. The value of Azerbaijani carpets lies in the variety of the structure of their patterns and the richness of motifs in the decoration of handicrafts. Favorable geographical conditions, abundance of natural plant colors and peculiarities of the people's way of life have created conditions for the development of carpet weaving in Karabakh since ancient times. turned into a field.*

Keywords*: pile carpet, pileless carpet, carpet products, tablecloths, ornaments, composition*

Резюме: *Карабах, один из древнейших регионов Азербайджана и считающийся жемчужиной этой земли, также известен как центр искусства и культуры. Наряду с искусством резьбы по камню,*

гончарного дела и металлизации в Карабахе развито ткачество. Широкую известность карабахские ковры получили в средние века благодаря своей технологии изготовления, разнообразию узоров и ароматов, красочности и высокохудожественному оформлению. Ковровое искусство, имеющее многовековые традиции, по праву считается жемчужиной декоративно-прикладного искусства Азербайджана. Искусство ковроткачества, созданное для удовлетворения экономических потребностей населения, впоследствии получило широкое распространение и вошло в жизнь народа как очень интересная сфера художественного творчества, тесно связанная с духовной жизнью народа. Ценность азербайджанских ковров заключается в разнообразии структуры их узоров и богатстве мотивов художественного оформления изделий ручной работы. Благоприятные географические условия, обилие природных красок растений и особенности быта людей создали условия для развития ковроткачества в Карабахе с древних времен, превратившегося в поле.

***Ключевые слова**: ворсовый ковер, безворсовый ковер, ковровые изделия, скатерти, орнаменты, композиция.*

***Özet:** Azerbaycan'ın en eski bölgelerinden biri olan ve bu toprakların incisi olarak kabul edilen Karabağ, bir sanat ve kültür merkezi olarak da ünlüdür. Karabağ'da oymacılık, çömlekçilik ve maden işleme sanatının yanı sıra dokuma sanatı da gelişmiştir. Karabağ halıları, üretim teknikleri, desen ve tat çeşitliliği, renkli renkleri ve yüksek sanatsal tasarımı nedeniyle Orta Çağ'da geniş bir ün kazanmıştır. Asırlık gelenekleri olan halı sanatı, haklı olarak Azerbaycan'ın dekoratif uygulamalı sanatının incisi olarak kabul edilmektedir. Nüfusun ekonomik ihtiyaçlarını karşılamak için yaratılan halı dokuma sanatı, daha sonra yaygınlaştı ve insanların manevi hayatı ile yakından bağlantılı çok ilginç bir sanatsal yaratıcılık alanı olarak insanların hayatına girdi. Azerbaycan halılarının değeri, el sanatlarının dekorasyonunda desenlerinin yapısının çeşitliliği ve motiflerin zenginliğinde yatmaktadır. Elverişli coğrafi koşullar, doğal bitki renklerinin bolluğu ve halkın yaşam tarzının özellikleri, eski çağlardan beri Karabağ'da halı dokumacılığının gelişmesi için koşullar yaratmış, bir alana dönüşmüştür.*

***Anahtar kelimeler**: havlı halı, havsız halı, halı ürünleri, masa örtüleri, süs eşyaları, kompozisyon*

Qarabağ Azərbaycanın qədim tarixi bölgələrindən biridir.Kiçik Qafqaz dağları ilə Kür və Araz çayları arasındaki ərazini əhatə edir. "Qarabağ" anlayışı "qara" və "bağ" sözlərinin birləşməsindən əmələ gəlib. "Qara" sözü türk dillərində, o cümlədən Azərbaycan dilində rəng bildirməklə yanaşı," böyük", "qalın", "sıx" mənasında da işlənir. "Qarabağ" ın "böyük bağ", "səfalı bağ" mənasında işlədildiyi də bildirilir. Bəzən Qarabağın dağlıq hissəsi "Arsax" adlandırılır.Bu söz də Qarabağın qədim türk etnoslarından biri olan saklarla bağlıdır. "Arsax" "ər" və "sak" sözlərinin birləşməsi – "Sak əri" kimi izah olunur. Qarabağ təkcə Azərbaycanın deyil, eləcə də bütün dünyanın ən qədim tarixə malik diyarlarındandır. Bütün tarixi dövrlərdə Qarabağ Azərbaycan dövlətinin tərkibində olub. Azərbaycan, eləcə də bəşər sivilizasiyasına laiqli töhfələr bəxş edib,dünya musiqisini nadir incilərindən olan muğamın inkişafına böyük təkan verib. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın ən mühüm özəlliklərindən biri də özünəməxsus xalçaçılıq məktəbini formalaşmasındadır.[7;s.5] Qarabağ məktəblərində toxunulan 35-dən artıq orijinal xalça çeşnilərində min illər boyu formalaşmış bədii ənənələr qorunub saxlanılır.[17;s.243]

Keçən əsrin ortalarında Altayda yerli türklərin «məzarlıq» anlamında Basırıq (Pazırıq) adlandırdığı yerdə qazıntı aparan arxeoloq S. İ. Rudenko qədim kurqandan saqa (skit) boylarına məxsus sənət əsərlərilə yanaşı hamını heyrətə salan rəngini itirməmiş və salamat qalmış bir xalı aşkar etdi. "Pazırıq xalısı" adı ilə bugün Ermitajda saxlanan bu xalının yaşı m.ö.V-IV əsrə aid edilir, mütəxəssislərin rəyinə görə, xalının tapıldığı kurqanda aşkar olunan digər əşyaların kimyəvi analizi də onların həmin çağda bu basırığa qoyulduğunu göstərir. Xalının kurqan altında salamat qalmasının səbəbi vaxtilə basırıqda açılmış bir oyuqdan məzarın dibinə sızan suyun buz bağlaması, xalının buzun içində qalması idi. 183 x 200 sm ölçüdə olan dünya şöhrətli bu xalının toxunma yeri, üzərindəki naxışların, qrifon, at və maralların, ortadakı çərçivədə 24 xananın anlamı bir çox alimin tədqiqat mövzusu olmuşdur. Əksər tədqiqatçılar burada verilən simvolların saqa (skit) sənət əsərlərindəki "añ üslübü" (heyvan stili) ilə üst-üstə düşən və ayrılan cəhətlərinə də toxunmuşlar. Ermitajda 1960-cı illərdən şüşə arxasında saxlanan xalının toxunma üsulu haqqında da müxtəlif fikirlər vardır: bəziləri onu simmetrik ilmikli, bəziləri də bukle (dolama, sarma, lülə) üsulu ilə toxunduğunu qeyd edir. Başqa-başqa ölkələrdə yaşayan bir neçə alim bir-birindən xəbərsiz olaraq Pazırıqda ortaya çıxan bu xa-

lının Türkmənistan, Azərbaycan və Anadoluda geniş yayılmış oğuz-türkmən xalıları 5 ilə eyni tipdə olması haqqında eyni qənaətə gəlmişlər[6;s.4]

Ümumiyətlə Pazırıq kurqanlarından çıxan geyim-gecim, pal-paltar və xalı-xalçaların böyük bir qismini m.ö. I minilin ortalarında Ön Asiyadan Altaya köçən saqalara aid edirlər.[6;s.8]

Beləliklə, m.ö.VII əsrdə Quzey Azərbaycanda hakimiyətdə olan saqa (oğuz) boyları buradakı xalçaçılıq sənətinin və xalçalar üzərində yabanı heyvanların stilizə olunmuş saqa boylarına məxsus "añ üslubu" gələnəyinin inkişafına təkan vermişdir. Bu baxımdan, Altayda ölən saqa elbəyinin dəfnində istifadə edilən Pazırıq xalısının m.ö. V və ya IV əsrdə Qarabağda toxunduğunu irəli sürən xalçaşünaslar haqlıdır.[6;s.9]

Hələ qədim dövrdən burada yaşayan əhali sənətkarlıqla məşğul olmuşdur. İlk əvvəl daşda, dulus məmulatlarda və metalda ilkin şəkildə işlənmiş və bizim günümüzədək gəlib çıxmış motivlər sonrakı dövrlərin təsviri sənətində, o cümlədən tətbiqi sənətin müxtəlif növlərində, xalçaların ornament və kompozisiyalarında öz əksini tapmışdır. Dünyada insanın yarandığı ən qədim məskənlərdən biri olan və əsrlər boyu yalnız Azərbaycanın deyil, bütün Cənubi Qafqazın iqtisadi, siyasi və mədəni həyatında mühüm rol oynayan Qarabağ bölgəsi qədim mədəniyyət ocaqlarından biridir. [18;s.23]

Qarabağın əlverişli təbii coğrafi şəraiti (şirin su qaynaqları, alp çəmənlikləri, sıx meşələri, hündür dağları, şəlalələri, zəngin bitki və heyvanat aləmi, mineralları) bu bölgənin ən qədim insan məskənləri xəritəsinə daxil olmasına səbəb olmuşdur. Dünyada ən qədim insan məskənlərindən olan Azıx və Tağlar mağarasından (Füzuli şəhəri yaxınlığında) arxeoloji qazıntılar zamanı tapılan bir çox əmək alətləri buna aydın sübutdur. Qarabağ bölgəsinin ən qədim sakini olmuş Azıx adamı və onun həmdaşları ibtidai mədəniyyətin təşəkkülündə xüsusi yer tutur. Digər bir arxeoloji abidə olan Qaraköpəktəpə yaşayış yerindən (eradan əvvəl V-IV minilliklər - eramızın XII-XIV əsrləri) əl ilə hazırlanan gil qablar, tunc silahlar və başqa zərif naxışlanmış məişət əşyaları əldə edilmişdir. Qarabağ düzlərinə yaraşıq verən yüzlərlə yaşayış məskəni olan təpələrdən aşkar edilmiş maddi mədəniyyət nümunələri Azərbaycanla birgə Fransanın, Almaniyanın, İngiltərənin, Rusiyanın və b. ölkələrin muzeylərini bəzəyir.[18;s.24]

Qədim sakinlərin məişətində sümük alətlərinin də rolu az olmamışdır. Onlar sümükdən, əsasən, toxuculuq alətləri və tikiş üçün iynələr hazırlayırdılar. Arxeoloji qazıntılar zamanı məlum olmuşdur ki, yerli əhali arasında əkinçilik və maldarlıqla yanaşı, toxuculuq, boyaqçılıq, dulusçuluq və metalişləmə sahələri daha çox inkişaf etmişdir.[18;s.24]

Qarabağın Xocavənd, Ağoğlan və başqa ərazilərindən də zəngin maddi mədəniyyət qalıqları tapılmışdır. Hələ antik dövrdən Qarabağda Bərdə şəhəri məşhur idi. Bərdə həm iqamətgah, həm hərbi qala, həm ticarət mərkəzi, həm də möhtəşəm sənətkarlıq mərkəzi olmuşdur. IX əsr ərəb tarixçisi İbn Hövgəl Bərdə şəhərindən bəhs edərkən onu "Arranın anası" adlandırmışdır. Mənbələrin verdiyi məlumata görə Vll-X əsrlərdə Bərdədə 100 mindən çox adam yaşamışdır. Şəhərdə dörd böyük bazar, xüsusi sənətkarlıq mərkəzləri mövcud olmuşdur. Bu dövrdə Bərdə ipəyi İrana, Xuzistana ixrac edilir, xüsusi sifarişlə ipək xalçalar toxunurdu. Başqa bir müəllif Əl-Müqəddəsi isə yazırdı ki, Bərdə baş şəhər olub, bu vilayətin Bağdadıdır. Müəllif gözəl Qarabağ xalçalarından, xüsusən misli bərabəri olmayan "Bərdə" xalçaları haqqında məlumat verir.[18;s.24]

Ərəb müəllifi əl-İstəhri (X ə.) Bərdədən Hindistana ixrac edilən qızılı boyaq maddəsi (boyaqotu-marena) barədə, əl-Müqəddəsi, Hövqəl isə al-qırmızı boya alınan və hətta, Avropaya ixrac edilən "qırmız" adlı qurdlar barədə məlumat verir. XI-XII əsrlər Azərbaycanın çiçəklənməsi, onun iqtisadiyyatının yüksəlişi, şəhərlərinin genişlənməsi, bir çox sənətlərin inkişafı dövrüdür. Bu dövrlərdə bir çox bölgələrlə yanaşı Qarabağ bölgəsinin xalçaları da Yaxın Şərq bazarlarında böyük şöhrət qazanmışdı. XIII əsrin I yarısında və XIV əsrin ortalarında uyğur (türk) və Çin mədəniyyətinin güclü təsirinə məruz qalan monqollar həmin mədəniyyətlərin elementlərini Azərbaycana da gətirmişdilər. Nəticə etibarı ilə Azərbaycan incəsənətində, ilk növbədə xalçaçılıqda yeni süjetlər, kompozisiyalar meydana çıxırdı. Tətbiqi sənətin ən inkişaf etmiş sahələrindən biri olan xalçaçılıqda tətbiq edilən süjet və kompozisiyalar Qarabağ xalçalarında da öz əksini tapmışdır. XV-XVI əsrlərdə də Azərbaycan incəsənətində, xüsusilə xalçaçılıq sahəsində irəliləyiş var idi. Bu dövrlərdə avropalıların məişətinin əsas bəzəyi olan Azərbaycan xalçaları bir çox Avropa rəssamlarının tablolarında təsvir edilmişdir. Təsvir edilən xalçalar sırasında Qarabağ xalçaarı xüsusi yer tutur. Qarabağ qrupuna daxil olan "Muğan" xalçası Hans Memlingin (XV) "Məryəm körpəsi ilə" və "Bir gəncin portreti" tablosunda görünür.[18;s.25]

Səfəvilər dövləti hakimiyyəti dövründə (1501-1736) xalçaçılıq istehsalı mərkəzləri sürətlə inkişaf etmişdi. Bu dövrlərdə Qarabağ bölgəsində də nəfis xalçalar istehsal edilirdi.[18;s.25] Qarabağın xalça sənəti XVIII əsrin ikinci yarısından etibarən Şuşa şəhərində mərkəzləşmiş, daha geniş miqyasda inkişaf etməyə başlamışdır. Qarabağ xalçaçılıq sənətində qədim ənənə intensiv olaraq davam etdirilmişdir.[1;s.5]

Orta ərsdə Qarabağda maddi mədəniyyəti əks etdirən dekorativ incəsənət növləri inkişaf etmişdi. Rəng çalarları və naxışları orjinallığı ilə seçilən, bədii və texnoloji xüsusiyyətlərinə görə üstün olan Qarabağ xalça növünün bu gündə dünya şöhrətli olması həmin mədəniyyət ənənəsinin öz təsirini saxlaması ilə şərtlənir.[12;s.198]

XVIII əsrdə Qarabağ xalçaçılıq məktəbi, əsasən, Azərbaycanın "mirvari güşəsi" adlandırılan Şuşada cəmlənmişdir.(şəkil-1;2) Bu xalçalar ilk əvvəl Xocavənd adlandırılırdı. XVIII əsrdən Xocan, XIX əsrdən isə Şuşada yayıldığı müddətdə onlar "Qoca" adı ilə məşhur olurdular. Əslində "Qoca" xalçalarının adı Xocavənd kəndinin adı ilə bağlıdır. Azərbaycanın Şuşa şəhəri hələ qədim zamanlardan özünün bənzərsiz xalçaları ilə şöhrət qazanmışdır. Xalqın milli ənənələrindən bəhrələnən xalça sənəti bu bölgədə müəyyən inkişaf mərhələləri keçmişdir. Şuşa Qarabağ xanlığının paytaxtı olduğu dövrdə şəhərdə və onun kəndlərində klassik çeşnili xalçalar toxunurdu.[18;s.25] XIX əsrdə burada ənənəvi naxışlarla yanaşı Rusiyadan, eləcə də Avropadan gətirilmiş məcməyi, ətirli sabun, çit və digər müxtəlif məişət əşyalarının üzərindən götürülmüş naxışlardan yeni xalça kompozisiyaları – "Bağçada güllər", "Saxsıda güllər", "Bulud" və s. çeşnilər toxunurdu. 1840-1850-ci illərin statistik məlumatlarına görə Şuşa şəhərində sənətkarların sayı iki dəfə çoxalmışdı ki, onların xeyli hissəsini xalçaçılar təşkil edirdi. Şuşada xalça sənətinin əhalinin əsas məşğuliyyətlərindən birinə çevrilməsinə əlverişli coğrafi şərait, toxuculuq üçün yararlı xammal ehtiyatının bolluğu və məişətdə bu xammalın geniş tətbiq edilməsi başlıca səbəb olmuşdur. İstər daxili, istərsə də xarici bazarda Qarabağ xalçalarına olan tələbat onun inkişafına hərtərəfli təsir göstərmişdi. Şuşa İran, Türkiyə, Ərəbistan, Hindistan, Rusiya ilə karvan ticarət yollarının qovşağında yerləşdiyi, həmçinin Qarabağın və bütövlükdə Cənubi Qafqazın sosial-iqtisadi həyatında xüsusi yer tutduğu üçün burada xalçaçılıq dövrün tələbatına uyğun olaraq daim təkmilləşmiş bədii və texnoloji cəhətdən yüksək səviyyəyə çatmışdı. XIX əsrdə Şuşada yüksək toxuculuq məharəti ilə seçilən sənətkarlar çalışırdılar. Burada Xorasan xalçalarından da üstün keyfiyyətdə olan xalçalar toxunurdu. Azərbaycanın xalçaçılığının Qarabağ qrupuna daxil olan xalçalararasında özünəməxsus bədii və texnoloji xüsusiyyətləri ilə seçilən Şuşa xalçaları XIX əsrin sonlarında-XX-əsrin əvvəllərində daha böyük uğurlar qazanmışdı. (şəkil-3;4) [18;s.26]

Azərbaycanın digər bölgələrində olduğu kimi Qarabağda da xalçalar xovlu və xovsuz texnika ilə toxunmaqla iki qrupa bölünür. Birinci qrupa xovsuz texnika ilə toxunan həsir, çətən, buriya, palaz, cecim, kilim, vərni, şəddə, zili, sumax və ladı adlı xalçalar daxildir.[18;s.26] Tanınmış xalçaşünas Lətif Kərimov Azərbaycanda xovlu xalçaların iki üsulla, xovsuz xalçaların isə yeddi növ texnologiya ilə toxunduğunu qeyd edir. [10;s.12]

Xovsuz və xovlu xalçalar bədii xüsusiyyətlərinə və koloritinə görə dörd növə ayrılır: Quba-Şirvan. Gəncə-Qazax, Qarabağ və Təbriz növləri.[5;s.7]

Kiyevin Şərq və Qərb sənəti muzeyində XVIII əsrə aid Qarabağ xovsuz xalçalrının nadir nümunəsi-şəddə saxlanılır. Əgər bu xalça Şuşada toxunubsa,onda onu həmin yüzilliyin ikinci yarısına aid etmək lazımdır.Hesab edilir ki, "şəddə" sözü "şatranc"(şahmat) sözündən əmələ gəlmişdir, çünki xalçadakı rəsimlər şahmat qaydasında yerləşir.Azərbaycan xalçaçılığının bu şedevrinin Kübra xanım Əliyevanın verdiyi təsvirini tam şəkildə göstərmək lazımdır: "Xalçanın bütün sahəsi boyunca karvan, sarvan, atlılar, şahinlər, itlər, dəvələr və atlar, köşəklər və dayçalar, antiloplar və marallar hərəkət edir.Karvan bir neçə üfqi sıra ilə soldan sağa hərəkət edir, hər bir cərgə piyada gedən sarvanın fiquruna söykənir.Cərgələr- dəvə, dəvə balaları sonra atlar və ov quşlarının qatarları eyni bərabərlikdə növbə ilə bir-birini əvəz edir"[4;s.151]

Xovsuz xalçalar qrupuna daxil olan xalça və xalça məmulatlarının toxunuşu əlqacların əriş iplərinə "sadə keçirtmə", mürəkkəb keçirtmə və "sadə dolama" üsulu ilə əmələ gəlir. İkinci qrup xovlu xalçalardır. Bu qrupa xalı və xalçalar daxildir. Xovlu xalçaların toxunuşu "düyünləmə" üsulu, yə-

ni “dolama ilmə” və yaxud “qullabı ilmə” ilə əmələ gəlir. Sənətşünaslar xovlu və xovsuz xalçaların keçdiyi inkişaf yolunu dörd əsas və ardıcıl dövrə bölürlər.

Birinci dövr xalça sənətinin ibtidai dövrüdür. Qarabağda toxunan palaz və cecimlər bu dövrə aid edilir. Bu dövrdə toxunan xalça məmulatı bəzəksiz, saya yerli və bir rəngli olurdu. Sonralar toxucular heyvan yunlarının təbii rənglərindən istifadə edərək zolaqlı palazları yaratmışlar. Xalça sənətinin ibtidai dövrünü təşkil edən və keçirtmə üsulu ilə toxunan palaz zolaqlarının üç bədii inkişaf forması vardır:

a) sadə zolaqlar;

b) sulu zolaqlar;

c) naxışlı zolaqlar.[18;s.27]

Bu bədii inkişaf formaları cecimlərə də aiddir. Ümumiyyətlə, “palaz” köçmə həyat tərzi keçirən bir qism əhali arasında və habelə Muğanda, cecim isə Ağcabədi və Cəbrayılda geniş yayılmışdır. Adətən palazlar dik hanalarda, cecimlər isə yer hanalarında toxunurdu. İkinci dövr xalça sənətinin, texniki və başlıca olaraq, bədii cəhətdən inkişafının ilk dövrüdür. Bu dövrdə sadə dolama texnikası ilə əmələ gələn “kilim” toxuma üsulu inkişaf edir. Bu texnikanın meydana gəlməsi, xalçaların üzərində ibtidai formalarda sadə naxışlar toxumağa imkan yaratmışdır. Azərbaycanın bir çox bölgələrində olduğu kimi, Qarabağda da palaz və kilimlərdən alaçıqlarda, dəyələrdə və eləcə də toyxanalarda, istər daxili bəzək-döşəmə, istərsə də xarici örtük kimi istifadə olunurdu. Kilimlər əsasən Bərdə və Cəbrayılda toxunurdu. Üçüncü dövr vərni, şəddə, zili, sumax, ladı toxuma üsulu meydana gəlməsi dövrüdür. Mürəkkəb dolama texnikasının çox geniş yayıldığı bu dövrdə xalça bəzəyinin mürəkkəbləşmə və müxtəlif ölçülü naxış elementlərinin inkişafı üçün geniş imkanlar yaranmışdır. Xalça sənətinin üçüncü dövrünü təşkil edən və mürəkəb dolama üsulu ilə əmələ gələn şəddə və vərni xalçaları əksər hallarda maldarlıqla məşğul olan yerlərdə toxunurdu. Buna görə də bölgədə bu tipli xalçaların üzərində başlıca olaraq stilləşmiş heyvan təsvirlərinə daha çox təsadüf edilir. Qarabağın dağlıq rayonlarında şəddə və vərni toxunuşlu at, dəvə, öküz çulu, pərdə, məfrəş və s. məişət əşyalarına tez-tez rast gəlinir. Şəddə və vərninin istehsalının mənşəyi Bərdə və Naxçıvan olduğu güman edilir. Qarabağ bölgəsində nadir hallarda ipəkdən toxunmuş vərnilərə də təsadüf edilir. Mürəkkəb dolama toxuma üsulu ilə toxunan zili istər toxunuşuna görə, istərsə də bədii cəhətdən şəddə və vərniyə nisbətən daha artıq təkmilləşmişdir.[18;s.27]

Qarabağın zili bəzəklərində şərtiləşmiş heyvan təsvirlərindən başqa, ibtidai formada bir sıra həndəsi elementlər də meydana gəlmişdir. Zililərin əsas toxunma mərkəzi Bərdə olmasına baxmayaraq Ağdamda, Yevlaxda, Füzulidə, Ağcabədidə, Laçında, Beyləqanda və Kəlbəcərdə də toxunmuşdur. Adı çəkilən bölgələrdə sumax texnikası ilə xalça məmulatları da toxunmuşdur. Xovsuz xalçaların və xalça məmulatlarının özünə məxsus ornamentləri olur. Bu elementlər üçün palaz zolaqları, kilimlərə xas olan klassik elementlər, şəddə və vərni elementləri, zili, ladı, sumax elementləri adı altında birləşərək bir-birindən fərqlənirlər. Qədim zamanlardan bu günümüzədək istehsal edilən xovsuz xalçalar bütün dövrlərdə digər bölgələrdə olduğu kimi Qarabağ bölgəsində yaşayan əhalinin məişətinin ayrılmaz hissəsi olmuşdur. Qədim xalça ustaları məfrəş, xurcun, heybə, çuval, çul, yüküzü və s. məişət əşyalarının yüngül və yumşaq olmasını nəzərə alaraq, onların əksəriyyətini xovsuz xalçaların toxuma texnikası ilə istehsal edirdilər. Bu adət indi də davam etməkdədir. Xalça toxuma sənətinin dördüncü dövrü düyünləmə, yəni əvvəllər dolama ilmə, sonralar isə qüllabı ilmə texnikası ilə əmələ gələn xovlu xalça toxuma üsulunun inkişaf etdiyi dövrüdür. Bu dövr istər texniki, istərsə də bədii cəhətdən xalça sənətinin yüksək inkişaf dövrü hesab edilir. Hələ eramızdan əvvəl tətbiq olunan ilmə düyün texnikası, bütün başqa üsullardan fərqli olaraq, mürəkkəb kompozisiyaların tətbiq edilməsinə imkan yaratmışdır. Bu texnikanın inkişafı ilə əlaqədar yeni istehsal alətləri (dəmir qayçı, bıçaq) meydana gəlmişdir. İstər xovlu və istərsə də xovsuz xalçaların toxunma prosesində digər istehsal alətlərindən (həvə və kirkidən) istifadə etmişlər.[18;s.28] Müxtəlif ölçüdə və formada toxunulmuş xurcun, heybə və yəhər qaşlıqlarında,azuqə,qab-qacaq,pal-paltar saxlanılır və daşınır. Məfrəşə yorğan-döşək, xalı-xalça yığılır, çuval və xaralda taxıl saxlanılır. Çuldan qış aylarında kənd təsərrüfatı heyvanlarını (at, eşşək, öküz, dəvə) soyuqdan qorumaq üçün örtük,bəzən də bəzək kimi istifadə edilir. Yüngül olması üçün xalça məmulatları əsasən xovsuz xalça texnikasında toxunur. Təyinatından asılı olaraq müxtəlif texniki üsullarla (qayıq, dolama, sancma, sadə keçirmə, mürək-

kəb keçirmə, ladı və s.) toxunulan xalça məmulatları maraqlı kompozisiya və dolqun koloritli olur, bəzəkləri əşyanın forma və ölçüsü ilə üzvi əlaqiləndirilir. Azərbaycanın Qarabağ və Qazax zonalarında toxunulan xalça məmulatları forma zənginliyinə və rənglərinin əlvanlığına görə daha çox fərqlənir.[2;X;s.46.].

Qarabağ zonasına xas olan xovsuz xalçalar sırasında özünəməxsus yeri və ənənələrə bağlılığı ilə fərqlənən növlərdən biri də "Dəstərxan"lardır. Mərasim süfrəsi kimi istifadə olunan bu xalça məmulatı uzun müddət idi ki, unudulmuşdu. "Azərbaycan xalça ensiklopediyası"nda oxuyuruq: "Dəstərxan – zərif toxunuşlu ağ palaz. Kənarları qabarıq naxışlarla haşiyələndirilir, süfrə kimi istifadə edilir". Yun və pambıq materialdan kvadrat və ya düzbucaqlı formada, dolama üsulu ilə toxunan, ara sahəsi çox vaxt saya olan dəstərxanlar üzərində yer alan naxışlar həm də Qarabağın qonaqpərvərlik xüsusiyyətlərini, insanlara xoşməramlı münasibətlərini əks etdirməklə, naxışların dili ilə ailələrə sülh və əmin-amanlıq, ruzi-bərəkət arzularını da çatdırır. Dəstərxanın strukturunu iki müxtəlif ip – əriş və arğac ipləri təyin edir. Sadə keçirtmə yolu ilə arğac ipləri bir-bir ərişlərdən keçirilir və müəyyən sxem üzrə dolama yolu ilə onları tamamilə örtur.[14;s.7]

Orta əsrlərdən məşhur olan Qarabağ xalçaları öz şöhrətini günümüzədək saxlamışdır. Qarabağ xalçaları qrupuna aid olan xalçalar adları və naxışları ilə seçilir. Qarabağ xalçaları Bərdə, Ağcabədi xalçaları olub birinci qrupa, Şuşa xalçaları adı altında ikinci qrupa, Cəbrayıl qrupu adı altında 3-cü qrupa ayrılır.[1;s.5]

Xalça sənətinin tədqiqatı ilə məşğul olan sənətşünaslar Qarabağ xalçalarını üç qrupa bölürlər: 1. Aran qrupu. Bu qrupa Bərdə və Ağcabədi rayonlarının xalçaları daxildir. Bərdə rayonunun keçmişdə məşhur olan "Bərdə", "Xan-Qərvənd", "Açma-yumma", "Aran", "Qoca", "Buynuz", "Dəryanur", "Balıq", "Şabalıt buta" adlı xovlu xalçaları və şəddə, vərni və zili kimi xovsuz xalçaları olmuşdur. Bu qrupa daxil olan xalçaları xalça ustaları "Aran" xalçası da adlandırırdılar. Naxçıvan xalçası da texniki xususiyyətlərinə görə Qarabağ xalçalarına uyğun olduğu üçün bu qrupa daxil edilir.[18;s.28]

Ağcabədinin xovlu xalçalardan "Ləmbəran", "Qarabağ", "Xantirmə" və xovsuz xalçalarından cecim və zililər də çox yayılmışdır. Bu rayonda "Qaraqoyunlu" xalçası da toxunmuşdur. 2. Şuşa qrupu. Bu qrupa "Malıbəyli", "Ləmpə", "Bağçada güllər", "Saxsıda güllər", "Nəlbəkigül", "Bulud" adlı məşhur xalçalar daxildir. Burada "Atlı-itli", "Rüstəm və Söhrab", "Dəryanur" adlı xalçalar da toxunurdu. Şuşa qrupuna daxil olan "Ləmpə" xalçası Qarabağın bütün xalçaçılıq mərkəzlərində toxunmuşdur.[18;s.29] 3. Cəbrayıl qrupu. Bu qrupa Çiçəkli Muğan, Bəhmənli, Xanlıq, Kürd, Qaraqoyunlu, Qarmaqlı, Qasımuşağı, Qubadlı, Muğan, Talış və s. kimi müxtəlif adlı xalçalar ,xovsuz xalçalardan isə palaz və kilimlər daxildir.Bu xalçaları xarakterizə edən əsas bədii texniki cəhətlərə ilmə sıxlığının yüksək, xovunun orta hündürlükdə, toxunuşunun qullabi ilmə olması, əasəndə dördbucaqlı formada, incə toxunması və s. daxildir. [13;s.57]

Qarabağ xalça tipi iki regionda: dağlıq və aran zonalarında istehsal olunurdu. Dağlıq zonada XIX əsrdə xalça istehsalında Şuşa şəhəri və Daşbulaq, Dovşanlı, Girov, Trniviz, Malıbəyli, Çanaxça, Tuğ, Tağlar, Hadrut, Muradxanlı, Qasımuşağı, Qubadlı, Qoğaz, Mişseyid, Bağırbəyli, Xanlıq, Tutmas kəndləri əsas rol oynayırdı. Dağlıq zonanın fərqli xüsusiyyəti buradakı kəndlərdə əmtəəlik xalça istehsalının Qarabağın keçmiş özünəməxsus bədii mərkəzi olan Şuşadakına nisbətən zəif inkişaf etməsi idi. Dağlıq zonaya nisbətən xammalla, şübhəsiz ki, daha yaxşı təmin olunmuş Aran rayonlarından Cəbrayıl, Ağdam, Bərdə və Füzuli xalça istehsalında əsas yer tuturdu. Bunların hər birində əhalisi satış üçün xalça istehsalı ilə intensiv məşğul olan çoxlu kəndlər var idi. Burada "Çələbi" , "Aran", "Qoca", "Açma-yumma", "Şabalıd-buta", "Bəhmənli", "Muğan" kimi xalçalar toxunurdu. Lənkəran, Zəngəzur və Naxçıvan istehsalat zonalarının xalçaları da Qarabağ xalçaları tipinə aiddir. Burada ən geniş yayılan "Talış" və "Naxçıvan" xalçaları idi. [14;s.6]

Qarabağın xovlu və xovsuz xalçalarının ölçüsü başqa xalçalara nisbətən böyükdür. Bu bölgədə 2 kv. m.-dən 20 kv. m-ə kimi ölçüsü olan xalçalar toxunurdu. Bəzən ölçüsü 25 və 30 kv. metr olan xalçalara da rast gəlmək olur. Qarabağın xalı-xalçalarının ilmə sıxlığı 30x30-dan 40x40-a qədər olur. Bu bölgənin xalçalarında bir kvadrat metrdə 90.000-dən 160.000-nə qədər ilmə yerləşir. Bəzən bir kvadrat metrdə 200.000 ilməsi olan xalçalara da təsadüf edilir. Bu xalçalar qullabı ilmə toxunuşlu olur. Qarabağ qrupuna daxil olan xalçaların ilmə hündürlüyü, yəni qalınlığı 6 millimetrdən 10 mm.-ə qədər olur. Burada toxunan xalçalar əksər hallarda uzunsov olur. Bu xalçaların sıxlığı

orta və az olmasına baxmayaraq möhkəm, qalın və xeyli davamlı olur. Qarabağ xalçalarının kompozisiyası zəngin olur, yəni bu xalçalar mürəkkəb kompozisiya quruluşuna malikdir. Azərbaycanın digər bölgələrində olduğu kimi Qarabağ bölgəsində də xalça sənətinin inkişaf dövrünü təşkil edən xovlu xalçaların kompozisiyası müxtəlif formalı elementlərdən qurulmuşdur. Ümumiyyətlə, xalça kompozisiyası iki hissədən ibarət olur:

1. ara sahə;
2. haşiyə qurşağı.

Ara sahə ilə haşiyə ornamentləri bir-biri ilə üzvü surətdə bağlı olur.[18;s.30] Qarabağ xalçalarının ara sahə yerlərində iri ölçülü həndəsi göllər,nəbati motivli göl və naxışlar üstün yer tutur. Tərtibatda milli kompozisiya və naxışlarla yanaşı Şərq,Avropa həmçinin Rus incəsənətinin təsiri ilə yaranmış ornamentlərdə tətbiq edilir.[2;X;s.44]

Qarabağ xalçalarının ara sahəsinin bəzəyini nəbati elementlər, məişət əşyalarının, canlıların təsvirləri, müxtəlif formalı elementlər(pilləlilər, kvadrat və düzbucaqlılar, çoxbucaqlılar, qarmaqlılar, dilikli itibucaqlılar, sancaqlılar və ya tikanlılar, dəyirmilər, səkkizguşəli ulduzlar, qeyri-müəyyən formalılar) təşkil edir.[15;s.117]

Qarabağ xalçalarında təsvir edilən bitki elementləri öz formalarına görə iki növə bölünür:

1. həndəsiləşdirilmiş elementlər;
2. əyri xətli elementlər.

Həndəsiləşdirilmiş elementlər, əsasən, xalça kompozisiyasında doldurucu elementlər kimi və yaxud köməkçi, bağlayıcı rolunu oynayırlar. Bu elementlər Azərbaycanın digər bölgələrinə nisbətən, Qarabağ qrupuna daxil olan xalçalarda daha çox işlədilir. Əyrixətlilər həndəsiləşmiş bitki elementlərinə nisbətən daha da stilləşmiş formada olur. XV-XVI əsrlərdə Təbriz xalça məktəbinin nümunələrində daha çox tətbiq edilən bu formalar, nəinki "Qarabağ", hətta Yaxın Şərq və Kiçik Asiya xalça məktəbinə də qüvvətli təsir göstərmişdir. Qarabağ xalçalarında müxtəlif heyvan təsvirlərinə - ev heyvanlarına, vəhşi heyvanlara, o cümlədən quş və həşərat təsvirlərinə rast gəlmək olur.[18;s.30]

Gəncə-Qazax xalçalarında klassik xalq naxış üslubu əsas yer tutur.Xalçaların bəzəyində böyük ölçülü göllər, totem xarakterli stilizə edilmiş heyvan və quş rəsimləri tətbiq edilir. Rəngləri şux və dolğun olur.[2;X;s.44]. Xalçaların rəngi kontrast (qara, tünd sürməyi, qırmızı), şux və oynaq olur, Quba, Şirvan və Abşeron xalçaları ilmə sıxlığı və rənginə görə yaxın olasalarda, naxışlarına görə ayrılırlar.[2;X;s.44.] Qarabağ xalçalarında tez-tez rast gəlinən maral bütün türklərin eyni rəmzi mənası olan ümumi totem idi. Türkdilli xalqların təsəvvüründə maral yüksəliş rəmzi və böyük güc nişanəsi idi. Maralın dövri olaraq təzələnən ağacabənzər buynuzları cavanlaşdırma, daima təzələnmə və zamanın gedişini genişləndirmə rəmzi kimi yozulur. Azərbaycanın bir çox bölgələrində toxunan xalçalarda təsvir edilən at fiqurlarına Qarabağ bölgəsinin xalçalarında da tez-tez təsadüf edilir. [18;s.30]. At köçəri oğuz qəbilələrində əsas totemlərdən biri olmuşdur. Şumerlər (Altay türklərinin Mesopatamiyada məskunlaşmış nəsilləri hesab olunur) arabanı kəşf etdikdən sonra ilk dəfə olaraq ona at qoşmuşlar. At toteminə sitayiş günəş ilə əlaqədar idi. Oğuz türklərinin məskunlaşmış olduğu yerlərdə ata böyük ehtiram olmuş və onların ata sitayiş etməsi haqda çoxlu faktlar vardır. Altay ailəsi qəbilələrinin buğa, şir, at, pələng, qartal, əjdaha, maral, qurd kimi totemləri – dini rəmzləri məlumdur. Su mənşəli sayılan buğa (öküz) qüvvət və qüdrəti təcəssüm etdirən totemdir. Buğanın qədim təsvirləri Şumerdə, Qafqaz Albaniyasında və Mərkəzi Asiyada tapılmışdır. Ay səcdəgahı sayılan buğa (öküz) surəti XV əsr Şirvanşahlar dövlətinin gerbinin mərkəzini bəzəyir. Buğa surətinin ay mənşəli olmasına bir işarə olaraq onun buynuzları bilərəkdən aypara şəklində nəzərə çarpdırılmışdır.[18;s.31] Şərqdə və ümumiyyətlə, Azərbaycanda "qoç" və "buynuz" təsvirləri "güc-qüvvət" "bərəkət" və yaxud "bəddnəzərdən qoruyucu" simvolu kimi yozulur.[9;s.54] Qarabağ xalçalarında təsvir edilən pələng türk xalqlarının anlayışında qüvvə təcəssümü, insana xas olan bütün hisslərin daşıyıcısı idi. Qədim Azərbaycanda, Mərkəzi Asiyada, Altayda, Yeniseydə pələng qəbilələrin genealogiyasının təşəkküləndə böyük rol oynamışdır və əsas totemlərdən biri idi. Pələng fiquru da qədim Altay astronomik təqvimində yer almışdır. Qarabağ xalçalarında rast gəlinən qartal (tərlan) günəş, işıq mənbəyi totemidir. Türk xalqlarının incəsəntində qartal günəş, od, ildırım və şimşək hökmdarı sayılır. Qarabağ xalçalarında tez-tez rast gəlinən əjdaha totemi Azərbaycanda, Türkmənistanda, habelə Sibir ərazilərində xalqların məişətində və incəsənətində geniş yayılmış mifik hey-

vandır. Əjdaha totemi insanın həyatının uğurlu keçməsi üçün ona yardımçı olan heyvan ruhudur. Əjdaha güclülük, çeviklik, müdriklik, uzaqgörənlik təcəssümüdür. Şaman mərasimlərində əjdahaların həmişə irəlidə gedib yola işıq saldıqları təsəvvür edilirdi. Qədim insanlar əjdahanın olmasına inanırdılar. Qarabağ xalçalarında şir təsvirlərinə də təsadüf edilir. Şir Şərqdə ta qədimlərdən günəş, od, aydınlıq və qüdrət təcəssümü kimi qəbul olunmuşdu. Şumerlərin müharibə Allahı qanadlı şir şəklində təsvir edilirdi. Qədim türklərin dini əqidələrində totem görüşləri mühüm yer tuturdu. Totemizm ən qədim dini forma idi. Totem dedikdə qədim əcdadlarımızın bu və ya digər heyvan, yaxud bitkiyə inamı nəzərdə tutulurdu. Totem qəbilənin rəmzi idi. Qədim insan seçdiyi totemin qəbilə üzvlərini qorumaq iqtidarında olmasına inanırdı. Qarabağ xalçalarında ümumi kompozisiyada əsas yer tutan və ən çox gözə çarpan elementlər bütün xalça kompozisiyalarında olduğu kimi beş qrupa bölünür:[18;s.31]

a) Butalar. Azərbaycan ornamentlərində çox geniş istifadə olunan buta Qarabağın həm xovsuz, həm də xovlu xalçalarında təsvir edilir. Azərbaycanın müxtəlif bölgələrində xalça kompozisiyasında kök salmış buta Qarabağ xalçalarında da müxtəlif formalarda işlənmişdir. Qarabağın "Şabalıt buta" adlanan kompozisiyası öz bədii tərtibatına görə digər bölgələrin "buta" təsvirli xalçalarından seçilir.

b) Kətəbələr. Xalça kompozisiyasında kətəbə doldurucu vəzifəsini ifa edir. Adətən uzunsov kətəbələrin üzərində toxucular müxtəlif yazılar, süjetli kompozisiyalar və yaxud müstəqil quruluşlu ornametlər yerləşdirirlər.

c) Anagüllər. Xalça kompozisiyası üçün xarakterik olan bu elementlərin xalçaların adlarının müəyyənləşdirilməsində əsas və əhəmiyyətli rolu vardır. Qarabağın "Qoca" adlı xalçasında "ana güllər" çox təkrar olunur.

d) Göl və ya kiçik xonçalar. Qarabağ xalçalarında tez-tez rast gəlinən "göl", "xonça", "padnos" istilahları medalyon mənasını daşıyır. Azərbaycanın bütün bölgələrində toxunan xalçalarda təsadüf edilən göllər öz formalarına görə müxtəlif olduğu kimi Qarabağda toxunan xalçalarda da müxtəlif formalarda təsvir edilirlər.

e) Qubbalar. Qubbalar əsas elementlər qrupuna daxildir və adətən xalça kompozisiyasında böyük göllərin başında (qurtaracağında) yerləşdirilir. Toxucular bu elementləri "başlıq" və yaxud "heykəlbaşı" adlandırırlar.

Haşiyə bəzəyinin elementləri iki növə bölünür:

1) haşiyənin qarışlarını təşkil edən elementlər;

2) haşiyə qurşağını təşkil edən zolaqlar.

Haşiyə qarışlarını təşkil edən elementlər haşiyələrin kompozisiyasını təşkil edir və qarışları əmələ gətirir. Bu elementlər qarışyanı, bağlayıcı və ya qarışortası vəzifəsini daşıyır. Haşiyə qurşağını təşkil edən elementlərə "su"lar, "siçandişilər", "mədaxillər", "zəncirələr", "bala haşiyələr", "ara haşiyələr", "cağ"lar aiddir. Qarabağ xalçalarının rəng palitrası çox zəngindir. Bu xalçaların rəngləri şux və parlaq olur. Bu rənglər Qarabağın təbii coğrafi şəraiti, gözəl mənzərələri, bağları, meşələri və yaşıl çəmənlikləri ilə əlaqədar olaraq meydana gəlmişdir.[18;s.32] Bu bölgədə qırmızı və çəhrayı rənglər boyaq ("marena") bitkisindən və qırmızı rəng bəzən "qırmız" adlanan qurddan, sarı və sarımtıl rənglər sarıçöp, sarıgüldən, noxudu və ya şəkəri rənglər – soğan və alma qabığından, palıd rəngi – qoz qabığından, sürməyi və göy rənglər – təbii indiqodan alınırdı. Qarabağda təbii rənglərin boyama qabiliyyətini artırmaq məqsədilə toxucular arasında çox tətbiq edilən zəy, duz, mal sidiyindən və başqa bərkidici maddələrdən istifadə edirdilər. XIX əsrin axırlarından başlayaraq Azərbaycanın bir çox bölgələrində olduğu kimi Qarabağda, xüsusilə Şuşada bəzən saxta boya (sabit olmayan) ilə boyanan xalçalara da təsadüf edilirdi. Əlbəttə, Azərbaycan xalçalarına xas olmayan bu boyaq üsulu xalçaların bədii xüsusiyyətini azaldırdı. Qarabağ xalça sənətinin rəng xüsusiyyətlərindən biri də budur ki, xalq ustaları tovların isti-soyuqluğunu, kontrastlılığını, rəng ahəngdarlığını, qanunauyğunluğunu yaxından hiss etmişlər və nəticədə göz oxşayan, xoşagəlimli rəng palitrası yaratmışlar. "Sehrli ilmələr" qalereyasının Qarabağ kolleksiyasına daxil olan xalçalardakı zəngin naxış tərtibatı, rəng uyğunluğu buna bir daha sübutdur. Zəngin kolleksiyaya malik olan qalereyada Azərbaycanın qocaman xalça ustalarının qədim dövrlərdən bu günümüzədək yaratdıqları kompozisiyalar ənənəvi surətdə bu günkü xalçalarda tətbiq edilirdi. Qarabağ bölgəsinin demək olar ki, bütün kompozisiyaları toxucular tərəfindən yüksək peşəkarlıqla toxunur və bu sənətin sirləri bu günkü və gələcək nəsil-

lərə ötürülür. Qədim tarixə, zəngin naxış tərtibatına və ahəngdar rəng quruluşuna malik olan Qarabağ xalçaları əsrlər boyu bu diyara səfər etmiş səyahətçilərin, tədqiqatçıların diqqətini cəlb etmişdir. Məişətə rahatlıq gətirən və gözəllik bəxş edən Azərbaycan xalçaları müxtəlif dövrlərdə əcnəbilərin zövqünü oxşamış və onlarda alıcılıq həvəsini oyatmışdır. Əcnəbilərin, əsasən, Amerika və avropalıların məişətinə nüfuz edən xalça və xalça kompozisiyası əsasında toxunan tikmələr bu gün dünyanın bir çox ölkələrində yaşayan kolleksionerlərin və muzeylərin sənət əsərləri içərisində ən dəyərli və nadir incilər kimi saxlanılır və nümayiş edilir.[18;s.33]

Şuşa xalçaları 1867-ci ildə Parisdə və 1872-ci ildə Moskavada keçirilən sərgilərdə mükafata laiq görülmüşdür. Həmin dövrdə Qafqaz mətbuatı yazırdı; "Şuşada siz çox gözəl yerli xalçalara rast gələ bilərsiz. Naxışı, rəngi, möhkəmliyi ilə bu xalçalar, zənnimcə, heç nəyi ilə İran xalçalarından geri qalmır, yerli əhalinin qənaətinə görə isə hətta Xorasan xalçalarını üstələyir. Siz onları, mənşəyini izah etməyə özlərinə əziyyət vermədən İran xalçası adına satanları Tiflis karvansaralarında görə bilərsiniz".Və başqa bir yazıda deyilir: "Şuşa şəhəri, ilk növbədə, bədii zövqlərin rəhbəri, sifarişçisi, alıcısı və ümumiyyətlə, çox böyük şans yeridir. Elə burada, təkcə bu rayonda yox, həm də bütün Zaqafqaziyada xalça istehsalına ahəng verən ən yaxşı xalça toxuyan qadınlar işləyirdilər".[4;s.144]

Məlum olduğu kimi, Azərbaycan xalçalarının 250-dən çox növü və 600-dən artıq çeşnisi vardır. Xalça ustalarımızın rəng xəzinəsi olduqca zəngindir. Təzadlı rənglərin müstəsna ahəngdarlığı Azərbaycan xalçalarının ənənəvi xüsusiyyətlərindəndir. Zərif işlənmiş əlvan rəngli Azərbaycan xalçalarında sənətkar barmaqları ilmələrlə tariximizi yaşadan rənglər dünyası yaratmışdır.[16;s.21]

Təsadüfü deyil ki, "Azərbaycanın xalçası" sənəti 15-18 noyabr 2010 cu il tarixində Keniya Respublikasının Nayrobi şəhərində keçirilən YUNESKO-nun Qeyri-maddi mədəni irs üzrə Hökumətlərarası Komitəsinin V sessiyasında YUNESKO-nun Bəşəriyyətin Qeyri-maddi mədəni irs üzrə Reprezentativ siyahısına daxil edilmişdir. Xalçamıza verilmiş belə bir qiymət hər bir Azərbaycan vətəndaşının qürur hissidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 25 noyabr 2016-cı il tarixli Sərəncamı ilə hər il may ayının 5-i Azərbaycan Respublikasında "Xalçaçı günü" peşə bayramı kimi qeyd edilir. Belə bir günün dəyərləndirilməsi bütün xalçaçı rəssamlara, xalça toxuyanlara, milli sərvətimizi muzeylərdə toplayıb, qoruyub, nəsildən-nəslə ötürən insanlara bütövlükdə xalça sənətini dəyərləndirən Azərbaycan xalqınına çox gözəl bir ərmağandır. [20]



Şəkil 2. Qarabag xalçası xvıı əsr.[19; s.42]



Şəkil 2 . Qarabag xalçası xvııı əsr.[19; s.42]



Şəkil 3.Qarabag "Cəlabi" xalçası xıx əsr (1897-ci il) [19; s.43]



Şəkil 4. Qarabag "Qasımuşagı"xx əsr (1912-ci il) [19; s.43]

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Anar Xəlilov. "Qarabağ abidələri". Bakı 2009.
2. Azərbaycan Sovet ensiklopediyası-X cild. Bakı 1987.
3. "Azərbaycan xalçası" Bakı 2012.
4. Çingiz Qacar. "Köhnə Şuşa" Bakı 2019.
5. Əliyeva Aytən. "Azərxalça" İstehsal Birliyində istehsal olunan xalçaların bədii-estetik göstəricilərinin tədqiqi" mövzusunda.
6. Firidun Ağasıoğlu. "Qarabağın sehirli bir basrıq xalısı" Bakı 2012.
7. Heydər Əliyev Fondu. "Azərbaycan xalçaları Qarabağ inciləri" Bakı 2010.
8. Kərim Tahirov. "Azərbaycan xalçası" Bakı 2012.
9. Kərim Şükürov, Vidadi Muradov. "Azərbaycan xalçaları Qarabağ qrupu" Bakı 2011.
10. Lətif Kərimov. "Azərbaycan xalçası" Bakı 1985.
11. Nazim Tapdıqoğlu. "Qarabağın tacı Şuşam" Bakı 2004.
12. Prezident kitabxanası. "Ermənistan-Azərbaycan münaqişəsi" Bakı 2005.
13. Röya Tağıyeva. "Azərbaycan xalçası məişətdə" Bakı 2006.
14. Röya Tağıyeva, Yalçın Səlimov, Gülşən Hüseynova. "Qarabağda xalçaçılığın muasir inkişaf potensialı" Bakı 2017.
15. Rzayev Orxan.Azərbaycan xalçaları "Metropoliten" muzeyində.
16. Səidə Səlimzadə, Əlisəfa Nuriyev. "Xalçaçılıq texnologiyası" Bakı 2011.
17. Vidadi Muradov, Kübra Əliyeva. "Azərbaycan xalçaları".Bakı 2008.
18. Vidadi Muradov. "Azərbaycan xalçaları Qarabağ qrupu" Bakı 2010.
19. Yaqub Mahmudov, Kərim Şükürov. "Qarabağ" Bakı 2005.

İnternet resursları

20. https://memim.az/xeberler/azerbaycan-xalcaciliq-mektebi-1588655834

Murat YILDIZSAFER
Azərbaycan Turizm və Menecment Universiteti, dissertant
murat.yildizsafer@divan.com

AZƏRBAYCANDA MEHMANXANA MÜƏSSİSƏLƏRİNİN MALİYYƏ-TƏSƏRRÜFAT FƏALİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

ASSESSMENT OF FINANCIAL AND ECONOMIC ACTIVITIES OF HOTEL ENTERPRISES IN AZERBAIJAN

ОЦЕНКА ФИНАНСОВО-ХОЗЯЙСТВЕННОЙ ДЕЯТЕЛЬНОСТИ ГОСТИНИЧНЫХ ПРЕДПРИЯТИЙ В АЗЕРБАЙДЖАНЕ

Xülasə: *Məqalədə Azərbaycan Respublikasında mülkiyyət növləri üzrə mehmanxana müəssisələrinin mövcud maliyyə-təsərrüfat fəaliyyəti müvafiq illər üzrə təhlil edilmiş, iş və xidmətlərin rentabellik səviyyəsi müqayisə edilərək qiymətləndirilmişdir. Burada birgə müəssisələr üzrə turizm xidmərindən əldə olunan gəlirin xərclərlə müqayisədə digər mülkiyyət növlərinə nisbətən üstünlük təşkil etməsi müəyyən edilmişdir. Məqalədə Azərbaycanda mülkiyyət növləri üzrə turizm sahəsinin səmərəliliyin yüksəldilməsində optimal idarəetmənin hesabına iş və xidmətlərin rentabellik səviyyəsinin artması, həmçinin mehmanxana müəssisələrinin iş və xidmətlərindən əldə olunan gəlirə xarici və birgə mehmanxana müəssisələrinin iş və xidmətlərindən əldə olunan gəlirin təsiri Eviews proqram paketinə əsasən qiymətləndirilmişdir.*

Açar sözlər: *turizm, maliyyə-təsərrüfat fəaliyyəti, rentabellik səviyyəsi, gəlir, proqram paketi, korrelyasiya-reqressiya.*

Резюме: *В статье анализируется текущая финансово-хозяйственная деятельность гостиничных предприятий Азербайджанской Республики по формам собственности за соответствующие годы, сравнивается и оценивается уровень рентабельности работ и услуг. Определено, что доходы от туристических услуг по совместным предприятиям выше, чем от других видов имущества по сравнению с расходами. В статье на основе программного пакета Eviews оценивается повышение рентабельности работ и услуг за счет оптимального управления в повышении эффективности*

туристического сектора Азербайджана по видам собственности, а также влияние доходов от работ и услуг иностранных и совместных гостиничных предприятий
Ключевые слова: *туризм, финансово-хозяйственная деятельность, уровень рентабельности, прибыль, программный пакет, корреляция-регрессия.*

Summary: *The article analyzed relevant years the current financial and economic activities of hotel enterprises by type of ownership in the Republic of Azerbaijan, level of profitability of work and services was compared and assessed. Here determined that income from tourism services for joint ventures prevails over other types of property compared to expenses. The article assesses the increase in the profitability of works and services due to optimal management in improving the efficiency of the tourism sector of Azerbaijan by type of property, as well as the impact of income from works and services of foreign and joint hotel enterprises on the Eviews software package.*
Keywords*: tourism, financial and economic activity, level of profitability, income, software package, correlation-regression.*

Ölkə iqtisadiyyatında mühüm rol oynayan əsas xidmət sahələrindən biri kimi, turizm fəaliyyətindən əldə olunan gəlir bir çox amillərin təsiri ilə formalaşır. Bu amillərdən biri də mehmanxana və mehmanxana tipli müəssisələrdir. Qloballaşan dünya təsərrüfatında xidmət sahələri üzrə əmtəəlik məhsul qismində təklif olunan xidmət sahələri digər sahələrdən fərqli olaraq öz rəngarəngliyi ilə fərqlənir. Bu xidmətlər içərisində turistlərin mehmanxanalarda, motellərdə, pansionatlarda, kempinqlərdə, boatinqlərdə və s. yerləşdirilməsi üzrə xidmətlər mühüm əhəmiyyət kəsb edir [1, 2].

Dünyanı bürüyən COVİD-19 pandemiyası, dünya ölkələrindəki qeyri-sabit iqtisadi və siyasi vəziyyətlər, sürətlə inkişaf edən otel və turizm biznesinin bütün dünyada maliyyə-təsərrüfat fəaliyyətinə mənfi təsir etmişdir [3]. Lakin bütün bunlara baxmayaraq, dünya turizm sənayesinə olan tələbat, təklif olunan mehmanxana xidmətlərinin aktiv genişlənməsinə səbəb olur. Turizm sektorunda qonaqpərvərlik biznesi ən sürətlə inkişaf edən sənayelərdən biridir. Dünyanın ümumi daxili məhsulunun 6%-i və bütün vergi daxilolmalarının təxminən 5%-i bu sahənin payına düşür. Otel biznesinin inkişafı digər sənaye və fəaliyyət sahələrinin, o cümlədən beynəlxalq biznes, nəqliyyat sənayesi, ticarət, informasiya texnologiyaları, tikinti, kənd təsərrüfatı, gözəllik və sağlamlıq sahəsində xidmətlər, istehlak mallarının istehsalı, texnologiyanın inkişafı, ekologiya və təhlükəsizlik, innovasiya və bir çox başqa sahələrin inkişafını da fəal şəkildə stimullaşdırır [7,8].


"Ulduz reytinqi"ndən və yerləşdirmə obyektlərinin təsnifatından asılı olaraq, mehmanxanada qalan hər 10 turistə təxminən üç iş yeri, bilavasitə dolayı xidmətlə bağlı iki iş yeri düşür (tur şirkətlərinin, nəqliyyat şirkətlərinin əməkdaşları və s.) [9] .

Qeyd etmək lazımdır ki, biznes üçün ən cəlbedici sahələrdən biri mehmanxana sənayesidir. Hal-hazırda dünya mehmanxana sənayesində 30 milyondan çox çarpayıya malik 400 minə yaxın rahat mehmanxanalar fəaliyyət göstərir. Eyni zamanda, son 20 ildə COVİD-19 pandemiyasınadək bu mehmanxanalarda olan otaqların ümumi sayı artmaqda davam etmiş və ildə orta hesabla 3-4% artım baş vermişdir ki, bu da yerləşdirmə obyektlərinin sayının artımının sabit dinamikası deməkdir. [6]. Dünyanı bürüyən COVİD-19 pandemiyası ilə əlaqədar olaraq, turist axınlarına məhdudiyyətlər qoyulduğundan, xidmət sektoru üzrə turizmin inkişafında durğunluq əmələ gəlmiş və bu sahə üzrə mehmanxana müəssisələrinin maliyyə-təsərrüfat fəaliyyəti ziyanla nəticələnmişdir.

Azərbaycanda mehmanxana müəssisələrinin maliyyə-təsərrüfat fəaliyyətinin təhlili və qiymətləndirilməsi.

Azərbaycan Respublikası, ümumilikdə, digər regionlarla müqayisədə öz iqlim şəraiti ilə bağlı olaraq daha yüksək turizm potensialınna malikdir. Bu potensial imkanlar Azərbaycanda, sanator-kurort müalicəsinin təşkilində tam istifadə olunmayan zəngin kurort-rekreasiya potensialının son dövrlərdə turizm sektorunda aparılan uğurlu iqtisadi islahatlar hesabına artması ilə nəticələnmişdir. Turizm sənayesinin bütün sahələrdə inkişafı, mürəkkəb qloballaşma dövründə insanlarda sağlam həyat tərzinə müsbət münasibəti formalaşdırılmasına istiqamətlənərək, Azərbaycanda kurortlar şəbəkəsinin, müalicə turizminin genişlənməsinə və inkişaf etdirilməsinə, əhali üçün əlçatan olmasına daha geniş şərait yaratmışdır. Bütün bunlar turizm sektorunda mehmanxana müəssisələrinin inkişafında mühüm rol oynamışdır. Qeyd etmək lazımdır ki, 2006-cı ildən başlayaraq Azərbaycanda

mehmanxana müəssisələrinin sayı artan dinamika ilə inkişaf etmişdir. Aşağıdakı diaqrammadan bunları daha aydın görmək olar [10].




	2006	2007	2008	2009	2010	2011	2012	2013	2014	2015	2016	2017	2018	2019	2020
Mülkiyyət növləri üzrə ümumi mehmanxana müəssisələrinin sayı	285	320	370	452	499	508	514	530	535	536	548	563	596	642	655
O cümlədən, dövlət mehmanxana müəssisələrinin sayı	65	61	56	64	37	34	27	27	27	49	45	35	38	33	33
Xüsusi mehmanxana müəssisələrinin sayı	208	243	296	370	447	460	466	485	489	470	488	515	545	592	604
Xarici mehmanxana müəssisələrinin sayı	8	11	12	12	12	11	17	13	13	12	10	8	8	12	13
Birgə mehmanxana müəssisələrinin sayı	4	5	6	6	3	3	4	5	6	5	5	5	5	5	5

Mənbə: *cədvəl müəllif tərəfindən aşağıdakı məlumatlar əsasında hazırlanmışdır: [10].*

Qrafik 1. *Mülkiyyət növləri üzrə Azərbaycanda mehmanxana müəssisələrinin sayı, ədədlə*


Qrafikdən göründüyü kimi, mülkiyyət növləri üzrə mühmanxan müəssisələrinin sayı 2019-2020-ci illərdə COVİD-19 pandemiyasına baxmayaraq əvvəlki illərlə müqayisədə artmışdır. 2020-ci ildə isə 2019-cu illə müqayisədə mehmanxana müəssisələrinin sayı 13 vahid artaraq 655 olmuşdur ki, bu da 2006-cı illə müqayisədə 2,3 dəfə və yaxud 370 vahid artım deməkdir. Dövlət mehmanxana müəssisələrinin sayı 2006-ci illə müqayisədə 2 dəfə azalaraq 33-ə düşmüş, xüsusi mehmanxana müəssisələrinin sayı isə artan dinamika ilə inkişaf edərək daha yüksək xüsisi çəkiyə malik olmuşdur. Xarici mehmanxana müəssisələrinin sayında da artım müşahidə edilmişdir. Göründüyü kimi, 2019-2020-ci illərdə Azərbaycanda xarici mehmanxana müəssisələrinin sayı 4-5 ədəd artmışdır. 2015-ci ildən isə birgə mehmanxana müəssisələrinin sayı 5ədəd olmaqa sabit qalmışdır. Turizm sektorunda daha yüksək gəlirlilik səviyyəsi ilə seçilən mehmanxana müəssisələrinin maliyyə- təsərrüfat fəaliyyətinin nəticələri də fəaliyyət sahələri üzrə fərqli göstəricilərlə nümayiş etdirilmişdir. Aşağıdakı qrafikdən bunları daha aydın görmək olar [10].

Qrafikdən göründüyü kimi, mülkiyyət növləri üzrə xidmətlərin rentabellik səviyyəsi dövlət mülkiyyətində olan mehmanxana müəssisələrində 2009-2010-cu illər istisna olmaqla bütün dövrlərdə mənfi dinamika ilə inkişaf etmişdir. 2006-2020-ci illər üzrə dövlət mülkiyyətində olan mehmanxana müəssisələrində gəlirlə müqayisədə xərclərin artması bu müəssisələrin maliyyə-təsərrüfat fəaliyyətlərinin ziyanla nəticələnməsinə səbəb olduğundan 2009-2010-cu illər istisna olmaqla, 2006-2020-ci illərdə -3,4%-lə -58,2% arasında dəyişmişdir. Göründüyü kimi 2020-ci ildə xərclər gəlirlə müqayisədə 2,4 dəfə artmış və nəticədə 7,75 milyon manat ziyan əldə edilmişdir ki, bu da dövlət mülkiyyətində olan mehmanxana müəssisələrində iş və xidmətlərin rentabellik səviyyəsinin -58,3% olması ilə nəticələnmişdir. Xarici mülkiyyətdə olan mehmanxana müəssisələrində isə bu göstərici 2009, 2016, 2018 və 2020-ci illərdə mənfi olmuşdur. Xüsusi mülkiyyətdə olan mehmanxana müəssisələrində iş və xidmətlərin rentabellik səviyyəsi 2010-cu ildə -3,7%, 2020-ci ildə isə -32,2% olsa da, tədqiq olunan bütün digər dövrlərdə müsbət dinamika ilə müşahidə edilmişdir. Digər mülkiyyət növlərindən fərqli olaraq, birgə müəssisələr üzrə tədqiq olunan bütün dövrlərdə mehmanxana müəssisələrinin iş və xidmətlərinin rentabellik səviyyəsi müsbət olmuşdur. Göründüyü kimi 2006-2020-ci illərdə Azərbaycanda fəaliyyət göstərən birgə mehmanxana müəssisələrinin gəlirləri xərcləri üstələmiş və maliyyə-təsərrüfat fəaliyyəti mənfəətlə nəticələnmişdir. Qrafikdən göründüyü kimi 2014-cü ilədək birgə mehmanxana müəssisələrinin iş və xidmətlərinin rentabellik səviyyəsi artaraq 185,8% olmuşdur ki, bu da digər mülkiyyət növləri ilə müqayisədə olduqca yüksəkdir. 2014-108-ci illərdə isə 25%-58,7% arasında dəyişmişdir. Dünyanı bürüyən COVİD-19 pandemiyasına baxmayaraq birgə mehmanxana müəssisələrinin iş və xidmətlərinin rentabellik səviyyəsi 571,3% təşkil etmişdir. Həmin dövrdə birgə mehmanxana müəssisələrində gəlir 77451,4 min manat olduğu halda, xərclər 11536,7 min manat olmuşdur ki, bu da 65914.7 min manat mənfəət deməkdir. Aşağıdakı qrafikdə birgə mehmanxana müəssisələrinin gəlir və xərclərinin dinamikasından bunları daha aydın görmək olar [10].



	2006	2007	2008	2009	2010	2011	2012	2013	2014	2015	2016	2017	2018	2019	2020
Birgə mehmanxana müəssisələrində xidmətlərin rentabellik səviyyəsi, %-lə	53	38,3	22,9	115,9	24,7	51,1	149,6	81,3	185,8	40,1	58,7	45,6	25,5	571,3	37,6
Xarici mehmanxana müəssisələrində xidmətlərin rentabellik səviyyəsi, %-lə	95,5	3,7	3,1	-4,9	82	136,9	53,9	55,4	23,8	3,8	-41,8	6,7	-4,9	4	-35,9
Xüsusi mehmanxana müəssisələrində xidmətlərin rentabellik səviyyəsi, %-lə	12,6	19,2	11,9	10,8	-3,7	16,1	24,3	3,9	11,7	6	27,8	31,5	39,2	32,6	-32,2
Dövlət mehmanxana müəssisələrində xidmətlərin rentabellik səviyyəsi, %-lə	-23,1	-8,7	-20,9	110,7	14,4	-35,4	-16,3	-10,2	-3,4	-39,4	-11,4	-21,4	-42,3	-40	-58,2


Mənbə: *cədvəl müəllif tərəfindən aşağıdakı məlumatlar əsasında hazırlanmışdır: [10].*
Qrafik 2. *Mülkiyyət növləri üzrə Azərbaycanda mehmanxana müəssisələrinin iş və xidmətlərinin rentabellik səviyyəsi, %-lə*



Mənbə: *cədvəl müəllif tərəfindən aşağıdakı məlumatlar əsasında hazırlanmışdır: [10].*
Qrafik 3. *Azərbaycanda birgə mehmanxana müəssisələrinin iş və xidmətləri üzrə gəlir və xərcləri, mln. manatla*

Qrafikdən göründüyü kimi, birgə mehmanxana müəssisələrinin gəlirləri xərclərlə müqayisədə əhəmiyyətli dərəcədə yüksəkdir. Bu isə birgə mehmanxana müəssisələrin maliyyə-təsərrüfat fəaliyyətində optimal idarəetmənin səviyyəsinin yüksək olması ilə xarakterizə edilr. Qeyd etmək lazımdır ki, birgə mehmanxana müəssisələrin maliyyə-təsərrüfat fəaliyyətinin təhlili göstərir ki, mülkiyyət formaları üzrə bu müəssiələrdə iş və xidmətlərinin rentabelliyi zaman amilindən deyil optimal idarəetmədən, innovativ metodlardan səmərı istifadə etməkdən asılı olmuşdur. Belə ki, 2019-2020-ci illərdə COVİD-19 pandemiyasının təsirlərinə baxmayaraq.iş və xidmətlərin rentabellik səviyyəsi 571,3% və 37,6% olmaqla digər mülkiyyət növlərinin əhatə edən mehmanxana müəssisələri ilə müqayisədə yüksək olmuşdur. Qrafik 2-dən göründüyü kimi, 2020-ci ildə birgə mehmanxana müəssisələrinin fəaliyyəti istisna olmaqla digər mülkiyyət növləri üzrə mühmanxana müəssisələrinin maliyyə-təsərrüfat fəaliyyəti ziyanla nəticələnmişdir. Bu isə onu göstərir ki, birgə mehmanxana müəssisələrinin fəaliyyəti zaman amili ilə deyil, optimal idaretmə ilə daha sıx əlaqədar olaraq inkişaf etmişdir. Bütün bunları

birgə mehmanxana müəssisələrinin iş və xidmətlərinin rentabellik səviyyəsinin zaman amilindən asılılığını ifadə edən aşağıdakı trend modelinə əsasən müəyyən etmək olar.



Mənbə: *MS Excel proqramında müəllif tərəfindən aşağıdakı məlumatlar əsasında hazırlanmışdır:[10].*
Qrafik 4. *Birgə mehmanxana müəssisələrində xidmətlərin rentabellik səviyyəsi, %-lə*

Qrafikdən göründüyü kimi, 2006-2020-cu illər üzrə birgə mehmanxana müəssisələrinin iş və xidmətlərinin rentabellik səviyyəsinin zaman amilindən eksponensial asılılığının trend modeli $y = 0{,}0052x^2 - 10{,}401x$ reqressiya tənliyi ilə ifadə olunsa da, bu göstəricinin zaman amilindən asılılığı Çeddok Şkalasına əsasən zəifdir ($R^2 = 0{,}1142$).

Qeyd etmək lazımdır ki, koronavirus (COVİD-19) pandemiyasına görə məhdudiyyətlərlə əlaqədar olaraq turistlərin sayında kəskin azalma baş verməsinə baxmayaraq birgə mehmanxana müəssisələrində iş və xidmətlərdən əldə olunan gəliri 2019-cu ildə daha yüksək olmuş və bütün tədqiq olunan dövr üzrə maliyyə-təsərrüfat fəaliyyətinin nəticəsi müsbət olmuşdur.

2006-2020-cı illər üzrə Azərbaycan Respublikasında mehmanxana müəssisələrinin iş və xidmətlərindən əldə olunan gəlirin formalaşmasına təsir edən amillər üzrə birgə və xarici mehmanxana müəssisələrinin iş və xidmətlərindən əldə olunan gəlirin təsir dərəcəsini araşdırmaq üçün həmin amillər arasındakı asılılığı reqressiya təhlilini aparaq. Bu məqsədlə hazır riyazi proqram paketlərindən EViews, MatLab, MS Excel, MathCad və s. istifadə etmək olar. Belə ki, Eviews proqram paketindən istifadə edərək statistik məlumatlara əsasən aşağıdakı nəticəni alarıq [3, 4].

Cədvəl 1

Dependent Variable: Y
Method: Least Squares
Date: 11/16/21 Time: 14:06
Sample: 2006 2020
Included observations: 15

Variable	Coefficient	Std. Error	t-Statistic	Prob.
X2	3.449401	1.321628	2.609965	0.0228
X1	4.380889	1.006477	4.352695	0.0009
C	193.4997	49.54018	3.905915	0.0021
R-squared	0.738024	Mean dependent var		181.3933
Adjusted R-squared	0.694361	S.D. dependent var		109.2398
S.E. of regression	60.39282	Akaike info criterion		11.21647
Sum squared resid	43767.51	Schwarz criterion		11.35808
Log likelihood	81.12355	Hannan-Quinn criter.		11.21497
F-statistic	16.90282	Durbin-Watson stat		1.641275
Prob(F-statistic)	0.000323			

Mənbə: *Eviews tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır.*

Eviews tətbiqi proqram paketinə əsasən alınmış nəticəyə əsasən reqressiya tənliyi aşağıdakı kimi olacaqdır:

Estimation Command:

==========

LS Y X2 X1 C

Estimation Equation:

==========

Y = C(1)*X2 + C(2)*X1 + C(3)

Substituted Coefficients:

==========

Y = 3.44940146644*X2 + 4.3808885675*X1 + 193.499748233 **(1)**

Eviews tətbiqi proqram paketinə əsasən güründüyü kimi Y və X dəyişənləri arasında Y = 4,3809*X1 + 3,449*X2 + 193,4997 modeli ilə ifadə olunan yüksək korrelyasiya əlaqəsi vardır (R^2=0.738)

Göründüyü kimi EViews tətbiqi proqram paketinə əsasən alınmış cədvəl (1)-yə uyğun olaraq (1) modeli əhəmiyyətlidir. Bu əhəmiyyətlilik ilk növbədə X asılı dəyişənlərin C sərbəst həddin əmsallarınnın standart səhvlərinin əmsalların qiymətindən kiçik olması ilə izah edilir.

Qurulmuş modelin adekvatlığının yoxlanıması mühüm əhəmiyyət kəsb eydiyindən, həmin adekvatlığı ənəvi metodlardan biri kimi F-Fişer kriteriyasının köməkliyi ilə müəyyən etmək olar . Bütünlükdə çoxluq reqressiya tənliyini ifadə edən (1) modelinin statistik əhəmiyyətliliyini yoxlamaq məqsədlə F-Fişer kriteriyası, $F_{cədvəl}(\text{a; m; n} - \text{m} - 1)$ qiyməti ilə müqayisə edilməlidir [3, səh.315]. Eviews proqram paketinin nəticəsini əks etdirən cədvəl 2 məlumatlarına əsasən, **F- statistic (Fişer kriteriyası)** = 16.903

EXCEL-də F cədvəl qiymətini$F_{cədvəl}(\text{a; m; n} - \text{m} - 1) = \text{Fpacпобр}$ düsturunun köməkliyi ilə təyin etsək,

$F_{cədvəl}(\text{a; m; n} - \text{m} - 1) = \text{Fpacпобр}(0{,}05; 2; 12) = 5{,}91$

F-Fişer kriteriyası, $F_{cədvəl}(\text{a; m; n} - \text{m} - 1)$ qiyməti ilə müqayisə edildikdə görünür ki, F-Fişer kriteriyası $> F_{cədvəl}$ (16,903>5,91). Bu isə o deməkdir ki, reqressiya tənliyi bütövlükdə statistik əhəmiyyətli xarakter daşıyır [4, səh.191]. Bu isə qurulmuş (1) modelin adekvatlığı deməkdir.

Modeldə avtokorelyasiyanın olub-olmaması haqqında nəticəni EViews tətbiqi proqram paketinə əsasən alınmış cədvəl 1-dəDarbon-Uotson statistikasına əsasən müəyyən etmək olar. Cədvəldən göründüyü kimi DW=1,64-yə bərabərdir. Bu halda, $\alpha = 0{,}05$ əhəmiyyətlilik səviyyəsinə 2 izahedici dəyişən (m=2) və n=15 müşahidə üçün Darbon-Uotsonun böhran nöqtələri aşağıdakı kimi olacaqdır [3, səh.171].

$$d_l = 0{,}946, d_u = 1{,}543$$

$d_u = 1{,}543 < DW = 1{,}64 < 4 - d_u = 2{,}457$olduğundan avtokorrelasiya olmayacaqdır [3, Səh.171]. Bu isə o deməkdir ki, reqressiya tənliyi bütövlükdə statistik əhəmiyyətlidir və qurulmuşY = 4,3809*X1 + 3,449*X2 + 193,4997 modeli adekvatdır.

Tədqiqat nəticəsində yuxarıda **(1)** xətti reqresiya tənliyi üçün sərbəst dəyişənin 1% dəyişməsi nəticəsində asılı dəyişənin neçə faiz dəyişməsini ifadə edən elastiklik əmsalını hesablamaqla səbəb amilləri hesabına nəticə amilinin neçə faiz dəyişəcəyini müəyyən etmək olar. Bu əmsal aşağıdakı düstura əsasən hesablanır [5].

$$E = \frac{\propto_i \times \bar{x}_i}{\bar{y}} \ (\mathbf{2})$$

Burada, α_i yuxarıda göstərilən əlaqə tənliyinin əmsallarıdır.$\bar{x}$- tədqiq olunan dövrlər üzrə amillərin hesabi ortası , $\bar{y}$- tədqiq olunan dövrlər üzrə Azərbaycan Respublikasında mehmanxana və mehmanxana tipli müəssisələrin iş və xidmətlərdən əldə olunan ümumi gəlirin hesabi ortasıdır. Həmin göstəricilərə əsasən hesablanmış elastiklik əmsalları qurulmuş model üzrə aşağıdakı kimi olacaqdır.

$$E_{xar.} = 0{,}48, E_{birgə.} = 0{,}54$$

Aparlmış hesablamalar göstərir ki, Azərbaycan Respublikasında birgə mehmanxana müəssisələrinin iş və xidmətlərinin həcminin 1% artması mülkiyyət növləri üzrə ümumi gəlirin 0,54% artması ilə, xarici mehmanxana müəssisələrinin iş və xidmətlərinin həcminin 1% artması isə mülkiyyət növləri üzrə ümumi gəlirin 0,48 % artması ilə nəticəlir.

Nəticə və təkliflər

Aparılmış tədqiqat nəticəsində aşağıdakı nəticələr əldə edilmişdir:

– mülkiyyət növləri üzrə mehmanxan müəssiələrinin rentabellik səviyyəsi dövlət mehmanxan müəssiələri üzrə 2009-2010-cu illər istisna olunmaqla, tədqiq olunan bütün dövrlər üzrə maliyyə fəaliyyətinin ziyanla nəticələnməsi hesabına mənfi dinamika ilə inkişaf etmişdir.

– birgə mehmanxana müəssisələrinin iş və xidmətlərinin rentabellik səviyyəsi, digər mülkiyyət növləri üzrə mehmanxan müəssiələrinin rentabellik səviyyələri ilə müqayisədə yüksək olmuş və tədqiq olunan bütün dövrlərdə 24,7-571,3% arasında dəyişmişdir.

– Eviews tətbiqi proqram paketinə əsasən müəyən edilmişdir ki, mülkiyyət növləri üzrə mehmanxana müəssiələrinin iş və xidmətlərindən əldə olunan ümumi gəlirlə, xarici və birgə mehmanxana müəssisələrinin iş və xidmətləri arasında Y = 4,3809*X1 + 3,449*X2 + 193,4997 reqresiya tənliyi ilə ifadə olunan yüksək xətti asılılıq vardır;

– tədqiqat işində Eviews-10 tətbiqi proqram paketinə əsasən müəyyən edilmşdir ki, Azərbaycan Respublikasında birgə mehmanxana müəssisələrinin iş və xidmətlərinin həcminin 1% artması mülkiyyət növləri üzrə ümumi gəlirin 0,54%, xarici mehmanxana müəssisələrinin iş və xidmətlərinin həcminin 1% artması isə mülkiyyət növləri üzrə ümumi gəlirin 0,48 % artması ilə nəticəlir.

Beləliklə, aparılmış tədqiqat işi göstərir ki, Azərbaycan Respublikasında mülkiyyət növləri üzrə mehmanxana müəssisələrinin iş və xidmətlərindən əldə olunan mənfəətin formalaşmasında yüksək rentabellik səviyəsi ilə müşahidə edilən birgə müəssisələrin yaradılması istiqamətində mühüm addımlar atılmalıdır.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Bilalov B.Ə. Turizmin menecmenti: Dərslik / – Bakı: Mütərcim, – 2005. – 372 s.
2. Dərgahov V.S. Rekreasiya-turizm ehtiyatları / – Bakı: MBM – 2008. – 215 s.
3. Əlirzayev Ə. Turizmin iqtisadiyyatı və idarə edilməsi/Bakı: İqtisad Universiteti, 2011. 494 s.
4. Yadigarov T.A.“Gömrük statistikası və müasir informasiya texnologiyaları”. (Monoqrafiya) Bakı, “Avropa” nəşriyyatı, 2020 – 520 səh.
5. Yadigarov T.A. Əməliyyatlar tədqiqi və ekonometrik məsələlərin MS Excel vəEviews proqram paketlərində həlli: nəzəriyyə və praktika. Bakı – 2020. 352 səh.
6. Yadigarov T.A. Econometric assessment of the associative activity of the Republic of Azerbaijan with the countries of the world/ 68th International Scientific Conference on Economic and Social Development – 24-25 May, 2021 – Aveiro, Portugal.
7. Грищенко, Д.А. Инновационное развитие гостиничного предприятия // Международный научный журнал «Инновационная наука». – № 1. – 2016. – 53 с.
8. Кормишова, А. В. Подходы к определению содержания понятия «инфраструктура туризма» // Academy. – 2017. – № 2 (17) – С. 124-132.
9. Рогова, И. А. Особенности управления инновационной деятельностью в туристическом бизнесе // Вестник университета. – М.: Изд. дом ГУУ, 2013. – № 9. – С. 82-86.
10. WWW.azstat.org.

Məhin ŞAHSUVARLI
Azərbaycan Kooperasiya Universiteti,dissertant
mehin.haciyeva.92@bk.ru

İTELLEKTUAL KAPİTALA TƏSİR EDƏN AMİLLƏRİN QİYM ƏTLƏNDİRİLMƏSİ

ASSESSMENT OF FACTORS AFFECTING INTELLECTUAL CAPITAL

ОЦЕНКА ФАЕОРОВ, ВЛИЯЮЩИХ НА ИНТЕЛЛЕКТУАЛЬНЫЙ КАПИТАЛ

Xülasə: *Məqalədə müəssisələrin maliyyə-təsərrüfat fəaliyyətində intellektual kapitalın rolu, intellektual kapitalın müəssisəni davamlı rəqabət üstünlüyünə çevrilməsi məsələləri şərh edilmiş və struktur sxemi qurulmuşdur. Təşkilatı kapitalda texniki proqram təminatı, patentlər, əmtəə nişanı və həmçinin struktur elementləri üzrə texniki proqram təminatının tətbiq edilməsinin müəssisələrin maliyyə-təsərrüfat fəaliyyətinin optimal tənzimlənməsinin təşkilinə təsir edən əsas amili kimi qiymətləndirilmişdir.*

Məqalədə proqram təminatının işlənməsi üzrə iş və xidmətlərlə əlavə dəyər arasındakı korrelyasiya-reqressiya əlaqəsi müəyyən edilmişdir.

Açar sözlər: *intellektual kapital, müəssisə, rəqabət, maliyyə-təsərrüfat fəaliyyəti, xidmət, əlavə dəyər.*

Summary: *The article about the role of intellectual capital in the financial and economic activities of enterprises and issues of transformation of intellectual capital into a sustainable competitive advantage of an enterprise. By drawing up a structural diagram, it was noted that the use of software on patents, trademarks and structural elements in the organizational capital is assessed as a key factor influencing the organization of optimal regulation of the financial and economic activities of enterprises. The article defines a correlation-regression connecting between software development works and services and the value added resulting from this activity.*

Key words: *intellectual capital, enterprise, competition, financial and economic activity, service, added value.*

Резюме: *В статье показана роль интеллектуального капитала в финансово-хозяйственной деятельности предприятий, освещены вопросы превращения интеллектуального капитала в устойчивое конкурентное преимущество предприятия и дана его структурная схема. Организационный капитал оценивается как ключевой фактор, влияющий на организацию оптимального регулирования финансово-хозяйственной деятельности предприятий, применение технических средств в капитале, патентов, товарных знаков, а также технических средств на конструктивных элементах.*

В статье определяется корреляционно-регрессионная связь между работой и услугами по разработке программного обеспечения и добавленной стоимостью.


Ключевые слова: *интеллектуалный капитал, предприятие, конкуренция, финансово-хозяйственная деятельность, услуга, добавленная стоимость.*

İqtisadiyyatın qloballaşması şəraitində bilik tutumlu məhsulların ixracı sənayedə inkişaf etmiş hər bir ölkə üçün dünya ölkələri arasında rəqabətqabiliyyətinin möhkəmləndirilməsi və daha da yaxşılaşdırılması üçün ən mühüm vasitələrdən biri birbaşa sərmayə qoyuluşu və lisenziyaların satışıdır. İntellektual kapitala əsaslanan yüksək texnologiyalar hazırkı şəraitdə bu ölkələrin dünya dövlətləri arasında rəqabət qabiliyyətli mövqelərinin qorunub saxlanılmasında və gücləndirilməsində həlledici rol oynayır [1, 2]. Hər bir müəssisə üçün maliyyə-təsərrüfat fəaliyyətinin əsas nəticəsi müştərilərə məlumat və təşkilati problemlərin uğurlu həlli ilə təmin etməkdir. Hal-hazırda dünyanın əksər ölkələrində bü məqsədlə müxtəlif sahələri əhatə edən beynəlxalq və yerli məsləhətçi şirkətlər fəaliyyət göstərir [3]. Məsləhətçi firmaların fəaliyyətini qiymətləndirərkən müəssisənin maliyə-təsərrüfat fəaliyyətinin son nəticəsi kimi, mənfəət yaratmağa yönəlmiş kadrların ixtisasının yüksək əhəmiyyətinin nəzərə alınması mühüm əhəmiyyət kəsb edir. Bütün bunlar onu göstərir ki, şirkətin real dəyərinin qiymətləndirilməsinə müasir yanaşma, müəyyən qərarların müəssisənin dəyərinə necə təsir etdiyini müəyyən etməkdən əlavə, həm də şirkətin dəyərini hansı aktivlərdə (maddi və qeyri-maddi) təmsil etməlidir [1]. Qeyd etmək lazımdır ki, qeyri-maddi aktivlərin keyfiyyəti şirkətlərin

dəyərinin formalaşmasında əsas rol oynayır. Qeyri-maddi aktivlər müəssisənin uzunmüddətli perspektivlərdə dəyərinin formalaşmasında həlledici rol oynadığından, qeyri-maddi aktivləri olmayan müəssisələrin uzunmüddətli perspektivdə heç bir dəyəri olmayacaqdır [2]. Qeyri-maddi aktivlərə ilk növbədə, bütövlükdə iqtisadiyyata təsir göstərən sosial insan kapitalı və ayrı-ayrı korporasiyalarla birbaşa əlaqəli olan fərdi insan kapitalı aid edilir.


İnformsiya kommunikasiya texnologiyaların intellektual kapitala təsirinin qiymətləndirilməsi.

Qloballaşan dünya təsərrüfatında qeyri-maddi aktivlərlə zəngin olan müasir firmalar malların deyil, biliklərin istehsalçısıdır. Bir çox təşkilatlarda əldə edilən səmərəliliyin artan hissəsi xüsusi biliklərin tətbiqi, geniş kadr hazırlığı və tərəfdaşlar və qarşı tərəflərlə qarşılıqlı əlaqənin nəticəsidir. Fiziki aktivlərdən və ya maliyyə kapitalından daha çox intellektual kapital davamlı rəqabət üstünlüyünə çevrilir. İntellektual kapital insan, təşkilati və istehlak kapitalından ibarətdir.



Şəkil.1. *İntellektual kapitalın strukturu*

İntellektual kapitalın strukturundan göründüyü kimi təşkilatı kapitalda texniki proqram təminatı, patentlər, əmtəə nişanı və təşkilatı struktur elementləri üzrə texniki proqram təminatının tətbiq edilməsi müəssisələrin maliyyə-təsərrüfat fəaliyətinin optimal tənzimlənməsinin təşkilinə təsir edən amillərdən biri kimi mühüm əhəmiyyət kəsb edir. Aşağıdakı diaqrammada Azərbaycan Respublikası üzrə texniki proqram təminatının təmin olunması üzrə iş və xidmətlərin dinamikası göstərilmişdir.




	2012	2013	2014	2015	2016	2017	2018	2019	2020
Proqram təminatının işlənməsi	16.800,	22.422,	27.191,	35.040,	40.008,	57.681,	73.443,	122.548	127.843
Hesablama texnikası vasitələri üzrə məsləhətlər	1.987,1	1.732,9	1.711,2	2.938,7	3.505,0	4.202,3	5.168,5	12.005,	12.299,
Sair məsləhətlər və proqram təminatının göndərilməsi	2.795,9	5.472,9	11.607,	14.008,	14.431,	18.685,	14.571,	12.250,	13.385,
İnformasiya mühafizə vasitələrinin layihələndirilməsi və istehsalı sahəsində fəaliyyət	219,1	272,6	133,4	257,7	850,3	1.559,6	1.353,0	1.694,4	2.429,9

Mənbə: *cədvəl müəllif tərəfindən aşağıdakı məlumatlar əsasında tərtib edilmişdir [5].*

Qrafik 1. *Azərbaycan Respublikası üzrə texniki proqram təminatının təmin olunması üzrə iş və xidmətlərin 2012-2020-ci illər üzrə məbləği, min manatla*

Diaqrammadan göründüyü kimi, biliktutumlu intelektual kapitala üzrə təşkilatı kapitalın tərkibində proqram təminatının işlənməsi üzrə görülmüş iş və xidmətlər 2012-2020-ci illər üzrə artan dinamika ilə inkişaf etmişdir. 2020-ci ildə 2012-ci illə müqayisədə 7,9 dəfə artım olmuşdur. COVİD-19 pandemiyasının təsirlərinə baxmayaraq 2019-cu illə müqayisədə 2020-ci il üzrə proqram təminatının işlənməsi üzrə görülmüş iş və xidmətlərin dəyəri 4,3% artaraq 127,8 milyon manat təşkil etmişdir. Hesablama texnikası vasitələri üzrə məsləhətlər, sair məsləhətlər və İnformasiya mühafizə vasitələrinin layihələndirilməsi və istehsal ısahəsində fəaliyyət üzrə üzrə görülmüş iş və xidmətlərdə tədqiq edilən dövr üzrə analoji qaydada artan dinamika ilə müşahidə edilmişdir. Biliktutumlu intelektual kapital üzrə təşkilatı kapitalın tərkibində proqram təminatının işlənməsi, hesablama texnikası vasitələri üzrə məsləhətlər, sair məsləhətlər və informasiya mühafizə vasitələrinin layihələndirilməsi və istehsalı sahəsində fəaliyyət üzrə görülmüş iş və xidmətlərin 2012-2020-ci illər üzrə artması bu sahələr üzrə əlavə dəyərin artan dinamikası ilə inkişafına zəmin yaratmışdır. Aşağıdakı qrafikdən bunları daha aydın görmək olar.

Qrafikdən göründüyü kimi, biliktutumlu intelektual kapital üzrə təşkilati kapitalın tərkibində proqram təminatının işlənməsi, hesablama texnikası vasitələri üzrə məsləhətlər, sair məsləhətlər və informasiya mühafizə vasitələrinin layihələndirilməsi və istehsalı sahəsində fəaliyyət üzrə görülmüş iş və xidmətlərin dəyərinin artmasına müvafiq olaraq 2012-2020-ci illər üzrə həmin amillər üzrə yaranmış əlavə dəyərin məbləği də artmışdır.




	2012	2013	2014	2015	2016	2017	2018	2019	2020
Proqram təminatının işlənməsi üzrə əlavə dəyər	4872,1	10052,8	13245,6	17345	22564,6	32532,6	41422,2	67646,6	70569,8
Hesablama texnikası vasitələri üzrə məsləhətlər hesabına yaranmış əlavə dəyər	669,7	566,4	587,7	1325,4	1132,1	1357,3	1669,4	5258,3	5387,4
Sair məsləhətlər və proqram təminatının göndərilməsi	713	1457,9	3416,1	4454,6	7821,6	10127,7	7897,8	4924,7	5380,8
İnformasiya mühafizə vasitələrinin layihələndirilməsi və istehsalı sahəsində fəaliyyət üzrə əlavə dəyər	104,9	129,3	60,1	118,3	511,9	938,9	814,5	820,1	1176,1
Məlumat texnologiyaları və hesablama texnikası sahəsində sair fəaliyyətüzrə əlavə dəyər	9598,2	12930,8	17351,8	19313,6	26402,3	28812,7	38508,2	40053,8	40900

Mənbə: *cədvəl müəllif tərəfindən aşağıdakı məlumatlar əsasında tərtib edilmişdir [5].*

Qrafik 2. *Azərbaycan Respublikasında texniki proqram təminatının təmin olunması üzrə əlavə dəyərin 2012-2020-ci illər üzrə dinamikası, min manatla*


Qeyd etmək lazımdır ki, biliktutumlu intelektual kapital üzrə təşkilati kapitalın tərkibində proqram təminatının işlənməsi, hesablama texnikas ıvasitələri üzrə məsləhətlər, sair məsləhətlər vəi nformasiya mühafizə vasitələrininl ayihələndirilməsi və istehsalı sahəsində fəaliyyət üzrə görülmüş iş və xidmətlərin dəyərinin artması ıinformasiya kommmunikasiya texnologiyaları (İKT) üzrə əsas kapitala yönəldilmiş investisiyalara yönəldilmiş və sairdən saslı şəkildə asılıdır. Aşağıdakı qrafikdə

İKT üzrə əsas kapitala yönəldilmiş investisiyalar, proqram təminatının işlənməs iüzrə iş və xidmətlər və əlavə dəyərin məbləği göstərilmişdir.



Mənbə: *cədvəl müəllif tərəfindən aşağıdakı məlumatlar əsasında tərtib edilmişdir [5].*
Qrafik 3. *Azərbaycan Respublikasında İKT üzrə əsas kapitala yönəldilmiş investisiyalar,proqram təminatının işlənməsi üzrə iş və xidmətlər və əlavə dəyərin 2012-2020-ci illər üzrə dinamikası, min manatla*

Qrafikdən göründüyü kimi, intelektual kapital üzrə təşkilati kapitalın tərkibində proqram təminatının işlənməsi, görülmüş iş və xidmətlərin dəyərinin və əlavə dəyərin artması ilə bərabər İKT üzrə əsas kapitala yönəldilmiş investisiyaların həcmidə müvafiq olaraq 2005-2020-ci illər üzrə artan dinamika ilə müşahidə olunur.. Bu baxımdan İKT üzrə əsas kapitala yönəldilmiş investisiyalar labüd göstəricilər arasındakı əlaqənin sıxlığını və formasını korrelyasiya-reqressiya metoduna əəsasən də müəyyən etmək olar. Aşağıdakı qrafikdə proqram təminatının işlənməs iüzrə iş və xidmətlərlə proqram təminatının işlənməsi iüzrə əlavə dəyər arasındakı korelyasiya-reqressiya əlaqəsi göstərilmişdir.



Mənbə: *cədvəl müəllif tərəfindən aşağıdakı məlumatlar əsasında tərtib edilmişdir [5].*
Qrafik 4. *Azərbaycan Respublikasında proqram təminatının işlənməsi üzrə iş və xidmətlərlə proqram təminatının işlənməsi üzrə əlavə dəyər arasındakı korelyasiya-reqressiya əlaqəsi*

Qrafikdən göründüyü kimi, Azərbaycan Respublikasında proqram təminatının işlənməsi üzrə iş və xidmətlərlə proqram təminatının işlənməsi üzrə əlavə dəyər arasında y=0,5571x-0,5263 xətti reqressiya tənliyi ilə ifadə olunan olduqca yüksək korrelyasiya əlaqəsi vardır (R^2=0,9859). Determinasiya əmsalının 0,986 olması o deməkdir ki, müvafiq reqressiya tənliyi üzrə nəticə amilinin səbəb amili 98,6% izah edir. Modelə daxil olmayan digər amillər isə müvafiq olaraq reqressiya tənliyi üzrə nəticə amilini 1,4% izah edir [4].

Nəticə. Aparılmış tədqiqata əsasən müəyyən edilmişdir ki, .Azərbaycan Respublikası üzrə biliktutumlu intelektual kapital üzrə təşkilati kapitalın tərkibində proqram təminatının işlənməsi, hesablama texnikası vasitələri üzrə məsləhətlər, sair məsləhətlər və informasiya mühafizə vasitələrinin

layihələndirilməsi və istehsalı sahəsində fəaliyyət üzrə görülmüş iş və xidmətlərin dəyərinin artması əsasən intelektual kapitalın bu amili üzrə əlavə dəyərin artmasını şərtləndir. Proqram təminatının işlənməsi üzrə iş və xidmətlər proqram təminatının işlənməsi üzrə əlavə dəyər arasında Çeddok şkalasına əsasən funksional asılılığa yaxın olan olduqca yüksək korrelyasiya əlaqəsi vardır və Proqram təminatının işlənməsi üzrə iş və xidmətlərin həcminin bir vahid artması müvafiq qaydada əlavə dəyərin 0,557 vahid artması ilə nəticələnir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Булыга Р., Кохно П. Интеллектуальный капитал человека// ИС. Промышленная собственность, 2007, № 11.
2. Гапоненко А.Л., Орлова Т.М. Интеллектуальный капитал – стратегический потенциал организации. М., 2003..
3. Голубкин В.Н., Клеева Л.П., Патока Л.В. Интеллектуальный капитал в эпоху глобализации экономики // Бизнес-образование. 2005. № 1.
4. Yadigarov T.A. Econometric assessment of the associative activity of the Republic of Azerbaijan with the countries of the world. In: Economic and Social Development. Proc. 68th Int. sci. conf. (Aveiro, 24-25 May, 2021). Varazdin: Croatia Varazdin Development and Entrepreneurship Agency; 2021:187-197.
5. https://www.stat.gov.az/source/information_society/

BÖLMƏ 3
KORPORATİV İDARƏETMƏ VƏ BİZNESİN İDARƏ EDİLMƏSİ

İmran ƏMİROV
Sumqayıt Dövlət Universiteti, baş müəllim
imran_amirov@mail.ru

BİZNES PROSESLƏRİNDƏ ƏMƏLİYYAT STRATEGİYASI VƏ ONUN PRİORİTETLƏRİ

OPERATİONAL STRATEGY İN BUSİNESS PROCESSES AND İTS PRİORİTİES

ОПЕРАЦИОННАЯ СТРАТЕГИЯ В БИЗНЕС-ПРОЦЕССАХ И ЕЕ ПРИОРИТЕТЫ

Xülasə: *Biznes proseslərinin davamlı həyata keçirilməsində təşkilatların hazırladıqları əməliyyat strategiyalarının araşdırılması məqalədə bir məqsəd kimi qarşıya qoyulmuşdur. Təsərrüfatçılıq fəaliyyətində resurslardan səmərəli istifadə etməklə təşkilatlar öz missiyalarını yerinə yetirməli olurlar. Qarşıya qoyulan hədəflərə nail olunmasına təşkilatların işləyib hazırladıqları strategiyalar təminat verdiyinə görə təqdim edilən işdə strategiyaların mühüm xüsusiyyətlərinə baxılmışdır.*

Əməliyyat strategiyalarının əhatə dairəsi işıqlandırılmaqla yanaşı burada ümumi hesab edilən istehsal prioritetləri tədqiq olunmuşdur. Məqalədə ayrı-ayrı situasiyalara münasibətə görə texniki dəstək, yeni əmtəənin bazara buraxılmasının tezləşməsi, tədarükçünün satışdan sonra dəstəyi və s. bu kimi digər spesifik prioritetlərə də aydınlıq gətirilmişdir.

Açar sözlər: *biznes, iqtisadiyyat, istehsal, strategiya, məhsul, istehlakçı, keyfiyyət*

Summary: *The purpose of the article is to study the operational strategies developed by organizations in the sustainable implementation of business processes. By making efficient use of resources in economic activities, organizations have to fulfill their missions. The important features of the strategies are considered in the presented work, as the strategies developed by the organizations ensure the achievement of the set goals.*

In addition to highlighting the scope of operational strategies, general production priorities are explored here. It also clarifies other specific priorities, such as technical support for individual situations, accelerating the launch of new products, and after-sales support from suppliers.

Keywords: *business, economy, production, strategy, product, consumer, quality*

Резюме: *Целью статьи является исследование операционных стратегий, разрабатываемых организациями при устойчивом внедрении бизнес-процессов. При эффективном использовании ресурсов в хозяйственной деятельности организации должны выполнять свои миссии. В представленной работе рассмотрены важные особенности стратегий, так как стратегии, разработанные организациями, обеспечивают достижение поставленных целей.*

Помимо выделения объема операционных стратегий, здесь исследуются общие производственные приоритеты. В нем также проясняются другие конкретные приоритеты, такие как техническая поддержка в отдельных ситуациях, ускорение выпуска новых продуктов и послепродажная поддержка со стороны поставщиков.

Ключевые слова: *бизнес, экономика, производство, стратегия, продукт, потребитель, качество*

Qloballaşan iqtisadi proseslərdə təşkilatların davamlı və uğurlu fəaliyyətini təmin edən amillərdən də biri onların hazırladıqları strategiyalardır. Ümumiyyətlə, stategiya yunan sözü olub sərkərdənin məharəti mənasını daşıyır. Başqa sözlə, iqtisadiyyata bu söz hərbidən gəlsə də, strategiya təşkilatların uzunmüddətli fəaliyyət göstərmələri üçün hazırlanan ümumi plan deməkdir. Burada məqsəd qarşıya qoyulan hədəflərə çatmaqla yanaşı hər hansı bir insan fəaliyyətinin dayanıqlı olaraq yerinə yetirilməsindən ibarətdir.

Biznes proseslərində strategiyanın vəzifəsi əsas məqsədlərə çatmaq üçün mövcud resurslardan effektli istifadə olunmasına söykənir. Müasir dövrdə hətta təşkilatların əsas məqsədlərinə nail olunmasında mövcud resursları çatmadığı təqdirdə onlar strategiyaya xüsusi önəm verirlər. Əməliyyat

strategiyalarına keçid etməzdən əvvəl respublikamızda təsər-rüfatçılıq fəaliyyətinə qısaca nəzər salaq. Epidemioloji vəziyyətin pisləşməsinə baxmayaraq, hazırda ölkə iqtisadiyyatında bir sıra iqtisadi nailiyyətlər əldə edilmişdir. Bu inkişaf təkcə neft-qaz istehsalında deyil, qeyri-neft sektorunda daha çox nəzərə çarpır [1, s.124].

Ötən il əldə edilmiş nailiyyətlərə baxsaq mövcud təcridetmə və pangemiya şəraitində azalmaların müşahidə olunduğunu görərik. Həmin dövrdə ölkəmizin ümumi ixracının 13,7 mlrd.$-a çatması və onun qeyri-neft sektorunda 1,9 mlrd.$ təşkil etməsi qeydə alınmışdır. Statistik məlumatların müqayisəsi onu göstərir ki, əvvəlki 2019-cu ilin nailiyyətlərilə müqayisədə qeyri-neft sektoru üzrə azalma 5,2 %-ə çatmışdır. Ölkələr üzrə ixraca nəzər yetirsək burada Rusiya Federasiyası (RF) öndə gedir (cədvəl 1).

№	Ölkələr	İxracın miqdarı
1	RF	691,0
2	Türkiyə Cümhuriyyəti	377,8
3	İsveçrə	224,8
4	Gürcüstan	127,6
5	Çin	44,5


Mənbə:*[2]*

Cədvəl 1. *Azərbaycanda 2020-ci ildə qeyri-neft sektorunda ölkələr üzrə ixrac göstəriciləri (mln.$)*

Ötən hesabat ilində ixrac mallarına diqqət etsən ilk üçlüyü qızıl, tomat, pambıq mahlıcı tutmuşdur. Adı çəkilən məhsulların ixrac göstəriciləri isə müvafiq olaraq 205,6; 201,4 və 131,9 mln.$ təşkil edir. Təbii ki, mövcud fürsətlərdən daha səmərəli istifadə edilsə, bu strateji sahənin imkanlarından iqtisadiyyatımız daha da yararlana bilər. Uğurlu fəaliyyət göstərmək üçün iqtisadiyyatın bütün sferalarında olduğu kimi, qeyri-neft sektoru üzrə biznes proseslərində təşkilatlarımızın hər birində müvafiq əməliyyat strategiyaları formalaşdırılmalıdır. Belə strategiyaların yaradılması əsasən istehlakçıların ehtiyaclarının öyrənilməsinə, onların ödənilməsinə və bazarın dəyişən tələblərinə müntəzəm cavab verməlidir.

Müasir dünyada artıq inkişaf etmiş ölkələrin əksəriyyətində istehsal və xidmət sferalarında fəaliyyət göstərən şirkətlər öz əməliyyat strategiyalarını uzun müddətə işləyib hasırlayırlar. Qərb ölkələrində, xüsusilə Yaponiyada qabaqcıl şirkətlər bazarda yaranmış vəziyyətə uyğun rəqabət mübarizəsində uğurlu fəaliyyət göztərmək məqsədilə uzunmüddətli, məs., 80-100 il müddətinə strateji planlar hazırlayırlar. Həmin strateji planlarda çoxsaylı amillər nəzərə alınmaqla firmaların öndə getməsi, bazar mövqeyinin genişləndirilməsi və rəqabətə davamlı məhsul istehsalının təmin edilməsi məsələləri müfəssəl həllini tapır. Bu baxımdan da təşkilatlarda hazırlanan strategiyaların, onların tiplərinin və mövcud şəraitlə əlaqələndirilməsinin araşdırılması indiki gündə şübhəsiz aktualdır.

Firmanın strategiyası istehlakçıların ehtiyaclarını ödəmək üçün əməliyyat (istehsal) funksiyası vasitəsilə məhsul və xidmətlər təqdim etməkdən ibarətdir. Buna görə də adət edilən Resurslar – İSTEHSAL – MALLAR modeli İSTEHSAL – İSTEHLAKÇININ EHTİYACLARI zənciri ilə təqdim olunmalıdır.



Şəkil 1. *"İstehsal-istehlakçı ehtiyacları" modeli*

İstehlakçının ehtiyaclarının müəyyən edilməsi çox vacibdir, belə ki, bu modeldə məhz ehtiyaclar firmanın fəaliyyət məqsədi kimi götürülür. Bu zaman strateji qərar kimi əmtəənin istehsalı yaxud xidmətin göstərilməsinin necə, nə vaxt və harada olması haqqında istehsalat sferasındakı qərarlar olacaqdır. İstehsal texnologiyası buraxılan məhsulların, göstərilən xidmətlərin keyfiyyəti və çeşidi üzrə istehlakçının tələblərinə cavab verməlidir.

Əməliyyat strategiyası (ƏS) öncə aşağıdakıları əhatə edir:

1) İstehsalın məqsədlərinə nail olmağın hərtərəfli müfəssəl kompleks planını.

2) İstehsal sahəsindəki əsas fəaliyyət proqramı, problemlərin prioritetlərinin yaradılması, resursların və strateji hədəflərə çatmaq üçün addımların ardıcıllığının müəyyən edilməsi.

ƏS (Operations Strategy) firmanın resurslarından istifadənin ümumi siyasətinin və planlarının hazırlanmasından ibarətdir. Bu uzunmüddətli rəqabət strategiyasının maksimum səmərəli dəstəklənməsinə yönəldilir. ƏS, daha geniş təşkilati quruluşlu vəzifələri müvafiq əməliyyat vəzifələrilə təmin edən, ümumi planlaşdırma prosesinin tərkib hissəsi kimi baxıla bilər. ƏS, korporativ strategiya (Corporate Strategy) ilə birlikdə şirkətin bütün fəaliyyət spektrini əhatə edir. O, firmanın gələcəkdə istənilən qaçılmaz dəyişikliklərə tez reaksiya verməsinə təminat yatadan hazırlanmış uzunmüddətli bir prosesi nəzərdə tutur. Bu problemə ilk növbədə istehsal əməliyyatları nöqteyi-nəzərindən baxarkən yadda saxlamaq lazımdır ki, xidmət sferasında ƏS istehsal əməliyyat strategiyasına daha çox bənzəyir. Bu oxşarlıq şirkətlər xüsusilə material tədarükü ilə xidmətlər təqdim etdikdə özünü göstərir.

İ.İ.Mauzerin redaktəsi ilə peşəkarlar üçün hazırlanan "Korporativ menecment"də istehsal strategiyasına daha müfəssəl yanaşma edilmişdir. ƏS (istehsal strategiyası) şirkətin iqtisadi stimullaşdırılmasına, kapital qoyuluşlarının maliyyələşdirilməsinə, elm və texnikanın yeni nailiyyətlərinin istehsala tətbiqinə, genişləndirilməsinə, istehsalatın təkmilləşdirilməsinə və onun effekliyinin yüksəldilməsinə, maya dəyərinin (m/d-nin) azaldılması məqsədilə əsas fondların yenilənməsinə istiqamətləndirilmiş tədbirlər sistemidir. Bu tədbirlərə məhsul istehsalının həcminin artırılması, buraxılan məhsulların və xidmətlərin keyfiyyətinin yüksəldilməsi, əməyin təşkilinin yaxşılaşdırılması və onun məhsuldarlığının artırılması, istehsalın texniki təchizatının yaxşılaşdırılması və təkmilləşdirilməsi daxil edilir.

Belə təyinetmə praktiki olaraq "Əməliyyat Menecmentinin" bütün məfhumunu birləşdirir. Strategiya xarici mühitin qeyri-müəyyənlik şəraitində hazırlanır və məqsədlərə nail olmaq yollarında iriləşdirilmiş, çox vaxt alternativ yolları birləşdirir.

İstehsal strategiyası əsas strategiyanın hissəsidir, ona görə ümumi strateji tipologiya (müxtəlif hadisə və ya şeylərin tipləri arasındakı qarşılıqlı əlaqəni təmsil edən təsnifat) tətbiq edilə bilər.

Strateji alternativlərin 4 tipini fərqləndirirlər:

① Məhdud artım. Yetkin təşkilat, sabit texnologiya. Bu ən asan və az riskli həyat fəaliyyəti üslubudur.

② Artım. İnkişaf etdirilən şirkət, tez dəyişən texnologiya. Ali rəhbərliyin fəaliyyətin diversifikasiyasına cəhd etməsi. Lakin artım, xüsusilə qısamüddətli artımlar həmişə rifahın artmasına gətirmir. İstehsal sferasında artım firmanın daxili artımıdır və məhsulun çeşidlərinin genişləndirilməsi yolu ilə nail olunur. Şirkətin bir-birinə yaxın sahələrdə üfqi formada artımı, xarici artımı istehsal güclərinin çoxalmasına və istehsalın həcminin böyüməsinə gətirib çıxarır. Sahə mənsubiyyətindən əlaqədar olmamaqla firmaların birləşdirilməsi yolu ilə şaquli inteqrasiya formasında xarici artım korporasiyanın qovuşmasına gətirir.

③ İxtisar etmə. "Son şans strategiyasıdır", əməliyyatların rasionallaşdırma və yenidən istiqamətləndirmə yoludur. Variantlar: ləğv etmə, artığın ayrılması, ixtisar olunma və yenidən istiqamətləndirilmə.

④ Uyuşma. Bir neçə sahədə aktiv fəaliyyətli iri firmalar tərəfdar olurlar. Özündə əvvəlki 3 tiplərin xarakteristikalarını birləşdirir.

Strategiyanın seçiminə aşağıdakı amillər təsir edir:

◊ risk;

◊ keçmiş strategiyaları bilmək (varislik, nəticələrin qiymətləndirilməsi);

◊ təsisçilərin təsiri (təsisçilərə reaksiya);

◊ zaman amili.

Əməliyyat prioritetləri. Bir neçə əsas əməliyyat prioritetlərini fərqləndirirlər: istehsal xərcləri, məhsulun keyfiyyəti və etibarlılığı, sifarişin icrasının müddəti, tədarükün etibarlılığı, tələbin dəyişməsinə firmanın münasibət göstərmə qabiliyyəti, yeni, eləcə də ayrı-ayrı hər əmtəə meyarı üçün spesifik əmtəələrin mənimsənilməsinin çevikliyi və sürəti.

İstehsal xərcləri. Bazar kasadlığında uğurla rəqabət etmək üçün firma mütləq az istehsalat məsrəflərilə istehsalçılardan olmalıdır. Belə ki, bu zəruri olsa da, şirkətin yüksək səviyyədə rentabelliyə və uğura nail olmasını bildirmir.

Bir qayda olaraq, satış həcmi yalnız özünün istehsalına çəkilən xərclərin (yaxud özünün m/d-nin) səviyyəsindən asılı olan məhsullar gündəlik tələbat əmtəələridirlər. İstehlakçılar sadəcə müxtəlif şirkətlərin buraxdığı eyni əmtəələri fərqləndirmək vəziyyətində deyillər. Bu alqıda seçim edərkən əsas meyar kimi qiymətin istifadə edilməsinə gətirib çıxarır. Bazarın belə seqmenti böyükdür, bir çox şirkətlər potensial əhəmiyyətli mənfəətin götürülməsi imkanlarına cəzb edilirlər. Bu da çox vaxt həmin məhsulun böyük həcmlərdə istehsalı ilə assosiasiya (əlaqələndirilir) edilir. Nəticədə, baxılan seqmentin tipində rəqabət çox sərt, müflislik faizi bir qayda olaraq yüksək olur [3, s. 35].

Məhsulun keyfiyyəti və etibarlılığı. Keyfiyyətin ayrı-ayrı 2 kateqoriyası mövcuddur: məhsulun keyfiyyəti (Product Quality) və prosesin keyfiyyəti (Process Quality). Məhsulun lazımi keyfiyyət səviyyəsini təmin etməkdən üçün istehlakçının tələblərini ön mövqeyə çəkmək lazımdır. Görünən odur ki, həddindən artıq özünü doğrultmayan yüksək səviyyəli, keyfiyyətli mürəkkəb məhsul onun dəyərindən atrıq qiymətinə görə alınmayacaq. Digər tərəfdən keyfiyyəti kifayət etməyən məhsul buraxılışı özünü potensial alıcılarının itirilməsinə gətirib çıxaracaqdır. Alıcılar fikirlərinə görə müəyyən üstünlüyə malik olan, bir qədər baha olan əşyaların alınmasına üstünlük verəcəklər.

Prosesin keyfiyyəti həm də olduqca mühüm əhəmiyyətə malikdir, çünki o məhsulun etibarlılığı ilə əlaqədardır. Hazırlanmanın, keyfiyyətin təmin edilməsinin əsas məqsədi istehsalda hər hansı texnoloji səhvin yaxud işin natamam olmamasından ibarətdir. Bu və ya digər məhsulun hazırlanmasına tələblər onun yol verilə bilən ölçülərində göstərilmiş texniki xarakteristikaları ilə müəyyən olunur. Konkret təyinatına uyğun olan əmtəənin etibarlılıq səviyyəsini təmin etmək üçün kəskinliklə bu texniki normaları saxlamaq lazımdır.

Sifarişin yerinə yetirilmə müddəti. Bazarın bəzi seqmentlərində rəqabət üstünlüyünə nail olmaq üçün əsas şərt şirkətin başqa firmalardan tez məhsulunu istehsal etmək yaxud xidmətini təmin etmək, başqa sözlə, sifarişi yerinə yetrimək (Delivery Speed) qabiliyyətidir.

Tədarükün etibarlılığı. Bu əməliyyat prioriteti firmanın dəqiq əmtəə yaxud xidmətlərini vəd etdiyi müddətdə ya da hətta erkən təchiz etmə, başqa sözlə, tədarükün etibarlılığı (Delivery Reliability) qabiliyyətidir.

*Tələbin dəyişməsinə cavab vermə qabiliyyəti***.** Bir sıra bazarlarda firmanın rəqabət qabiliyyətinin səviyyəsini müəyyən edən əsas amil onun tələbin dəyişməsinə yanaşmaq qabiliyyətidir. Məlumdur ki, məhsuluna tələbatı daim artan şirkətlərin çətin hər-hansı bir problemi olsun. Əgər hər hansı bir əmtəəyə tələb böyükdürsə və daima yüksəlirsə, onun buraxılışına xərclər istehsal miqyasında qənaətin sayəsində durmadan azalır, yeni texnologiyalara kapital qoyuluşu asanlıqla ödənilir. Əgər tələb aşağı düşməyə başlayırsa, firma istehsalını dayandırmalı olur və nəticədə o mürəkkəb problemlərlə-ştatın və aktivlərin ixtisar edilməsinin labüdlüyü ilə qarşılaşır. Bu səbəblərdən uzun müddət ərzində şirkətin tez və adekvat olaraq bazar tələbatının dinamikasına cavab vermə qabiliyyəti onun əməliyyat strategiyasında önəmli elementə çevrilir.

Yeni məhsulun mənimsənməsinin çevikliyi və sürəti. Strateji nöqteyi-nəzərdən çeviklik (Flexibility) şirkətə öz istehlakçılarına geniş əmtəə seçiminin təklif etmə qabiliyyətidir. Bu qabiliyyət yüksək dərəcədə firmaya, yenilənən məhsul növünün hazırlanmasına və yeni əmtəə buraxılışına keçid üçün mövcud proseslərin dəyişdirilməsinə, tələb olunan zamandan asılıdır.

Məhsul növündən asılı digər meyarlar. Yuxarıda şərh olunan prioritetlər ümumiləşdirici xarakter daşıyır, lakin tez-tez konkret növ məhsullara yaxud ayrı-ayrı situasiyalara münasibətə görə şirkətin prioritetlərinin müəyyən edilməsi zəruriliyi yaranır. Spesifik prioritetlərin çoxusu əsasən öz təbiətinə görə xidmətlə bağlıdır. Belə xüsusi xidmətləri istehsalçılar özlərinin buraxdığı məhsullarının satılmasının həcmini artırmaq üçün tez-tez təklif edirlər. Bunlar aşağıdakılardır:

Texniki dəstək. Şirkətlər məhsulun hazırlanmasında, konstruktor işlərinin və istehsalın ən erkən mərhələlərində, tədarükçüdən komplektləyici texniki yardımın təqdim edilməsini gözləyə bilərlər.

Yeni əmtəənin bazara buraxılmasının tezləşməsi. Bəzən firma kompleks layihələri həyata keçirməklə digər şirkətlərlə birgə işləməli olurlar. Belə hallarda istehsalın hazırlanmasına konstruktor işləmələri dövrünün başa şatmasını gözləmədən başlamaq olar. Əgər müxtəlif firmalar eyni zamanda bir layihə üzərində işləyirsə və onların işi ciddi koordinasiya edilirsə, onda həmin layihənin reallaşdırılmasına ümumi zaman əhəmiyyətli azalacaqdır.

Tədarükçünün satışdan sonra dəstəyi. Firmanın öz məhsulunu satdıqdan sonra texniki dəstəyini təmin etmə qabiliyyəti əsas prioritet ola bilər. Bu ehtiyat hissələrinin tədarük edilməsindən, bəzən əvvəlki, köhnə komplektləşdiricinin modifikasiya edilməsindən və yenisinin, daha yüksək effektiv səviyyəli məmulatla təmin olunmasından ibarətdir. Bunların sürəti şirkətin satışdan sonrakı müştərilərinin yanaşmasından asılı olmaqla, həmçinin çox zaman olduqca mühüm əhəmiyyət kəsb edir [4, s. 56].

Digər prioritetlər. Bu qrup adətən işıq tərtibatı, ölçülər, çəki, montaj sahəsində məmulatın yerləşdirilməsinin variasiya imkanları və sifarişçinin konkret ehtiyaclarından asılı olaraq məhsulun dəyişdirilməsi, həmçinin əmtəə nomenklaturunun müxtəlifliyi kimi amilləri birləşdirir.

İstehsal sahəsində strateji prioritetləri bu kateqoriyalar üzrə təsnif etmək olar:

Δ istehsal prosesinin seçimi (əməyin təşkilinin konveyer, briqada, fərdi forması);

Δ istehsal gücləri (müəssisənin ölçüsü);

Δ şaquli inteqrasiya səviyyəsi;

Δ əmək resurslarının təşkili (əməyin ixtisaslaşdırılması);

Δ texnologiya (nou-xau yaxud işlənmiş texnologiyalar);

Δ maddi-texniki ehtiyatlar (istehsal-anbar yaxud sifariş-istehsal);

Δ yer (istehlakçıların yaxud xammal mənbələrinin yanında).

İstehsal sferasında strateji qərar firmanın inkişafının uzunmüddətli proqramıdır. Bəzən istehlakçıların üstün tutduqlarını, rəqiblərin bazarda özlərini necə aparmaqlarını, elmi tədqiqat institutlarının hansı yeni material və texnologiya təklif edəcəklərini qabaqcadan bilmək olmur. Ona görə taktiki qısamüddətli planlar və həllər seçilən strategiyanın düzgünlüyünün yoxlanılması vasitəsidir, onun düzəldilməsi dəyişgən xarici mühitlə əlaqədar strategiyanın reallaşdırılmasında çevikliyi təmin edir.

Xidmət sferasında əməliyyat strategiyası. Xidmətlə məşğul olan firmalarda bir qayda olaraq korporativdən ayrılmır. Bir çox belə müəssisələr üçün xidmətlərin göstərilməsi elə biznesin özüdür. Beləliklə, istənilən strateji həll əməliyyatlara aid olunmalıdır. Lakin əməliy-yatlarla məşğul olan rəhbərlər həmişə firmanın digər funksional bölmələrinin rəhbərləri kimi səs hüququna malik deyillər. Belə ki, məs., uçuş xidmətində yeni marşrutun əlavə edilməsi yaxud təklif edilən xidmətlərin genişləndirilməsi qərarının qəbulunu əməliyyat menecerlərinin qəti etirazının əksinə, belə yeniliklərı məqsədəuyğun hesab edən (istehsal sferasında da belə situasiya müşahidə olunur), marketinq üzrə mütəxəssislər qəbul edə bilərlər.

Beləliklə, müasir dövrdə rəqabət mübarizəsində davam gətirmək və uğurlu fəaliyyəti müntəzəm həyata keçirmək üçün istehsal stategiyalarının işlənib hazırlanması olduqca vacib hesab edilməlidir. Həmin strategiyalar təşkilatların resurslarından daha səmərəli istifadə edilməsini təmin etməklə yanaşı onların dayanıqlı fəaliyyətinə zəmin yaradır. Həm istehsal sahəsində, həm də xidmət sferalarında ƏS-larının hazırlanmasında əməliyyat menecerlərinin qərarları çox vacibdir. Bazar münasibətlərində istehsal edilən məhsulun yaxud göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsində və təşkilatların yüksək mənfəətinin təmin edilməsində ƏS-larının əhəmiyyəti danılmazadır. Məhz istehsal strategiyası əsasında fəaliyyət göstərən təşkilatlar milli iqtisadiyyatımızı daha da inkişaf etdirəcək və xalqımızın rifahını artırmaqla onun tələbatını dolğun ödəyə biləcəkdir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Грант Р.М. Современный стратегический анализ. 7-е издание.– Санкт-Петербург: Питер, 2016.– 544 с.
2. https://report.az/biznes-xeberleri/2020-ci-ilde-azerbaycanin-qeyri-neft-ixraci-1-9-mlrd-dollari-deyerinde-olub/ istinad tarixi: 12.09.21
3. Новик Е.К. Операционный менеджмент., Санкт-Петербургская академия управления и экономики СПб 2011, 205 с.
4. Операционный менеджмент: Учебник для вузов; рекомендовано Мин.образования/ С. В. Ильдеменов, А. С. Ильдеменов, С. В. Лобов. - М.: ИНФРА-М, 2009. - 337 с.

Fuad CABBAROV
Azərbaycan Turizm və Menecment Universiteti, müəllim
fuadjabbarov@gmail.com

Günəş ƏLƏKBƏRZADƏ
Azərbaycan Turizm və Menecment Universiteti, tələbə
gunes.alekberzade@mail.ru

BÖHRAN ZAMANINDA KORPORATİV İDARƏETMƏNİN BİZNESDƏ XÜSUSİYYƏTLƏRİ

CHARACTERISTICS OF CORPORATE MANAGEMENT IN BUSINESS IN CRISIS

ХАРАКТЕРИСТИКИ КОРПОРАТИВНОГО УПРАВЛЕНИЯ В КРИЗИСНОМ БИЗНЕСЕ

***Xülasə**: Mövzunun aktuallığı məqalədə korporativ idarəetmənin böhran zamanında tətbiqinin əhəmiyyəti və vacibliyini göstərir. Hal-hazırda pandemiya şəraitində dövlətin əsas makroiqtisadi göstəricilərinin aşağı enməsi müşahidə edildiyi zamanda şirkətlərin böhrandan çıxış yolları və COVID19 iqtisadiyyata təsiri təhlil edilib. Korporativ idarəetmə standartlarının və böhran idarəetmə xüsusiyyətləri tətbiq edilməsi nəticəsində şirkətlərin effektivliyə və keyfiyyətin yüksəlməsinə yönəlir.*

***Açar sözlər:** böhran idarəetmə, böhranın iqtisadiyyata tesiri, korporativ idarəetmə, COVID19 pandemiya, səhmdar.*

***Abstract:** The urgency of the topic in the article shows the importance and significance of the application of corporate governance in times of crisis. At this time when the main macroeconomic indicators of the country are currently decresis in the situation of the pandemic, the ways out of the crisis for companies and the impact of the COVID19 on the economy analyzed. It focuses on improving the efficiency and quality of companies as result of the application of corporate governance standards and crisis management are implementing.*

***Keywords:** crisis management, the impact of the crisis on the economy, corporate governance, COVID19 pandemic, stockholders.*

***Резюме:** В статье раскрыта необходимость, сущность и актуальность корпоративного управления в период кризиса. В настоящее время в условиях пандемии основные макроэкономические показатели, демонстрирующие снижение проведен анализ воздействия COVID19 на экономику и пути выхода компаний из сложившейся ситуации. Внедрение корпоративных стандартов и специфики кризисного управления в итоге повышают эффективность и качество в процессе деятельности предприятий.*


***Ключивые слова:** кризисное управление, воздействие кризиса на экономику, COVID19, пандемия, акционер.*

Korporativ idarəetmə – biznesin təşkilati-hüquqi formasının idarə olunması, təşkilati sruktur-ların optimallaşdırılması, qəbul olunmuş məqsədlərə müvafiq olaraq kompaniyanın firmalararası və firmadaxili münasibətlərinin qurulmasıdır. Korporativ idarəetməni xüsusi tip kimi ayırsaq başlıca xüsusiyyətləri korporasiyanın spesifikliyi ilə şərtlənən idarəetmə obyekti olaraq onu müəyyənləşdirir: "Səhmdarların prioritet maraqları və onların korporasiyanın inkişafındakı rolu üzərində qurulan idarəetmə, səhmdarların qarşılıqlı təsirini nəzərdə tutan mülkiyyət hüquqlarının reallaşdırılmasını hesaba alan idaretmə və sonda, korporativ mədəniyyəti doğuran idarəetmə, başqa sözlə, ümumi ənənələr kompleksi, nizamnamələr, davranışlar prinsipi kimi başa düşülür". Korporativ idarəetmənin başlıca funksiyası – mülkiyyətçilərin, başqa sözlə, korporasiya təşkil edən maliyyə resurslarının maraqları çərçivəsində korporasiyanın işinin təmin olunmasıdır.

Qeyd etmək lazımdır ki, korporativ idarəetmə mülkiyyətin idarəetmədən dəqiq ayrılması baş verdiyi zaman mümkün olmuşdur. Ümumiyyətlə, korporativ idarəetmə üzrə tədqiqatlar iri strukturların təkamülünü əks etdirirdi, bu isə, iqtisadçıların qeyd olunan problemə diqqətinin 80-ci illərdə – kütləvi udulma və qovuşmalar, hüquqi sistemlərdə sosial-orientasiya normalarına tendensiyalar illərində daha da artmasını şərtləndirmişdir. Korporativ idarəetmə- şirkətin rəhbərliyi, müşahidə şurası, səhmdarları və digər maraqlı şəxslər arasında qarşılıqlı münasibətlərin kompleksidir. Korporativ idarəetmə sistemi özü-özlüyündə, şirkətin öz investorlarının maraqlarını təmsil və müdafiə etməsi

üçün təşkilati modeldir. Korporativ idarəetmə– şirkətlərin istiqamətləndirilməsi və nəzarəti işində struktur və prosesləri əhatə edən münasibətlər sistemidir.[4]

Korporativ sistemi aşağıda göstərilmiş şəkil ilə təsvir etmək olar:



Şəkil 1. *Korporativ idarəetmənin əhəmiyyəti (Müəlliflər tərəfindən tərtib edilib)*

Qərb ölkələrində korporativ idarəetmənin subyekti çərçivəsində MMC (LLC),QSC,Yoldaşlıq cəmiyyətlər və SC (corporation) öyrənilir. Korporasiya - Hüquqi şəxs kimi tanınan, mülkiyyətin idarəetmədən ayrı olduğu, hər hansı fəaliyyətin həyata keçirilməsi üçün birləşmiş kapitallarla təsis edilmiş təşkilat başa düşülür.

Korporativ idarəetmə sistemi elə bir təşkilati modeli əks etdirir ki, onun köməyi ilə korporasiya öz səhmdarlarının maraqlarını təmsil və müdafiə etməlidir. Bu sistem mövcud qanunvericiliyə riayət olunması və beynəlxalq standartların nəzərə alınması əsasında gəlirlərin artırılması məqsədilə Direktorlar Şurası (Müşahidə Şurası), menecerlər və digər maraqlı şəxslərin (işçilər, kreditorlar, malsatanlar, yerli orqanlar, ictimai təşkilatlar) qarşılıqlı fəaliyyəti və qarşılıqlı hesabatlılığı sistemidir. Korporativ idarəetmədə kommunikativ əlaqələrin təsviri aşağıdakı sxemdə qeyd olunub.[3]

Sxem 1. *Korporativ idarəetmədə kommunikativ əlaqələr (Müəlliflər tərəfindən tərtib edilib)*



Böhran zamanı korporativ idarəetmənin əhəmiyyəti.

Ölkədə böhran kriteriyaları: bura yalnız ekoloji problemlərlə yanaşı hərbi,siyasi, iqtisadi böhran, maliyyə və.s problemlərdə nəzərdə tutulur. Hər hansı sahədə (siyasi, iqtisadi, sosial, ekoloji və s.) olmasından asılı olmayaraq böhranların iqtisadi təsirləri daha duyumludur. İqtisadiyyatda böhrana səbəb olduğuna dair çoxlu nümunələr vermək olar. Dövlət büdcəsinə daxil olan neft gəlirlərinin ədalətsiz bölüşməsi müxalif qüvvələr tərəfindən neqativ və kritik yanaşması əsasında şüar altında müzakirə edilir. Bunun nəticəsində əsas diqqət siyasi sistemə və korrupsiya ilə mübarizəyə yönəlib. Lakin iqtisadi reformalar və sistemli dəyişilmə nəticəsində müəyyən hüquqi pozuntular aşkar edilərək standartlara uyğun tətbiq edilib.[2]

Dünya miqyasında qloballaşma proseslərinin tendensiyası investisiyaların ən böyük faizləri korporativ idarəetməni tətbiq edən şirkətlərə yatırılır. Qloballaşan dünyada əksər investorlar yüksək səviyyəli korporativ idarəetmə sisteminə malik şirkətlərə investisiya qoymağa hazırdırlar. Korporativ idarəetmə şirkətlərin investisiya cəlbediciliyini artırır, uzunmüddətli investisiya qoyuluşlarının aktivləşməsinə səbəb olur, kredit məsrəflərinin azalmasına və şirkətin bazar aktivlərinin dəyərinin artmasına gətirib çıxarır.

Korporativ idarəetmənin funksional xüsusiyyətləri aşağıdakılardan ibarətdir:

• Ehtiyatlardan istifadənin dinamiklik və çevikliyi, dəyişikliklərin həyata keçirilməsi və innovasiya proqramlarının tətbiqi;

• İdarəetmə qərarlarının həyata keçirilməsi üzrə üsulların hazırlanması və həyata keçirilməsi;

• İdarəetmə prosesində zaman faktorunun nəzərə alınmasının vacibliyi;

• İdarəetmə qərarlarının diqqətli və düzdün şəkildə qiymətləndirilməsi, alternativ yolların və gələcək addımların seçilməsi;

• İdarəetmə qərarlarında böhran əleyhinə müddəaların nəzərə alınması.

Müasir şəraitdə şirkətlər qarşısında bir neçə problem formalaşır: Qeyri-sabit bazar mühitinə çevik və vaxtında müdaxilə, qeyri-müəyyən və dinamikli şərtlər daxilində dayanıqlı maliyyə siyasətinin və inkişaf strategiyasının formalaşdırılmasının vacibliyi məsələləri ortaya çıxır. Buna əsasən də səmərəli idarəetmə metodlarının hazırlanması və tətbiqi zərurəti yaranır. Səmərəli korporativ idarəetmənin əsas göstəricisi böhranın ilkin əlamətlərinin vaxtı-vaxtında müəyyən edilməsi və buna adekvat reaksiya verilməsindən ibarətdir.[5]

Böhran zamanı korporativ idarəetmə sisteminin təşkili aşağıdakı prinsiplərə cavab verməlidir:

1. Müəssisənin bütün məqsəd və resursları arasında zəncirvari asılılıq və uyğunluq;

2. Müəssisənin fəaliyyətinin maliyyələşmə mənbələri arasında qarşılıqlı münasibətlərin optimallaşması;

3. Risklərin azaldılması və aradan götürülməsinə operativ qərarvermə sistemi yaradılması;

4. İdarəetmə qərarlarının müəssisənin strateji planlarına əsasən müəyyən dəyişikliklər edildikdən sonar tətbiq edilməsi.[6]

Böhran şəraitində səmərəli idarəetmə qərarlarına nail olmaq üçün aşağıdakı tələblərin həyata keçirilməsi zəruri hesab olunur:

– Müəssisənin hədəflərinin onun strategiyasına uyğun olaraq araşdırılması;

– İdarəetmə qərarlarının verilməsi üçün müvafiq məlumat bazasının qurulması;

– Daxili və xarici təsir amillərin araşdırılması və müəyyən edilməsi;

– Müəssisənin maliyyə-təsərrüfat əməliyyatlarının təhlili və nəticələrin qiymətləndirilməsi;

– Bazarda stabil və güclü mövqenin əldə edilməsi üçün strategiyaların hazırlanması;

– Hazırlanmış strategiyaların tətbiqi və nəzarəti.[1]

Şirkətin zəif tərəfləri, kompleks şəklindəmüəyyən edilən fəaliyyət nəticəsində problemlərdən ibarətdir, o cümlədən struktur bölmələri və vəzifəli şəxslər arasındakı anlaşılmazlıqlar, maraq toqquşmaları, konfliktlər kritik vəziyyətlərdə özünü daha aşkar göstərir və böhran zamanı bu cür şirkətlərdə daha çox mənfi fəsadlara məruz qalırlar. Ona görə də şirkətlərdə korporativ idarəetmə sisteminin təşkilindən əlavə sistemin mümkün risklərə qarşı daim hazırlıqlı olması üçün mütəmadi işlərin görülməsi də əsas şərtlərdəndir.[8]

Böhranın iqtisadiyyata təsiri.

Koronavirus (COVID-19) pandemiyasının yayılması bir çox ölkələr kimi Azərbaycanda məhdudiyyətin tətbiqi (lockdown) nəticəsində iqtisadiyyata ciddi təsir edib. Ölkədəki bir sıra fəaliyyət sahələri qismən və yaxud tamamilə məhdudlaşdırılıb, xarici səfərlər dayandırılıb və xarici ticarət əlaqələri zəifləyib.

İqtisadçı ekspertlər açıqlamasında pandemiyanın bu il Azərbaycan üçün yaratdığı iqtisadi nəticələr, ilin qalan dövründə bizi gözləyən tendensiyalar, yaranmış ümumi geriləmənin nə vaxt aradan qalxa biləcəyi barədə fikirlərini bölüşüblər: Koronavirus Çində son 2 ildə baş qaldırsa da, heç bir beynəlxalq maliyyə qurumu bu il dünya iqtisadiyyatında ciddi tənəzzül baş verəcəyini proqnozlaşdırmırdı. İndiki vəziyyət heç bir qurumun, mütəxəssisin ağlına gəlmirdi. Bu baxımdan 2020-ci il üçün verilmiş bütün proqnozlar iflasa uğradı. O cümlədən Azərbaycanda.[10]

2020-ci ildə yanvar-fevral aylarının iqtisadi göstəriciləri illik müqayisədə olduqca qənaətbəxş idi. Lakin pandemiya ilə əlaqədar tətbiq edilmiş bir sıra məhdudiyyətlər ölkə iqtisadiyyatına zərbə vurdu. Nəticədə iqtisadi göstəricilərdə, xüsusən də ümumi daxili məhsul (ÜDM) istehsalında azalma başladı. 5 ayın yekunlarına əsasən, iqtisadiyyatımız 1,7% azalma müşahidə olunub.

Təsadüfi deyil ki, beynəlxalq maliyyə qurumlarının dünya iqtisadiyyatı ilə bağlı bu il üçün son olaraq verdiyi proqnozlar da olduqca bədbin xarakter daşıyır. Məsələn, Dünya Bankının başda ABŞ olmaqla ayrı-ayrı ölkələrlə əlaqədar ÜDM istehsalı üzrə irəli sürdüyü proqnozlar olduqca bədbindir. Bir çox ölkələrdə ÜDM-in 5-9%-ə qədər azalacağı haqqında Dünya Bankının proqnozları verilib. Belə tendensiya sabit olaraq qalsa Azərbaycan iqtisadiyyatında böhran vəziyyəti davam edəcək.[10]

Böhran vəziyyətində dünya iqtisadiyyatında bərpa prosesinin nə vaxt başlayacağından və ölkələrarası iqtisadi münasibətlərin, qarşılıqı ticarət əlaqələrinin, turizmin və digər mühüm iqtisadi sektorların nə vaxt bərpa olacağından asılıdır.

Böhrandan çıxış vəziyyəti.

Bu gün bütün dünyada iqtisadi ekspertlər və tədqiqatçılar böhran vəziyyətini müzakirə obyektidir. Dünyadakı bu proseslər Azərbaycandanda yaşanır. İqtisadi çətinliklərlə əlaqədar şirkətlər müflis elan olunur, bəziləri isə vəziyyətlərini qismən də olsa yaxşılaşdırmaq uğrunda mübarizə aparırlar.

Mövcud statistik rəqəmlərə diqqət yetirsək, ölkədə gedən iqtisadi böyümə və inkişaf tempinin durduğunu görərik.Korporativ idarəetmə yanaşma əsasında böhrandan təklif olunan çıxış yolları:

1. İstehlakçının gözləntisi ölkədəki bütün makro dəyişikliklərin ən vacib müəyyənləşdiricisidir. O cümlədən siyasətin, iqtisadiyyatın ən vacib müəyyənləşdirici amilləri istehlakçı üçün vacib rol oynayır. Hazırda orta səviyyəli hər bir ailə öz büdcəsinə görə ehtiyac və "lyuks" bölgüsü aparır, "lyuks" olaraq müəyyənləşdirdiyi məhsul və xidmətlərdən imtina edir. Məsələn, zənnimcə, burada ən çox ziyanı turizm şirkətləri görəcək. Ölkə əhalisinin əksər hissəsi artıq tətillərdə xaricdə səyahət etmək ənənəsini tərk edir. Bu səbəblə bir çox turizm şirkətləri fəaliyyətlərini dayandırıb. Lakin bu vəziyyəti bir fürsətə çevirməkdə də mümkündür. Turizm şirkətlərinin düzgün "yol xəritəsi" xarici turistləri daxili turizmə cəlb etməkdir. Problemdən çıxış yolu turistləri ölkəyə gətirmək deyil, keyfiyyətli xidmət göstərərək təkrarən ölkəmizə səfər etmələrini təmin etməkdir. Bunu uğurla icra etmək üçün şirkətlərə dövlət dəstəyi də çox önəmlidir.

2. Ölkədə əhalinin istehlak zənbili onun baha məhsul almasına imkan vermir buna görə də daha aşağı qiymətli məhsullara yönəlirlər. Nəticədə büdcə seqmentinin bazarda payı çoxalır. Bu isə tələbin həm daralması, həm də daha ucuz məhsullara yönəlməsi (down trade) deməkdir. Əvvəllər daha bahalı marka məhsulları istehlak edən insanlar, məcburən daha ucuz marka məhsul və xidmətlərə yönəlirlər. Bu dövrdə bəzi marka məhsullar özlərinə ilk dəfə yönələn müştəri kateqoriyaları ilə rastlaşırlar. Bu isə onlar üçün yeni müştəri kütləsini cəlb etməkdə böyük bir fürsətdir.

3. İqtisadi çətinliklər bəzi kateqoriyalı məhsullara tələbin azaldığı, bəzilərinə isə artdığı dövrdür. Məsələn, avtomobil sektoru bu dövrdə ciddi azalma göstərir. Bu, statistikada da açıq şəkildə görünür. Ölkəmizə idxal olunan avtomobil markaları üzrə say 2015-ci ilin göstəriciləri ilə nisbətdə 2016-cı ildə kəskin şəkildə azalıb. Təkcə Gürcüstandan ölkəmizə avtomobil idxalı son bir ildə 5 dəfə azalıb.

4. İqtisadi böhran dövründə istehlakçılar pul xərcləyən zaman vacib olan məhsula daha çox önəm verirlər və şəxsi büdcəyə qənaət etmiş olurlar.

5. İqtisadi böhran dövründə menecerlər şirkətlərdə bir sıra xərcləri ixtisar edirlər. Bunların ən öndə gələnləri reklam və araşdırma xərcləridir. İdarə Heyətində olan şəxslər əsasən maliyyə yönümlü olurlar və ölkəmizdə bu qrup rəhbərlərin əksəriyyəti araşdırma və reklamın gücünə bir o qədər də inanmırlar. Halbuki, bu dövrdə istehlakçını anlamaq üçün araşdırma vacib şərtdir. Reklam etməyi kəsmək isə qətiyyən qənaət yolu deyil.

6. İstehlakçı ilə əlaqə inama söykənməlidir. İstehlakçı loyallığını qazanmaq üçün istehsalçılar və xidmət sahəsi öz brendinin nüfuzunu qoruyub saxlamaq üçün etdikləri yanlış dəyişikliklər uzun dövrdə markanı daha etibarsız edir. İqtisadi böhran dövrü istehlakçının inamını ən çox intensivləşdirdiyi dövrdür.

7. Bu dövrdə hər bir markanın bazar seqmentlərinə fərqli prizmadan baxması lazımdır. İstənilən markanın bu günə qədər müraciət etmədiyi coğrafi ərazilər və loyal müştəri qrupları mövcuddur. Şirkətin bütün qeyd olunanları dəyərləndirməsi və yeni imkanlar olub-olmadığını araşdırması lazımdır.

8. Cəmiyyətin əhvalının bədbin olması şirkət əməkdaşlarının əhvalının bədbin olması deməkdir. Hər bir təşkilatın rəhbərinin və ya İdarə Heyətinin ən çox həssaslıqla yanaşmasının ehtiyac duyulduğu tərəflərdən biri budur. İşdən çıxarmalar çox incə şəkildə və düzgünlüklə aparılmalıdır, əks təqdirdə şirkətin etibarı ciddi şəkildə zədələnə bilər. Bu dövrdə ən ağıllı atılmalı addımlardan biri ixtisarlar yerinə əmək haqqı çox yüksək olan şirkət əməkdaşlarının maaşlarının azaldılaraq tənzimlənməsidir. Böhran dövrü başa çatdıqda isə əmək haqqını əvvəlki səviyyəyə qaldırmaqdır. Bunun üçün isə şirkət rəhbərliyinin ədalətli davranması lazımdır.

9. İqtisadi böhran dövrü hər bir innovasiyanı etmək üçün əlverişli dövrdür. Hər bir dəyişiklik özündə bir çox fürsətləri birləşdirir. Unutmamalıyıq ki, bu böhran dövrünün bir sonu olacaq və iqtisadiyyat təkrar böyüməyə başlayacaq. Bu gün icra etməli olduqlarımızı icra edərək şirkətimizi böyümə dövrünə hazırlamağın yollarını axtarıb tapmalıyıq.

Nəticə və təkliflər.

Korporativ idarəetmədə və şirkətlərin fəaliyyət nəticələri arasında müsbət asılılığı sübut edən bir sıra empirik tədqiqatlar mövcuddur. Bu tədqiqatların bəzilərinin çatışmazlıqlarına baxmayaraq, ümumilikdə demək olar ki, qabaqcıl korporativ idarəetmə prinsiplərinin həyata keçirilməsinin üstünlükləri məsrəfləri üstələyir. Həmçinin, üstünlükləri bir məbləğlə ifadə etmək heç də həmişə asan olmur. Bu xüsusilə nüfuz riski, müflüsləşmə nəticəsində işçilərin iş yerlərini itirməsi riski və yaxud investorların sərmayələrinin itirilməsi riskləri nəzərə alınan zaman özünü biruzə verir. Ən ekstremal hallarda isə korporativ idarəetmə problemləri maliyyə bazarlarına inamın zəifləməsi və makroiqtisadi sabitliyin pozulmasına gətirib çıxara bilər.Korporativ idarəetmənin təkmilləşdirilməsi nəticəsində yaxşı nəticələr dərhal əldə edilmir.Bundan əlavə, korporativ idarəetmə birdəfəlik tədbir yox, davamlı bir prosesdir. Korporativ idarəetmə strukturların sayı və proseslərdən asılı olmayaraq vaxtaşırı yenidən nəzərdən keçirilməli və lazım olduqda təkmilləşdirilməlidir. İnvestorlar və ictimaiyyət ayrı-ayrı formal tədbirləri deyil, əslində şirkətlərin qabaqcıl korporativ idarəetməyə uzunmüddətli bağlılıqlarını dəyərləndirir. Buna görə də şirkətlərin fəaliyyət göstərdikləri tənzimləyici və hüquqi mühit, ümumilikdə iqtisadi nəticələrin əldə edilməsi üçün əsas əhəmiyyət kəsb edir. Korporativ idarəetmə strukturu bütövlükdə iqtisadi fəaliyyətə və bazarın hərtərəfli inkişafına təsiri və bazar iştirakçılarına yaratdığı stimullar şəffaf və səmərəli bazarların təşkili nəzərə alınmaqla qurulmalıdır. Korporativ idarəetmə şirkətlərin istiqamətləndirilməsı, nəzarəti işində struktur və prosesləri əhatə edir. Yüksək səviyyədə təşkil edilmiş korporativ idarəetmə şirkətlərin fəaliyyətini genişləndirir, onların xarici kapitala çıxışını artırmaqla iqtisadiyyatın davamlı inkişafına kömək edir.[8]

Bazar mexanizmlərini hərəkətə gətirməyə kifayət qədər imkanı olan yeganə qüvvə elə bazar qüvvələrini devirməli olduğu qurum, dövlətin özüdür. Qlobal təcrübədən də belə nəticəyə gəlmək olur ki, korporativ idarəetmə rəqabət mühitinin yüksək inkişaf etdiyi müəssisə və təşkilatlar üçün daha çox əhəmiyyət kəsb edir. Bu onların idarə qabiliyyətini çevikləşdirir, investisiya fəaliyyətini gücləndirir, həmçinin, maliyyə imkanlarını artırır. Dünya iqtisadiyyatına sürətlə inteqrasiya edən ölkələrdə yerli şirkətlərin beynəlxalq miqyasda rəqabət qabiliyyətliliyini artırmaq, idxalatçı ölkədən ixracatçı ölkəyə çevrilmək, ölkənin investisiya cəlbediciliyini artırmaq istiqamətində aparılan dövlət siyasətini daha səmərəli təşkil etmək məqsədilə korporativ idarəetmə institutları yaradılır.

Bütün bunlardan belə nəticəyə gəlmək olar ki, respubilkamızda qeyri-neft sektorunun inkşafı üçün korporativ fəaliyyət vacibdir. Bunun üçün ən əlverişli və koporativ fəaliyyətə ehtiyacı olan sahə kənd təsərrüfatıdır.

Hazırda ölkəmizdə kənd təsərrüfatı fərdi təsərrüfatçılıqdan ibarət olduğu üçün texnika – texnologiya, müasir üsullardan istifadə edilməsi mümkünsüzdür. Bu da kənd təsərrüfatının məhsuldarlığını aşağı salır və bu sektorun inkşafını ləngidir. Bunun üçün bu sektorda korporativ fəaliyyətin yaradılması məqsədə uyğun hesab edilir. Bazar münasibətlərinin inkişafının indiki mərhələsində əmtəə istehsalçılarının maliyyə vəziyyətinin yaxşılaşdırılmasına, onların fəaliyyət səmərəliliyinin artırılmasına əlverişli şərait yaradan kredit korperativlərinin mahiyyəti və funksionallığını əks etdirən tədqiqatlar xüsusi ilə vacibdir. [9] İnkişaf etməkdə olan bu korperativ təsisat forması çevikliyi və bazar tələbliyi ilə daha üstün mövqedə dayanır. Bu sahə digər sektorların da fəaliyyətinin güclənməsinə köməklik göstərir. Çıxarılan nəticəyə əsasən ölkəmiz üçün aşağıdakı təklifləri verə bilərik:

- Korporativ idarəetmə fəaliyyətini təkmilləşdirmək üçün qərb təcrübəsindən istifadə etmək;
- Dünya bazarında müəssisələrimizin rəqabət qabiliyyətliliyini artırmaq üçün korporativ idarəetmə fəaliyyətindən istifadə etmək;
- Korporariv idarəetmə fəaliyyətindən aqrar sektorda istifadə etmək;
- Digər fəaliyyət sahələrinin də inkşafını artırmaq üçün kredit korporativlərinin fəaliyyətinin təkmilləşdirilməsi və dövlət dəstəyinin artırılması;
- Korporativ idarəetmə fəaliyyətinin mühümlülüyünü əhaliyə çatdırmaq üçün maarifləndirmə işlərinin görülməsi.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Müftüoğlu H., Aydos V., Türkiye'de Kooperatifçilik: Türk Konut Kooperatifçiliğine Alternatif Bir Model: Almanya, İstanbul Ticaret Odası No. 2001-46, İstanbul: 2001, 103 s
2. Koç H. Kooperativçilik Bilgileri, Nobel Yayın Dağıtım, Gözden Geçirilmiş II. Basım, Ankara: 2001, 187 s
3. Mülayim Z.G., Kooperativçilik, Yetkin Yayınları. Ankara: 2006, 503 s
4. Korporativ idarəetmə modelləri – Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi economy.gov.az
5. Azərbaycanda biznesin idareedilmesinde korporativ idarəetmə standartlarının tetbiqi (-https://www.economy.gov.az/article/korporativ-idar%C9%99etm%C9%99/21348)
6. https://hbr.org/2020/10/covid-19-is-rewriting-the-rules-of-corporate-governance
7. https://www.financierworldwide.com/corporate-governance-in-the-post-pandemic-world#.YYFCe2BBxPY
8. https://www.ifc.org/wps/wcm/connect/topics_ext_content/ifc_external_corporate_site/ifc+cg/investment+services/corporate+governance+methodology
9. Мейер К. Корпоративное управление в условиях рыночной экономики и экономики переходного периода // Корпоративное управление. Владельцы, директора и наемные работники акционерного общества. – Пер. с англ. – М.: Джон Уайли энд Санз, 1996. – С. 24.
10. https://www.stat.gov.az/source/system_nat_accounts/

Həmid Cahedi KORABBASLU
Azərbaycan Turizm və Menecment Universiteti, dissertant
HamidJahedi@gmail.com

TURİZM MÜƏSSİSƏLƏRİNDƏ YENİ MARKETİNQ XİDMƏTLƏRİNİN TƏŞKİLİ VƏ İDARƏ OLUNMASI

ORGANİZATİON AND MANAGEMENT OF NEW MARKETİNG SERVİCES İN TOURİSM ENTERPRİSES

ОРГАНИЗАЦИЯ И УПРАВЛЕНИЕ НОВЫМИ МАРКЕТИНГОВЫМИ УСЛУГАМИ НА ТУРИСТИЧЕСКИХ ПРЕДПРИЯТИЯХ

Xülasə: *Turizm müəssisələrində yeni marketinq xidmətlərinin yaranmasına və inkişafına səbəb turizmdə iqtisadi və rəqabət mühitinin yaranması və turizm məhsuluna olan tələbatın artımı və dəyişkənliyidir. Yeni növ marketinqin Turizm müəssisələrində təşkili və idarə edilməsi, onun elementləri üzrə həyata keçirilir. Bu məqalədə Turizm müəssisələrində yeni marketinq xidmətlərinin təşkili və idarə edilməsi, turizm müəssisələrində marketinq strategiyasının hazırlanması, hal-hazırda turizm fəaliyyətində istifadə olunan marketinq xidmətləri, marketinq sahəsində rəqəmsal metodların istifadəsi və onların turizm müəssisələrində tətbiqi vəziyyəti və turizm müəssisələrində marketinq fəaliyyətininin idarə edilməsi ilə bağlı dünya təcrübəsi və yerli turizm müəssisələrindəki faktiki vəziyyətin öyrənilməsi məsələləri araşdırılır.*

Açar sözlər: *Turizm müəssisəsi, turizm marketinqi, marketinq xidməti, yeni marketinq, rəqəmsal marketinq.*

Abstract: *The reason for the emergence and development of new marketing services in tourism enterprises is the emergence of an economic and competitive environment in tourism and the growth and variability of demand for tourism products. Organization and management of new types of marketing in tourism enterprises is carried out according to its elements. This article describes the organization and management of new marketing services in tourism enterprises, the development of marketing strategies in tourism enterprises, marketing services currently used in tourism activities, the use of digital methods in marketing and their application in tourism enterprises and world experience in marketing activities in tourism enterprises. and the study of the actual situation in local tourism establishments.*

Keywords: *Tourism enterprise, tourism marketing, marketing services, innovative marketing, digital marketing.*

Резюме: *Причиной появления и развития новых маркетинговых услуг на туристских предприятиях является появление экономической и конкурентной среды в сфере туризма, а также рост и изменчивость спроса на туристскую продукцию. Новый*

Организация и управление маркетингом в туристских предприятиях осуществляется на его элементах. Этот

В статье рассматриваются вопросы организации и управления новыми маркетинговыми услугами на туристических предприятиях, разработка маркетинговых стратегий на туристических предприятиях, маркетинговые услуги, используемые в настоящее время в туристической деятельности, использование методов цифрового маркетинга и их применение на туристических предприятиях и управление маркетингом. деятельности в туристских предприятиях исследуется опыт и изучение реальной ситуации в местных туристических предприятиях.

Ключевые слова: *туристическое предприятие, туристический маркетинг, маркетинговая служба, новый маркетинг, цифровой маркетинг.*

Son illərdə dünya və Azərbaycan iqtisadiyyatında ən mühüm sektorlardan biri kimi turizm müəssisələri iqtisadiyyatın əsas aparıcı qüvvəsi kimi özünü göstərməsidir. Nəzərə almaq lazımdır ki, turizm müəssisələri öz spesifik cəhətlərinə görə digər sektorlarından mahiyyəti etibarilə fərqlənirlər. Xüsusilə dövlət səviyyəsində turizmin inkişafının dəstəklənməsi ilə bağlı layihələrin həyata keçirilməsi və strateji yol xəritəsinin mərhələli şəkildə reallaşdırılması müvafiq sahədə marketinq elementlərindən istifadəni zəruri edir.

Təhlilə əsaslanaraq qurulan yeni marketinq xidmətləri və marketinq strategiyası yerli turizm müəssisələrinin rəqabətə davamlı məhsullar təqdim etməsi üçün zəruridir. Turizm sektorunda marketinq fəaliyyəti turizm məhsullarının və xidmətlərinin istehsalı və satışı ilə nəticələnir.

Bununla yanaşı turizm müəssisəsi yeni xidmət yaradarkən bazarda olan vəziyyəti öyrənir və ona görə addım atır. Buna görə də turizm müəssisələrində düzgün marketinq xidmətlərinin təşkili və idarə olonması və səmərəli şəkildə marketinq strategiyasının reallaşdırılması, o cümlədən marketinq fəaliyyəti üzrə nəticələrin təhlili Azərbaycanda yeni turizm məhsulunun yaradılması üçün mühüm əhəmiyyət kəsb edir.

Xidmət növlərinə görə Turizm sahəsində iştirakçılar deyərkən aşağıdakılar nəzərdə tutulur:

1. Turizmi təşkil edən müəssisələr (turoperator – turagent)
2. Yerləşmə müəssisələr (otel – hostel və s.)
3. Nəqliyyat müəssisələri (hava – quru – dəmir yolu – su nəqliyyatı)
4. Qidalanma (iaşə) müəssisələri (restoran – kafe və s.)
5. Ekskursiya bürosu (tur bələdçi – tur menecer və b.)
6. Gəzməli-görməli yerlər və əyləncə mərkəzləri (muzey – rekreasiya və s.)
7. Turizmdə təhsil müəssisələri (universitet – təlim mərkəzləri və s.)
8. Turizmdə dövlət və özəl qurumlar (turizm bürosu – siğorta – bank və s.)

Bu məqalədə turizm müəssisələrində yəni turoperatorlar və turagentləri yeni marketinq xidmətlərinin təşkili və idarə olunmasi haqda təhlil aparamışıq. Təhlil nəticəsində aydın olur ki, bu sahədə yeni texnologiyaların tətbiqinin genişləndirliməsinə ehtiyac vardır. Bu məsələdə diqqətdə saxlanılmalı olan vacib məsələ marketinq işinin təşkilidir.

Marketinq diyərkən müəyyən istehlakçı qrupunun ehtiyaclarını ödəmək məqsədilə məhsul və xidmətlərin istehsalı və satışı ilə əlaqəli fəaliyyətin planlaşdırılması və idarə edilməsi nəzərdə tutulur (2;3).

Marketinqin əsas prinsipi isə belədir: "Tələbatı tapın və ancaq alıcıya lazım olan məhsul və xidmətləri istehsal edin və tələbatı ödəyin". Deməli, "marketinq" bazarın potensial tərəfləri arasındakı (satıcılar və alıcılar) münasibətləri təkcə məhsul və xidmətlər mübadiləsi ilə deyil, eyni zamanda informasiya mübadiləsi ilə də tənzimləyir. Məhsulun istehsalçıları artdıqca, marketinqə olan tələbat da bir o qədər artırşdır. Bu şəkildə qurulan bazar münasibətləri rəqabətli bazar iqtisadiyyatı adlanır (4).

Turizm öz spesifik xüsusiyyətlərinə görə məhsulların və xidmətlərin (onların nisbəti (75:25) %-dir) satılmasında fərqlənir. Adi məhsulun istehsalında marketinq anlayışı konkret xarakter və məzmun daşıyır. Bura mehmanxana, nəqliyyat, transfer, ekskursiya, əyləncə, qidalanma və s. xidmət növləri aiddir (5; 6; 7)..

Turizmdə marketinq – turizm məhsullarının və xidmətlərinin hazırlanması, planlaşdırılması, bazara irəlilədilməsi, satışı və onlara tələbin stimullaşdırılması üzrə həyata keçirilən fəaliyyətdir. Bu fəaliyyət məhsul və xidmətləri istehsalçıdan istehlakçıya çatdırmağa imkan yaradaraq, məqsəd qruplarının tələblərinin daha səmərəli ödənilməsinə və maksimum mənfəət əldə edilməsinə yardım edir. Turizm marketinqinin əsas məqsədləri bunlardır:

– ənənəvi bazarın qorunub saxlanılması;
– yeni bazarın əldə olunması;
– mövsümlülük amilinin təsirinin azaldılması (8).

Turizm müəssisələrində yeni marketinq xidmətlərinin yaranmasına və inkişafına səbəb olan iqtisadi və rəqabət mühitinin yaranması.

Turizmdə marketinqin əmələ gəlməsinə və inkişafına səbəb iqtisadi və rəqabət mühitinin yaranması və turizm məhsuluna olan tələbatın dəyişkənliyidir. Tələbatın dəyişkənliyi marketinqin inkişafına təsir göstərən daha güclü faktordur. Turizm məhsuluna olan tələbatın dəyişkənliyi bir çox amillərdən asılıdır ki, bu da potensial turistin davranışında özünü biruzə verir.

Beləliklə, turist xidmətlərində baş verən struktur dəyişmələr, rəqabətin formalarının və turistlərin davranışlarının dəyişilməsi turizm müəssisələrini marketinq sahəsində yeni tədbirlər axtarıb tapmağa məcbur edir. Bu funksiyalar arasında müştərilərlə təmasda olmaq ön plana keçir.

Turist müəssisəsi marketinq münasibətləri çərçivəsində müxtəlif seqmentlərlə və ayrı-ayrı müştərilərlə əlaqələri hansı səviyyədə qurmağı əvvəlcədən təyin etməlidir. Bu münasibətlər aşağıdakı səviyyədə qurula bilinər:

1. Passiv münasibətlər – menecer məhsulu satır və deyir ki, bir problem yaranarsa, mənə müraciət edin;

2. Məsuliyyətli münasibətlər – məhsulu satdıqdan bir az sonra menecer alıcının məhsulun keyfiyyəti haqqında fikrini öyrənir;

3. Aktiv münasibətlər – müştəri ilə daim əlaqə saxlayır, bayramları təbrik edir, yeni turist mövsümünə hazırlanmış məhsullar haqqında məlumatlar verir və s.;

4. Partnyorluq münasibətləri – müştərilərin rəğbətini qazanmaq və onları itirməmək məqsədi ilə onlarla müntəzəm olaraq əlaqələrin saxlanılması.

Beləliklə, marketinq münasibətlərinin konsepsiyası alıcılara keyfiyyətli xidmətlərin göstərilməsinin təşkilinə yönəldilmişdir. Əldə olunan nəticələrin qiymətləndirilməsi alıcıların bütün səfər boyu səfərdən razılığının dərəcəsi ilə ölçülür.

Turizm məhsulu. Turizm bazarında səmərəli fəaliyyət göstərmək üçün, ilk öncə standartlara cavab verən, effektiv turizm məhsulu formalaşdırmaq lazımdır. Bu tip məhsulu təqdim etmək üçün hər şeydən əvvəl biznes strukturu məhsul strategiyasına malik olmalıdır. Turizm şirkətinin ümumi fəaliyyət strategiyasında məhsul strategiyası əsas yerlərdən birini tutur. Bunu onunla izah etmək olar ki, turizm məhsulu müvafiq bazara təsir göstərmək imkanına malik ən mühüm faktordur və turizm şirkətinin gəlir mənbəyidir. Bazar qiyməti, satışın həcmi, istehlakçıların tələblərinin təmin olunma səviyyəsi, şirkətin imici və digər amillər hamısı demək olar ki, turizm məhsulu ilə əlaqədardır.

Turizm marketinq konsepsiyasının əsas ideyası budur və aşağıdakıları aid edə bilərik:

1. Alıcının ehtiyacı, sorğu və tələblərinin müəyyənləşdirilməlidir;
2. Bazara çıxarılan məhsullar alıcıların istək və tələblərinə uyğun hazırlanmalıdır;
3. Qiymətlərin təyin olunması alıcılara münasib və istehsalçıya kifayət qədər gəlir gətirməlidir;
4. Məhsulun alıcıya çatdırılması mümkün qədər əlverişli və rahat olmalıdır;
5. Tələbatı formalaşdırmaq məqsədi ilə turist bazarına aktiv təsir vasitələri axtarıb tapmalıdır.

Yeni növ marketinqin Turizm müəssisələrində təşkili və idarə edilməsi, onun elementləri üzrə həyata keçirilir. Turizm müəssisələrində yeni marketinq xidmətlərinin təşkili və idarə edilməsi müasir dövrdə turizmin qarşısında duran vacib məsələdir.

Müəssisənin marketinq fəaliyyətinin idarə edilməsi onun təşkilati strukturunun düzgün formalaşdırılmasından çox asılıdır. Marketinqin idarə edilməsinin təşkilati quruluşu bu və ya digər dərəcədə marketinq fəaliyyəti ilə məşğul olan işçilərin çalışdığı şöbə və ya bölmələrin məcmusudur. Buna görə də marketinqin təşkilati quruluşunun seçilməsi, onun vəzifə və funksiyalarının düzgün müəyyən edilməsi marketinq xidmətinin müəssisənin digər şöbə və bölmələri ilə əlaqələrin uzlaşdırılması mühüm əhəmiyyət kəsb edir.

Marketinqin idarə edilməsi dedikdə məhsul və xidmətlərə tələbin yaradılması və təkrar istehsalının intensivləşdirilməsi, mənfəətin artırılması üzrə tədbirlərin planlaşdırılmasının, təşkilinin, əlaqələndirilməsinin, ona nəzarətin, auditin və stimullaşdırılmasının həyata keçirilməsilə əlaqədar olan idarəetmə fəaliyyəti başa düşülür.

Marketinqin idarə edilməsi prosesi aşağıdakılardan ibarətdir:

1) bazarın imkanlarının təhlili;
2) məqsədli bazarın seçilməsi;
3) marketinq kompleksinin hazırlanması;
4) marketinq tədbirlərinin həyata keçirilməsi.

F.Kotler marketinq idarə edilməsi prosesini "marketinq imkanlarının təhlili", "marketinq strategiyasının hazırlanması", "marketinq proqramlarının planlaşdırılması" və "marketinq fəaliyyətinin idarə edilməsi" kim təsvir edir (9,146).

Turizm müəssisələrində marketinq strategiyasının hazırlanması, hal-hazırda turizm fəaliyyətində istifadə olunan marketinq xidmətləri

Müəssisədə marketinq strateqiyasının hazırlanmağı üçün birinci olaraq marketinq məqsədlərin müəyyən etmək lazımdır. Turizm müəssisəsinin məqsədləri əsasən yeni bazarların əldə edilməsi, müvafiq xidmətlərin yerləşdirilməsi, şirkətin müəyyən bazarda payının artırılması, onun müsbət imicinin yaradılması və mənfəətinin artmasıdır. Hər bir marketinq strategiyası xüsusi bir turizm

müəssisənin ehtiyacları üçün xüsusi olaraq yaradılır. Müəyyən marketinq strategiyasının yaradılması zamanı həyata keçirilməsi lazım olan ayrı mərhələlərə baxmaq lazımdır:

– SWOT analizin aparılması (güclü, zəif, imkanlar və təhdidlər);
– məqsədlərin müəyyən edilməsi;
– bazarın seqmentləşdirilməsi və hədəf bazarın seçilməsi;
– müvafiq marketinq amillərinin seçilməsi (məhsul, qiymət, bölüşdürmə, təşviqi, işçi heyəti);
– marketinq strategiyasının həyata keçirilməsi və monitorinqi (1).

Marketinq strategiyasının tuzim biznesində yeri və rolu

Turizm əsas xüsusiyyətləri ilə iqtisadi fəaliyyətin digər formalarının ümumi prinsipləri arasında heç bir əsaslı fərq yoxdur. Buna görə, müasir marketinqin bütün vacib şərtləri turizm sahəsində tam tətbiq edilə bilər. Eyni zamanda turizmdə özünəməxsus cəhətlər var ki, bu onu nəinki əmtəələrlə ticarətdən, eləcə də digər xidmət sahələrində olan alqı-satqı proseslərindən fərqləndirir.

Turistlərin marağını cəlb etmək və turizm bazarının müəyyən edilmiş seqmentinin tələblərini yetərincə ödəmək turizm marketinq strategiyasının əsaslı konsepsiyasıdır. Turizm məhsulunun imicinin formalaşdırılması istehlakçıların nəzərində həmin məhsul haqqında rəqiblərin təqdim etdiyi məhsuldan fərqli və pozitiv fikir yaratmaq məqsədi daşıyır. Belə kreativ proses ərzində istehlakçının fikirlərinə təsir göstərilir ki, müvafiq turizm məhsulu onun çoxdan axtardığı və kriteriyalarına uyğun məhsuldur. Hər bir turizm müəssisəsi hazırladığı və təqdim etdiyi məhsulun üstün və çatışmayan xüsusiyyətlərini daha yaxşı bilir və bu baxımdan marketinq strategiyasının hərtərəfli şəkildə reallaşdırılması fəaliyyətin səmərəli təşkili ilə nəticələnər (1).

Marketinq strategiyasının düzgün idarə olunması prosesinə proqram planlaşdırma və büdcə fəaliyyəti, marketinq fəaliyyətinin həyata keçirilməsi kimi elementlər daxildir. Bu elementlər kompleks şəkildə düzgün nəzarət altında öz yerini tapdıqda müəssisədə mənfəətlilik norması yüksəlir.

Marketinq sahəsində rəqəmsal metodların istifadəsi və onların turizm müəssisələrində tətbiqi vəziyyəti.

Rəqəmsal marketinq strategiyasını izah etməzdən öncə toxunmalı olduğumuz bir çox məsələlər vardır. Bu məsələləri izah edərkən həm günümüzdə insanların yaşam tərzini həm də hədəf kütlənin xüsusiyyətlərini anlamaq və təhlil etmək uğurlu bir marketinq strategiyası üçün önəmli faktordur.

Bu gün internetdə üstünlük təşkil edən və hər gün istifadə etdiyimiz saytlar və proqramlar vardır. Googlu sürətli məlumat əldə etmək üçün feysbooku dostlarımızla əlaqələr qurmaq və şəbəkəmizdə izləmək üçün istifadə edirik. Youtub vasitəsilə video formatında istənilən növ məlumat əldə etmək mümkündür. Həmçinin onu da qeyd etmək lazımdır ki youtub Googldan sonra dünyada ən çox istifadə olunan axtarış sistemidir. Linkedini iş əlaqələri və iş axtarmaq üçün istifadə edirik. Amazon və Alibaba isə alış veriş etdiyimiz ən böyük qlobal e-ticarət saytlarıdır. Mobil telefonlarımızda əlaqə bir birimizlə sıx əlaqə saxlamaq üçün Whatsappla sms dən daha çox istifadə edirik. Mobil oyunlarda daha çox vaxt keçiririk. Xəbər saytlarını daha çox mobil telefonlardan izləyirik. Statcounter.com saytının verdiyi məlumatlara görə 2017-ci ildə internet istifadəsində mobil istifadə desktop istifadəsini qabaqlamışdır (10,22). Turizm müəssisələrində marketinq fəaliyyətininin idarə edilməsi ilə bağlı dünya təcrübəsi və yerli turizm müəssisələrindəki faktiki vəziyyətin öyrənilməsi məsələləri araşdırılır.

Turizm müəssisələrində marketinq fəaliyyətinin idarə edilməsi ilə bağlı dünya təcrübəsi və yerli turizm müəssisələrindəki faktiki vəziyyətin öyrənilməsi mühüm əhəmiyyət daşıyır. Marketinq fəaliyyətinin və bu fəaliyyət üzrə strategiyanın standartlarının işlənib hazırlanması və reallaşması, bazarda tarazlığın və strukturda müasirliyin təminatı, rəqabətədavamlı fəaliyyətin təşkili, düzgün idarəetmə mexanizminin formalaşması üzrə təkliflərin verilməsi baxımından vacibdir (1).

eyd etmək lazımdır ki, rəqəmsal marketinq xidmətləri bazarının effektiv təşkili yalnız bu bazar subyektləri üçün deyil, ölkədə marketinq xidmətləri potensialının güclənməsində və onun səmərəliliyinin yüksəldilməsində mühüm rol oynayır.Bundan başqa, rəqabət mühitinin dərinləşdiyi müasir dövrdə marketinq xidmətləri, təkcə, bazar subyektlərinin səmərəli fəaliyyət göstərmələri üçün deyil, həm də, ictimai münasibətlər sisteminin demokratik əsaslarla inkişaf etdirilməsi və bu münasibətlərin uğurlu şəkildə tənzimlənməsində zəruri vasitə hesab olunur (1).

Sahibkarlıq subyektlərinin innovativ inkişafının idarə edilməsi mərhələlərlə bir sıra vəzifələrin yerinə yetirilməsini nəzərdə tutur.

Birinci mərhələdə strateji marketinqin vəzifələri yerinə yetirilir:

– marketinq tədqiqatlarının həyata keçirilməsi;

– istehlakçıların seqmentləşdirilməsi və məqsəd seqmentinin seçilməsi;

– yeni məhsulun satış imkanlarının qiymətləndirilməsi və proqnozlaşdırılması;

– funksional istiqamətlər üzrə strategiyaların işlənib hazırlanması;

– yeni məhsulun bazara çıxarılması üzrə xərclərin hesablanması.

İkinci mərhələdə əməliyyat marketinqinin vəzifələri yerinə yetirilir:

– məhsul siyasətinin müəyyənləşdirilməsi;

– qiymət siyasəti: – baza qiymətinin və güzəşt sisteminin müəyyənləşdirilməsi;

– satış siyasəti: – satış kanallarının, müştərilərin və regionların müəyyənləşdirilməsi;

– kommunikasiya siyasətinin müəyyənləşdirilməsi, yeni məhsulun bazara irəlilədilməsi üzrə tədbirlər kompleksinin işlənib hazırlanması;

– bütün istiqamətlər üzrə planlaşdırmanın həyata keçirilməsi, proqramların hazırlanması;

– proqramların yerinə yetirilməsi üzrə zəruri büdcənin hesablanması.

Üçüncü mərhələdə marketinq kompleksinin ikinci mərhələdə hazırlanan tədbirlərinin realizasiyası həyata keçirilir.

İnnovasiya marketinqinin aşağıdakı bir sıra fərqləndirici xüsusiyyətləri də mövcuddur:

– yeni tələbatların axtarışı və ödənilməsinə strateji istiqamətlənmə.

– müəssisənin innovasiya fəaliyyətinin təşkili və idarəedilməsi bazarla qarşılıqlı əlaqədə həyata keçirilir ki, bu da öz növbəsində şəbəkə nəzəriyyələrindən istifadə edilməsini və müasir münasibətlər marketinqinin tətbiqini nəzərdə tutur.

– innovasiya müəssisəsində yeni biliklərin mövcudluğu və potensialın daima yeniləşməsi zərurəti;

– innovasiyanın yaradılması və yayılması dövründə təşkilatın bütün fəaliyyətinin əlaqələndirilməsi;

– dayanıqlı rəqabət üstünlüyü əldə etmək üçün təşkilatın qabaqcıl biliklərlə və resurslarla təminatına imkan verən əlaqələrin qurulması və inkişaf etdirilməsi;

– kompaniyanın müxtəlif fəaliyyət sferaları üzrə intellektual və kapital resurslarının birləşdirilməsi.

N.Kalenskaya müəssisələrin innovasiya fəaliyyətində aşağıdakı marketinq alətlərindən istifadənin əhəmiyyətini və rolunu xüsusi qeyd etmişdir (10,s.96):

1. Xarici mühitin təhlili.
2. Yeni əmtəənin rəqabət qabiliyyətliliyinin qiymətləndirilməsi.
3. Məhsul siyasətinin formalaşması metodları.
4. İnnovasiya layihələrinin iqtisadi səmərəliliyinin qiymətləndirilməsi metodları.
5. Yeni bazarlara çıxış strategiyaları (10, 96).

Beləliklə, müəssisələrin innovasiya fəaliyyətinin idarə edilməsində marketinq alətlərindən istifadənin əhəmiyyəti və rolu olduqca böyükdür. Marketinq alətlərindən istifadə müəssisəyə innovasiya fəaliyyətini daha səmərəli şəkildə həyata keçirməyə, yüksək nəticələr əldə etməyə imkan verir.

Turizm fəaliyyətində, kəskin rəqabətin hökm sürdüyü məkanda marketinq informasiyası mühüm rol oynayır. Bununla yanaşı turizm müəssisəsi məhsul yaradarkən bazarda olan vəziyyəti əsas götürür.

Son illərdə Azərbaycan iqtisadiyyatının mühüm amili kimi, turizm müəssisələrinin iqtisadiyyatın əsas aparıcı qüvvəsi kimi özünü göstərməsidir.

Azərbaycan iqtisadiyyatının qeyri – neft sektorunun prioritet sahə kimi tərkibinə daxil olan turizm sektoru ən potensiallı iqtisadi fəaliyyət sahəsi kimi qiymətləndirilir. Burada fəaliyyətin təşkili və səmərliyinin artırılması üçün çoxsaylı həll yollarından biri də marketinq fəaliyyətinin effektiv şəkildə müəyyən edilməsidir.

Respublikamızda fəaliyyət göstərən turizm müəssisələrində strategiya seçimi spesifikliyi ilə seçilir. Turizm şirkətinin yerləşdiyi ərazi, təqdim etdiyi turizm məhsullarının özünəməxsus göstəri-

ciləri, o cümlədən daxili və xarici turistlərə xidmət göstərmək üçün ixtisaslaşması marketinq strategiyasının seçilməsinə ciddi şəkildə təsir göstərir.

Ölkəmizdə müasir dövrün tələblərinə uyğun olaraq həyata keçirilən dövlət siyasətinin tərkibi kimi ölkə iqtisadiyyatının müxtəlif sahələrini əhatə edən Strateji Yol Xəritəsi qəbul edilmişdir. Bu yol xəritəsinin ən vacib istiqamətlərindən biri Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsidir. Müvafiq yol xəritəsində ölkə üzrə turizm sahəsində rəqabət qabiliyyətli iqtisadi subyektlərin yaradılması və dəstəklənməsi xarakteri daşıyır bu sahədə müvafiq dövlət orqanlarının, o cümlədən əlaqələndirici təşkilatların formalaşdırılmasını nəzərdə tutur.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Həsənova Selcan., "Azərbaycanda mövcud olan turizm müəssisələrində marketinq analizi"; 060409. – "Biznesin idarə edilməsi", ixtisası üzrə magistr dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya işi; Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı, 2018
2. İmanov T.İ., Quliyev E.N. Marketinqin əsasları. Bakı, "Təhsil", 2003, 264 s
3. Məmmədov A.T., Marketinq. Dərslik, Bakı, 2014, 667 s.
4. Yeganlı Siyavuş, Hacıyev Emin., Turizm**.** Bakı, 2006
5. Hacıyeva L.A. Xidmət sahələrinin marketinqi. Bakı, "Biznes Universiteti", 2013, 276 c.
6. Дурович А., Анастасова Л. Маркетинговые исследования в туризме. М: Новое знание, 2002, 347 с.
7. Разумовская Анна. Маркетинг услуг. Настольная книга российского маркетолога-практика. М., 2006, 378 с.
8. Rəhimov S.H. Turizm-ekskursiya işinin təşkili. Dərs vəsaiti. Bakı, Mütərcim, 2004, 312 s.
9. Котлер Ф., Маркетинг-менеджмент. Анализ, планирование, внедрение, контроль. – СПб.: Питер, 1999, s. 496
10. Olgu Şengül. A dan Z ye Dijital Pazarlama. Ceres Yayinlari, 2018

Aygün ŞİRİN
Azərbaycan Milli Elmlər Akademiyası,
Aqrar Tədqiqatlar Mərkəzi, dissertant
aygun.shirinn95@gmail.com

DƏYİŞƏN DÜNYADA QLOBAL DƏYƏR ZƏNCİRLƏRİNİN İDARƏ EDİLMƏ MEXANİZMLƏRİ

MANAGEMENT MECHANISMS OF GLOBAL VALUE CHAINS IN A CHANGING WORLD

МЕХАНИЗМЫ УПРАВЛЕНИЯ ГЛОБАЛЬНЫМИ ЦЕПОЧКАМИ СТОИМОСТИ В МЕНЯЮЩЕМСЯ МИРЕ

Xülasə: *Elm və texnologiyada dəyişikliklər, təsirli bir siyasət mühitində fəaliyyət göstərən təşkilatların səmərəliliyi artırmaq, xərcləri azaltmaq və istehsalı sürətləndirmək üçün əməliyyatlarını birdən çox məkanda, yəni beynəlxalq arenada həyata keçirməyə imkan vermişdir. Həyat standartları yüksəldikçə və demoqrafik vəziyyət yaxşılaşdıqca dünyanın bütün hissələrində istehsal, istehlak artır və eyni zamanda bu proses özü ilə bərabər yeni tələblər gətirir ki, bu da mənbələrin tükənməsinə səbəb olur. Nəzərə alsaq ki, 2050 –ci ilə qədər 9 milyard insanın yaşayacağı dəyişən şərtlərdə bir dünya üçün bu vəziyyət uyğun olmaya bilər. Yaşanacaq bu tip proseslər həm iş dünyasından, həm də ölkə siyasətlərindən diqqət gərəkdirir. Bir həll istiqamətləri kimi özəl və dövlət sektorlarının proseslərin idarəetməsində dəyər yaratmanın vacibliyini qeyd edə bilərik. Günümüzdə müəssisələr istehsala və ya proseslərə dəyər qatmağa çalışırlar ki, həqiqətən də bu anlayış rəqabət gücündə açar bir ünsürü halına gəlmişdir. Son dövrlərdə bir çox ölkələr dəyər yaratmağa ən böyük səbəb olan modelə yəni, qlobal dəyər zəncirlərə qatılmanın ölkənin iqtisadiyyatına eləcədə rifaha üstünlük gətirəcəyinin fərqindədirlər və bu səbəblə beynəlxalq əlaqələrini genişləndirməyə çalışmaqdadırlar.*

Açar sözlər : *qlobal dəyər zənciri, əlavə dəyər, qlobal dünya*

Summary: *Changes in science and technology have allowed organizations operating in an effective policy environment to conduct operations in more than one venue, the international arena, to increase efficiency, reduce costs and accelerate production. As living standards rise and the demographic situation improves, production and consumption increase in all parts of the world, and at the same time this process brings new demands, which leads to the depletion of resources. Given that the changing conditions in which 9 billion people will live until 2050, this situation may not be appropriate for a world. These types of processes need attention from both the business world and the country's policies. As a solution, we can emphasize the importance of creating value in the management of processes in the private and public sectors. Today, businesses are trying to add value to production or processes, and indeed this concept has become a key element in competitiveness. In recent years, many countries are aware that joining the model, which is the biggest reason for value creation, ie global value chains, will benefit the country's economy as well as prosperity, and therefore are trying to expand international relations.*
Keywords: *global value chain, value added, global world*

Резюме: *Изменения в науке и технологиях позволили организациям, работающим в эффективной политической среде, проводить операции более чем в одном месте, на международной арене, для повышения эффективности, снижения затрат и ускорения производства. По мере повышения уровня жизни и улучшения демографической ситуации производство и потребление увеличиваются во всех частях мира, и в то же время этот процесс вызывает новые потребности, что приводит к истощению ресурсов. Учитывая меняющиеся условия, в которых будут жить 9 миллиардов человек до 2050 года, такая ситуация может не подходить для мира. Эти типы процессов требуют внимания как делового мира, так и политики страны. В качестве решения мы можем подчеркнуть важность создания ценности в управлении процессами в частном и государственном секторах. Сегодня предприятия пытаются повысить ценность продукции или процессов, и эта концепция действительно стала ключевым элементом конкурентоспособности. В последние годы многие страны осознают, что присоединение к модели, которая является основной причиной создания стоимости, то есть к глобальным цепочкам создания стоимости, принесет пользу экономике страны, а также ее процветанию, и поэтому пытаются расширить международные отношения.*
Ключевые слова: *глобальная цепочка создания стоимости, добавленная стоимость, глобальный мир.*

Son illərdə iş dünyasında beynəlxalq formada birləşdirilən istehsal qaydalarının – yəni qlobal tədarük zəncirlərinin çoxalması iqtisadi və siyasi mənzərəni təməldən dəyişdirdi. Bugün iqtisadiyyat sahəsi üçün ixrac gedərək yerli istehsalın açar bir tamamlayıcısıdır. Misal olaraq deyə bilərik ki, Şərqi Asiyadaki ticarət rəqəmləri göstərir ki, məhsul və xidmətlər 2000-li illərdən bu yana ixracın 50%-dən və Asiyadakı idxalın 60%-dən çoxunu formalaşdırır. Bu səbəblə, ticarətə sadəcə ümumi rəqəmlərlə baxmaq yerinə, əlavə dəyər yanaşması ilə ölçmək önəmlidir. İxracatı idxal tərəfdən ölçdüyümüzdə, əlavə dəyəri daha yaxşı anlaya bilərik. Günümüzdə bir çox məhsulun bir neçə ölkədən idxal olunaraq proseslərdən keçdiyi açıqca görünməkdədir. Ümumi ticarət statistikalarında görülməyən gərçək budur ki, bugün məhsullar bir ölkədə deyil, "dünyada istehsal olunur". Bu kimi əlaqələr dünyanı xarakterizə edən regionlar arasındaki qarşılıqlı bağımlılığı təcəssüm etməkdədir, lakin bu əlaqələrdə idarəetmənin təkmilləşməsinin vacibliyini görmək o qədər də çətin deyil.

İstehlak və istehsal proseslərinin dəyişməsinə texnologiyaların inkişafı habelə, daha sürətli əlaqənin yaranmasına səbəb olan informasiyanın əldə edilmə intensivliyi də təsir göstərir. Hal-hazırda istehlakçılar məhsul və xidmətlərin istehsal olunduğu yeri, sahib olduğu xüsusiyyətləri öyrənə bilmə gücündədir və bu bilgi gücü satın alma qərarlarına birbaşa təsir edir. Nəticə olaraq, sivil cəmiyyətin gözləntilərini qarşılamaq üçün təşkilatlar, ümumiyyətlə dövlət idarəetməyə yeni yanaşmalar gətirməlidir.

Müxtəlif dövrlərdə edilən araşdırmalar nəticəsində iqtisadiyyatda dəyəri yaradan metodlardan biri qlobal dəyər zənciri haqqında müxtəlif fikirlər irəli sürülmüşdür. Konseptual "dəyər zənciri" müzakirəsi 1970-ci illərin sonuna doğru daha da genişlənərək, istehsal proseslərinin ticarət zəncirində [1, s.112-143] iştirak edən əlaqələr vasitəsilə bir-birinə bağlı olduğunu vurğulayır. Strateji idarəetmə yanaşmasına əsaslanaraq Porter (1985) əlavə dəyərin yaradılması zənciri formalaşdıran müxtəlif mərhələlərin hər birində həyata keçirilən hərəkətlərin ardıcıllığı kimi təsvir etmişdir. Aparılan müxtəlif araşdırmalar nəticəsində müsbət nəticələrin əldə olunması zənciri təşkil edən halqaların hər

birində dəyərin yaradılması və idarə etmənin təkmilləşməsi məhsul, xidmət və fəaliyyətləri qloballaşdırmağa yönəltməsi ilə baş verir. [2, s.78-105]

Son dövrlərdə qlobal dəyər zənciri anlayışının vacibliyi artan bilgi texnologiyası və inkişaf edən proseslər ilə əlaqədar olaraq ölkələr üçün üst səviyyəyə qalxmışdır. Qlobal dəyər zəncirlərinə qatılma və bu qatılmadan əldə edilən dəyərlərin ölkələrə davamlı inkişaf, böyümə, rifah artışı və beynəlxalq rəqabət gücünü də gətirdiyini söyləyə bilərik. Beynəlxalq rəqabətin artması qlobal dəyər zəncirinin idarəetmə prinsiplərinin təkmilləşmə ehtiyacını daha da sürətləndirir.

Qlobal dəyər zənciri termini dünyanın müxtəlif ölkələrində həyata keçirilən və aparıcı təşkilat tərəfindən əlaqələndirilmiş müxtəlif fəaliyyət növlərinin zəncirinə aid edilir. [3, s.50-75] Burada nəzərə alınması gərəkən hissə "təchizat zənciri" və "dəyər zənciri" arasındaki fərqi aşkarlamaqdır. Qısaca ən vacib fərq idarəetmə məsələləri ilə bağlıdır. Qlobal dəyər zəncirinin strukturu qlobal təchizat zəncirinin strategiyalarını izah etməyə kömək edir. Alimlərin fikrincə bu kimi fəaliyyətlərdə irəli sürülən modellərin ətraflı öyrənilməsi vacibdir. [4, s.278-303] Qlobal dəyər zəncirində istehsal müddəti boyunca yer alan bütün vəzifələrin bölünməsi və fərqli ərazilərdə həyata keçirilən fərdi funksiyalar üzrə ixtisaslaşmanın mərkəz nöqtəsini vəzifələrin idarə edilməsi təşkil edir. [5, p.6406]

Dünyada qlobal dəyər zəncirlərinin analizi üçün konseptual bir yanaşma əksikliyi görünməkdədir. Məqalənin başlıca məqsədi, qlobal dəyər zəncirlərində düzgün idarəetmənin formalaşması ilə dəyər yaratmanın vacibliyini ortaya qoymaq və artan dəyər yaratmağa nəyin imkan verdiyini müəyyən etməkdir. Nümunə misala baxaraq müəyyən idarəetmə üslubundan istifadə etməklə dəyər yaratmanın modeli göstərilir.

Qlobal dəyər zəncirlərinin idarəetməsində dəyər yaratma yanaşması.

Başlıca cavab axtarılacaq suallar :

1. Qlobal dəyər zəncirində dəyər yaratmanın təməl funksiyaları nələrdir və təşkilatlar bunu necə təşkil edirlər (regional və beynəlxalq təşkilatlar arasında)?

2. Qlobal dəyər zəncirlərinin yaranması və məhsuldar çalışması üçün təşkilatlar tərəfindən hansı bacarıqların inkişaf etdirilməsi gərəkdir?

3. Fəaliyyətlər, idarəetmə bacarığı və dəyər yaratma arasında əlaqələr nələrdir?

Məqalədə üç fərqli təşkilatın qlobal dəyər zəncirində dəyər yaratmanın əsas fəaliyyətlərini necə tənzimlədikləri və bunları yerli, xarici iştirakçılar və tərəfdaşlar arasında hansı formada payladıqlarını açıqlamışdır.

A şirkəti müştəri davranışlarının və satın alma qərarlarının monitorinqini real vaxt rejimində izlənməsini həyata keçirən rəqabətqabiliyyətli bir mobil tətbiq sahəsində fəaliyyət göstərməkdədir. Ən böyük əlavə dəyər onların arasında vaxt və məkan baxımdan sərhəd çəkilməsi çətin olan bir-birini tamamlayan üç mərhələ hesabına əldə olunur. Hər bir mərhələdə, dünyanın aparıcı şirkəti və törəmə şirkətləri arasında əməkdaşlıqda təqdim olunan ixtisaslaşdırılmış xidmətlər tələb olunur. Birinci mərhələ bir-biri ilə sıx əlaqəli olan ideyanın yaradılması, məhsulun hazırlanması (mobil tətbiqetmə) və brendinqdən ibarətdir. İkinci mərhələ, qəbul edilən müştəri seçimlərinə uyğunlaşmaq üçün məhsulun sınaqdan keçirilməsidir (filiallar və xüsusi bacarıqlara malik fərdi mütəxəssislər tərəfindən həyata keçirilir).

Abstract: *The characteristics and theoretical foundations of the disciplines that ethics combines are relevant to modern research. As in other areas, the development of professional ethics in museums is unique. Management plays an important role in the development of professional ethics in museums. The skills and functions of the manager are analyzed in this article.*

Keywords: *Museum, management, ethics, profession, art*

Резюме: *Особенности и теоретические основы дисциплин, которые объединяет этика, актуальны для современных исследований. Как и в других областях, развитие профессиональной этики в музеях уникально. Менеджмент играет важную роль в развитии профессиональной этики в музеях. В статье анализируются навыки и функции менеджера.*

Ключевые слова: *музей, менеджмент, этика, профессия, искусство.*

Etika bir elm kimi müxtəlif sahələrlə bağlı olduğu kimi, həm də özündə hər bir peşənin əxlaq və davranış qaydalarını birləşdirir. Peşə etikasının bir-biri ilə sıx bağlı olan funksiyaları vardır. Bü-

tün sahələrdə öz vacib xüsusiyyətləri ilə seçilən idarəetmə qabiliyyətini isə xüsusilə vurğulamalıyıq. İdarəetmə bir termin kimi geniş mənalara malikdir.

Ümumilikdə idarəetmə özü bir mədəniyyətdir. Hər bir insanda bu xüsusiyyətlər olmur, çünki idarəetmədə olan şəxsdən intelekt, inkişaf, istedad kimi bacarıqlar tələb olunur. Müasir dövrümüzdə incəsənət əsərlərinin tanıdılması üçün, turizmin inkişafında oynadığı rolu ilə seçilən muzeylərdə də idarəetmənin peşə etikası üçün əhəmiyyətini vurğulamalıyıq. Muzeylərin idarəetməsinə rəhbərlik edən şəxsin əsas funksiyalarını təhlil edərək, çətin və şərəfli peşənin özünəməxsusluğunu qeyd etməliyik. Muzeylərdə peşə etikasının inkişafında idarəetmənin əsas funksiyaları aşağıdakılardır:

Muzeylərin funksiyasına uyğun olaraq rəhbər şəxsin seçilməsi-hər bir muzey öz tarixi olmaqla bərabər, müəyən bir sahəni araşdırır. İdarəetmədə olan şəxsin peşəsini dəqiq bilməsi, həmin rəhbərlik etdiyi muzeyin inkişafına gətirib çıxaracaqdır.

İdarəetmədə "İdarəedici" bacarıq-bu fikir bütün sahələrdə daha geniş, bir-birinə zidd fikirlərlə açıqlanır. İncəsənət yönümlü muzeylərdə çalışan işçilərin sənətə qarşı olan hissiyyatları idarəedici şəxsin diqqət marağında olmalıdır. İdarəedici qüvvə bütünlüklə muzeyin inkişafı və daxilindəki düzgün kadr islahatlarını aparmağı bacarmalıdır.

İdarəedici şəxsin muzey mühitinə baxışı-muzey mühiti bütövlükdə bir ölkənin inkişaf tarixinə səyahət etdirən səhnədir. Mühitin müasirliyi, yeni texnologiyalar və işıqlandırmanın məkanda düzgün formada istifadəsi idarəedici şəxsin başlıca vəzifələrindən biri olmalıdır. Düzgün mühit, qarşılıqlı bağlılıq və cəlbetmə muzeylərin öz tamaşaçılarını daima maraqlandırır.

Muzeylərdə idarəedici şəxsin yaradıcılıq fəaliyyəti-idarəedici şəxs özü yaradıcılıq fəaliyyəti ilə muzeydə daima seçilməlidir. Onun sənət əsərlərinə olan yaradıcılıq qabiliyyəti idrak və düşüncənin vəhdəti kimi qavranılmalıdır. Tanrıdan verilən bu istedad peşə etikasında "hiss etmə" kimi də təqdim edilir.

Muzeylərdə idarəedici şəxsin elmi fəaliyyəti-bu funksiyanın xüsusilə vurğulanması bizim ölkəmizdəki muzeylər üçün əhəmiyyətlidir. İdarəedici şəxs çoxşaxəli bir rəhbər kimi muzeyin elmi işçiləri ilə birlikdə fəaliyyətinə geniş yer ayırmalıdır. Kitablar, monoqrafiyalar və elmi əsərlər daima muzey rəhbərinin əsas vəzifəsi olmalıdır.

Muzeylərdə idarəedici şəxsin dil bacarıqları-müasir dövrümüzün ən çətin, tələbatlı olan fikirlərdən biri hər bir şəxsin dil bacarıqlarının inkişafına yönəldilməsidir. Muzeyləri xarici qonaqların ziyarət etməsi bu fikri təsdiqləyərək, idarəetmədə çalışan muzey işçisinin qarşısına vacib bir tələb kimi qeyd edilməlidir.

Muzeylərdə psixoloji vəziyyətin idarəedici şəxs tərəfindən tənzimlənməsi-idarəedici şəxs özü psixoloji istedadı ilə seçilməlidir. Yaradıcılıq və psixoloji vəziyyət onun bir növ məqsədi kimi öz muzey işçilərinin arasında qarşılıqlı ideya kimi təqdim edilməlidir.

İdarəedici şəxsin eksponat və muzey materialları haqqında təhlil-məlumat bacarıqları-muzeyi idarə edən şəxs peşəsinin vurğunu olmalıdır. Eksponat və muzey materialları haqqında muzey rəhbərinin dəqiqliklə bilməsi peşəsinə yanaşmasına münasibətini təsdiq edir. Ekspozisiyanın düzgün işlənməsi, təhlili, idarəedici şəxsin başlıca vəzifəsi kimi diqqətində olmalıdır.

Sərgilərin təşkilində idarəedici şəxsin bacarığı – bu fəaliyyət daha çox muzey rəhbərindən kuratorluq istedadı da tələb edir. Sərgini təşkil edən zaman əsərlərin düzgün yerləşməsi idarəedici şəxsin fikirlərinə də əsaslanmalıdır.

Xarici muzeylərlə əlaqənin inkişafında idarəedici şəxsin rolu-müasir dövrümüzdə muzeylərin daha çox tanıdılması üçün xarici ölkələrlə əlaqələr çox vacibdir. Muzeylərin qarşılıqlı sənət mübadiləsi həm də ölkənin tanıdılmasıdır. Ölkəmizdə milli xalça muzeyinin uğurlarını xüsusilə qeyd etməliyik.

"Muzeylərdə peşə etikasının inkişafında idarəetmənin rolu" müasir sənətşünaslığımız üçün aktualdır. İdarəedici şəxsin hərtərəfli inkişafı muzeyin tanıdılmasında mühüm rol oynayacaq.Muzeylərdə idarəetmənin inkişafı tariximizin qorunaraq, gələcək nəsillərə çatdırılmasında peşə sahibləri çiyinlərində böyük məsuliyyət daşıyır.

Muzeylərdə peşə etikasının inkişafında idarəedici şəxsin əsas funksiyaları
Muzeylərin funksiyasına uyğun olaraq rəhbər şəxsin seçilməsi
İdarəetmədə "İdarəedici" bacarıq
İdarəedici şəxsin muzey mühitinə baxışı
Muzeylərdə idarəedici şəxsin yaradıcılıq fəaliyyəti
Muzeylərdə idarəedici şəxsin elmi fəaliyyəti
Muzeylərdə idarəedici şəxsin dil bacarıqları
Muzeylərdə psixoloji vəziyyətin idarəedici şəxs tərəfindən tənzimlənməsi
İdarəedici şəxsin eksponat və muzey materialları haqqında təhlil-məlumat bacarıqları
Sərgilərin təşkilində idarəedici şəxsin bacarığı
Xarici muzeylərlə əlaqənin inkişafında idarəedici şəxsin rolu

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Ağayev E. "Sənətşünasların muzeylərin idarəetmə və inkişafındakı rolu:problem və perspektivlər"// "Müasir dövrdə effektiv idarəetmənin problemləri" mövzusunda V Respublika elmi-praktik konfransının materialları,Turizm və menecment universiteti,s 103-104,Bakı 22 noyabr 2019.
2. Əmirxanov S."Muzey pedaqogikası". Bakı 2014, 117 s
3. Əmirxanov S. "Nəzəri muzeyşünaslıq". Bakı 2009, 211 s

Ruslan İSRAFİLOV,
dissertant
marketingpromoter1@gmail.com

İNSAN RESURSLARI FUNKSİYALARININ TRANSFORMASİYA (RƏQƏMSALLAŞDIRMA) LAYİHƏSİNDƏ UNİVERSİTET-SƏNAYE İŞBİRLİYİNİN ROLUNUN QİYMƏTLƏNDİRİLMƏSİ

ASSESSMENT OF THE ROLE OF UNİVERSİTY-İNDUSTRY COOPERATİON İN THE PROJECT OF TRANSFORMATİON (DİGİTİZATİON) OF HUMAN RESOURCE FUNCTİONS

ОЦЕНКА РОЛИ СОТРУДНИЧЕСТВА МЕЖДУ УНИВЕРСИТЕТАМИ И ПРОМЫШЛЕННОСТЬЮ В ПРОЕКТЕ ТРАНСФОРМАЦИИ (ЦИФРОВИЗАЦИИ) ФУНКЦИЙ ЧЕЛОВЕЧЕСКИХ РЕСУРСОВ

Xülasə: *Tədqiqatın əsas məqsədi Azərbaycanda və beynəlxalq arenada fəaliyyət göstərən transmilli şirkətlərin və universitetlərin strukturunda insan resurslarının funksiyalarının transformasiya layihəsinə universitet-sənaye işbirliyinin rolunun qiymətləndirilməsidir. Tədqiqat işi sistemli təhlil və məntiqi ümumiləşdirmə kimi tədqiqat üsuluna əsaslanır. Tədqiqat işində müasir dövrdə universitet-sənaye əməkdaşlığı və İR-də transformasiya layihələri üzrə xarici konsepsiyalar nəzərdən keçirilmiş, ölkədaxili nəzəriyyələrlə müqayisə edilmiş, inkişaf problemi müəyyən edilmişdir. Tədqiqat nəticəsində aşkar edilmişdir ki, universitet İRİ İnfrastrukturunun universitetlər arasında U-I-C təşkilati strategiyalarını nəzərdən keçirməsində əlaqəli olduğu qənaətinə gəlir, çünki əməkdaşlıq İRİ infrastrukturu ilə universitet performansı arasındakı əlaqənin gücünü artırır. Tədqiqatın məhdudiyyətləri: nəzəri-praktiki əsaslı tədqiqat bir neçə cəhətdən xüsusi çatışmazlığa malikdir. Burada bir çox xarici faktorlar nəzərə alınmadığı üçün məhdud əhəmiyyət daşıyır. Tədqiqatın yeniliyi: ilk dəfə olaraq yerli şirkətdə tətbiq edilən transformasiya proqramının addımları və universitet-sənaye əməkdaşlığı ondan çıxan nəticələr xarici təcrübədə təsdiqini tapmış hipotez ilə uyğun olduğu müəyyən edilmişdir.*

Açar sözlər: *universitet-sənaye işbirliyi, transformasiya layihəsi, insan resurslarının inkişafı, performans, reqressiya modeli.*

Abstract: *The main purpose of the study is to assess the role of university-industry cooperation in the project of transformation of human resource functions in the structure of transnational companies and universities operating in Azerbaijan and in the international arena. The research is based on a research method such as systematic analysis and logical generalization. The research considers foreign concepts on*

university-industrial cooperation and transformation projects in HR in modern times, compares them with domestic theories, and identifies development problems. The study found that the university concludes that IRI Infrastructure is relevant in considering U-I-C organizational strategies between universities, as collaboration increases the strength of the link between IRI infrastructure and university performance. Limitations of the research: Theoretical and practical research has some special shortcomings. It is of limited importance because many external factors are not taken into account here. Novelty of the research: for the first time, the steps of the transformation program applied in a local company and the results of university-industry cooperation were found to be consistent with the hypothesis confirmed in foreign practice.

Keywords: *university-industry cooperation, transformation project, human resource development, performance, regression model.*

Резюме: *Основная цель исследования – оценить роль сотрудничества между университетами и промышленностью в проекте трансформации функций человеческих ресурсов в структуре транснациональных компаний и университетов, действующих в Азербайджане и на международной арене. В основе исследования лежит такой исследовательский метод, как систематический анализ и логическое обобщение. В исследовании рассматриваются зарубежные концепции сотрудничества между университетами и производством и проекты трансформации в сфере управления персоналом в наше время, проводится сравнение их с отечественными теориями и определяются проблемы развития. Исследование показало, что университет пришел к выводу, что инфраструктура IRI имеет значение при рассмотрении организационных стратегий U-I-C между университетами, поскольку сотрудничество увеличивает прочность связи между инфраструктурой IRI и результатами деятельности университета. Ограничения исследования: Теоретические и практические исследования имеют ряд особых недостатков. Это имеет ограниченное значение, поскольку здесь не учитываются многие внешние факторы. Новизна исследования: впервые шаги программы трансформации, применяемые в местной компании, и результаты сотрудничества между университетом и промышленностью оказались соответствующими гипотезе, подтвержденной в зарубежной практике.*

Ключевые слова: *сотрудничество между университетами и промышленностью, проект трансформации, развитие человеческих ресурсов, результативность, регрессионная модель.*

Müasir dövrdə bir çox inkişaf etmiş ölkələrdə həm istehsalat, həm də xidmət sahələrində insan resurslarının idarə edilməsi məsələsi aktual istiqamət kimi müəyyən edilmişdir. Belə ki, müəssisə və şirkətlərin qarşısında duran strateji hədəflər və gələcəkdə reallaşdırılması nəzərdə tutulan böyük layihələr, kadrların səmərəli idarə olunmasını və bu sahəyə sistemli yanaşmanı zəruri edir. Kadrların idarə edilməsində yeniliklərin istifadəsi qeyri-müəyyənlik və riskin artmasına səbəb olsa da, eyni zamanda bütövlükdə müəssisənin rəqabət qabiliyyətliliyinin və səmərəliliyinin təmin edilməsi prosesinə çox şaxəli yanaşmaları genişləndirir. İnsan faktorunun aktivləşməsi və elmi-texniki tərəqqinin sürətlənməsi istehsal amillərinin tarazlığı və dinamik inkişafı ilə əlaqəli problemlərdir [1, s. 64].

İqtisadiyyatın innovativ inkişafı elm, istehsal, sağlamlığın qorunması, təhsil, sosial müdafiə və kadr hazırlığı arasındakı birbaşa və tərs əlaqələrə əsaslanır. Əks halda, yüksək texnologiyaların inkişafı və sənaye məhsullarının yeni növlərinin bazarlara çıxarılması üçün davamlı proses həyata keçirilə bilməz.

Nəticədə, kadr idarəçiliyində yeniliklərdən istifadənin əsas prinsipi onların innovativ sənaye istehsalı və iqtisadiyyatın innovativ inkişafı vəzifələri ilə aydın şəkildə əlaqələndirilməsidir.

Qabaqcıl texnologiyaların inkişaf proseslərinin əhəmiyyətli dərəcədə sürətlənməsi, onların iqtisadi və sosial həyatın bütün sahələrinə, xüsusən də təşkilatların idarə edilməsi və bizneslə məşğul olma proseslərinə təsirini əhəmiyyətli dərəcədə artmasına kömək edir. Eyni zamanda rəqəmsal çevrilmə, idarəetmə fəaliyyətinin həyata keçirilməsini dəyişdirir, dəyişiklik idarəetmə proseslərini dəyişdirir, rəqəmsal düşüncənin ortaya çıxmasına və işçi təcrübəsinin inqilabına səbəb olur, mövcud İnsan Resursları (İR) texnologiyalarının yenilənməsini tələb edir. Rəqəmsal iqtisadiyyata keçid, şirkət idarəçiliyinin bütün ənənəvi funksiyalarını və ilk növbədə kadr idarəçiliyi sahəsini (İR) əhəmiyyətli dərəcədə transformasiya edəcəkdir. Eyni zamanda, bu sahədə kadr fəaliyyətinin strategiyası və taktikasında yeniliklərin və dəyişikliklərin tətbiqi ilə eyni vaxtda aradan qaldırılmalı olan əhəmiyyətli miqdarda problem və maneələr var.

İnsan resurslarının rəqəmsallaşdırılması, texnologiyanın inkişafı ilə istifadəçilərin istifadə rahatlığı, məhsul və xidmətlərə giriş sürəti, müxtəlif rəqəmsal tətbiqlərdə və portativ ağıllı platforma-

larda mövcudluğu tələblərini artırdıqda, bir sözlə istehlakçı davranışının dəyişməsi ilə sıx bağlıdır. Bu yanaşma, yeni nəsillərin sosial şəbəkələrə və korporativ qaynaqlara şəxsi girişi, multimediya imkanları ilə hərtərəfli qarşılıqlı əlaqə, ehtiyac duyulduqca təlim ehtiyaclarını ödəməyə imkan verən rəqəmsal HR xüsusiyyətlərinin tədricən formalaşmasına səbəb oldu və eyni zamanda yeni perspektivlər təmin edə bildi. Müxtəlif sosial və media platformalarından olan işçilər haqqında üçüncü tərəf məlumatlarını yaradılması və birləşdirilməsi, səriştəliklərin idarəçiliyi, qərar vermə və HR-təhlili üçün süni intellektdən və çoxlu məlumatlardan fəal şəkildə istifadə edilməsidir.

Rəqəmsal İR anlayışı, sosial şəbəkələrin mobil tətbiqlərinin, bulud texnologiyalarının, genişlənmiş reallığın imkanlarından istifadəni özündə birləşdirir və həm ştat işçilər, həm də iş axtaranlarla daha yaxşı qarşılıqlı əlaqəni təmin edən yeni bir platforma rolunu oynayır. Rəqəmsal həll tərtibatçıları rəqəmsal HR məzmununun texniki komponentini təmin edir, təşkilati idarəetmə və kadr şöbələri strategiya və proqramlar hazırlayır və həyata keçirir. Eyni zamanda, rəqəmsal transformasiyaya keçid daxili və xarici faktorların dərindən təhlilinə, mövcud rəqəmsal texnologiyaların üstünlük və dezavantajlarının, habelə sənaye məhdudiyyətlərinin və potensial tərəfdaşların öyrənilməsinə əsaslanmalıdır. Bu baxımdan müəssisələrin, xüsusilə beynəlxalq transmilli korporasiyaların trasformasiya prosesinin uğurla yerinə yetirməsi üçün universitet-sənaye işbirliyinə xüsusi önəm verməsi vacibdir [2]. Bu əməkdaşlıq hərfi mənada yalnız ali təhsil ocaqları ilə sənaye arasında baş verən və müqavilə şərtləri ilə hüquqi müstəvidə tənzimlənən əlaqələr deyil, bütövlükdə elm dünyası ilə istehsal və xidmətlər bazarının vəhdəti anlamına gəlir.

Link və Bauer (1987) "əməkdaşlığı" təşkilatların birlikdə texniki biliklər əldə etdikləri tənzimləmə kimi təyin edir. Bənzər bir mənada, Coursey və Bozeman (1989) əməkdaşlığı bir və ya daha çox dövlət tədqiqat institutları ilə bir və ya daha çox özəl şirkətlər arasında qeyri-rəsmi və ya rəsmi razılaşmalar yolu ilə texniki bilikləri birgə inkişaf etdirmək və ya əldə etmək üçün fəaliyyətlər olaraq təyin edirlər. Dodgson (1994) işbirliyini geniş şəkildə şərhləndirməklə razılaşdırılmış qarşılıqlı məqsədə çatmaq üçün müxtəlif resursların və nou-hau yatırımlarını edən iki və ya daha çox tərəfdaşın hər hansı bir fəaliyyəti olaraq təyin edir.

Bununla yanaşı, texnologiya siyasətinin spesifik sahələrində, "sənaye / universitet tərəfdaşlığı" termini, sənaye və akademik subyektlərinin birbaşa və ya eyni şəkildə maddi, tədqiqat, insan və infrastruktur qaynaqlarını ortaq şəkildə təqdim etdikləri hər hansı bir innovasiya əsaslı əlaqələr olaraq təyin edilə bilər [3]. Beləliklə, tərəfdaşlıqlar sadəcə iki tərəf arasındakı interaktiv əlaqə deyildir. Bu əlaqələr tədqiqatın və ya kommersiyalaşdırmanın ümumi və ya konkret məqsədlərini tənzimləyən rəsmi və qeyri-rəsmi razılaşma ola bilər.

Beləliklə, İR funksiyalarının transformasiya layihəsində universitet-sənaye işbirliyinin əsas iki istiqamətli rolunu qeyd edə bilərik: İlk olaraq elm dünyasından iş dünyasına qədəm qoyan gənc mütəxəssislərin vəzifə standartlarının müəyyən edilməsi istiqamətində; ikincisi bilik transferini təşviq etmək üçün elm və sənaye arasındakı qarşılıqlı əlaqənin əhəmiyyətini vurğulamaq üçün innovativ modelləri – İR transformasiya layihəsinin işlənməsi. Yeniliklərin üçlü sarmal modeli anlayışı, universitetlər, özəl sektor və dövlət qurumları arasındakı qarşılıqlı əlaqənin əhəmiyyətini vurğulayır (Etzkowitz & Leydesdorff, 2000) [4, s. 197].

İR funksiyalarının transformasiya layihəsinin Azərbaycan Respublikasının Dövlət Neft Şirkətində (SOCAR) tətbiqinin nəzəri-praktiki əsasları.

2011-ci ildə SOCAR İnsan Resursları Departamentini formalaşdırarkən, əsas məqsəd kimi həm neft sənayesində fəaliyyət göstərən BP, TOTAL kimi müasir transmilli şirkətlərin tətbiq etdiyi idarəetmə sistemlərini, həm də bu sahədə fəaliyyət göstərən məsləhətçi şirkətlərin təcrübələrini öyrənmək, şirkətə məxsus sistemi yaratmaq qoyulmuşdur. İlk öncə proseslər işə qəbul sistemi və testləşdirmə, təlim və inkişaf, işçilərin fəaliyyətinin qiymətləndirilməsi kimi proseslərdən başlanılmışdır. Hazırda bu proseslər, müntəzəm olaraq, dünya təcrübəsinə uyğun şəkildə təkmilləşdirilir. Bunlarla bərabər, "İnsan Resurslarının Transformasiya" (İRT) layihəsini də həyata keçirməyə başlamışdır.

Beynəlxalq məsləhətçi "SAP MDB"nin proqram təminatı (SAP HCM – İnsan Kapitalının İdarəolunması) üzrə avtomatlaşdırılmış şəkildə icra olunan İRT layihəsi "Səriştəliliklərin idarəedilməsi", "Effektivliyin idarəedilməsi", "Təlim və inkişafın idarəedilməsi" və "İşə qəbulun idarəedilməsi" alt-layihələrindən ibarətdir.

Səriştəlilik – işçinin xidməti fəaliyyətinin effektivliyinin artması, vəzifə funksiyalarının icrasının səmərəli şəkildə təmin edilməsi və şirkətin strateji hədəflərə çatması üçün zəruri olan bilik, bacarıq və davranışlarının məcmusudur. İşçilərin fəaliyyətinin effektivliyinin yüksək saxlanılması, şirkət dəyərlərinin bütün əməkdaşlara aşılanması, şirkətin davamlı inkişafının təmin edilməsi məqsədilə il ərzində işçilərin səriştəlilikləri qiymətləndirilir. Bu qiymətləndirmə hər bir işçinin öz vəzifə standartında əks olunmuş səriştəlilik tələbləri əsasında aparılır. Bu kitabçanın da əsas məqsədi həm rəhbər, həm qulluqçu vəzifələrdə çalışan əməkdaşların şəriştəliliklər barədə maariflənməsidir. Kitabça əməkdaşlar üçün gündəlik fəaliyyətlərində istiqamətverici bir vəsaitdir.

SOCAR üzrə tələb olunan səriştəliliyin 2 növü vardır: Davranış və Funksional səriştəliliklər. Funksional səriştəliliklər ixtisas, dil və İT bilikləri qrupuna bölünür. Davranış səriştəlilikləri qrupuna isə Baza, Rəhbər və Spesifik səriştəliliklər aiddir. Baza səriştəlilikləri şirkətin korporativ dəyərləri əsasında formalaşmış və bütün kateqoriyadan olan işçilərdən tələb olunur. Baza səriştəliliklərinə **dürüstlük, nizam-intizam, etik davranış, şifahi özünü ifadə, məsuliyyət, peşəkarlıq** daxildir. Hər bir işçi fəaliyyəti zamanı şirkət tərəfindən qəbul edilmiş bu səriştəliliklərə önəm verməli və onları davranışlarında nümunəvi şəkildə nümayiş etdirməlidir. Səriştəliliklərin qiymətləndirilməsi zamanı da baza səriştəliliklərinin hər biri mütləq şəkildə qiymətləndirilməlidir.


Səriştəlilik pasportu hər bir səriştə üzrə müvafiq elementlərin əks olunduğu sənəddir. Bundan başqa səriştəlilik pasportunda səriştəliliyin qısa təsviri, səviyyəsi, hər bir səviyyə üzrə davranış göstəriciləri və qiymətləndirilmə meyarları öz əksini tapmışdır. Davranış göstəriciləri səriştəlilik pasportunun ən vacib hissəsi hesab olunur. Davranış göstəriciləri işçidə hər bir səriştə üzrə və səriştənin səviyyəsi üzrə real iş şəraitində müşahidə edilə bilən davranış nümunələridir.

SOCAR-da davranış səriştəliliklərinin işçinin kateqoriyasından asılı olaraq əməliyyat (fəhlə, texniki icraçı və mütəxəssis kateqoriyası), taktiki (taktiki rəhbər kateqoriyası) və strateji (strateji rəhbər kateqoriyası) səviyyələri fərqləndirilir. Taktiki rəhbərlər öz işçilərini qiymətləndirərkən və ya qiymətləndirmədən sonra ortaya çıxan boşluğu aradan qaldırmaq üçün, hansı səriştəliliyi necə inkişaf etdirəcəyini bilmək üçün əməliyyat səviyyəsinin tələblərini, strateji rəhbərlər isə taktiki səviyyənin tələblərini əsas götürməlidirlər. Eyni zamanda, hər bir işçi öz vəzifə standartında əks olunmuş səriştəliliklər üzrə məlumatlı olmalıdır.

Səriştəliliklər İnsan Resurslarının funksiyalarının tətbiqi zamanı əsas götürülür və aşağıda təqdim olunan bir sıra formalarda istifadə edilir:

- İşə qəbul zamanı müəyyən vakansiya üçün müvafiq səriştəliliklərə malik işçinin seçilməsi;
- Vakansiyalar üzrə işə qəbul meyarlarının konkretləşdirilməsi;
- Şirkətə baza səriştəlilik tələblərinə cavab verən namizədlərin cəlb edilməsi;
- Səriştəliliklərin müəyyən edilmiş meyarlar əsasında qiymətləndirilməsi;
- Karyera inkişafını təmin etmək üçün işçilərin səriştəliliklərinin inkişaf etdirilməsi;
- Səriştəlilik növünə uyğun olaraq müvafiq təlim metodlarının (formal, qeyri-formal, distant və s.) və inkişaf fəaliyyətlərinin tətbiq edilməsi.

2019-cu ilin I rübündən səriştəliliklərin idarəedilməsi proseslərinin 3-cü tiraj mərhələsinin SOCAR-ın Baş ofisi, Heydər Əliyev adına Neft Emalı Zavodu, Qaz Emalı Zavodu, Neft Kəmərləri İdarəsi, Qaz İxrac İdarəsi, Sərmayələr İdarəsi və Əmək Şəraiti Normalarının İşlənməsi İdarəsində, II rübündən isə SOCAR-ın bütün qalan qurumlarında tətbiq edilməsi planlaşdırılır. Bu məqsədlə 36 nəfər əsas istifadəçiyə (İR əlaqələndirici) layihə ilə bağlı sistem təlimləri keçirilib, 256 nəfər son istifadəçi İRT layihəsi üzrə 2 günlük (nəzəri və praktiki) təlimlərə cəlb edilib.**Effektivliyin idarə edilməsi.** İRT-nin əsas istiqamətlərindən biri sayılmaqla, şirkətin strateji hədəflərinə çatması istiqamətində işçilərin əmək məhsuldarlığını və səmərəliliyini artırmaqdır. Bunun üçün işçilərin illik fəaliyyət göstəriciləri (KPI) SAP portal vasitəsi ilə qiymətləndirilir. SOCAR üzrə 3 növ – strateji, komanda və fərdi hədəflərin təyini və qiymətləndirilməsi nəzərdə tutulur. Qiymətləndirmə prosesinin ilkin mərhələsində rəhbərlər şirkətin strateji hədəfi əsasında işçilərə komanda və fərdi hədəflər təyin edir. Bu məqsədlə öncə rəhbər-işçi görüşləri təşkil edilir. Rəhbər verdiyi tapşırığın icrasını nəzarətdə saxlamalı, mütəmadi olaraq işlərin gedişatı ilə bağlı işçiyə rəy və təkliflərini verməldir. İşçi isə öz növbəsində qoyulan hədəfə çatmaq üçün vəzifə öhdəliklərıə məsuliyyətlə yanaşmalı, verilən tapşırıqları dəqiqliklə və qanunvericiliyin tələblərinə uyğun olaraq icra etməlidir. İşçi il ərzində qoyulun tapşırıqların icrası ilə bağlı rəhbərliyi ilə məsləhətləşməlidir.



Şəkil 1. *Effektivliyin idarə edilməsi (dairəvi proses)*

Qiymətləndirmə dövrünün sonunda ilk növbədə işçi ona qoyulmuş fərdi hədəfləri qiymətləndirir və razılaşdırmaq üçün rəhbərinə göndərir. Rəhbər işçinin fərdi qiymətləndirməsini nəzərdən keçirərək təsdiqləyir. Daha sonra rəhbər işçilərin fərdi və komanda hədəflərini qiymətləndirir. İşçi öz portalına daxil olaraq qiymətləndirmə nəticələri ilə tanış olur. Qiymətləndirmə dövrünün sonunda hədəfə çatan işçi maddi və ya qeyri-maddi formada mükafatlandırılır. Hədəfə çatmayan işçinin fəaliyyət göstəriciləri təhlil edilir, inkişafa ehtiyacı olan istiqamətlər müəyyən edilərək müvafiq təlimlərə yönləndirilir.

2018-ci il ərzində "Effektivliyin idarəedilməsi" alt-layihəsinin pilot mərhələsinin icrasına start verilib. Belə ki, "Azneft" İB-nin Qaz Anbarlarının İstismarı İdarəsinin 3 struktur bölməsindən 27 işçinin (3 rəhbər və 24 mütəxəssis) iştirakı ilə strateji hədəflərin kaskadlanması üsulu ilə təşkilati hədəflər, müvafiq komanda və fərdi hədəflər müəyyənləşdirilib. Bu ilin fevral ayından etibarən isə "Azneft" İB və Kompleks Qazma İşləri Trestində (KQİT) prosesə başlanılıb. Bu məqsədlə "Azneft" İB üzrə 712, KQİT üzrə 150 rəhbər işçi ilə kommunikasiya tədbirləri həyata keçirilir və məlumatlandırma sessiyaları aparılır, SAP LSO sistemi üzrə rəhbər işçilər test olunur. Əsas səmərəlilik göstəricilərinin müəyyən edilməsi məqsədilə hər bir rəhbər işçi ilə fərdi görüşlər keçirilir, hədəflərin müəyyən edilməsi ilə bağlı zəruri məlumatlar əldə olunur.

Təlim və inkişafın idarəedilməsi

"Təlim və inkişafın idarəedilməsi" alt-layihəsinin məqsədi SOCAR-da əməkdaşların peşəkarlıq səviyyəsinin artırılması, daimi inkişaflarının təmin olunması üçün təşkil edilən təlimlərə ehtiyacın müəyyənləşdirilməsi, bu işin elektronlaşdırılması, eləcə də asanlaşdırılması və ölçüləbilən edilməsidir. Layihə çərçivəsində əməkdaşlara təqdim edilən istifadəçi adı və şifrə ilə xüsusi hazırlanan portala daxil olmaq, onlar üçün hazırlanan təlimlərin kataloquna baxmaq, təlimlərin mövzuları, müddəti, təlimçilər haqqında məlumatları əldə etmək mümkündür. Portalda həm işçilərin özləri üçün (ESS modulu), həm də xətti rəhbərlərin (MSS modulu) əməkdaşlar üçün təlim ehtiyacı vermələri imkanı yaradılıb. Eyni zamanda, keçirilən təlimlərin portal üzərindən qiymətləndirilməsi, bunun əsasında davamlı təkmilləşdirmənin təmin olunması, eləcə də elektron təlimlər verilməsinin bu sistem çərçivəsində mümkünlüyü təmin edilir. SAP ERP sistemi ilə inteqrasiya olunmuş bu portalın tətbiqi ilə SOCAR əməkdaşları üçün təlim ehtiyaclarının idarəedilməsi prosesinin aşağıdakı üstünlükləri var:

– Vaxta qənaət edilməsi;
– Təlimlər kataloqunun əlçatan olması;
– Elektron sorğuda iştirak etmək;
– Xətti rəhbərlərin öz əməkdaşlarının təlimlərini çevik idarəetmə imkanı.

"Təlim və inkişafın idarəedilməsi" alt-layihəsinin hazırlıq mərhələsinə 2017-ci ilin iyul ayında start verilib. 2018-ci ilin mart ayında "Azneft" İB-in Aparatının və Ə.Əmirov adına Neft-Qaz Çı-

xarma İdarəsininin bütün əməkdaşları, eləcə də SOCAR-ın strukturuna daxil olan müəssisə və təşkilatların İnsan resursları/Kadrlar şöbələrinin mütəxəssisləri, 2018-ci ilin sentyabr ayında isə tiraj mərhələsi çərçivəsində, bütün müəssisə və təşkilatların əməkdaşları layihəyə cəlb ediliblər. Tiraj mərhələsində 2019-cu il üçün 7773 təlim ehtiyacından 3667-si işçi və ya xətti rəhbər tərəfindən portal vasitəsilə verilib. 2018-ci ilin dekabr ayında İRT layihəsinin "Təlim və inkişafın idarəedilməsi" alt-layihəsi uğurla tamamlanıb.

İşə qəbulun idarəedilməsi

İRT layihəsinin vacib hissələrindən biri də "İşə qəbulun idarəedilməsi" alt-layihəsidir. Tətbiq olunan yeniliklər nəticəsində bir sıra üstünlüklər yaradılıb, şirkət şəbəkəsinə qoşulmayan cihazlardan, o cümlədən mobil telefon kimi portativ qurğulardan sistemə giriş və istifadə imkanı, həmçinin namizədlərin vakansiyalar üzrə bütün müraciətlərinin bir pəncərədən izlənməsi (Profil sistemi) və s. mümkün olub. Əvvəllər, "Opentext" elektron sənəd dövriyyəsi sistemi, SAP ERP sistemi və "Vakansiyaların idarə edilməsi" proqram təminatı olmaqla, 3 fərqli sistemdən istifadə edilirdisə, artıq proqram imkanlarının vahid sistemdə cəmlənməsi nəticəsində namizədlərin vakansiyalara müraciəti, profillərinin idarəedilməsi, işə qəbulu, həmçinin İnsan resursları şöbələrinin özlərinə aid vakansiyaların dinamik izlənilməsi üçün rahat iş mühiti yaradılıb.

Alt-layihə çərçivəsində tətbiq olunan yeniliklərdən sonra, 19000-dən çox SOCAR işçisi üçün sistemdə şirkət tərəfindən profil yaradılıb, həmçinin 10000-dən çox Azərbaycan vətəndaşı fərdi qaydada qeydiyyatdan keçərək, özü üçün profil yaradıb. "İşə qəbulun idarəedilməsi" alt-layihəsi SOCAR-ın müəssisə və təşkilatlarında fəaliyyət göstərən İnsan resursları strukturlarının işinin də rahatlaşmasına səbəb olub. Belə ki, vakansiya tələbləri ilə bağlı məlumatlar əvvəllər aidiyyəti mütəxəssislər tərəfindən mexaniki üsulla daxil edilirdisə, indi bu proses sistem tərəfindən həyata keçirilir. "İşə qəbulun idarəedilməsi" alt-layihəsinin tətbiqindən sonra, SOCAR-ın strukturuna daxil olan müəssisə və təşkilatlarda çalışan 150 nəfər işçiyə təlimlər keçirilib. İlkin tətbiq mərhələsində çətinliklə üzləşən 5000-dən çox vətəndaşın müraciəti operativ qaydada araşdırılaraq, həll edilib.

Bir sözlə, beynəlxalq aləmdə çoxdan rəğbət qazanmış İRT layihəsi zəhmətkeş, inkişaf etmək istəyən işçilərin ancaq xeyrinə olacaq, karyera yolunda onları irəli aparacaq ədalətli, qərəzsiz, şəffaf bir layihədir. Bu layihə işçilərlə şirkət arasında ədalətli, mütənasib münasibətlərin qurulmasına yönəlib və onun hər birimizi inkişafa təşviq edəcəyi danılmazdır. Çünki hər kəs həm peşəkar keyfiyyətlərini inkişaf etdirmək, həm karyera yüksəlişini aydın təsəvvür etmək, həm də gördüyü işin müqabilində mükafatladırılmaq istəyir. Bütün bu sadalananlar isə yalnız məhsuldar əmək sayəsində mümkündür.

Universitet-sənaye işbirliyi və onun rolu.

Bu tədqiqatda Universitet-Sənaye-İşbirliyinin quruluşuna, təşkilatlararası əməkdaşlıq üçün strateji mülahizələr boyunca müzakirə olunan təşkilatlararası şəbəkələrin bir tərəfi olaraq yanaşılır [5]. **İşbirliyi** – işçilərin problemlərə fərqli nöqtələrdən yanaşmağa, fərziyyələri yoxlamağa və yenidən təyin etməyə imkan verən fəaliyyətlərlə məşğul olmaları zəruriyyətindən onların düşünməyi, öyrənməyi və tapşırıqlara tətbiq etməyi öyrəndikləri **iş yerində öyrənmə şərti** hesab olunur. İnsan Resurslarının İnkişafı (İRİ) nöqteyi nəzərindən işçilər, biznes problemlərini həll edərkən sosial və birgə fikir mübadiləsi aparmalıdırlar ki, fərdi və kollektiv olaraq yüksək texnologiyalar sahəsində tələb olunan sürətlə dəyişən məlumatları əldə edə bilsinlər. Təşkilatlar arasındakı əməkdaşlıq daxili və xarici şərtlər arasında uyğunlaşma mexanizmlərinin bir hissəsi hesab olunur. Bu axtarışların təşkilatlararası şəbəkələrə yönümlülüyünün əsaslandırılması müxtəlif izahlar almışdır. Beer, daxili qaynaqlar ilə xarici mühit arasında uyğunluq qurmağa yönəlmiş bir daxili uyğunlaşma ehtiyacına daha çox söykənən bir izah təqdim etdi, çünki bu uyğunluq, təşkilatın idarəetmənin gözlənilməzlik baxımından öz məqsədlərinə çatma qabiliyyətini təyin edir (Beer, 1980). Təşkilatlararası əməkdaşlığın arxasında resurs asılılığı perspektivlərinə meyl edənlər, müvafiq strateji seçimlər üçün hərəkətverici bir məqam olaraq təşkilatlararası əməkdaşlığın əsası olaraq iqtisadi qaynaqlara giriş və nəzarət ehtiyacını artırır [6].



Şəkil 2. *SOCAR üzrə universitet-sənaye əməkdaşlığının modeli.*

İstedadlı və perspektivli gənclərin xarici ölkələrin qabaqcıl ali təhsil ocaqlarında (universitetlərində) təhsilini təşkil etmək məqsədi ilə 2006-cı ildə SOCAR-ın Xarici Təqaüd Proqramı (XTP) təsis edilmiş və bu proqram uğurla həyata keçirilməkdədir. Proqram başlıca olaraq neft sənayesinin tələbatına uyğun ixtisaslar üzrə kadrların hazırlanmasına xidmət edir.

BANM-nin əsas məqsədi məqsədi müxtəlif enerji sektorları, o cümlədən neft-qaz, kimya və proseslərin avtomatlaşdırılması mühəndisliyi üzrə mühəndislik, texnologiya və dizayn kimi sahələrdə peşəkar ingilis dili biliklərinə və bacarıqlara malik yeni nəsil mühəndis kadrları yetişdirmək məqsədi ilə yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasıdır. Bunun üçün ən müasir texnologiyalar və peşəkar pedaqoji işçilərlə təmin edilmiş təhsil mühiti yaradılmışdır.

Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsi sifarişlər əsasında neft sənayesi və ölkənin digər sənaye sahələri üçün yüksək ixtisaslı kadrların hazırlanması, peşələr üzrə təlim-tədrisin beynəlxalq standartların tələbləri səviyyəsində qurulması, sənayenin və cəmiyyətin ehtiyaclarını ödəyən yüksək keyfiyyətli təlimlərin təşkili, sertifikatlaşdırma və beynəlxalq standartların nəzəri əsaslarının həyata keçirilməsində metodiki və texniki xidmətlərin göstərilməsi, o cümlədən dəniz neftçilərinə beynəlxalq müqavilələr əsasında beynəlxalq standartlara və beynəlxalq dəniz konvensiyalarının tələblərinə uyğun təlimlərin keçirilməsi məqsədi ilə fəaliyyət göstərir.

SOCAR 2010-cu ildən etibarən Azərbaycan Respublikasının və xarici ölkələrin müxtəlif ali məktəblərində neft-qaz, neft-qaz qurğuları, qazma, geofizika, geologiya, proseslərin avtomatlaşdırılması, inşaat, boru kəmərləri, ekologiya, neft-kimya və kimya mühəndisliyi, energetika, iqtisadiyyat və proqramçı ixtisasları üzrə təhsil alan, Azərbaycan vətəndaşı olan tələbələrə yay tətili müddətində istehsalat təcrübəsi keçmək üçün "Ödənişli Yay Təcrübəsi" proqramını həyata keçirir.

Böyük elmi potensiala malik olan "Neftqazelmitədqiqatlayihə" institutda hal-hazırda 22 doktor və 118 elmlər namizədi işləyir, dünya səviyyəsində aparılan elmi-tədqiqat işlərinin əksəriyyəti ixtira patentləri ilə təsdiq olunub. İnstitutun fəaliyyət göstərdiyi müddətdə 1200-dən çox ixtira edilmişdir. Yüksək elmi-texniki potensial və illər boyu toplanmış alim və mütəxəssislərin zəngin təcrübəsi müxtəlif dağ-geoloji şəraitlərdə neft yataqlarının kompleksli mənimsənilməsində mürəkkəb elmi və layihə-texniki məsələlərin müasir səviyyəsində həllinə zəmanət verir.

Təşkilatlararası əməkdaşlıq və təşkilatlararası əlaqələrə dair bu müxtəlif perspektivlər, təşkilatın insan resursları üçün mövcud olan potensial imkanları ifadə edir. Təşkilatların dəyişən xarici şərtlərə və xüsusilə köhnə bacarıqları aradan qaldıran innovasiyalara aqressiv şəkildə uğunlaşa bilmələri üçün zəruri öynəmə imkanları, insan intellektinin intensiv istifadəsi, biliklərin ötürülməsi və daim yenilənməsi, idarəetmənin və karyera inkişafı mövcuddur. Den Berg, Meijers and Spengers (2006), əməkdaşlıq üçün verilən qərarların strateji seçimlər kontekstində nəzərdən keçirilməsi üçün İRİ əsaslı təşkilatlararası şəbəkənin motivasiya faktorlarını təmini məqsədilə ilkin şərtlərə cavab ve-

rən bilik iqtisadiyyatı şəraitində müvazinətli qalmaq üçün təşkilatın İRİ təcrübələrinin bir hissəsi olaraq strateji biliklərin inkişafı, təhsilə sərmayə qoyulması, yenidən hazırlıq və peşə inkişafı sahələrində müvafiq İRİ təcrübələrinin qəbul edilməsini tələb edir. Beləliklə, dayanıqlı universitet-sənaye işbirliyi proqramları, əməkdaşlıq edən qurumlar tərəfindən iki alternativ yanaşmanın birləşməsinə əsaslanan strateji cavab tələb edir, yəni klasterlər və strateji ittifaq qurmaq [7]. Bu araşdırmada, universitet-sənaye işbirliyi ilə bağlı geniş ədəbiyyat nəzərdən keçirildi və universitet-sənaye işbirliyində mövcud olan anlayışları və həm firmaların həm daxildən, həm də xarici kontekstlərindən müxtəlif təsir növlərini təyin etməsinə baxmayaraq, universitet-sənaye işbirliyinin necə işlədiyinə dair hələ də bəzi açıqlanmayan məlumat boşluqlarının qaldığını təsbit etdi. Empirik cəhdlər, əməkdaşlıq nümunələrindəki fərqləri və ittifaq ortaqlıqlarında təşkilatların performans nəticələrindəki dəyişiklikləri necə izah edə biləcəklərini izah etməmişdir.

2016-cı ildə James M.Kilika, Martin Ogutu və digərləri tərəfindən aparılmış tədqiqat əsasında iki əsas hipotez irəli sürülmüşdür. 1) Universitetlərdə İRİ infrastrukturu və universitet performası arasında müsbət əlaqələr mövcudur. 2) **Universitetin İRİ infrastrukturu və performansı arasında əlaqələrin uğuru universitetlər ilə sənaye sahələrinin əməkdaşlığından asılıdır.**

Tədqiqat, respondentlərdən məlumat almaq üçün strukturlaşdırılmış bir anketə əsaslanan təsviri anket planlamasından istifadə etdilmişdir (Malhotra, 1996; Kerlinger & Lee, 2000). Anketdəki hər bir maddə üçün ortalamadan və standart sapmadan istifadə edərək tədqiq olunan populyasiyanın əsas xüsusiyyətlərini təsvir etmək üçün təsviri statistika hesablanmışdır. Hipotez 2 -ni yoxlamaq üçün bir sıra Regressiya analizlərindən istifadə edilmişdir. İki fərziyyənin testini asanlaşdırmaq üçün, Harmonik Orta [8] əsasında araşdırmada iştirak edən bütün universitetlər üçün hər bir dəyişən üçün bir indeks quruldu. Araşdırma, iki hipotezi sadə xətti reqressiya modeli vasitəsi ilə yoxlamaq üçün MacKinnon və həmkarları (1995) tərəfindən təklif olunan yanaşmaya əsaslanır [9]. Bu yanaşma, birbaşa təsiri və vasitəçi təsiri ölçmək üçün iki mərhələdə iki reqressiya modelinin formalaşdırılmasını tələb edir. Beləliklə, iki reqressiya modeli iki mərhələdə quruldu. Birinci mərhələdə, reqressiya təhlili müstəqil dəyişən olaraq University İRİ ifrastrukturu üçün kompozit indeksi və asılı dəyişən olaraq University fəaliyyəti üçün kompozit indeksdən istifadə etməklə həyata keçirildi. Buna görə iki reqressiya analizi modeli istifadə edildi:

Model 1: Y =**β** 01 + □X + **ε** 1,

Model 2: Y = **β** 02 + □'X + **β** M + **ε** 2,

Y – asılı dəyişən kimi fəaliyyəti göstərir; X-asılı olmayan kəmiyyət (İRİ infrastrukturu); M-vasitəçi; □ – vasitəçi təqdim edilməzdən əvvəl birinci tənlikdə İRİ və Performans arasındakı əlaqəni kodlaşdırır; □' – İRİ -nin vasitəçinin təsirləri üçün tənzimlənən Performansa aid olan əmsaldır, ε 1 və ε 2 kodlarının izah edilməyən dəyişkənliyi və kəsilmələr β 01 və β 02 -dir.

Nəticələr (□) vasitəsiz və ya birbaşa təsir, (□') vasitəçi və ya dolayı təsir olduğu kimi şərh edilmişdir. McKinnon, Warsi and Dwyer (1995) müşahidə edir ki, vasitəçi modelə daxil edildikdə Performansa aid əmsal (□') sıfıra bərabərdirsə, əlaqənin tamamilə vasitəçi dəyişən vasitəsi ilə həyata keçirildiyini müşahidə edir. Bununla birlikdə, vasitəçi dəyişən tənzimləndikdən sonra müstəqil dəyişənlə asılı dəyişən arasındakı birbaşa təsirin mütləq ölçüsü azalsa da, birbaşa təsir hələ də sıfırdan əhəmiyyətli dərəcədə fərqlənirsə, vasitəçilik təsirinin qismən olduğu deyilir. Reqressiya analizlərinin nəticələri Field (2005), Levine və baş. (2008) Varians İnflyasiya Faktoru (VIF) ölçüsü test edilmişdir [10].

McKinnonun ifadə etdiyi qaydaya görə, birbaşa təsir 0,676, vasitəçilik effekti isə 0,258 və t = 2,066, p <0,05 səviyyəsində əhəmiyyətlidir. Beləliklə, araşdırma, Universitet-Sənaye İşbirliyinin İRİ-nın İnfrastrukturu ilə Universitet Performansı arasındakı əlaqəyə əhəmiyyətli dərəcədə qismən vasitəçi təsir göstərdiyi qənaətinə gəlir.

Nəticə.

Beləliklə, İnsan Resurslarının İnkişafında universitet-sənaye işbirliyinin əhəmiyyəti həm əyani olaraq SOCAR-ın timsalında, həm də Kenya universtietləri üçün James M.Kilika, Martin Ogutu, tərəfindən aparılmış araşdırmalar və hipotezlərin öz təsdiqin tapması faktı ilə isbatlanır. SOCAR üçün universitet – sənaye işbirliyinin əhəmiyyəti gələcək kadr hazırlığında və düzgün kadr siyasətinin formalaşmasında, gələcəkdə tələb ediləcək səriştəliklərin və bacarıqların artıq bu gün aşkara çıxarılması və təlimatlandırılması kimi qeyd edilə bilər. Bu ikitərəfli, qarşılıqlı faydalanma prinsipi

əsasında nəyinki, sənaye müəssisələrinin kadr potensialının təkmilləşdirilməsi, eyni zamanda universitet üçün böyük imkanlar və perspektivlər yaradır.

Bu fərziyyənin dəstəklənməsi nəzəriyyə, təcrübə və tədqiqat üçün üç məna doğurur. Birincisi, biliklərin necə yarandığı, necə paylaşıldığı və bu biliklərin uğurla köçürülməsi üçün lazım olan mühit baxımından menecerlərin diqqət etməli olduqları əhəmiyyətli problemlər var. Təşkilatlararası şəbəkələr fenomeninin təşkilat fəaliyyətinə təsirində rolunu anlamaq ehtiyacına əsaslansaq, nəzəri arqument, təşkilatlararası şəbəkələrin təşkilatların cari və gələcək rifahına təsirini nəzərə alaraq əsaslandırma tələb edən menecerlər üçün strateji seçimdir.

Məqalənin əsası İRİ əsaslı universitet-sənaye işbirliyi proqramlarının universitetlərin fəaliyyətinə rolu ilə əlaqədar lazımi bir empirik dəstək təmin edir və İRİ İnfrastrukturu ilə performans səviyyəsi arasındakı əlaqəyə dair daha güclü bir izahlı gücün olması səbəbindən bu strateji hərəkət üçün investisiyaları əsaslandırır. İkincisi istifadə edilən performans göstəricilərinin növü nəzərə alınmaqla, U-I-C üçün artan çağırışların gücləndirilməsində əhəmiyyətlidir. Nəticə göstəriciləri kimi milli və beynəlxalq reytinq sahələri, inkişaf etdirilən akademik proqramlar, elmi konfransların iştirak etdiyi və sponsorluq edildiyi, tədqiqat qrantları qazandığı, akademik heyət tərəfindən edilən tədqiqat xərcləri və tətbiq olunan kurikulum dəyişikliklərinin sayı idi.

Bundan əlavə olaraq, bu fenomeni dəstəkləmək üçün təşkilatların daxili sistemlər və xarici mühit arasında müəyyən dərəcədə uyğunlaşma əldə etməsinə ehtiyac olduğu bildirildi. Uyğunluq, təşkilatların həm daxili, həm də xarici diqqət mərkəzində olmasını tələb edir. Daxili olaraq, təşkilat, üzvlərinin ehtiyaclarını ödəməklə məqsədlərinə çatmaq üçün bir qabiliyyət inkişaf etdirməyə çalışır ki, bu da insanları, prosesləri və quruluşları ilə ətraf mühiti arasında uyğunluq qurmağa yönəltməyə səbəb olur (Beer, 1980; Daft, 2007; Jones, 2010).

Araşdırmanın məqsədi, İR-ın funksiyalarının transformasiyasında universitet arasındakı əlaqədə universitet-sənayesi əməkdaşlığı konsepsiyasının rolunu müəyyən etmək idi. Təqdim olunan və müzakirə olunan nəticələr, İRİ İnfrastrukturunun universitet performansı ilə güclü bir müsbət əlaqəyə malik olduğunu göstərir. Universitet və sənaye əməkdaşlığı qurulduqda bu əlaqələr yaxşılaşır. Beləliklə, universitet İRİ İnfrastrukturunun universitetlər arasında U-I-C təşkilati strategiyalarını nəzərdən keçirməsində əlaqəli olduğu qənaətinə gəlir, çünki əməkdaşlıq İRİ infrastrukturu ilə universitet performansı arasındakı əlaqənin gücünü artırır. Qeyd edilən fikirlərə baxmayaraq, nəzəri-praktiki əsaslı tədqiqat bir neçə cəhətdən xüsusi çatışmazlığa malikdir. Burada bir çox xarici faktorlar nəzərə alınmadığı üçün məhdud əhəmiyyət daşıyır. Gələcək tədqiqatlar, bu quruluşları, universitetlərin və sənaye müəssisələrinin xarici kontekstləri ilə birlikdə, moderasiya edən bir faktor olaraq araşdırmaq üçün aparıla bilər.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Беликова И.П. Управление персоналом: учебное пособие (краткий курс лекций) [Текст] / Беликова И.П.. – Ставрополь: Ставропольский государственный аграрный университет, 2014. – 64с.
2. Emma Kennedy. How VR is transformmg HR / CNN Busmess [Электронный ресурс]. – URL: https://edition.cnn.com/2019/02/26/ tech/vr-transforming-hr-intl-biz- evolved/index. Html
3. Cervantes, M., (1999), "Public/Private Partnerships in Science and Technology", OECD S&T Review No. 23: Special Issue
4. Durmaz Şahin Hüseyn oğlu. Universitet-iş dünyası kontekstində keyfiyyətli təhsilin iqtisadi inkişafa təsirinin qiymətləndirlməsi iqt. üzrə fəls. d.ru e. dər. al. üçün təq ol. dis.: 08.00.05 /Ş. H. Durmaz; Azərb. Resp. Təhsil N. 107 s.
5. Mintzberg, H., Lambel, J., Quinn, J. B. & Ghoshal, S., 2003. The Strategy Process: Concepts, Texts, Cases, Global edn, England: Pearson Educational.
6. Daft, R. L., 2007. Understanding the Theory and Design of Organizations. Thompson: South Western.
7. Porter, M. E., 1990. The Competitive Advantage of Nations. Free Press.
8. Gupta, S. G., 2008. Statistical Methods. New Delhi: Sultan and Sons Educational Publishers.
9. MacKinnon, D. P., Warsi, G. & Dwyer, J. H., 1995. A Simulation Study of Mediated Effect Measures. Multivariate Behavioral Research, 30, pp. 41-62.
10. Field, A., 2005. Discovering Statistics Using SPSS. London: Sage.

Kitab «Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzində səhifələnmiş və çap olunmuşdur.

Çapa imzalanıb: 25.11.2021
Format: 84x108 1/8. Qarnitur: Times.
Həcmi: 13,25 ç.v. Tiraj: 200. Sifariş № 285.

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125/139b
Tel./faks 596 21 44;
e-mail: mutarjim@mail.ru
www.mutercim.az